AZƏRBAYCAN UNİVERSİTETİ



www.au.edu.az

# Yaşıl turizm: yeni imkanlar, yeni trendlər

Magistr və tələbələrin respublika elmi konfransı

19 aprel 2024-cü il

Azərbaycan Universiteti

# YAŞIL TURİZM: YENİ İMKANLAR, YENİ TRENDLƏR

## magistr və tələbələrin respublika elmi konfransı

## 19 aprel 2024-cü il

**Bakı | AZƏRBAYCAN**

# TƏŞKİLAT KOMİTƏSİ

**SƏDR**

**Yusif Qasımov,** Azərbaycan Universiteti

**Üzvlər**

Nüşabə Quliyeva, Azərbaycan Universiteti

Latifə Ağamalıyeva, Azərbaycan Universiteti

Nəriman Böyükkişi, Azərbaycan Universiteti

Xanım Quliyeva, Azərbaycan Universiteti

Qəhrəman Yusupov, Azərbaycan Universiteti

Elşən Məmmədov, Azərbaycan Dövlət İqtisad Universiteti

Novruz Quliyev, Azərbaycan Dövlət Turizm və Menecment Universiteti

Səyavuş Məhişov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Ceyhun Məmmədov, Xəzər Universiteti

Rüstəm Hüseynov, Qərbi Kaspi Universiteti

**Katib**

Zərifə Səlimova, Azərbaycan Universiteti

# MÜNDƏRİCAT

**BÖLMƏ 1. YAŞIL DÜNYA NAMİNƏ YAŞIL TURİZM**


**Alıyev Adəm**........................................................................ 7
QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA YAŞIL TURİZMİN FORMALAŞMASI ÜÇÜN DÖVLƏT TƏDBİRLƏRİ

**Allahverdili Tural**........................................................................ 9
YAŞIL TURİZM: MƏSULİYYƏTLİ SƏYAHƏT VƏ SOSİAL-İQTİSADİ İNKİŞAF

**Bədəlov Emil**........................................................................ 13
YAŞIL TURİZM: YENİ İMKANLAR

**Джафарли Фарида**........................................................................ 16
ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ «ЗЕЛЕНОГО ТУРИЗМА» В КАРАБАХЕ И ВОСТОЧНОМ ЗАНГЕЗУРЕ

**Əbdülrəhimli Cümşüd**........................................................................ 19
YAŞIL TURİZMİN İNKİŞAFI "YAŞIL DÜNYANIN" GÖSTƏRİCİSİDİR

**Əliyeva Sevil**........................................................................ 21
AZƏRBAYCANDA KƏND TURİZMİNİN İNKİŞAFINA VERİLƏN TÖHFƏLƏR

**Əsgərli Elçin**........................................................................ 23
AZƏRBAYCANDA VƏ DÜNYADA TURİZMİN İNKİŞAF TENDENSİYASI

**Əzizzadə Məryam**........................................................................ 26
AZƏRBAYCANDA KƏND TURİZMİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Həsənova Aytən**........................................................................ 28
YAŞIL TURİZMİN İNKİŞAF MEYARLARI

**Həsənova Gültəkin**........................................................................ 30
YAŞIL DÜNYA NAMİNƏ YAŞIL TURİZM

**Heydərli Əli**........................................................................ 32
YAŞIL ENERJİ MƏNBƏLƏRİ

**Hüseynli Nihad**........................................................................ 35
AZƏRBAYCANDA YAŞIL TURİZMİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ

**Hüseynova Fidan**........................................................................ 38
QARABAĞDA YAŞIL TURİZMİN FORMALAŞMASI VƏ İNKİŞAFI

**Məmmədli Əli**........................................................................ 41
YAŞIL TURİZM ƏRAZİLƏRİ

**Məmmədova Məsmə**........................................................................ 44
QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA EKOTURİZMİN İNKİŞAF MƏSƏLƏLƏRİ

**Məmmədova Mədinə**........................................ 47
"YAŞIL DÜNYA" VƏ "YAŞIL TURİZM"İN QARŞILIQLI ƏLAQƏSİ

**Məmmədov Emil**........................................ 50
AZƏRBAYCANDA KƏND TURİZMİNİN İNKİŞAF İMKANLARI

**Məmmədov Sadiq**........................................ 52
YAŞIL TURİZMİN İNKİŞAF TENDENSİYALARI VƏ EKOLOJİ STANDARTLAR

**Məmmədov Vahid**........................................ 55
AZƏRBAYCANIN DAĞ RAYONLARININ TURİZM XİDMƏTİNİN DAYANIQLI İNKİŞAFINI FORMALAŞDIRAN AMİLLƏR

**Məmmədzadə Zaur**........................................ 58
YAŞIL TURİZMİN MAHİYYƏTİ

**Мухтарзаде Севиль**........................................ 60
ЗЕЛЕНЫЙ ТУРИЗМ В АЗЕРБАЙДЖАНЕ

**Nəhmətova Aysel**........................................ 62
YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏY OLAQ

**Nəsirova Naibə**........................................ 65
AZƏRBAYCANDA EKOLOJİ TURİZMİN İNKİŞAFININ AKTUAL MƏSƏLƏLƏRİ

**Qasımova Sevinc**........................................ 68
YAŞIL TURİZMDƏ VERGİNİN OPTİMALLAŞDIRILMASI

**Qənbərov Şadman**........................................ 71
QARABAĞDA YAŞIL TURİZMİN FORMALAŞMASI İMKANLARI

**Ramazanov Hüseyn**........................................ 74
KƏND YAŞIL TURİZMİNİN REGİONLARIN İNKİŞAFINDA YERİ

**Sadıxov Elvin**........................................ 76
AZƏRBAYCANDA YAŞIL TURİZMİN İNKİŞAFINI ŞƏRTLƏNDİRƏCƏK AMİLLƏR

**Sultanov Bəhruz**........................................ 80
YAŞLI "YAŞIL TURİZM"

**Şeyxov Orxan**........................................ 83
YAŞIL TURİZMDƏ MARKETİNQİN ROLU

**Велиев Аллахверди**........................................ 86
ОПЫТ ЗЕЛЕНОГО ТУРИЗМА В ЭКВАДОРЕ

**Vəliyev Fuad**........................................ 88
YAŞIL TURİZM - YAŞIL ARTIM

**Zeynallı Əmrah**........................................ 90
İQTİSADİYYATDA YAŞIL TURİZM

**BÖLMƏ 2. AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN İNKİŞAFININ AKTUAL MƏSƏLƏLƏRİ**


**Aghazada Natig**........................................................................................................................ 94
GREEN TOURİSM FOR A GREEN WORLD

**Atakişiyeva Aygün**........................................................................................................................ 98
TURİZMİN İNKİŞAFININ QARABAĞ İQTİSADİYYATINA TƏSİRİ

**Ataxanova Məshəti**........................................................................................................................ 99
QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN TURİZM İMKANLARI

**Babazadə Jalə**........................................................................................................................ 103
KƏLBƏCƏRİN TURİZMİ

**Bəhlullu Əntiqə**........................................................................................................................ 105
QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA YAŞIL TURİZMİN FORMALAŞMASI VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Cherif Lahgazi**…………………………………………………………………………………...…. 108
SUSTAINABLE STRATEGIES FOR GLOBAL FOOD SECURITY: BALANCING THE PLATES WITH THE PLANET

**Cumayeva Əsnayə**........................................................................................................................ 110
AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFININ AKTUAL MƏSƏLƏLƏRİ

**Daşdiyev Natiq**........................................................................................................................ 113
İQTİSADİYATIN MÜHÜM SEKTORU KİMİ TURİZMİN İNKİŞAFI

**Əhmədov Elcan**........................................................................................................................ 117
AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ

**Əliyeva Gülnar**........................................................................................................................ 119
KƏND TURİZMİNİN REGİONUN İNKİŞAFINA TƏSİRİ

**Əliyev Nicat**........................................................................................................................ 121
QLOBAL PANDEMİYANIN TURİZMİN İNKİŞAFINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Heydərli Əhədəmin**........................................................................................................................ 125
İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Heydərova Ləman**........................................................................................................................ 128
AZƏRBAYCANDA TURİZMİN DAYANIQLI İNKİŞAFI MƏSƏLƏLƏRİ

**Hüseynov Firdovsi**........................................................................................................................ 130
QARABAĞ REGİONUNDA TURİZMİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİNİN İSTİQAMƏTLƏRİ

**Hüseynzadə İbrahim**........................................................................................................................ 133
QARABAĞ YAŞIL TURİZM DESTİNASİYASIDIR

**Kərimov Əhməd**........................................................................................................................ 136
AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFININ AKTUAL MƏSƏLƏLƏRİ

**Mahmudov Habib**........................................................................................................................ 139
INTEGRATION OF SOCIAL MARKETING FRAMEWORKS AND PROGRAMMES
FOR IMPROVEMENT OF GREEN TOURISM IN AZERBAIJAN

**Məmmədov Elmir**........................................................................................................................ 142
TURİZM MÜƏSSİSƏLƏRİNDƏ TİCARƏT NİŞANLARININ MÜHAFİZƏSİNİN
HÜQUQİ TƏNZİMLƏNMƏSİ

**Mütəllimli Fidan**........................................................................................................................ 146
AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM VƏ TURİZM İMKANLARI

**Osmanova Ləman**........................................................................................................................ 149
AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFINA ÖTƏRİ NƏZƏR

**Qarayev Alişan**........................................................................................................................ 152
DÖVLƏT ORQANLARI VƏ BEYNƏLXALQ TƏŞKİLATLAR TƏRƏFİNDƏN
YAŞIL TURİZMƏ DƏSTƏK

**Qasımzadə Zulfiqar**........................................................................................................................ 155
TURİZM SƏNAYESİNDƏ ELEKTRON TİCARƏTİN İNKİŞAFI

**Qurbanzadə Nihad, Məmmədov Ruslan**........................................................................................ 158
AZƏRBAYCAN RESPUBLİKASINDA YAŞIL MALİYYƏ TƏTBİQLƏRİNİN DAVAMLI
İNKİŞAFA TƏSİRİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**Sahibli Samir**........................................................................................................................ 163
TURİST DAVRANIŞLARINDA TƏBİƏTİ QORUMAĞA YÖNƏLMİŞ YENİ ÖLÇÜ MEYARI

**Səlimov İlkin**........................................................................................................................ 165
TURİZMİN RESURS POTENSİALININ ARTIRILMASI MƏSƏLƏLƏRİ

**Şıxıyev Tuqay**........................................................................................................................ 167
DEPOZİT SİYASƏTİ VƏ TURİZMDƏ DEPOZİTLƏRİN SIĞORTALANMASININ
HÜQUQİ MEXANİZMİ

**Tağıyev Şahnar**........................................................................................................................ 170
QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA TURİZMİN FORMALAŞMASI İSTİQAMƏTLƏRİ

**Xəlilova Rəqsanə**........................................................................................................................ 173
AZƏRBAYCANDA TURİZM FƏALİYYƏTİ

**Yusifova Nigar**........................................................................................................................ 176
BEYNƏLXAQ TURİZMDƏ REKLAMIN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

**Zamanlı Abduləli**........................................................................................................................ 178
AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFININ AKTUAL MƏSƏLƏLƏRİ

**Zərgərova Ellada**........................................................................................................................ 181
TURİZM FƏALİYYƏTİNİN AKTUAL MƏSƏLƏLƏRİ

# BÖLMƏ 1. YAŞIL DÜNYA NAMİNƏ YAŞIL TURİZM

## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA YAŞIL TURİZMİN FORMALAŞMASI ÜÇÜN DÖVLƏT TƏDBİRLƏRİ

**Adəm Alıyev**
Xəzər Universiteti, Bakı, Azərbaycan
adem.aliyev01@gmail.com

2020 və 2023-cü illərdə müzəffər Azərbaycan ordusunun hərbi əməliyyatları və Cənab Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Qarabağ yenidən öz azadlığına qovuşdu. Qarabağ azad edildikdən sonra digər bütün sahələr kimi, turizmin bərpa və inkişaf etdirilməsi bu bölgədə qarşıda duran əsas vəzifələrdən biri oldu. Çünki, bu bölgədə turizmin inkişafı üçün hər cür şərait mövcuddur. Yaşıl turizmin formalaşması və inkişafı işğaldan azad edilən ərazilərdə xüsusilə böyük əhəmiyyət kəsb edir. Bu vəzifənin yerinə yetirilməsində isə dövlətin rolu əvəzedilməzdir.

Azad edilmiş bölgələrdə yaşıl turizmin formalaşdırılması öçün dövlət qarşısında duran əsas vəzifələr aşağıdakılardan ibarətdir:

1. Qarabağ və Şərqi Zəngəzurda yaşıl enerji zonası yaradılması;

Bu məqsədlə regionun bərpa olunan enerji resurslarından istifadə edilməsi nəzərdə tutulur [7].

2. Meşə fondunun bərpa edilməsi və çayların çirklənməsinin qarşısının alınması;

30 illik işğal nəticəsində Qarabağ və Şərqi Zəngəzur ərazisində 260331 hektar meşə fondunun 54328 hektarı tamamilə məhv edilmiş, Bəsitçay, Bərgüşad, o cümlədən Oxçuçay çox çirklənməyə məruz qalmışdır. Həmçinin, regionda sahəsi 107 hektar olan Bəsitçay dövlət qoruğu-təbii Şərq Çinar meşəliyi məhv edilmişdir [6].

3. Ərazilərin minalardan təmizlənməsi;

Bu ərazilərdə 1.5 milyon mina basdırılmışdır. ANAMA-nın məlumatlarına əsasən, bu say 480 ton plastik kütlə deməkdir [3].

Bəs gələcək üçün hansı addımları atmalıyıq?

1. Ətraf mühit və təbii gözəlliklərdən turizm məqsədləri üçün istifadə edilməsi:

Qarabağ və Şərqi Zəngəzurun Kiçik Qafqazda yerləşməsi ərazinin flora və faunanın zənginliyi eləcədə məşhur təbii ehtiyatları, çayları, mağaraları ilə seçilir. Bu ərazilərdə olan təbii bulaqlar tərkibindəki minerallara görə dünyada əvəzolunmaz bulaqlardır. Kəlbəcərin

"İstusu", Zəngilanın "Qotursu" bulaqlarına SSRİ dövründə hər il 50-80 min turist qəbul edilirdi [4].

2. Hotellər və yerləşdirmə obyektlərinin inşası:

Bunun üçün ərazidə tikiləcək müəssisələr tamamilə fəqlənməlidir. Kənd qonaq evlərinin sayı hotellərdən üstün olmalıdır. Bu tip kənd qonaq evləri fərqli dizaynlarda tikilməlidir ki, bir dəfə səyahət edən turist daha sonra dəfələrlə bu əraziyə səyahət etsin [9].

3. Tarixi abidələr və mədəni turizm obyektlərinin ekskursiya marşrutlarına daxil edilməsi:

Tarix hər zaman insanların diqqət mərkəzində olmuşdur. Bunun üçün Qarabağ və Şərqi Zənguzurda yerləşən tarixi abidələrin inventarlaşdırılması aparılmalı, onlara rahat və təhlükəsiz yollar çəkilməli, digər zəruri infrastruktur obyektləri yaradılmalıdır.

4. Turistlər üçün məlumatlandırma və təlimlər:

Bu iş ən vacib vəzifələrdən biridir. Bunun üçün turistlərin bu ərazinin tarixi, milli adət ənələrin haqqında məlumatlandırılmalı, əyani vəsaitlər, broşürlər və digər məlumat vasitələri hazırlanmalıdır. Buna görə də turistlər səyahət zamanı milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşmalı, bura əsas səyahət yaşıl turizmin dayanıqlı şəklində inkişaf etdirilməsi olduğundan ətraf mühitə qarşı sayqılı olmağı bildirilməlidir.

5. Turistlər üçün yaşıl turizmin tələblərinə cavab verən marşrutlar və turizm məhsullarının hazırlanması:

Turistlərə təbiətin qoynunda dağ yürüşləri, alpinizm, kənd turizmi, məşhur qarabağ atları ilə gəzinti, kampinq, velo-gəzinti və s. bu kimi xidmətlərin təşkil olunması təbiətə dəyən ziyanı azaltmaqla yanaşı, yaşıl turizmin daha da populyarlaşmasına şərait yaradıla bilər [9].

6. Yaşıl turizm xidməti göstərən turoperatorlara vergi güzəştləri, güzəştli kraditlər verilməsi və bu kimi dövlət dəstəyinin genişləndirilməsi.

7. COP29-un Yaşıl turizmə müsbət təsirinin maksimumlaşdırılması üçün tədbirlərin hazlrlanması:

BMT tərəfindən bu layihənin 29-cu görüşünün 2024-cü ilin payızında Azərbaycanda keçirilməsi yaşıl turizmin inkişafı üçün böyük imkanlar verəcəkdir. COP29-un bir sıra iqlim dəyişikliyi məsələlərini müzakirə etmək və danışıqlar aparmaq üçün dünya liderlərini, hökumət rəsmilərini, alimləri, QHT-ləri və digər maraqlı tərəfləri bir araya gətirən böyük tədbir olacağı gözlənilir [8].

COP29 lahiyəsi bərpa olunacaq Qarabağ üçün böyük fürsətdir. Çünki ərazinin yenidən qurulması zamanı COP29 sammitində qəbul olunacaq qaydalar tətbiq ediləcəkdir. Həmin

ərazidə olan yaşıl təbiətin qorunması çox vacib amillərdəndir. Bunlar isə öz növbəsində respublikamızda yaşıl turizmin inkişafına müsbət təsirini göstərəcəkdir [11].

COP29 əsas məsələlərindən biri Yaşıl Təbiətin inkişafı üçün dövlətlərə və QHT-lərə maliyyə dəstəyinin təşkil olunmasıdır. Bunun üçün COP28 sammitində fondlar yaradılmış və bu fondların inkişaf etməkdə olan ölkələrə hər il 100 mlrd ABŞ dolları maliyyə yardımı təşkil olunması nəzərdə tutulmuşdur [10].

**Açar sözlər:** Kənd turizmi, Yaşıl Turizm, dövlət təstəyi, COP29, turlar.

### Ədəbiyyat

1. Azərbaycan Milli elmlər Akademiyası-Qarabağda tarixi abidələr.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi-Mehmanxana tipli obyektlər.
3. Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi-Mina təmizlənmiş ərazilər.
4. Azərbaycan Respublikası Kəlbəcər Rayon İcra Hakimiyyəti - Kəlbəcərin Tarixi obyektləri.
5. Belgium.be-Govermnet Support in Tourism.
6. Ekologiya və Təbii Sərvətlər Nazirliyi-Azərbaycanın Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişafı.
7. Ekologiya və Təbii Sərvətlər Nazirliyi-Yaşıl dünya naminə həmrəylik ili.
8. Prezident.az-COP29 layihəsi.
9. UNWTO - Sustinable turizm.
10. UNWTO-COP28 In Dubai.
11. UNFCC-COP29.

## YAŞIL TURİZM: MƏSULİYYƏTLİ SƏYAHƏT VƏ SOSİAL-İQTİSADİ İNKİŞAF

**Tural Allahverdili**
Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan

Bu gün səyahət və turizm sənayesi təkcə istirahət və kəşfiyyat məqsədilə səyahət edənlər üçün deyil, həm də təbii sərvətlərin qorunması, ətraf mühitin tarazlığı və yerli icmaların rifahı üçün böyük əhəmiyyət kəsb edir. Bu kontekstdə yaşıl turizm anlayışı bütün dünyada davamlı turizm yanaşması kimi getdikcə daha çox diqqət çəkir və populyarlıq qazanır.

Yaşıl turizm təbii və mədəni mühitin qorunmasına diqqət yetirən, yerli iqtisadiyyatlara töhfə verən və turizm fəaliyyətinin sosial və ətraf mühitə təsirlərini minimuma endirən bir

yanaşmaya aiddir. Bu yanaşma həm səyahətçilər, həm də təyinat yerləri üçün uzunmüddətli fayda təmin etməyi hədəfləyir.

Bu tədqiqat işində yaşıl turizm anlayışını daha dərindən araşdıracaq, bu yanaşmanın faydalarını, çətinliklərini və həll yollarını müzakirə edəcək, uğurlu tətbiq nümunələri və ən yaxşı təcrübələri paylaşacaq və səyahət sənayesində yaşıl turizmin rolunu vurğulayacağıq. Bu yanaşmanın iqtisadi artımı necə stimullaşdırdığını və məsuliyyətli səyahətin gələcək əhəmiyyətini də müzakirə edəcəyik.

Yaşıl turizm müasir səyahət sənayesində mühüm bir anlayış olaraq ortaya çıxdı. Bu konsepsiya məsuliyyətlə səyahət etmək, ətraf mühitə təsirləri minimuma endirmək, yerli icmaları dəstəkləmək və mədəni irsi qorumaq ideyası ətrafında fırlanır. Yaşıl turizmin əhəmiyyəti son illərdə ekoloji problemlər, turizmin həssas ekosistemlərə təsiri və orijinal səyahət təcrübələri istəyi ilə bağlı məlumatlılığın artması səbəbindən əsaslı dərəcədə artmışdır.

**Yaşıl turizmin faydaları**

Yaşıl turizm təcrübələrinin qəbul edilməsi həm istiqamətlər, həm də səyahətçilər üçün bir sıra üstünlüklər təmin edir [3, s.17]:

- Yaşıl turizm təbii ehtiyatları qoruyur, çirklənməni azaldır, həssas ekosistemləri qoruyur və biomüxtəlifliyin qorunmasına və iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verir;

- Yerli icmaları dəstəkləmək və onlara hörmət etməklə, yaşıl turizm yerli mədəniyyətləri, adət-ənənələri və irs sahələrini qorumağa kömək edir, mədəni müxtəlifliyi və anlaşmanı təşviq edir;

- Yaşıl turizm iş yerləri yaradır, gəlir gətirir və iqtisadi artımı dəstəkləyir; Məsələn, ekoturizm obyektləri, üzvi təsərrüfatlar və icma mərkəzli turizm təşəbbüsləri kimi yerli biznesləri dəstəkləməklə davamlı iqtisadi artıma töhfə verir;

Bu cədvəl siyasi, iqtisadi, sosial və texnoloji sahələrdə müxtəlif amillərin Azərbaycanda yaşıl turizmə necə təsir edə biləcəyinin strukturlaşdırılmış icmalını təqdim edir. Nəzərə almaq lazımdır ki, təsirlər zamanla dəyişə bilər və turizm sektorunda maraqlı tərəflər tərəfindən davamlı monitorinq və uyğunlaşma tələb edə bilər.

**Cədvəl 1.** Siyasi, iqtisadi, sosial və texnoloji aspektlərin amillərinə diqqət yetirməklə yaşıl turizm kontekstində Azərbaycan üçün PEST təhlil cədvəli

| Amil | Təsvir | Yaşıl turizmə təsiri |
|---|---|---|
| **Siyasi** | - Turizm və ətraf mühitin mühafizəsi ilə bağlı sabit hökumət siyasəti. | Müsbət: yaşıl turizm təşəbbüslərinə uzunmüddətli investisiyaları təşviq edir. |
| | - Vergi güzəştləri və ya subsidiyalar kimi ekoloji cəhətdən təmiz bizneslər üçün dəstəkləyici qaydalar. | Müsbət: Davamlı turizm təcrübələrinin böyüməsini təşviq edir. |

| | | |
|---|---|---|
| | - Viza qaydaları və səyahət müqavilələri kimi turizm siyasətlərinə təsir edən beynəlxalq əlaqələr. | Neytral: Razılaşmalardan asılı olaraq, bu, beynəlxalq yaşıl turizmin inkişafını asanlaşdıra və ya əngəlləyə bilər. |
| **İqtisadi** | - İqtisadi sabitlik və artım turist xərclərinə və ekoturizm layihələrinə investisiyaya təsir göstərir. | Müsbət: Güclü iqtisadiyyat yaşıl turizm infrastrukturuna investisiya cəlb edə bilər. |
| | - Səyahət xərclərinə və Azərbaycanın bir destinasiya kimi cəlbediciliyinə təsir edən valyuta məzənnələri. | Neytral: Dəyişmələr turizm axınına təsir edə bilər, lakin yaşıl turizm təşəbbüslərinə birbaşa təsir göstərməyə bilər. |
| | - Dayanıqlı turizm layihələri və təşəbbüsləri üçün maliyyə və qrantların mövcudluğu. | Müsbət: Maliyyələşdirməyə çıxış yaşıl turizm təşəbbüslərinin və infrastrukturun inkişafına dəstək ola bilər. |
| **Sosial** | - Ətraf mühitin mühafizəsi və davamlılığına mədəni münasibət. | Müsbət: Müsbət münasibət yerli sakinlər və turistlər arasında yaşıl turizm təcrübələrinin daha çox qəbul edilməsinə və mənimsənilməsinə səbəb ola bilər. |
| | - Əhali və turizm sənayesi arasında ekoloji təmiz təcrübələrlə bağlı maarifləndirmə və məlumatlılıq səviyyəsi. | Müsbət: Yüksək məlumatlılıq yaşıl turizm təcrübələrinə və xidmətlərinə tələbi artıra bilər. |
| | - Turistlərin növlərinə və onların dayanıqlı səyahət seçimlərinə üstünlük verən demoqrafik meyllər. | Müsbət: Davamlı səyahətə artan maraq yaşıl turizm təkliflərinə tələbi artıra bilər. |
| **Texnoloji** | - Turizm əməliyyatlarında davamlı təcrübələrin tətbiqi üçün texnologiyaya çıxış (məsələn, bərpa olunan enerji, tullantıların idarə edilməsi). | Müsbət: Texnologiya enerjiyə qənaət edən yaşayış yerləri və ekoturlar üçün rəqəmsal platformalar kimi yaşıl təşəbbüslərə imkan verə bilər. |
| | - Yaşıl turizm təcrübələrini təşviq etmək və sifariş etmək üçün rəqəmsal infrastruktur və əlaqə. | Müsbət: Daha geniş auditoriyaya çatmaq üçün yaşıl turizm xidmətlərinin marketinqini və sifarişini təmin edir. |
| | - Səyahətdə karbon izini azaldan nəqliyyatda yeniliklər (məsələn, elektrik nəqliyyat vasitələri, ictimai nəqliyyat). | Müsbət: Nəqliyyatda irəliləyişlər ekoloji cəhətdən təmiz səyahətləri daha əlçatan və cəlbedici edə bilər. |

**Mənbə:** Müəllif tərəfindən hazırlanmışdır.

### Problemlər və həll yolları

Bütün faydalarına baxmayaraq, yaşıl turizmlə bağlı bir sıra problemlər var və bunlar həll edilməlidir. Belə ki, bir çox istiqamətlərdə davamlı turizm üçün adekvat infrastruktur yoxdur; Buraya tullantıların idarə edilməsi sistemləri, ekoloji cəhətdən təmiz yaşayış yeri və davamlı nəqliyyat variantları kimi elementlər daxildir. İnfrastrukturun inkişafı və potensialın artırılması vacibdir. Həm turistlər, həm də turizm sənayesinin maraqlı tərəfləri yaşıl turizm təcrübələri haqqında daha çox məlumatlılığa və təhsilə ehtiyac duyurlar; bunlara onların faydaları və onların effektiv şəkildə necə tətbiq ediləcəyi haqqında məlumat daxil edilməlidir. Maarifləndirmə və təhsilə olan bu ehtiyac hökumətlər, QHT-lər, biznes subyektləri və yerli icmalar arasında əməkdaşlıq tələb edir. Təbii ehtiyatların qorunması və turizmin inkişafının balanslaşdırılması çətin ola bilər. İnteqrasiya edilmiş planlaşdırmada, maraqlı tərəflərin iştirakı və davamlı turizm strategiyaları tələb olunur [5, s.11].

Yaşıl turizm məhsulları və xidmətləri bazar tələbi və qiymət rəqabəti kimi çətinliklərlə üzləşə bilər. Davamlı səyahətin dəyərini təbliğ etməklə və təşviqlər təklif etməklə ekoloji

cəhətdən daha şüurlu səyahətçiləri cəlb etmək vacibdir. Yaşıl turizm təşəbbüslərinin təsirini qiymətləndirmək, tərəqqiyə nəzarət etmək və davamlı təkmilləşdirmə üçün əsaslandırılmış qərarlar qəbul etmək üçün effektiv monitorinq və qiymətləndirmə mexanizmləri tələb olunur [4, s.90].

Nəticədə yaşıl turizm təkcə ekoloji və mədəni dəyərlərin qorunub saxlanmasına töhfə vermir, həm də yerli iqtisadiyyatları stimullaşdırır və davamlı inkişafı təşviq edir. Buna görə də yaşıl turizmin dəstəklənməsi və populyarlaşdırılması səyahət sənayesində gələcək nəsillər üçün mühüm öhdəlik və məsuliyyətdir. Hər kəsin iştirakı ilə yaşıl turizm daha da güclənə və həm səyahət edənlərin, həm də destinasiyaların həyat keyfiyyətini yaxşılaşdıra bilər.

**Açar sözlər:** Yaşlı turizm, məsuliyyətli səyahət, sosial-iqtisadi inkişaf, davamlı turizm, turizmin inkişafı.

**Ədəbiyyat**

1. Anh, L.T.K., An, P.B., Duong, V.N. (2022). Green tourism planning for Danang City after COVID-19, vision to 2050. In 2022 7th National Scientific Conference on Applying New Technology in Green Buildings (ATiGB).
2. Xue, Y., Liu, J., Piboonrungroj, P., Sriboonchitta, S. (2022). The impact of tourism on $CO_2$ emission: A Case of China. In 2022 International Joint Conference on Information and Communication Engineering (JCICE).
3. Ma, S., He, Y. (2023). Investment of green technology in a tourism supply chain under competition. IEEE Transactions on Engineering Management, 70(3).
4. Wang, Z., Ye, Y., Li, H., Li, J., Liu, J. (2020). Research on the Application of the Internet in the Development of Green Tourism Economy in China’s Rural. In 2020, 2nd International Conference on Economic Management and Model Engineering (ICEMME).
5. Zhang, L., Sun, Z. (2022). The connection between tourism and “Internet +” in the context of rural revitalization: Taking the “red, blue and green” cultural model of Yimeng Mountain as an example. In 2022, 8th Annual International Conference on Network and Information Systems for Computers (ICNISC).

# YAŞIL TURİZM: YENİ İMKANLAR

**Emil Bədəlov**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
emilbdlov86@gmail.com

Davamlı turizm kimi də tanınan yaşıl turizm, turizmin mənfi təsirini minimuma endirməyə və ətraf mühitin mühafizəsi, mədəni qorunma və sosial məsuliyyəti təşviq etməyə yönəlmiş bir səyahət növüdür. Bu, ətraf mühitin mühafizəsi, iqtisadi inkişaf, mədəni qoruma, iqlim dəyişikliyinin azaldılması, şəxsi inkişaf və uzunmüddətli davamlılıq üçün vacibdir. Yaşıl turizmin bir neçə növü var, o cümlədən ekoturizm, aqroturizm, icma əsaslı turizm, macəra turizmi, davamlı turizm, mədəni turizm, vəhşi təbiət turizmi, geoturizm, sağlamlıq turizmi və könüllü turizm. Yaşıl turizm, turistlərə səyahət təcrübələrindən həzz almağa imkan verir, eyni zamanda destinasiyanın təbii və mədəni irsinin qorunmasına töhfə verməklə, iqtisadi artım ilə ekoloji və sosial məsuliyyət arasında balans yaratmağı hədəfləyir. Ekoturizm və ya davamlı turizm kimi də tanınan yaşıl turizm bir neçə səbəbə görə vacibdir: Ətraf mühitin mühafizəsi, iqtisadi inkişaf, mədəni qorunma, şəxsi inkişaf, icmanın iştirakı, təhsil və maarifləndirici, uzunmüddətli davamlılıq və s. [1]. “Yaşıl turizm təbii ehtiyatların, vəhşi təbiətin və ekosistemlərin qorunmasına çalışır. Bu, turistləri təbiəti qiymətləndirməyə və ona hörmət etməyə və onların ətraf mühitə təsirini minimuma endirməyə təşviq edir”. Yaşıl turizimin əsas vəzifələrindən biri də ətraf mühitin çirklənməsinin azaldılmasıdır. Yaşıl turizm tullantıların azaldılması, su və enerjiyə qənaət və ekoloji cəhətdən təmiz məhsullardan istifadə kimi məsuliyyətli səyahət təcrübələrini təşviq edir. Bu, çirklənməni azaltmağa və turizmin ətraf mühitə mənfi təsirlərini minimuma endirməyə kömək edə bilər.

Ölkəmiz müstəqillik qazandıqdan sonra iqtisadiyyatın digər sahələri kimi turizmin inkişafı da ön plana çəkilmişdir. Azərbaycanda 4253 kənd yaşayış məntəqəsi vardır ki, bunun da böyük əksəriyyəti yaşıllıqlar qoynunda və ya dağlıq ərazilərdə yerləşir. Bu baxımdan qeyd etmək olar ki, Azərbaycanda kənd yaşıl turizminin inkişaf etdirilməsi üçün potensial vardır.

İ. Orucovun sözlərinə görə regionlarda kənd yaşıl turizminin, aqrar turizmin inkişafı kəndin və kəndlilərin sosial-iqtisadi inkişafına təkan verməklə dövlətin bu istiqamətdə qarşıya qoyduğu məqsədlərin həyata keçirilməsinə də yardımçı ola bilər: “Azərbaycanda mövcud olan əlverişli coğrafi şərait, zəngin təbiət, adət-ənənələr, qonaqpərvərlik kənd yaşıl turizminin inkişafına əlverişli şərait yaradır”. İ. Orucov bütövlükdə Azərbaycanda kənd yaşıl turizminin inkişafını müxtəlif təbii və iqtisadi amillərlə əsaslandırır. Belə ki, 4200-dən çox kənd yaşayış

məntəqəsinin 68%-nin dağlıq və dağətəyi ərazilərdə, landşaft ekzotikliyi ilə seçilən bölgələrdə yerləşməsi; kənd əhalisinin özünəməxsus adət-ənənələri, etnoqrafik rəngarəngliyi və zəngin mətbəxinin olması turizmin bu növünün inkişafına şərait yaradır. Azərbaycanda yaşıl turizminin inkişaf etdirilməsi üçün mümkün imkanları nəzərə alaraq aidiyyatı qurumlar məqsədli, ardıcıl və sistemli şəkildə fəaliyyət həyata keçirməklə qeyd olunan sahənin inkişaf etdirilməsinə nail ola bilərlər. Bu istiqamətdə imkanların çox cüzi bir hissəsindən istifadə olunur. İlk növbədə aztəminatlı gənc ailələr, gənc kənd sakinləri arasında kənd yaşıl turizminin inkişaf etdirilməsi məqsədilə maarifləndirmə fəaliyyətinin təşkili, kənd yaşıl turizminin inkişafının yeni metod və vasitələrinin təbliğ edilməsi və regionlarda kənd yaşıl turizm mədəniyyətinin formalaşdırılmasına nail olmaq vacibdir. Yerli hakimiyyət qurumlarının diqqətini kənd yaşıl turizminin inkişafına və bununla bağlı infrastrukturun yaradılmasına yönəltmək effektiv ola bilər.

Müxtəlif təbiət abidələri, tarixi əraziləri və səs-küyün az olduğu məkanları ilə, Qarabağ və Şərqi Zəngəzur, yaşıl turizmin ideal mövqelərindən birini təşkil edir. Bu ərazinin ətraf mühitə və təbiətə verdiyi əhəmiyyət, yaşıl turizmin inkişafı üçün ideal bir zəmin yaradır. Qarabağ və Şərqi Zəngəzurda yaşıl turizimin inkişafı etdirmək üçün ilk olaraq, əsas amillərdən biri olan infrastrukturun olması vacibdir. İnfrastruktur, yaşıl turizmin keyfiyyətini təmin etmək üçün əhəmiyyətli bir faktordur. Yollar, qonaqlar üçün qonaqlama və restoranlar və s. [4]. Vətən müharibəsindən ötən müddətdə işğaldan azad edilən ərazilərdə Füzuli Beynəlxalq Hava Limanının tikintisi, Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və inşası, Kəlbəcər-Laçın istiqamətinə Göygöl rayonundan başlayaraq magistral yol salınmasının nəzərdə tutulması, eyni zamanda, Şuşanın füsunkar təbiət coğrafiyasında yerləşməsi, şəhərdəki tarixi-mədəni obyektlərin, Xarıbülbül və Qarabağ mehmanxanalarının ən son standartlara uyğun formada təmir edilərək istifadəyə verilməsi Qarabağda dayanıqlı turizmin inkişafını şərtləndirəcək, Füzuli, Xocavənd və Şuşanın turistlər üçün əlçatan olmasına mühüm təsir göstərəcək. Xalq qəzetinin verdiyi bu məlumata əsalanaraq, Qarabağ və Şərqi Zəngəzurda infrasturukturun inkişaf etdirildiyini görə bilərik. Ümumilikdə, Qarabağ və Şərqi Zəngəzurda infrastrukuturun inkişafı ilə bağlı planlar genişdir. Yaxın 4 ildə daxili və xarici turistləri nəzərə alaraq, Qarabağın 1 milyon insanı qəbul edəcəyi gözlənilir. İkinci olaraq, turizm sektorunun inkişafı üçün məhsuldarlıq təşkil edilməlidir. Yerli iş adamlarına turizm sahəsində işləmək və turistlərin qarşılanması üçün xidmətlər təklif etmək üçün dəstək verilməlidir. Bu, ərazilərdə turizm sektorunda iş yaratmaq, yerli əhaliyə məşğulluq yaratmaq və iqtisadi inkişafı təmin etmək imkanını yaradır. Son olaraq, Qarabağ və Şərqi Zəngəzurda yaşıl turizmin inkişafı üçün təbii gözəlliklərin, mədəni məkanların və

tarixi abidələrin tanıdılması üçün marketinq və reklam strategiyaları vacibdir. Bu, dünya səyahət bazarında bu bölgəyə diqqət çəkmək və turistlərin maraqlarını cəlb etmək üçün əhəmiyyətli bir addımdır.

Bu addımların birləşdirilməsi, Qarabağ və Şərqi Zəngəzurda yaşıl turizmin inkişafını təmin edə bilər və bu, Azərbaycanın turizm sektorunda daha çox maraqlı məkanların ortaya çıxmasına səbəb ola bilər.

Azərbaycanda turizmin inkişafının aktual məsələləri çoxsaylı və müxtəlifdir. İşlərin geniş mövqeyinə təsir edən bəzi əsas məsələlər bunlardır:

Turizm Altyapısının İnkişafı: Azərbaycanın turizm altyapısı, infrastrukturun və təşkilatların inkişaf etdirilməsinə ehtiyac duyur. Yolların, hava limanlarının, qonaqlama və yeməkxana obyektlərinin, turistik məkanların və digər turizm infrastrukturunun yaxşı və sürətli bir şəkildə inkişaf etdirilməsi məcburidir.

Tanıtım və Reklam kampaniyaları: Azərbaycanın turizm potensialının dünya səyahət bazarında daha çox tanınması üçün tanıtım və reklam kampaniyaları effektiv şəkildə həyata keçirilməlidir. Dünya əhaliyə Azərbaycanın təbiəti, tarixi və mədəni gözellikləri haqqında məlumat vermək vacibdir.

Səyahət Təhlükəsizliyi: Turizmin inkişafında səyahət təhlükəsizliyi əhəmiyyətli bir məsələdir. Turistlərin səyahəti, güvənli və təhlükəsiz şəraitlərdə keçməlidir.

Turist Xidmətlərinin Keyfiyyəti: Turistlər üçün yüksək standartlı xidmətlərin təmin edilməsi, turist təcrübəsinin keyfiyyətini təmin edir. İşçilərin turizm sahəsində təhsil və hazırlığının təmin edilməsi önəmlidir. Hökumətin, turizm təşkilatları, yerli iş adamları və digər tərəflər birgə çalışması ilə bu məsələlərə effektiv həll tapmaq, Azərbaycan turizminin inkişafına böyük təkan verəcəkdir.

**Açar sözlər:** Ətraf mühit, turist xidmətlərinin keyfiyyəti, kənd turizmi.

## Ədəbiyyat

1. Cabbarov Ə.X. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017. ADPU-nəş. s.159.
2. Ə.T. Əsgərov, B.Ə. Bilalov, Ç.G. Gülalıyev, Ekoloji turizm (Dərs vəsaiti), Bakı, Adiloğlu nəşriyyatı, 2011, 276 s.
3. İ. Hüseynov, N. Əfəndiyev, Turizmin əsasları (dərslik), Mars-Print nəşriyyat-poliqrafiya müəsisəsi, Bakı-2017, 442 s.
4. https://old.xalqqazeti.com/az/news/social/5378
5. https://www.anl.az/down/meqale/respublika/2010/sentyabr/134245.htm

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ «ЗЕЛЕНОГО ТУРИЗМА» В КАРАБАХЕ И ВОСТОЧНОМ ЗАНГЕЗУРЕ

**Фарида Джафарли**

Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан

fridc@internet.ru

Формирование и направления развития «зеленого туризма» на освобожденных территориях открывают значительные перспективы для содействия устойчивому росту и оживлению этих регионов. Зеленый туризм, основанный на экологически безопасных методах и исследовании природных ландшафтов, дает возможность использовать уникальные природные ресурсы этих территорий, одновременно содействуя усилиям по сохранению и экономическому развитию. Ключевые направления развития зеленого туризма на освобожденных территориях включают создание экологически чистых мест проживания и инфраструктуры, таких как эко-домы и экологически чистые варианты транспорта. Кроме того, существует необходимость реализации природоохранных инициатив для защиты биоразнообразия и экологической целостности этих регионов, включая создание охраняемых территорий и продвижение ответственной туристической практики. Кроме того, вовлечение сообщества и расширение его прав и возможностей должны быть приоритетными, чтобы гарантировать, что местные жители получат выгоду от туристической деятельности, сохраняя при этом свое культурное наследие и традиционный образ жизни. Сосредоточив внимание на этих направлениях, зеленый туризм может стать катализатором позитивных изменений, способствуя охране окружающей среды, экономическому процветанию и социальному благополучию на освобожденных территориях [1].

Одним из ключевых направлений развития зеленого туризма на освобожденных территориях является создание экологически устойчивых инфраструктур и объектов развлечений. Это может включать в себя строительство трасс, велосипедных маршрутов, пеших троп, кемпингов, и других объектов, способствующих общению с природой и активному отдыху на открытом воздухе [3].

Другим важным аспектом является развитие экологического образования и культуры туристов. Это включает проведение экскурсий, мастер-классов, обучающих программ, направленных на повышение осведомленности туристов о значимости

сохранения природы, биоразнообразия, а также принципов экологически устойчивого образа жизни [6].

Еще одним направлением является развитие экотуризма, который направлен на изучение и познание уникальных природных и культурных достопримечательностей региона. Экотуризм включает в себя посещение национальных парков, заповедников, резерватов, а также встречи с местными жителями и ознакомление с их традициями и обычаями [4].

Азербайджан, расположенный на перекрестке Европы и Азии, может похвастаться богатым разнообразием культурного наследия, потрясающими пейзажами и яркими городами, что делает его все более популярным местом для туристов [8].

Теплое гостеприимство и хорошо развитая туристическая инфраструктура Азербайджана, включая роскошные отели, курорты и туроператоров, гарантируют посетителям комфорт и удобство на протяжении всего их пребывания. Азербайджан своим уникальным сочетанием истории, культуры и природной красоты продолжает очаровывать путешественников со всего мира, предлагая незабываемые впечатления и воспоминания, которые стоит лелеять [7].

**Вывод**

В целом, развитие зеленого туризма на освобожденных территориях способствует не только развитию туристической индустрии, но и сохранению природных ресурсов, местному социально-экономическому развитию, а также привлечению внимания к экологическим проблемам региона.

Еще одним важным направлением является развитие эко-технологий и экологических инноваций в сфере экскурсионного и природного туризма. Это может включать в себя разработку биоразлагаемых материалов для упаковки и утилизации отходов, инновационные методы ухода за природными ресурсами и возобновляемыми источниками энергии, а также развитие экологически устойчивых методов транспортировки и перевозки туристов.

Таким образом, развитие зеленого туризма с помощью инноваций представляет собой перспективное и эффективное средство для создания устойчивой и ответственной индустрии туризма, способствующей сохранению природы и улучшению качества туристического опыта.

Развитие зеленого туризма посредством инноваций является ключевым аспектом в создании устойчивой и экологически чистой туристической индустрии. Инновации в

этой области могут охватывать различные аспекты: от технологических разработок до разработки новых концепций и подходов к организации туристического опыта. Одним из направлений развития зеленого туризма через инновации является применение экологически чистых технологий и инфраструктуры. Это может включать использование солнечных батарей для питания отелей и кемпингов, систем очистки воды и экотранспорта, такого как электромобили и велосипеды. Еще одним важным направлением является развитие цифровых инноваций в зеленом туризме.

**Ключевые слова:** зеленый туризм, Восточный Зангезур.

## Литература

1. Бобылев, С.Н. Зеленая экономика и модернизация. Эколого-экономические основы устойчивого развития С.Н. Бобылев, В.М. Захаров, На пути к устойчивому развитию России. 2012, No.60, 89 с.
2. Всемирный совет по ответственному туризму (GSTC), Глобальные критерии устойчивоготуризма для дестинаций (GSTC-D), 2013, 8 с.
3. Вспомогательный счет туризма: рекомендуемая методологическая основа, 2008 год ООН, ВТО, Статистическое бюро Европейских сообществ, ОЭСР. Люксембург, Мадрид, Нью-Йорк, Париж, 2010, 132 с.
4. Глазырина, И.П. Социально-экономическая эффективность и «зеленый» рост регионального лесопользования: пространственный анализ. И.П. Глазырина, Л.М. Филейчик, К.А. Яковлева География и природные ресурсы, 2015, No.4, с. 17–25.
5. Доклад Комиссии по устойчивому развитию о работе ее третьей сессии (11 – 28 апр. 1995 г.) ООН. Экономический и Социальный Совет. Нью-Йорк, 1995, 101 с.
6. Зомонова, Э.М. Стратегия перехода к «зеленой» экономике: опыт и методы измерения: аналитический обзор: монография. Новосибирск: Гпнтб Со Ран, 2015, 283 с.
7. https://vaael.ru/ru/article/view?id=1840

## Xülasə

İnnovasiyalar vasitəsilə yaşıl turizmin inkişafı davamlı və ekoloji cəhətdən təmiz turizm sənayesinin yaradılmasında əsas aspektdir. Bu sahədə innovasiyalar texnoloji inkişaflardan tutmuş turizm təcrübələrinin təşkilinə yeni konsepsiya və yanaşmaların işlənib hazırlanmasına qədər müxtəlif aspektləri əhatə edə bilər. İnnovasiyalar vasitəsilə yaşıl turizmin inkişafının istiqamətlərindən biri də ekoloji cəhətdən təmiz texnologiyaların və infrastrukturun tətbiqidir.

Bu, otelləri və düşərgələri, su təmizləmə sistemlərini və elektrikli avtomobillər və velosipedlər kimi eko-nəqliyyatı gücləndirmək üçün günəş panellərindən istifadəni əhatə edə bilər. Digər mühüm sahə yaşıl turizmdə rəqəmsal innovasiyanın inkişafıdır.

## YAŞIL TURİZMİN İNKİŞAFI "YAŞIL DÜNYANIN" GÖSTƏRİCİSİDİR

**Cümşüd Əbdülrəhimli**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
abdulrehimli.cumsud@mail.ru

Ətraf mühitin saflaşdırılmasında, mühafizəsində meşələrin, yaşıllıqların rolu ölçüyəgəlməz dərəcədə böyükdür. Hazırda bu mühüm məsələ ilə bağlı respublikamızda ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan dünya ölkələrinə təhdid yaradan iqlim dəyişikliyi ilə mübarizəyə öz töhfəsini verməkdədir. Bu mənada dövlətimiz digər ölkələr üçün etibarlı və məsuliyyətli tərəfdaş rolunu oynayır. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" müəyyən olunması bunu sübut edən mühüm faktorlardan biridir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi başlıca istiqamətlərdir [1].

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi və ölkəmizdə 2024-cü ilin «Yaşıl dünya naminə həmrəylik ili» elan olunması münasibətilə gerçəkləşdirilən tədbirlər, əslində, bir-birini tamamlayır. Bunlar Azərbaycanın enerji keçidində əldə etdiyi nailiyyətləri nümayiş etdirmək və bu istiqamətdə daha da irəliyə getmək üçün əvəzsiz şans olacaq.

COP29-un Bakıda keçirilməsi iki məqsədə cavab verir. Birincisi, Azərbaycanın nümunəsindən istifadə edərək konfrans iştirakçıları «yaşıl enerji»yə mərhələli keçid üçün öz planlarını hazırlaya bilərlər. İkincisi, Azərbaycan dünya bazarına neft və qaz ehtiyatlarının tədarükçüsü mövqeyindən çıxış edərək, daha mülayim enerji keçidinə çağırış edərək, mədən yanacaqlarından radikal şəkildə imtinanın mümkün nəticələrini dünyaya izah edə bilər: COP29 tədbirinə ev sahibliyi etmək Azərbaycana həm iqlim, həm də geosiyasi məsələlərin həllinə sadiqliyini nümayiş etdirmək imkanı verir. Bu sahələrdə Azərbaycan uğurlu nümunə göstərir və praqmatik perspektivi əks etdirən yanaşmanı dəstəkləyir. Azərbaycan COP29-a hazırlıqda təqdirəlayiq irəliləyiş əldə edib. Ölkə lazımi logistik imkanların mövcud olmasını təmin edərək

öz infrastrukturuna böyük sərmayə qoyub. Üstəlik, Azərbaycanın mövcud siyasətində öz əksini tapmış iqlim dəyişikliyi ilə bağlı öhdəliyi konfransın uğurundan xəbər verir.

Həmçinin ölkədə zəngin biomüxtəlifliyin qorunması üçün tədbirlər həyata keçirilib. Məsələn, hökumət Göygöl Milli Parkının unikal ekosistemləri qorumaq və davamlı torpaq idarəçiliyi təcrübələrini təşviq etmək üçün onu UNESCO-nun Biosfer Qoruğu elan edib. Azərbaycan meşələrin idarə edilməsi və meşəsalma təşəbbüsləri, ağacların əkilməsi, meşələrin qırılması ilə mübarizə və davamlı meşəçilik təcrübələrinin təşviqi üzrə layihələr həyata keçirib. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan iqlim dəyişikliyi ilə bağlı beynəlxalq forumlarda fəal iştirak edir.

Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı dünyaya önəmli bir mesajdır. Bütün bunlar göstərir ki, Azərbaycan bütün dünya ölkələrini yaşıl dünya naminə həmrəylik nümayiş etdirir.

"Yaşıl dünya"nın bariz göstəricilərindən biri də yaşıl turizmin formalaşması və inkişaf etdirilməsidir. Müasir dünyada turizmin bu istiqaməti daha da cəlbedici olur, daha çox insanları cəlb edir. Respublikamızda da yaşıl turizmin inkişafı diqqət mərkəzində olan məsələlərdən biridir.

Məlumdur ki, Azərbaycan Respublikasının böyük turizm potensialı vardır. Qədim diyarda tarixi-mədəni turizmlə yanaşı, turizmin ekoloji, ziyarət, müalicə, dağçılıq və digər növlərinin inkişaf etdirilməsi üçün hər cür imkanlar mövcuddur. Qədim tarixi, milli-mənəvi dəyərləri, dini abidələri, zəngin flora və faunası ölkədə turizmin bir çox sahələrinin inkişaf etdirilməsi üçün şərait yaradır.

Eyni zamanda kənd yaşıl turizminin inkişafı üçün də geniş potensial var. Turistlər üçün lazım olan təmiz hava və təbii su ehtiyatı, yaşıllıq, abadlaşdırılmış kənd şəraiti, cəlbedici təbiət mənzərələri, burada da infrastrukturun, xüsusilə də yolların yüksək səviyyədə olması və qonaqpərvərlik bu sahə üçün hazır ehtiyatlardır. Kənd yaşıl turizmi turizm üçün başlanğıc rolunu oynayıb. Kənd yaşıl turizminin inkişafı yerli sakinlərin təşəbbüskarlığı və qonaqpərvərliyindən də asılıdır. Bu sahənin sosial inkişafın təmin edilməsində əhəmiyyəti çoxdur. Çünki kəndə gələn turist kənd əhalisinin bütün təbəqələrinin sosial vəziyyətinə təsir edə bilir. Buna misal kimi əhalinin maddi rifahının yaxşılaşdırılması, kənd əhalisinin istehsal etdikləri məhsulların satışı, insanlar arasında ünsiyyət və yaxınlaşma, bölgənin adət-ənənəsi, məişətinin öyrənilməsi, təbliği və s. qeyd etmək olar.

Bütün bunlar da Azərbaycanın «yaşıl turizm» mərkəzinə çevrilmək potensialını göstərir. Eləcə də ölkəmizin öz milli iqlim öhdəliklərini qoruyub saxladığına, çoxtərəfli tərəfdaşlığı və qlobal əməkdaşlığı gücləndirməyi hədəflədiyinə aydın misaldır.

**Açar sözlər:** Yaşıl dünya, COP-29, turizm imkanları, turizmin sahələri, yaşıl kənd turizmi.

**Ədəbiyyat**

1. https://demokrat.az/az/news/176259/yasil-dunya-namine-hemreylik-ili-cercivesinde-muhum-islerin-gorulmesi-hedeflenib
2. https://www.azerbaijan-news.az/az/posts/detail/yasil-dunya-namine-hemreylik-bu-il-azerbaycanda-numayis-olunacaq-1707167292
3. https://www.yeniazerbaycan.com/xeberlenti_e95182_az.html

## AZƏRBAYCANDA KƏND TURİZMİNİN İNKİŞAFINA VERİLƏN TÖHFƏLƏR

**Sevil Əliyeva**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

***Xülasə:*** *Məqalədə,* Azərbaycanda kənd Turizminin inkişafına verilən töhfələrdən s*öz açılmışdır. Verilmiş mövzu dairəsində geniş araşdırma aparılmış və müəyyən nəticələr çıxarılmışdır. Məlumdur ki,* Son illərdə Azərbaycan hökuməti, kənd turizminin inkişafına daha çox diqqət ayıraraq, bu sahədə fəaliyyət göstərən iş adamlarına və mülkiyyət sahiblərinə maliyyə dəstəyi təmin etmişdir. Bu dəstəklər sayəsində kəndlər daha çox turist cəlb edə biləcək turizm obyektlərinə çevrilir və onların turizm potensialı artırılır. Bu və bu kimi məsələlər tədqiqat materialında ətraflı izah edilmişdir.

Azərbaycanda kənd turizminin inkişafına verilən töhfələr son illərdə turizm sahəsində dəyişikliklərə səbəb olmuşdur. Öncədən, kənd turizmi daha az tanınan və yaygın olmayan bir sahə idi, lakin son illərdə dövlət tərəfindən bu sahəyə daha çox diqqət ayırılır və inkişafı üçün fəaliyyətlər həyata keçirilir. Bu töhfələr arasında kəndlərimizin təbii gözəlliyini və tarixi zənginliklərini nümayiş etdirən şəhərlərin turistlər üçün daha çəkici və cazibədar hala gətirilməsi vacib rol oynayır.

Dövlət tərəfindən verilən maliyyə dəstəyi, kənd turizminin infrastrukturunu inkişaf etdirmək və turistlər üçün daha rahat və məmnun edici bir təcrübə təmin etmək üçün istifadə

olunur. Bu, kəndlərin yol, su, elektrik kimi əsas infrastruktur problemlərinin həllini dəstəkləyir və turistlərin rahatlığını təmin edir [2, s. 234].

Kənd turizminin inkişafına verilən töhfələr arasında kənd evlərinin restoran və otellərə çevrilməsi üçün dəstəy proqramları yer alır. Bu proqramlar kəndlərin turistik obyektlər kimi inkişafını təmin edir və yerli sakinlər üçün turizmə dəstək mənbəyi olaraq fəaliyyət göstərir.

Kənd turizminin inkişafına verilən töhfələr arasında kəndlərin mədəni və mədəniyyət turizmi üçün tanıtımını təmin etmək üçün düzenlənən tədbirlər də var. Bu tədbirlər vasitəsilə kəndlərin mədəni və tarixi mirasının qəbul edilməsi və dəyərləndirilməsi məqsədilə turistlərə məlumat verilir və onların bu mənbələri görə biləcəyi tur proqramları təşkil edilir.

Dövlət tərəfindən təşkil olunan kənd turizmi mərkəzləri və muzeylər də kənd turizminin inkişafına verilən bir başqa töhfədir. Bu mərkəzlər və muzeylər, turistlərə Azərbaycanın kənd mədəniyyətinin və tarixinin təqdim edilməsi üçün əhəmiyyətli məkanlar təşkil edir.

Əlavə olaraq, kənd turizminin inkişafına verilən töhfələr arasında kəndlərin infrastrukturunun inkişafı, turizm məhsullarının və xidmətlərinin keyfiyyətinin artırılması üçün təşkil olunan təlimlər və kurslar da var. Bu təlimlər vasitəsilə kəndlər daha konkret və təkmilləşmiş turizm məhsulları və xidmətləri təklif edə bilirlər [1, s. 272].

Azərbaycanda kənd turizminin inkişafına verilən töhfələr mövzusu son illərdə turizm sahəsindəki artan maraqla birlikdə daha da aktual olmuşdur. Dövlət və digər təşkilatlar, kənd turizminin inkişafına və bu sahədə potensialın artırılmasına daha çox diqqət ayırır. Kənd turizmi, sakin təbiət mühitləri, təriqqi keçmişi, mədəni irsi və təbii gözəllikləri ilə tanınan Azərbaycan üçün böyük bir potensial əhatə edir. Bu səbəbdən dövlət və digər təşkilatlar bu sahəyə daha çox diqqət ayırmağa başlayıb.

Kənd turizminin inkişafına verilən töhfələr, sadece turizm sektorunun inkişafına dəstək olmaqla qalmır, həm də kəndlərin sosial-iqtisadi inkişafına töhfələrdir. Bu töhfələr, kəndlərin infrastrukturunun inkişafı, yerli sakinlərin məişət səviyyəsinin yaxşılaşması, əhalinin turizm sənayesində iştirak etməsi və turizm məhsullarının və xidmətlərinin keyfiyyətinin artırılması üçün təşkil edilir.

Son illərdə Azərbaycan hökuməti, kənd turizminin inkişafına daha çox diqqət ayıraraq, bu sahədə fəaliyyət göstərən iş adamlarına və mülkiyyət sahiblərinə maliyyə dəstəyi təmin etmişdir. Bu dəstəklər sayəsində kəndlər daha çox turist cəlb edə biləcək turizm obyektlərinə çevrilir və onların turizm potensialı artırılır [3, s. 456].

Aktual olaraq, dünya üzərində pandemiya və turizm sahəsində yaşanan digər dəyişikliklər nəticəsində, insanlar daha çox təbii mühitlərə, sakin və sərhədötnəmələrə maraq göstərir. Bu,

kənd turizminin daha da artan əhəmiyyətə malik olduğunu göstərir və bu sahəyə verilən töhfələrin önəmini vurğular.

**Açar sözlər:** Azərbaycan, kənd, turizm, ətraf mühit, təbiət, turist.

## Ədəbiyyat

1. United Nations Environment Programme. (2021). Greening tourism: A guide for sustainable tourism development and management. Available: https://www.unenvironment.org/resources/report/greening-tourism-guide-sustainable-tourism-development-and-management.
2. Gössling, S., Scott, D., Hall, C.M. (2016). Tourism and water. Channel View Publications.
3. Buckley, R. (2009). Tourism and environment. Annual Review of Environment and Resources, 34, 375-392.
4. World Tourism Organization. (2018). UNWTO annual report 2018. Available: https://www.e-unwto.org/doi/pdf/10.18111/9789284419876.
5. Hall, C.M. (2010). Tourism and national parks: Issues and implications. Routledge.

# AZƏRBAYCANDA VƏ DÜNYADA TURİZMİN İNKİŞAF TENDENSİYASI

**Elçin Əsgərli**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

Turizm insanların müəyyən müddət ərzində öz ölkəsi daxilində və ya digər xarici ölkələrdə istirahət, işgüzar və ya digər səbəblərlə planlaşdırılan səfəridir. Termin bəzən yalnız xarici səyahətə aid edilsə də, geniş şəkildə başa düşülür və ölkə və ya bölgə daxilində səyahəti əhatə edir. Çağdaş dövrdə turizm bir çox ölkələr üçün əhəmiyyətli gəlir mənbəyinə və qlobal iqtisadiyyatın vacib hissəsinə çevrilmişdir. Səyahət və turizm sektoru dünyanın ən böyük valyuta gəliri mənbələrindən biridir. Belə ki, İspaniya, Fransa və ABŞ-dakı turistlər 2006-cı ildə 179,7 milyard dollar xərcləyiblər. Hazırda dünya üzrə turistlərin sayı 1950-ci ildəki 25 milyon ilə müqayisədə 1,4 milyarddır. Həmçinin çağdaş dövrdə bütün dünyada milyonlarla insan tur bələdçiləri, otel işçiləri kimi turizm sahəsində fəaliyyət göstərir. Turizmin tarixi zəngin və genişdir. Belə ki, onun tarixi zamanla dəyişikliklərə, təkamüllərə məruz qalmışdır. Min illərdir ki, insanlar bu və ya digər səbəbdən, istər mövsümi iş, istərsə də sadəcə istirahət üçün bir yerdən başqa yerə səfər edirlər.

Qeyd etməliyəm ki, turizmin başlanğıcı misirlilər və babillilərin tarixi qədər keçmişdir. O zamanlar səyahət mütləq zövq üçün deyil, zərurət üçün idi. İnsanlar yemək tapmaq və təhlükələrdən xilas olmaq üçün səyahət edirdilər. Yalnız Roma İmperiyası zamanında səyahət bir istirahət fəaliyyəti kimi daha populyarlaşdı. Belə olan halda Romada səyahət etmək üçün nisbətən təhlükəsiz olan yol sistemi və səyahətçilərin istirahəti üçün yerlər quruldu. Həmçinin, Orta əsrlərdə Fransa, İspaniya və İtaliyada dini yerləri ziyarət edən zəvvarları yerləşdirmək üçün ziyarət marşrutları boyunca yollar və mehmanxanalar şəbəkəsi yaradılmışdır. Geoffrey Chaucer-in "Canterbury Nağılları" bir qrup zəvvarın paylaşdığı macəralardan bəhs edir. Sonrakı illərdə texnikanın inkişafı turizm sahəsinə də öz tövhəsini vermişdir. Avtomobillərin və qatarların ixtirası 1800-cü illərdə turizm sənayesinin böyüməsinə əhəmiyyətli dərəcədə təsir etdi. Bu məqamda təyyarələrin ixtirasını da qeyd etməliyəm, lakin başlanğıcda orta təbəqəli insanlar üçün qiymətlər xeyli yüksək idi. Ancaq 1950-ci ildə xərclər azaldı və orta təbəqə üçün əlverişli oldu.

Həmçinin, ölkəmiz turizmin bir çox sahələrinin inkişafı üçün geniş resursları özündə ehtiva edir. Azərbaycan geniş turizm imkanlarına malikdir. İqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın azaldılması siyasətinin həyata keçirildiyi Azərbaycanda turizmin inkişafı böyük perspektivlər vəd edir.

Azərbaycanda turizm son 20 il ərzində insanların həyat fəaliyyətinin bir hissəsinə çevrilmişdir. Bu göstəriciyə baxmayaraq ölkəmizdə turizmin inkişafı daha əvvəllərə dayanır. Keçmişə nəzər salsaq görərik ki, hələ o vaxtdan dünyanın çox hissəsindən səyyahlar Azərbaycana gəlmişlər. Bütün bunları nəzərə alaraq Azərbaycanda turizmin inkişafını bir neçə mərhələyə bölmək olar:

1. Qədim və orta əsrlər mərhələsi;
2. XIV-XIX əsrin sonunu əhatə edən mərhələ;
3. XIX əsrin sonu XX əsrin ortalarına qədər olan mərhələ;
4. Müstəqillik dövrünə qədərki mərhələ (1950-1991);
5. Müstəqillikdən sonrakı mərhələ.

Azərbaycan təbiət turizminin inkişafı üçün çox əlverişli məkandır. Xəzər dənizi sahilində yerləşən, Böyük və Kiçik Qafqaz dağları ilə əhatə olunan ölkə ərazisinin yarıya qədəri dağlıq zonalar, qalan hissəsi geniş düzlər, ovalıqlar, çökəkliklərdir, ölkədə 1250-dək çay, 250-dək göl vardır. Landşaftın müxtəlifliyi nəticəsində dünyada mövcud olan 13 iqlim tipindən 9-na ölkəmizdə rast gəlinir, bu isə flora və faunanın zənginliyi deməkdir. Ölkədə 12 minədək heyvan, 4500-dən artıq bitki növü vardır. Dağlıq ərazilər qış turizmi, dağ idman növləri,

ekstremal turizmin inkişafı üçün münasib məkandır. Bundan əlavə, Azərbaycan təbiətinin palçıq vulkanları, Yanardağ kimi nadir nümunələri də turistlərin marağını cəlb edir.

Ölkəmizdə turizm sahəsinin inkişafına 1990-cı illərin ortalarından ictimai-siyasi vəziyyətin sabitləşməsi ilə imkan yaranmışdır. 2001-ci ildə Azərbaycan Respublikasının Prezidentinin qərarı ilə Gənclər və İdman Nazirliyi həmçinin Turizm Nazirliyinə də çevrildi ki, bu da Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin genişlənməsinə, beynəlxalq əməkdaşlığların inkişafına və bazar inteqrasiyasının genişlənməsi üçün mühüm addım oldu. Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 2002-ci ildən Azərbaycanda Beynəlxalq Turizm Sərgisinin keçirilməsi adət halını aldı. Turizmin inkişafı ilə bağlı 2011-ci il Respublikamızda "Turizm ili" kimi qeyd olunmuşdur və bununla bağlı müxtəlif tədbirlər həyata keçirilmişdir. Həmin ildə Bakıda turizmlə bağlı konfranslar keçirilmiş bir neçə yeni brend otellər açılmışdır. Bunların hamısı turizmdə pozitiv dəyişikliklərin baş verdiyini göstərir. Turizmi inkişaf etdirmək məqsədilə Respublikamızın paytaxt və əyalət şəhərlərində turizm informasiya mərkəzlərinin yaradılması sahəsində də mühüm işlər görülmüş və bu fəaliyyət hələ də davam etdirilir. Mədəniyyət və Turizm Nazirliyi bu işə böyük diqqət ayırır.

Bu gün Azərbaycanda bir çox bölgələr turizm bölgəsi kimi aktualdır. Bu xüsusda inkişaf etmiş turizm bölgəsi kimi Bakı, Lənkəran-Astara, Quba-Xaçmaz, Gəncə-Qazax turizm bölgəsini qeyd edə bilərəm.

Azərbaycan Respublikasının paytaxtı olan Bakı şəhəri dünyanın böyük sənayə şəhərlərindən biri olmaqla yanaşı müasir meqapolisdir. Paytaxda qədim mədəniyyət və ənənələrin mövcud olması turistlərin diqqətini daim çəkmişdir. Əsrlərin tarixi izləri tikili mədəniyyəti ilə şəhərin memarlıq quruluşunda özünü əks etdirmişdir.

İçərişəhər-şəhərin görməli və ən maraqlı yerlərindən sayılır. Tarixi görkəmini itirmədən az dəyişikliyə uğrayaraq dövrümüzə qədər gəlib çatmışdır. Nəticə etibarı ilə İçərişəhər açıq səma altında muzey olaraq orta əsrlər memarlığının nadir incisi sayılır. İşərişəhərin, 1988-ci il 27 aprel Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 145 saylı qərarı ilə üç yüz altmışdan çox abidəsi dövlət tərəfindən mühafizəyə alınmışdır. Bu abidələrə "Şirvanşahlar sarayı" (XII – XV), "Qız qalası" (VI – XII), tarixi hamamlar, məscidər və s. aiddir. Şirvanşahlar sarayı, 1921 -ci ildən muzey kimi fəaliyyət göstərməsinə baxmayaraq 1964-cü ildən Dövlət tarixi-memarlıq qoruğu adlandırılmışdır. Digər dəyərli memarlıq abidələrindən Mədrəsə Məscidi, Cümə Məscidi, Buxara karvansaralar, Ağa Mikayıl hamamı İşərişəhərdə yerləşir.

**Açar sözlər:** Geniş resurslar, təbiət turizmi, brend otellər.

**Ədəbiyyat**

1. Murad Şiriyev, Milli iqtisadiyyatın inkişafında turizm sektorunun rolu və bu sektorun dövlət tənzimlənməsi istiqamətləri.
2. Study.com

## AZƏRBAYCANDA KƏND TURİZMİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Məryam Əzizzadə**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

**Xülasə**

Kənd turizmi bölgələrdə məşğulluğun təmini, əhalinin sosial rifahının yaxşılaşdırılması və kənd yerlərinin inkişafının təmin edilməsi vasitəsi kimi önə çıxmaqdadır. Hazırda inkişaf etmiş ölkələrdə turizmin bu növü bölgələrin təbii ehtiyatlarına və yerli əhalinin həyat tərzinə uyğun olaraq formalaşan və kəndin inkişafının davamlılığına verdiyi töhfə sayəsində dəstəklənən bir sektor halına gəlmişdir. Azərbaycan Respublikası üçün kənd yerlərində alternativ fəaliyyət sahələrinin inkişafı və məşğulluğun təmini baxımından kənd turizminin inkişafı mühüm əhəmiyyətə malikdir. Məqalədə kənd turizminin kənd yerlərinin sosial-iqtisadi inkişafına təsirləri qiymətləndirilir, Azərbaycanda kənd turizminin inkişaf imkanları araşdırılır və aşkara çıxarılan problemlərin həlli ilə bağlı təkliflər irəli sürülür.

Ölkəmizdə kənd turizminin genişmiqyaslı inkişaf imkanları mövcuddur və aparılan araşdırmalarda da bu qeyd edilmişdir. Xüsusən də son 10 ildə bu sahədə ciddi irəliləyişlərə nail olunmuşdur. Eyni zamanda, hazırda Azərbaycanın ayrı-ayrı regionlarında, o cümlədən kəndlərində turistlərə yerləşdirmə vasitələri və qidalanma növləri üzrə göstərilən xidmətlər istənilən səviyyədə deyildir. Həmçinin kənd turizminin inkişafı istiqamətində başqa problemlər də mövcuddur. Həmin problemlərin sırasına Kənd turizminin inkişafında beynəlxalq təcrübədən geniş istifadə edilməsi, kənd əhalisinin lazımi informasiya ilə təmin olunması, turizminin bu növünün davamlılığı üçün əlavə xidmətlərin yaradılması və təklif edilməsi, kənd turizmi ilə məşğul olmaq istəyən sahibkarlara güzəştlərin müəyyən olunması, kənd yerlərinə getmək üçün turistlərə nəqliyyat və rabitənin əlyetərliliyinin təmin edilməsi aiddir. Bunların həllini tapması kənd turizmin inkişafına təkan verəcəkdir.

Şübhəsiz ki, “Şəhərdən Kəndə” kimi layihələrin icrası həm kənd turizminin inkişafına, həm də kənd təsərrüfatının inkişafına töhfə verə bilər. Belə ki, kənd təsərrüfatı məhsullarını birbaşa bazara çıxara bilməyən kiçik təsərrüfatlar üçün də alternativ imkanlar yaranır. Kiçik təsərrüfatların istehsal etdikləri məhsulların bir hissəsini turistlərə satmaları onların

büdcələrində artıma səbəb olur. Kənd turizminin inkişafı qarşıdakı müddətdə də kiçik təsərrüfatların istehsal etdikləri meyvələrin, balın, pendirin, kərə yağının, eyni zamanda əl sənət işlərinin, evlərdə toxunan xalça və palazların satışının sürətlənməsinə səbəb ola bilər.

Qeyd edək ki, kənd turizminin inkişafında bələdiyyələr də aktiv rol almalıdır və artıq bu istiqamətdə hüquqi baza formalaşdırılır. Belə ki, Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 29 oktyabr tarixli Fərmanı ilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də dəyişiklik edilmişdir (19) və bu qurumların qarşısına müvafiq ərazidə təşkil olunmuş bələdiyyələr cəlb edilməklə kənd yerləri üzrə qısamüddətli, ortamüddətli və uzunmüddətli inkişaf planlarının hazırlanmasının təmin edilməsi məsələsi qoyulmuşdur. Həmçinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə kənd yerləri üzrə qısamüddətli, ortamüddətli və uzunmüddətli inkişaf planlarının hazırlaması zamanı ehtiyac olduğu təqdirdə müvafiq qurumlara təşkilati dəstək göstərəcəkdir. Yerli icra hakimiyyəti orqanları tərəfindən kənd yerləri üzrə bu inkişaf planlarının hazırlanması və təsdiq olunması şəhər inzibati ərazi vahidlərinə münasibətdə 2021-ci ildən, digər inzibati ərazi vahidlərinə münasibətdə isə 2022-ci ildən etibarən həyata keçiriləcəkdir.

Hazırda dünyada əməkqabiliyyətli əhalinin 8,1 faizi turizm sənayesində və onunla bağlı iqtisadiyyat sahələrində məşğuldur. Azərbaycanda da turizm sektorunun məşğulluqda payının dünya səviyyəsinə çatdırılması mümkündür və kənd turizmi bu sahədə mühüm rol oynaya bilər. Azərbaycanda kənd turizmi ilə bağlı mövcud potensialdan tam istifadə edilmir və koronavirus pandemiyası nəticəsində bu sahə daha çox zərər çəkmişdir. Ölkədə daxili turizmdə kənd turizminin payını müəyyənləşdimək hazırda çətindir. Kənd turizmi ilə bağlı qeydiyyat aparılmadığı üçün bu barədə dəqiq statistikanı bilmək və bu sahədən əldə edilən gəlirləri proqnozlaşdırmaq mümkün deyil. Məsələn, daxili turizm gəlirlərini təhlil edəndə kənd turizminin xüsusi çəkisi çox aşağı olduğu qənaəti yaranır. Digər tərəfdən kənd yerlərində evlərini kirayə verənlərin uçotunun aparılmadığı və həmin vətəndaşlar vergi qeydiyyatında olmadıqları üçün onların əldə etdiyi gəlirlər də rəsmi məlumatlarda əksini tapmır. Onun üçün də dövlət proqramlarında turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi tədbirləri ilə yanaşı statistik məlumatların toplanılması sisteminin və metodologiyasının beynəlxalq təcrübəyə uyğunlaşdırılmaqla təkmilləşdirilməsi ilə bağlı müddəalar əksini tapmışdır. Araşdırmamız göstərir ki, statistik məlumatların toplanılması sisteminin təkmiləşdirilməsi ilə bağlı fəaliyyətin dərinləşdirilməsinə ehtiyac var. Şübhəsiz ki, bu sahədə müvafiq tədbirlərin görülməsi perspektivləri proqnozlaşdırmağa da imkanları artıracaqdır.

**Açar sözlər:** Kənd turizmi, kənd yerləri, kənd təsərrüfatı, məşğulluq, turizm.

## Ədəbiyyat

1. Yusupov Q.M., Turizm işinin təşkili, Assa print & Media, 2011, 211 s.
2. Здоров М.М., Сельский туризм, Самиздат, 2017, 59 с.

# YAŞIL TURİZMİN İNKİŞAF MEYARLARI

**Aytən Həsənova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
Hesenovaayten0306@gmail.com

Yaşıl turizm bir ərazinin təbii mühitinə və mədəni irsinə aid olan və ya yaxşı ətraf mühitin idarə edilməsi təcrübəsini həyata keçirən istənilən turizm formasına tətbiq edilə bilən termindir. Turizm praktikasının ətraf mühitə təsirlərin qarşısının alınması və ya minimuma endirilməsi üçün təcrübələrdə nümayiş etdirməli olduğu üç üsul var ki, o, aşağıdakı əməliyyatlar hesab edilir:

a. Xammal, su və enerji kimi ehtiyatlardan müdrik istifadə;

b. Çirklənmənin qarşısının alınması (hava, torpaq və su);

c. Biomüxtəlifliyin qorunması və mümkün olan yerlərdə genişləndirilməsidir.

Yaşıl turizm ətraf mühitin gələcək üçün qoruyaraq hazırki zamanda səyahət etmək və ətraf mühiti təcrübədən keçirmək üçün düşünülmüş bir yoldur. Bu, ziyarət etdiyiniz yerlərə təsirinizi və davamlı müəssisələri dəstəkləməyin nə üçün vacib olduğunu başa düşmək deməkdir [1].

Turistlər sənətkarlarla, qida istehsalçıları ilə vaxt keçirmək, yerli mədəniyyəti öyrənmək və təbii mühitimizin unikallığını yaşamaq istəyirlər.

Ekoturizm turistləri təbiətlə əlaqələndirmək, ekoloji və mədəni şüura hörmət yaratmaq, həm turistin, həm də ev sahibinin müsbət təcrübəyə malik olmasını təmin etmək, yerli əhali və özəl sənayelər arasında təbiətin mühafizəsi üçün birbaşa maliyyə faydaları yaratmaq, fiziki, sosial, davranış xüsusiyyətlərini minimuma endirmək məqsədi daşıyır [2].

Yaşıl turizm yeni iş yerləri yaradır və regionlara real gəlir gətirir, həmçinin təbiəti qorumaq üçün vasitə və yollar tapmağa imkan verir. Bir çox ölkələrdə turizmin bu növünün inkişafı milli kənd landşaftlarının mühafizəsi və yenidən yaradılmasının əsas istiqamətinə çevrilmişdir - İsveçrənin gözəl alp çəmənliklərini, Hollandiyanın dəyirmanlarını və kanallarını, köhnə parkları beləcə qorumaq mümkün olmuşdur [4].

Yaşıl turizm məhsulu post-sənaye cəmiyyətinin yeni şərtlərinə, turizm məhsullarının əsas

istehlakçısı - orta təbəqənin yeni tələblərinə cavab verən, onların həyat tərzinin xüsusiyyətlərini, psixoloji və mədəni tələbatlarını nəzərə alan, yeni dəyərə malikdir [4].

Yaşıl turizmin inkişafına əsas maneələr bunlardır: əhalinin aşağı ödəmə qabiliyyəti, kənd sakinlərinin maliyyə problemləri, siyasi və iqtisadi vəziyyətin qeyri-sabitliyi, hüquqi nizamlanma, inkişaf üçün xüsusi strategiyaların olmaması [4].

Eyni zamanda, yaşıl turizmin inkişafı üçün əsas ilkin şərtlər bunlardır: müvafiq potensialın olması, ilk növbədə, turistləri qəbul etmək və onların tələbatını ödəmək üçün zəruri olan vəsaitin olması; ərazinin cəlbediciliyi və təsərrüfat mühitinin vəziyyəti; mülkiyyətçinin şəxsiyyəti - əmlak sahibi, onun müəssisəsi, təşəbbüsü, xoş niyyəti və digər xarakter xüsusiyyətləri [4].

Yaşıl Turizmlə yanaşı Yaşıl nəqliyyat ekoturizmin mühüm aspektidir və bu, səyahətçilərə karbon izlərini azaltmağa və öz təyinatlarını daha davamlı şəkildə kəşf etməyə kömək edə bilər. Elektrikli avtomobillərdən tutmuş velosipedlərə qədər səyahətçilər üçün müxtəlif növ yaşıl nəqliyyat variantları mövcuddur. Elektrikli avtomobillər yaşıl nəqliyyat variantı kimi getdikcə populyarlaşır. Onlar sıfır emissiya istehsal edir və günəş və ya külək enerjisi kimi bərpa olunan enerji mənbələrindən istifadə etməklə doldurula bilər. Bir çox avtomobil icarəsi şirkətləri indi elektrik avtomobillərini bir seçim olaraq təklif edir ki, bu da səyahətçilərin daha dayanıqlı nəqliyyat növünü seçmələrini asanlaşdırır [3].

Texnologiya  ekoturizmdə getdikcə daha mühüm rol oynayır. Davamlı turizm təcrübələrini təşviq etmək və səyahətin ətraf mühitə təsirini azaltmaq üçün istifadə olunan bir çox fərqli texnologiya növü var [3].

Texnologiyanın ekoturizmdə istifadə edilməsinin bir yolu səyahətçilərə davamlı yaşayış yerləri tapmağa kömək edən proqramların inkişafıdır. Bu proqramlar səyahətçilərə ekoloji cəhətdən təmiz otellər, lojalar və davamlı turizm təcrübələrinə üstünlük verən digər yaşayış yerləri axtarmağa imkan verir [3].

Təhsil və maarifləndirmə ekoturizmin gələcəyi üçün çox vacibdir. Səyahət seçimlərimizin təsiri haqqında öyrənməklə və davamlı turizm haqqında məlumatlılığı yaymaqla biz hamımız daha məsuliyyətli turist ola bilərik və ətraf mühitin qorunmasına kömək edə bilərik [3].

Təhsil və maarifləndirmənin bir yolu təhsil resurslarının və materiallarının hazırlanmasıdır. Bir çox təşkilat və şirkətlər indi səyahətçilərə daha davamlı səyahət seçimləri etməyə kömək edə biləcək onlayn resurslar və təhsil materialları təklif edirlər. Bu resurslar davamlı turizm təcrübələrinin inkişafına da yardım edir [3].

*"Şübhəsiz ki biz , gələcək nəsillərə sağlam yaşamaq üçün əlverişli bir Planet miras*

*qoymağa borcluyuq" - Ser David Attenborough.*

**Açar sözlər:** Yaşıl turizm, yaşıl nəqliyyat, yaşıl turizmdə texnologiya.

## Ədəbiyyat

1. Huunghivietnga.thoidai.com, Yaşıl turizmin və məsuliyyətli turizmin inkişafı qaçılmaz tendensiyadır.
2. Travel.earth.com, Ekoturizm, Davamlı Turizm və Yaşıl Turizm Arasındakı Fərq.
3. Medium.com, Ceyin Səyahət Tərkibi - Ekoturizmin Gələcəyini kəşf edin - Haqqında Bilməli olduğunuz 10 Trend.
4. Bobrodobro.ru, Regional inkişafda yaşıl turizmin rolu və yeri.

# YAŞIL DÜNYA NAMİNƏ " YAŞIL TURİZM"

**Gültəkin Həsənova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan

hesenovagultekin2003@gmail.com

Yaşıl dünya üçün yaşıl turizm anlayışı ekoloji cəhətdən təmiz, davamlı və təbii ehtiyatları qoruyan turizm növünə aiddir. Bu turizm növü səyahətçiləri təbii ərazilərə zərər vermədən, yerli icmalara fayda verərək və ekosistemləri qoruyaraq səyahət etməyə təşviq edir. Yaşıl turizm təbii gözəllikləri araşdırmaq və yerli mədəniyyətləri yaşamaq istəyənlər üçün ideal seçimdir.

Yaşıl turizmin bir çox üstünlükləri var. İlk növbədə təbii əraziləri qoruyur və ətraf mühitə təsirləri minimuma endirir. Bu, ekosistemləri və biomüxtəlifliyi qoruyub saxlamaqla gələcək nəsillər üçün daha sağlam mühit buraxmağa kömək edir. Eyni zamanda, yerli iqtisadiyyatlara töhfə verir və yerli icmaların inkişafına dəstək verir. Yaşıl turizm ümumiyyətlə mədəni qarşılıqlı əlaqə və anlaşmanı artırır, ziyarətçiləri yerli insanlarla qarşılıqlı əlaqəyə təşviq etməklə mədəni mübadiləni dəstəkləyir.

Yaşıl və davamlı turizm:

- Təbii və mədəni irsin qorunması,
- Enerji səmərəliliyi də daxil olmaqla resursların səmərəliliyi üçün təcrübələrin həyata keçirilməsi,
- Təbii ətraf mühitə və biomüxtəlifliyə təsirin minimuma endirilməsi,

- Kənd yerləri ilə şəhər arasında fiziki bütövlüyün qorunması,
- Məşğulluğun artırılması. Yerli əhalinin və yerli əhalinin gücləndirilməsi,
- Gender bərabərliyinə töhfə vermək,
- Destinasiyanı ziyarət etməyə gələn turistlərin məmnunluğunun artırılması [3].

Yaşıl turizm təbii ərazilərdə aşağı təsirli yaşayış yerlərini, yerli təchizatçıları və metodları dəstəkləyir. Bundan əlavə, o, tullantı və enerji istifadəsini minimuma endirir, su ehtiyatlarını qoruyur və ətraf mühitə təsirin azaldılması üçün davamlı təcrübələri təşviq edir. Bu yolla, turizmin ətraf mühitə təsirlərini minimuma endirməklə təbii ehtiyatların qorunmasına kömək edir. Buraya yaşıl turizm üzrə təlim və maarifləndirmə tədbirləri də daxildir. Ziyarətçiləri təbii ərazilərə hörmətlə yanaşmağa və ekoloji cəhətdən təmiz qərarlar qəbul etməyə təşviq etmək üçün maarifləndirmə proqramları təşkil edilir [1]. Bundan əlavə, yerli icmalarla əməkdaşlıqda təbii ərazilərin qorunmasına kömək etmək üçün layihələr hazırlanır.

Yaşıl turizm istirahət edənləri təbii ərazilərdə təbiət fəaliyyətləri etməyə təşviq edir. Gəzinti, dağ velosipedi, təbiət gəzintiləri və quş seyri kimi təbiət fəaliyyətləri ziyarətçilərə təbii mühiti araşdırmaq imkanı verir. Bundan əlavə, yerli kənd təsərrüfatı fəaliyyətlərində iştirak və ənənəvi əl işləri kimi təcrübələr də yaşıl turizmin bir hissəsi ola bilər.

Yaşıl turizm istiqamətlərin davamlı idarə olunmasını və yerli icmaların iştirakını təşviq edir. Bu turizm növü turizm sənayesinin iqtisadi, ekoloji və sosial təsirlərini balanslaşdırmaq məqsədi daşıyır. Beləliklə, turizmin mənfi təsirləri minimuma endirilərkən, yerli iqtisadiyyata və cəmiyyətə müsbət töhfələr verilir.

Bu kontekstdə təyinat yerlərinin və obyektlərin davamlılıq standartlarına uyğunluğu sertifikatlaşdırıla bilər. Bu sertifikatlaşdırma prosesi beynəlxalq dayanıqlı turizm standartları nəzərə alınmaqla həyata keçirilir. Beləliklə, yerləşdirmə obyektləri, turoperatorlar və digər turizm xidmətləri təminatçıları öz davamlılığını sübut edə bilərlər [2].

Yaşıl turizm səyahətçiləri öz seçimlərini edərkən ətraf mühitə təsirlərini nəzərə almağa təşviq edir. Bu yolla turistlər davamlı turizm təcrübələrini dəstəkləyən istiqamətləri seçə bilərlər. Eyni zamanda, yaşıl turizm səyahətçilərin ekoloji və sosial cəhətdən məsuliyyətli tətil seçimlərinə çıxışını asanlaşdırmaq üçün məlumat və yönləndirmə xidmətləri təqdim edir.

Bu kontekstdə yaşıl turizmi populyarlaşdırmaq və dəstəkləmək üçün milli və beynəlxalq səviyyədə siyasət və təşviqlər hazırlana bilər. Davamlı turizmi təşviq edən vergi üstünlükləri, maliyyə dəstəkləri və təşviq paketləri yaradıla bilər. Bundan əlavə, yaşıl turizm fəaliyyətlərini təşviq etmək və brend şüurunu artırmaq üçün marketinq və kommunikasiya strategiyaları hazırlana bilər [3].

Nəticədə yaşıl dünya üçün yaşıl turizm ekoloji cəhətdən təmiz, davamlı və təbii ehtiyatları qoruyan bir turizm modelini təmsil edir. Bu model təbii əraziləri qorumaq, yerli icmalara fayda vermək və ziyarətçiləri maarifləndirmək yolu ilə turizmin müsbət təsirlərini artırmaq məqsədi daşıyır. Dayanıqlı turizm sənayesinin inkişafına töhfə verməklə yaşıl turizm gələcək nəsillər üçün daha sağlam və balanslı bir dünya yaratmağa kömək edə bilər.

**Açar sözlər:** Yaşıl turizm, davamlı turizm, ekosistemlərin qorunması, yerli icmalar, iqtisadiyyatın inkişafı.

### Ədəbiyyat

1. https://rolandia.eu/en/blog/travel-tips/what-are-green-tourism-ecotourism-and-sustainable-tourism
2. https://www.linkedin.com/pulse/green-tourism-its-example-iqbal-uddin-abbasi
3. https://www.sentrum.com.tr/yesil-ve-surdurulebilir-turizm-nedir

## YAŞIL ENERJİ MƏNBƏLƏRİ

**Əli Heydərli**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
heyderlieli226@gmail.com

Prezident İlham Əliyev Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı 2023-cü ildə dekabr ayının 25-də sərəncam imzalayıb. Sərəncamda qeyd olunub ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişməsinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Buna Keşikçidağda aparılan yaşıllaşdırma işlərini nümunə gətirmək olar [1].

"Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğu olaraq həmin prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası məqsədilə ağacəkmə aksiyası həyata keçirilmişdir. Qoruğa məxsus informasiya mərkəzinin ətrafında salınmış "Badam bağı"nda keçirilmiş aksiyada qoruq əməkdaşları tərəfindən ərazinin landşaftına uyğun 300-dən çox badam tingi əkilmişdir [3].

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür. Qeyd edək ki, 30 ilə yaxın münaqişə şəraitində olan ölkəmiz 2020-ci ildə nəhayət öz tarixi torpaqlarını işğaldan azad etdi. Lakin bu müddət ərzində ekoloji mühiti ciddi çirklənmələrə və digər mənfi təsirlərə məruz qalmışdır (bitki və heyvanat aləminə dəyən zərər, tikililərin, abidələrin məhv edilməsi, torpaq və bitki örtüyünün zərər görməsi, ərazilərin minalanması nəticəsində təhlükəli vəziyyətin olması, yaşıllıqların qırılması və yandırılması və s.) [5].

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur [2].

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

Enerji keçidi mərhələli və paralel şəkildə olmalıdır. Bunun üçün ənənəvi enerji mənbələrinin inkişafına xüsusi diqqət yetirilməli, bu sahəyə qabaqcıl azkarbonlu texnologiyaların tətbiqi nəzərdə tutulmalıdır.

Yaşıl enerji növlərinə aşağıdakıları aid edə bilərik:

- Günəş enerjisi,
- Külək enerjisi,
- SES ( Su elektrik enerjisi stansiyası).

Azərbaycan hökuməti tərəfindən 2021-ci ilin noyabr ayında Qlazqo şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişikliyi Konfransında (COP26) baza ili ilə müqayisədə 2050-ci ilə qədər istixana qazı emissiyalarının 40%-ə qədər azaldılması və işğaldan azad edilmiş ərazilərdə "xalis sıfır emissiya" zonası yaradılması niyyəti bəyan edilmişdir. Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında günəş enerjisi layihələri üçün əlverişli potensial mövcuddur və bu texniki potensial 7200 MVt-dan artıq olaraq qiymətləndirilir. Eyni zamanda, ilkin araşdırmalara əsasən, Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olması müəyyən edilmişdir [4].

İşğaldan azad edilmiş ərazilərin bərpası prosesinin mühüm tərkib hissəsi kimi enerji infrastrukturunun qurulması və enerji təhlükəsizliyinin təmin edilməsinə xüsusi əhəmiyyət verilir. Bu hədəfə uyğun olaraq elektrik enerjisinin istehsal güclərinin bərpası çərçivəsində Laçında, Kəlbəcərdə və Suqovuşanda bərpa edilən 20.2 MVt gücündə 4 su elektrik stansiyası artıq istismara verilmişdir:

• "Güləbird" SES - 8 MVt;

• "Suqovuşan-1" KSES - 4,8 MVt;

• "Suqovuşan-2" KSES - 3,0 MVt;

• "Kəlbəcər-1" KSES - 4,4 MVt.

Eyni zamanda, Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində ümumi gücü Azərbaycan tərəfi üçün 140 MVt (100 MVt "Xudafərin", 40 MVt "Qız Qalası") olmaqla, iki su elektrik stansiyasının tikintisi hazırda davam etdirilir [4].

**Enerji probleminin aktuallaşma səbəbi**

Enerji məsələləri üzrə ekspert Zəfər Vəliyev bildirdi ki, bu məsələ uzun zamandır müzakirə edilirdi. Lakin Rusiya-Ukrayna müharibəsindən sonra daha da aktuallaşıb: "Qaz emissiyaları dedikdə söhbət boru, kəmər vasitəsilə nəql edilən, metan tərkibli qazdan gedir. Hədəf neft və qaz yataqlarında hasilat prosesində metan tərkibli qazın atmosferə atılmasının qarşısını almaq, eyni zamanda qapalı boru kəməri vasitəsilə nəql prosesində, həmçinin istehsal və istehlak zamanı metan emissiyalarının miqdarını aşağı salmaqdır. Yaşıl enerjiyə keçidlə bağlı işlər görülürdü. Amma 2022-ci ildə Rusiyanın Ukraynaya hərbi müdaxiləsindən sonra qlobal enerji axın xətlərində, satış və istehlak mərkəzləri, həmçinin ixrac marşrutlarında dəyişikliklər baş verib. Rusiyanın beynəlxalq ixrac qabiliyyətinə qoyulan məhdudiyyətlər Avropa bazarlarında dərin enerji böhranının yaranmasına səbəb olub. Sakit okean bazarlarında, eyni zamanda ABŞ-də problemlər müşahidə edilib. Bu məsələlər prosesləri daha da sürətləndirib" [6].

**Burda qarşıya qoyulmuş əsas məqsəd "yaşıl" iqtisadiyyatı inkişaf etdirməkdir.**

Azərbaycanın qarşısında prioritet hədəflər mövcuddur: "Ənənəvi enerji mənbələrinin inkişafına xüsusi diqqət yetirilir, azkarbonlu texnologiyaların tətbiqi, metan emissiyalarının minimuma endirilməsi, istehsal və hasilat proseslərində karbon dioksid emissiyalarının atmosferə atılmasının azaldılması, enerji səmərəliliyinin illik orta axınını bir neçə dəfə artırmaq istiqamətində addımlar atılır. Eyni zamanda, bir sıra şirkətlərlə bərpa olunan enerji mənbələrinin inkişafına da diqqət ayrılır. Azərbaycan regionda yaşıl enerjiyə keçiddə öndə olan dövlətlərdəndir. Həm Şərqi Zəngəzur, həm Naxçıvan, həm Bakı-Abşeron iqtisadi rayonlarında yaşıl enerjinin inkişafına nail olmaqla, ənənəvi enerji mənbələrindən artıq qalan həcmləri

beynəlxalq bazarlara yönəldəcəyik. Məqsədlərimiz eyni zamanda mərhələli şəkildə "yaşıl" iqtisadiyyatı inkişaf etdirmək, "yaşıl" investisiyaları ölkəyə cəlb etmək, bu sahədə aparıcı dövlətlərdən birinə çevrilmək, əldə olunan yaşıl enerji həcmlərinin bir hissəsini Avropa, Qara dəniz hövzəsi ölkələrinə ixrac etməkdir" [6].

### Ədəbiyyat

1. https://president.az/az/articles/view/62737
2. https://serqqapisi.gov.az/xeberler/yasil-dunya-namine-hemreylik, Səbuhi Həsənov.
3. https://keshikchidagh-heritage.az/az/content/10762
4. https://area.gov.az/az/page/layiheler/yasil-enerji-zonasi/yasil
5. https://eco.gov.az/az/nazirlik/xeber?newsID=20466
6. https://kaspi.az/az/yasil-enerjiye-kecid-aktuallasir

## AZƏRBAYCANDA YAŞIL TURİZMİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ

**Nihad Hüseynli**
Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
nihad627@gmail.com

Son illərdə iqlim dəyişikliyinə olan diqqətin artması turizm növlərinə olan tələbatın yüksəlməsi ilə müşaiyyət olunur. Bu səbəbdən müxtəlif dövlət qurumları tərəfindən kənd turizminə olan diqqət artmışdır. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dövlət Məşğulluq Agentliyi tərəfindən icra olunan özünüməşğulluq proqramına 2022-ci il ərzində 16,1 min şəxs cəlb olunaraq onlar üçün kənd təsərrüfatı, istehsal və xidmət sahələri üzrə kiçik təsərrüfatlar yaradılıb. Həyata keçirilən proqram daxilində şəhid ailəsinin üzvləri, müharibə iştirakçıları, əlilliyi olan şəxslər, keçmiş köçkünlər və gənclər olub. Ümumilikdə ötən dövrdə 60 min nəfər özünüməşğulluq proqramına cəlb olunub. Proqrama cəlb olunan şəxslər ilk olaraq təlimlərdə iştirak edir, qiymətləndirilməsi aparılır və biznes planlarına uyğun olaraq mal və materiallar formasında aktivlər verilməklə, onlar üçün kiçik ailə təsərrüfatları yaradılır [4].

Özünəməşğulluq çərçivəsində yaşıl turizm növlərinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Proqram Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Dövlət Turizm Agentliyi ilə birgə Azərbaycanda aqroekoturizmin inkişafı istiqamətində şəhərdən

kəndə sosial layihəsi çərçivəsində həyata keçirilir.

Layihənin məqsədi kənd turizmini inkişaf etdirmək, kəndli-fermerlər üçün əlavə gəlir mənbələri və məhsullarını yerindəcə gəlirə çevirmə imkanı yaratmaq, şəhər sakinlərinə fərqli istirahət təqdim etmək, turistlərin kənd həyatı, mədəniyyəti və adət-ənənələri ilə daha yaxından tanış olmasını təşkil etməkdir.

Layihənin fermerlər üçün faydaları da böyükdür. Bu proqram daxilində fermerlər aqroturizmlə bağlı təlimlərdə iştirak edirlər; bilik və bacarıqların artırılması müşaiyət olunur; layihəyə qoşulan fermer təsərrüfatları abadlaşdırılması və təsərrüfatlara texniki və avadanlıq dəstəyi həyata keçirilir; yeni fəaliyyət sahəsi, əlavə gəlir imkanı və istehsal edilən məhsulların yerində satış imkanı yardılır.

Layihənin turistlər üçün də faydaları vardır. Turistlər kənd təsərrüfatının müxtəlif sahələri ilə tanışlıq əldə etməklə bərabər yerli kulinariya sirlərinə yiyələnirlər. Bundan başqa turistlər kənd evlərini, təsərrüfat sahələrini və emal müəssisələrini ziyarət edirlər, mövsümi olaraq kənd təsərrüfatı məhsullarının yığımında iştirak edirlər. Turistlər üçün təbii kənd təsərrüfatı məhsulları ilə qidalanma təşkil olunur. Turistlər şəhər mühitindən uzaqlaşmaqla kənd həyatının üstünlüklərini kəşf etmək imkanı əldə edirlər [5].

Ölkəmizdə qəbul olunmuş “Ailə kəndli təsərrüfatı haqqında” Qanunda kənd sakinləri tərəfindən evətrafı təsərrüfatlarında kiçik həcmli sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq imkanları əks etdirilir. Qanunda əl sənətkarlığı, kiçik inkubator avadanlığının işlədilməsi, yeyinti məhsullarının hazırlanması və yaşıl turizmlə məşğul olunması tövsiyə olunur [1].

Müasir dünya bazarında kənd turizmi kifayət qədər gəlirli fəaliyyət kimi qiymətləndirilir. Dünya təcrübəsi aqroturizm sektorunun ildə orta hesabla 6% artımını göstərir [6].

Müxtəlif ölkələrdə kənd turizminin inkişaf etdirilməsi məqsədi ilə dövlət proqramları qəbul edilir, maliyyə dəstəyi göstərilir. Almaniyada, Macarıstanda, İtaliyada, Fransada, Ukraynada, Polşada, Rusiyada  kənd turizminə aid qanunvericilik aktları qəbul edilib. Bu ölkələrdə kənd yaşıl turizminin inkişafına dəstək məqsədilə vergi güzəştləri tətbiq edilir. Almaniyada, Polşada, Macarıstanda çarpayıların sayı 9-dan çox olmayan kənd qonaq evləri əldə etdikləri gəlirə görə vergilərdən azad edilir [3].

Azərbaycanda ailə kəndli təsərrüfatlarında əldə olunan gəlir hər ailə üzvünə görə 5000 manatdan az olduqda vergidən azad edilirlər [2].

Kənd turizminin inkişafının məqsədəuyğunluğu aşağıdakı hallarla müəyyən edilir:

- kənd yerlərinin əhəmiyyətli təbii və rekreasiya ehtiyatları;
- alternativ turizm növlərinin artan populyarlığı;
- kənd yerlərində əhəmiyyətli mənzil fondu;

- kənd yaşıl turizminin nisbi ucuzluğu;
- kənd əhalisinin gəlir və məşğulluq səviyyəsinin yüksəldilməsi zərurəti;
- kənd yerlərinin mühəndis-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi zərurəti.

Kənd yaşıl turizminin kəndin sosial-iqtisadi problemlərinin həllinə müsbət təsiri kompleks və sistemli xarakter daşıyır, çünki kənd əhalisinin məşğulluğunun genişləndirilməsinə kömək edir və kənd yaşayış məntəqələrinin abadlaşdırılmasını stimullaşdırır.

Kənd yerlərinin inkişafının müasir prioritetləri kontekstində kənd yaşıl turizminin inkişafının sosial-iqtisadi əhəmiyyəti ondan ibarətdir ki, o:

- yardımçı fəaliyyət növü kimi yaşıl turizmlə məşğul olan kəndli təsərrüfatlarının inkişafını stimullaşdırır;
- yerli infrastrukturun inkişafını aktivləşdirir;
- izafi kənd təsərrüfatı məhsullarının satışına, kəndlilərin əlavə gəlirlərinin və büdcələrə töhfələrin artırılmasına kömək edir;
- yerli əmək bazarını aktivləşdirir, məşğulluğu artırır, gəncləri kənddə saxlayır, xarici gəlirlərə ehtiyacı azaldır;
- turizm ehtiyatlarının qorunmasına, yerli əhalinin etnik-mədəni kimliyinin qorunub saxlanmasına xidmət edir;
- aztəminatlı insanların istirahəti üçün imkanlar yaradır.

**Nəticə.** Beləliklə, kənd turizmi ilə məşğul olmaqla hər bir kənd sakini əlavə gəlir mənbəyinə malik olur. Turist isə öz növbəsində alternativ istirahət imkanlarına malik olur. Kənd turizmin inkişafı ətraf mühitə, təbiətə, antropogen obyektlərə olan diqqətin artırılmasına, atmosferin çirkləndirilməsinə yönəldilmiş təsirin azaldılmasına səbəb olur.

**Açar sözlər:** Özünəməşğulluq, kənd turizmi, dövlət proqramları, ailə kəndli təsərrüfatı.

## Ədəbiyyat

1. Ailə kəndli təsərrüfatı haqqında Qanun, No.926-IIQ, Bakı ş., 14.06. 2005-ci il.
2. AR NK Ailə kəndli təsərrüfatının illik dövriyyəsinin yuxarı həddinin müəyyən edilməsi haqqında Qərar No.11, Bakı ş., 16.01.2016-cı il.
3. Yusupov Q., Turizm işinin təşkili, təlim materialı. Bakı, 2011, 211 s.
4. https://dma.gov.az/media/xeberler/161-min-sexs-ucun-kicik-teserrufatlar-yaradilib
5. https://tovillage.az/about-us
6. https://lib.udau.edu.ua:8443/server/api/core/bitstreams/6bd9f194-0518-48ed-b346-a63cadcc8591/content

# QARABAĞDA YAŞIL TURİZMİN FORMALAŞMASI VƏ İNKİŞAFI

**Fidan Hüseynova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
fidanhuseynovaicloud@icloud.com

Məqalədə yaşıl turizm haqqında araşdırma aparılmış və eyni zamanda Qarabağda "Yaşıl turizm" formalaşması və inkişaf istiqamətlərindən bəhs olunur.

Yaşıl turizm təbiətin bütövlüyünü qorumaq, ətraf mühitə zərər verməmək, təbii və mədəni irsi qorumaq, yerli icmaların rifahını artırmaqla davamlı şəkildə həyata keçirilən turizm fəaliyyətidir. Bu turizm növü təbii gözəlliyin və biomüxtəlifliyin kəşfiyyatı, təbii parklar və qorunan ərazilərdəki fəaliyyətlər, ekoloji kənd təsərrüfatı və yerli sənətkarlıq kimi fəaliyyətlərə diqqət yetirir.

Yaşıl turizm turistləri təbii mühiti qorumaq və davamlı inkişafı dəstəkləmək üçün səyahət etməyə təşviq edir. Bu turizm növündə yerli əhalinin mədəniyyətinə, adət-ənənələrinə və həyat tərzinə hörmət edilir və onların iqtisadi töhfələri təşviq edilir.

Təbiət gəzintiləri, dağ velosipedi turları, quşlara baxış səfərləri, düşərgə, ekoturistik turlar, orqanik əkinçilik fəaliyyətlərində iştirak kimi fəaliyyətlər yaşıl turizmin əsas nümunələridir. Bu cür fəaliyyətlər turistlərə təbii mühiti araşdırmaq, yeni mədəniyyətlərlə tanış olmaq və yerli icmalarla ünsiyyət qurmaq imkanı verir.

Yaşıl turizm davamlı turizm prinsiplərinə əsaslanır və turizmin mənfi təsirlərini minimuma endirməyi hədəfləyir. Bu turizm növü ətraf mühitin mühafizəsi, sosial və iqtisadi inkişaf və mədəni irsin qorunması arasında balansı təmin edir.

Bu turizm növünün geniş şəkildə seçilməsi təbii sərvətlərin qorunmasına, yerli iqtisadiyyatın güclənməsinə və cəmiyyətlərin rifahının yüksəlməsinə töhfə verə bilər. Bununla belə, təbii və mədəni irsin qorunması üçün diqqətlə planlaşdırılmalı və idarə edilməlidir. Əks halda, həddindən artıq turizm fəaliyyəti təbii mühitə və yerli mədəniyyətlərə zərər verə bilər [1].

Qarabağda “yaşıl turizm” konsepsiyası bölgənin təbii gözəllikləri, zəngin tarixi-mədəni irsi ilə harmoniyada inkişaf etdirilərək ekoloji və sosial davamlılığı hədəfləyir. Bu kontekstdə Qarabağda yaşıl turizmin formalaşması və inkişafı üçün aşağıdakı istiqamətlər vacibdir.

Təbiət ərazilərinin mühafizəsi və bərpası: Qarabağın təbii ərazilər, dağlar, meşələr, göllər və çaylar kimi qiymətli təbii sərvətlərinin qorunması və bərpası üçün səylər göstərilməlidir. Bu, biomüxtəlifliyin qorunmasını və ekosistem xidmətlərinin davamlılığını təmin edəcək.

Gəzinti və trekkinq marşrutlarının yaradılması: Qarabağın nadir təbiət mənzərələrini kəşf etmək üçün gəzinti və trekkinq marşrutlarının yaradılması və qeyd edilməsi vacibdir. Bu, turistlərə təbiətlə birbaşa əlaqə yaratmaq və bölgənin təbii gözəlliyini qoruyub saxlamaqla ziyarətçilərə unikal təcrübələr təqdim etmək imkanı verəcək.

Mədəni irsin qorunması və turizmə açılması: Qarabağın zəngin tarixi və mədəni irsi onun turizm potensialını artırmaq üçün mühüm mənbədir. Tarixi qalalar, məbədlər, kilsələr və ənənəvi kəndlər kimi ərazilərin bərpası və turizmə açılması mədəni irsin qorunub saxlanılması və turistlərin bölgəyə cəlb edilməsi baxımından əhəmiyyətlidir [4].

Ekoturizmin və ferma turizminin inkişafı: Qarabağda ekoturizm və təsərrüfat turizmi kimi davamlı turizm fəaliyyətlərinin inkişafı yerli iqtisadiyyatın canlanmasına və cəmiyyətlərin rifahının yüksəldilməsinə töhfə verə bilər. Ekoloji əkinçilik fəaliyyətlərində iştirak etmək, yerli yeməklərin dadına baxmaq və təbii həyatın qorunduğu fermalarda qalmaq kimi fəaliyyətlər turistlərə unikal təcrübələr təqdim edə bilər.

Turizm infrastrukturunun inkişafı: Qarabağda yaşıl turizmin inkişafı üçün müvafiq infrastruktur və xidmətlərin təmin edilməsi vacibdir. Yerləşdirmə obyektləri, bələdçilik xidmətləri, yemək və içki seçimləri, turizm nəqliyyatı və açıq hava idman avadanlıqları kimi turizm infrastrukturunun təkmilləşdirilməsi turist məmnuniyyətini artıra bilər.

Turizmin təşviqi və marketinqi: Qarabağın yaşıl turizm potensialını təbliğ etmək və hədəf auditoriyaya çatdırmaq üçün effektiv strategiyalar və kampaniyalar hazırlanmalıdır. Təbiətsevərlərin diqqətini cəlb etmək üçün bölgənin digər turizm istiqamətləri ilə müqayisədə özünəməxsus xüsusiyyətləri vurğulanmalı və müxtəlif marketinq kanallarından istifadə edilməlidir [5].

Qarabağ'da "yaşıl turizm" formalaşması və inkişaf istiqamətləri mövzusu son dövrlərin ən aktual məsələlərindən biridir. Bu, bölgədəki təbii və mənəvi zənginliklərin istifadə edilməsi ilə ətraf mühitin və ictimai-sosial sürətlərin inkişafına dəstək verir. Bu sahədə əldə ediləcək nəticələr:

1. Ekoloji İnkişaf: Yaşıl turizmin təbii gözəlliklərinin və ətraf mühitin keyfiyyətinin artırılmasına töhfə verəcəyi gözlənilir.

2. Sosial İnkişaf: Yaşıl turizm ictimai-sosial inkişafı təşvik edir, yerli icma və turistlər arasında mənimsənilən dəyərləri və mədəni mənsubiyyətləri gücləndirir. Bu, yerli əhali üçün iş və məşğuliyyət imkanlarının yaradılması və bölgənin mədəni kimliyinin qorunması ilə əlaqəlidir.

3. Turizm Qazancı: Yaşıl turizm bölgədə turizm sənayesinin inkişafına səbəb olaraq, iqtisadiyyatının canlanmasına və yeni iş yerlərinin yaradılmasına imkan verir. Turistlərin bölgədəki aktivlərə və xidmətlərə xərclədiyi pul, yerli sakinlərə maliyyəvi təkan verir.

4. Mənsubiyyət və Markalaşma: Yaşıl turizm bölgenin mənsubiyyətini gücləndirir və markalaşmasına dəstək olur. Bölgənin unikal mənsubiyyətə malik olması və turistlərə bənzərsiz təcrübələr təqdim etməsi, bölgənin tanıdılmasına və turizm mərkəzi kimi inkişafına kömək edir.

5. Sürdürüləbilən İnkişaf: Yaşıl turizm ətraf mühit və mədəni varlıqların qorunmasını və insan təsirinin minimalizə edilməsini təmin edir. Bu, bölgənin uzunmüddətli inkişafını və turizm sektorunun dayanıqlılığını təmin edir.

Bu yönəltmələr nəticəsində Qarabağ yaşıl turizm sahəsində daha çox diqqət mərkəzində olacaq və bölgənin turizm potensialı daha geniş bir auditoriya tərəfindən müəyyən ediləcək.

**Açar sözlər:** Qarabağ, yaşıl turizm, istiqamət, təbiət, turist, gəzinti.

## Ədəbiyyat

1. Şərq Azərbaycanın İqtisadi Tarixi (Namiq Qəmbəroğlu, Azərbaycan: Elm və İnformasiya Nazirliyi, 2003).
2. Azərbaycanın Turizm Sənayesi: Mövcud Vəziyyət və İnkişaf Perspektivləri (Tarlan İbadlı, Əmrah Həsənov, ADA Universiteti, 2016).
3. Qarabağda yaşıl turizmin formalaşması və inkişafı ilə bağlı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Sərəncamlar: Güclü, Sürətli və Ətraflı İnkişaf adlı dərslik kitabında yer alan məqalələr.
4. Qarabağda yaşıl turizmin inkişaf istiqamətləri barədə məlumatlar Azərbaycan Respublikasının Turizm Nazirliyi və müvafiq bölgə idarələri tərəfindən rəsmi açıqlamalar və məqalələr.
5. Bölgədə yaşıl turizm mövzusunda beynəlxalq təcrübə və təcrübələrin paylaşıldığı xarici və yerli akademik jurnallarda dərc edilmiş məqalələr.

# YAŞIL TURİZM ƏRAZİLƏRİ

**Əli Məmmədli**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
eli590917@gmail.com

Yaşıl turizm, müxtəlif istiqamətləri və mənaları olan ekoloji cəhətdən təmiz turizm fəaliyyəti kimi müəyyən edilir. Geniş mənada yaşıl turizm ekoloji cəhətdən təmiz turist olmaq və ya ekoloji cəhətdən təmiz turist xidmətləri göstərməkdən ibarətdir. Yaşıl turizm konsepsiyası, effektiv və nəzərəçarpacaq ekoloji idarəetmə üsullarını qəbul etməklə ətraf mühitin performansını yaxşılaşdırmaq üçün hökumətin artan təzyiqi səbəbindən turizm müəssisələri və operatorları üçün çox cəlbedici olardı. Bundan əlavə, beynəlxalq miqyasda tanınan ekoloji mükafatların əldə edilməsi və təşviqi turizm müəssisələrinin xidmətlərini marketinqində mühüm rol oynayacaqdır.

Turizmin əsas sənaye kimi meydana çıxması qlobal iqtisadi fəaliyyətdə baş vermiş ən diqqətəlayiq dəyişikliklərdən biridir [1]. Turizm dünyada üçüncü ən böyük iqtisadi fəaliyyətdir (neft və avtomobillərdən sonra) və ən sürətlə inkişaf edən fəaliyyətlərdən biridir. Turizmdən əldə edilən gəlirlər inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına gəlir, məşğulluq və tədiyyə balansının təsirləri baxımından mühüm töhfə verir. Bu səbəbdən bir çox inkişaf etməkdə olan ölkələr iş yerləri yaratmaq, iqtisadiyyatlarını şaxələndirmək və xarici valyuta qazanmaq vasitəsi kimi turizmi fəal şəkildə həyata keçirməyə başlayıblar.

Turizmin üç əsas təsiri arasında - iqtisadi, sosial-mədəni və ekoloji - iqtisadi təsir siyasətin formalaşmasında dominant rol oynamışdır [2]. Turizmin inkişafını müşayiət edən iqtisadi faydalara diqqət yetirilməklə, turizmin mənfi sosial-mədəni və ekoloji təsirləri nisbətən nəzərə alınmayıb. İqtisadi faydalara əsaslanaraq, turizmin inkişafı bir çox sosial və iqtisadi problemlərin həlli üçün dərman kimi nəzərdə tutulmuşdur. Bu, bir çox ölkələrdə turizm infrastrukturunun ayrı-seçkiliksiz və plansız böyüməsinə səbəb oldu və tezliklə sosial və ekoloji deqradasiya şəklində mənfi təsirlər özünü göstərməyə başladı. Turizmin ətraf mühitə mənfi təsiri barədə məlumatlılığın artması səbəbindən turizmin davamlı olması üçün yanaşmaların işlənib hazırlanmasına səylər göstərilmişdir. Son iki onillikdə turizmin inkişafı və ətraf mühitin keyfiyyəti arasındakı əlaqəyə artan marağın şahidi olduq [2], yaşıl turizm də daxil olmaqla xüsusi maraq turizminin ortaya çıxması ilə bağlıdır.

Yaşıl Turizm Konsepsiyası

Yaşıl məhsul anlayışı müəyyən etməkdən daha asan istifadə olunan bir məhsuldur. Yaşıl turizm ekoloji cəhətdən təmiz turizmi göstərmək üçün istifadə olunur, lakin fərqli fokuslara və mənalara malikdir. Çox vaxt belə iddialar qəbul edilmiş və ya standart tərifləri olmayan terminlərdən istifadə edir və ya irəli sürülən iddianın boşluğunu yumaq üçün ekstravaqant dildən istifadə edir. Bu terminlər iki məqsəd üçün istifadə olunur: birincisi, müştərilərə gedəcəkləri tətil məkanının gözəl və bozulmamış olduğunu bildirmək. Yaşıl turizm və ya ekoloji narahatlıqla əlaqəli başqa bir termin daha çox təbiət tətillərini ekzotik istiqamətlərə etiketləmək üçün istifadə olunur. İkincisi, yaşıl turizm iddiaları həmin ərazidə baş verən turizm əməliyyatlarının ətraf mühitə zərər vermədiyinə işarə etmək üçün istifadə edilə bilər [3].

İnkişaf Etməkdə Olan Ölkələrdə Yaşıl Turizm Sertifikasiyası

İnkişaf etməkdə olan ölkələrdə turizmin inkişafının zərərli təsirləri keçmiş tədqiqatlarda yaxşı müzakirə edilmişdir. Təbii mühiti mühüm turizm resursu kimi tanıyan turizm sənayesinin dövlət və özəl sektorları turizmin inkişafı ilə bağlı ətraf mühitə mənfi təsirləri məhdudlaşdırmaq üçün getdikcə daha çox ekoloji cəhətdən uyğun inkişaf tədbirlərini qəbul edir və həyata keçirirlər. Ekoloji cəhətdən həssas turizmin inkişafının əsas elementlərinə ümumilikdə yeni inkişafın məhdudlaşdırılması və tənzimlənməsi, görkəmli təbii gözəllik və bioloji müxtəlifliyə malik ərazilərin qorunub saxlanılması və mühafizəsi, köhnə kurortların və destinasiyaların bərpası daxildir [4].

Yaşıl Turizm Sertifikasiyası Prosesləri

Sertifikatlaşdırma obyektin, məhsulun və ya xidmətin xüsusi standartlara cavab verdiyini qiymətləndirən, yoxlayan və yazılı təminat verən könüllü prosedur kimi müəyyən edilir və baza standartlarına cavab verən və ya onları aşanlara bazara çıxarıla bilən loqo təqdim edir. Sertifikatlaşdırmanın məqsədi baza standartlarına və ya qanunvericiliyə cavab verən və ya onları aşan könüllü performans standartlarına nail olmaq olmuşdur. Proses etibarlı sertifikatlaşdırma standartlarını təyin edən orqanla başlayır. Sertifikatlaşdırma orqanı maraqlar toqquşması olmadan olmalı və standartlara cavab verən göstəricilər akkreditasiya orqanı tərəfindən tanınmalıdır. Ərizəçi və ya biznes daha sonra göstəricilərə görə qiymətləndirilir və uğurlu olarsa, adətən loqo şəklində tanınır və bu, istehlakçıya biznesin minimum meyarlara cavab verdiyini bildirir [4].

Azərbaycan “yaşıl turizm” əraziləri. Azərbaycan Qafqaz dağları, düzənlikləri və çayları, gölləri, 825 kilometr uzunluğunda Xəzər dənizi sahili, zəngin mineral suları, bir çox iqlim tiplərinin birgə yaşaması və zəngin tarixi sərvəti ilə çox yüksək turizm potensialına malik ölkədir.

Azərbaycanda turizm fəaliyyəti daha çox istirahət məqsədi daşıyır və Xəzər dənizi sahillərini və isti bulaqların yerləşdiyi yerləri əhatə edir. Bu vəziyyətdə istirahətə əsaslanan daxili turizmin üstünlük təşkil etdiyi və sahil-dəniz turizmi və spa turizminin geniş vüsət aldığı görünür. Azərbaycan İqtisadi və Sosial İnkişaf Mərkəzinin məlumatına görə, ölkə turizmin rəqabət qabiliyyətinə görə 148 ölkə arasında 39-cu yerdədir. 2023-cü ildə Azərbaycana gələn turistlərin sayı 30.2 faiz artaraq 2 milyon 85 min nəfər olub. Ölkəyə gələn turistlərin mənşə coğrafiyasında da dəyişiklik qeydə alınıb. Belə ki, 2022-ci illə müqayisədə Çindən gələnlərin sayı 6,5, Cənubi Koreyadan 3,3, Türkmənistandan 2,3, Hindistandan və Qazaxıstandan ayrı-ayrılıqda 1,9 dəfə artıb. Bu isə ondan xəbər verir ki, Asiya ölkələrində Azərbaycan turizminə maraq yüksəlib [5].

Qədim dövrlərdə və orta əsrlər ticarət karvanı dövründə Azərbaycana ilk səfərlər ticarət, dini, siyasi və tanınma məqsədləri üçün olmuşdur. Qədim Azərbaycan torpaqlarından keçən ticarət karvanlarını ilk səyahətlər hesab edə bilərik. Azərbaycan qədim zamanlardan Böyük İpək Yolunun mühüm dayanacağı kimi tanınan ölkə olub. Meşəlik və yaşıllıq bölgələri ilə fərqlənən Qubadlı rayonu ərazisi "yaşıl turizm" üçün çox əlverişli mövqedə yerləşmişdir. Qubadlı rayonunun kəndləri meşəlik ərazilərdə yerləşib. Bu meşələrə nümunə olaraq Qayalı, Eyvazlı, Müskanlı, Seytas və digər kəndləri nümunə kimi göstərə bilərik. Bundan əlavə Bərgüşad çayının sahili boyu əraziləri də, yaşıllığı və mənzərəsi ilə seçilir ki, bura da "yaşıl turizm" həvəskarları üçün potensial turizm əraziləridir. Qeyd etmək lazımdır ki, meşəlik ərazilərin üstünlük təşkil etməsi burada "yaşıl turizm" ilə yanaşı, "çadır turizminin" də inkişafına şərait yaratmışdır. Turistlər üçün bu əraziləri görmək, burada gecələmək, rayonun tarixi ilə tanış olmaq olduqca cəlbedici olmuşdur və olacaqdır. Ölkəmizin turizm sahəsinin inkişaf etməsində tarixi abidələrin, keçmiş adət-ənənələrimizin, həmçinin zəngin fauna və floraya malik bu ərazilərimizin, qədim tarixi, körpüləri, mineral ehtiyatları, qalaları, türbələri, məscidləri ilə olduqca məşhurdur. Şərqi Zəngəzur iqtisadi rayon ərazisinin zəngin təbii ehtiyatları burada aqroturizmin, termal turizmin, yaşıl turizmin, ekstremal turizmin inkişafını təşviq edir. Turizmin inkişafına potensiallı olan bu ərazilərdə digər turizm növlərinin inkişafı üçün də imkanlar mövcud olmuşdur. Qeyd etmək lazımdır ki, Şərqi Zəngəzur iqitsadi rayonunu Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonları əhatə edir. Bu iqtisadi rayona daxil olan bölgələr tarixən yüksək potensialları turizm mərkəzləri olmaqla fərqlənmişlərdir. İşğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişafı iqtisadiyyatın güclənməsi üçün əsas tələblərdən biridir [1].

**Açar sözlər:** Yaşıl turizm, turizm sertifikatlaşdırılması, Azərbaycanda turizm, turizm əraziləri.

## Ədəbiyyat


1. Şərqi Zəngəzur İqtisadi Rayonunda Turizmin İnkişafı Perspektivləri, Şükürov Calal Camal, Bakı, 2022.
2. İqbaləddin Abbasi, Yaşıl turizm və onun nümunəsi, England, 2023.
3. Theoretical and Empirical Researches in Urban Management Number, 8(17), November 2015.
4. Федулин А.А. Геопространственная организация туристского процесса, А.А. Федулин, Н.А. Платонова, К.А. Лебедев, Экономика и социум, 2016.
5. https://www.stat.gov.az/source/tourism/


# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA EKOTURİZMİN İNKİŞAF MƏSƏLƏLƏRİ


**Məsmə Məmmədova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan

memmedovamesme540@mail.ru


Ekoturizm ekoloji cəhətdən dayanıqlı turizm növü olub, təbiət ərazilərinə səyahət etməklə bərabər, maarifləndirmə və regional sosial-iqtisadi inkişafa yönəldilmiş bir fəaliyyətdir. Lakin unutmaq olmaz ki, ekoturizm kütləvi turizmin bir hissəsi deyil, alternativ turizm kimi qəbul olunur. Belə bir yanaşma, davamlı turizmlə eyni olmasa da təbiətə əsaslanan, ekoloji cəhətdən dayanıqlı, maarifləndirici, səyahət və turist məmnuniyyətini artırır. Bu baxımdan, yeni inkişaf mərhələsində olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ekoturizmi inkişaf etdirməklə yerli sosial-iqtisadi inkişafa nail olmaq, eləcə də işğaldan azad edilmiş ərazilərə geri qayıdan əhalini qismən də olsa iş yerləri ilə təmin etmək mümkün olardı. Tədqiqat işində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ekoturizm potensialı müəyyən olunmuş, xəritə tərtib edilmiş və turizmin müxtəlif sahələrinin inkişaf etdirilməsi istiqamətləri verilmişdir.

Qarabağın turizm potensialı olduqca zəngindir, burada turizmin çox növləri - ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar vardır. Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası və konsepsiyası hazırlanmışdır. Kəlbəcərdə ənənəvi turizmdən əlavə, qış və sağlamlıq turizminin inkişafı mümkündür. Mədəniyyət beşiyi hesab olunan Şuşada, əsasən, festivalların keçirilməsi, Ağdamda “dark” - yəni işğalın nəticələrinin çılpaq şəkildə göstərilməsi və işgüzar turizm nəzərdə tutulub. Xocavənd rayonu da xüsusi turizm potensialına malikdir. Tuğ və

Hadrutun şərab marşrutuna salınması daha uyğundur. Məşhur Azıx mağarası, Tağlar mağarası da bu ərazidə yerləşir. Suqovuşanla bağlı da müəyyən planlar mövcuddur.

Azərbaycanın bu qədim tarixə malik olan bölgəsi özünün flora və faunası, mətbəxi, tarixi mədəni-dini abidələri, qədim qalaları, körpüləri, meşələri, bulaqları və s. görməli məkanları ilə turistləri cəlb edəcək. Təbii ehtiyatlarla zəngin olan Qarabağda həm də müxtəlif növ ekstremal turizm, aqroturizm, yaşıl turizm təşkil etmək olar. Bütün bunlar turizmin inkişafı üçün geniş perspektivlər yaradır. Kəlbəcər rayonu qış turizmi üçün ideal məkandır. İşğaldan azad olunmuş ərazilərimizdə turizm infrastrukturunun qarşılıqlı əlaqə şəklində qurulması vacibdir. Şuşa Azərbaycan turizminin simvol şəhərlərindən biri olacaq. Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verəcək.

Kifayət qədər geniş rekreasiya imkanlarına malik olan Laçındakı İlıqsu müalicəvi əhəmiyyətli mineral bulağı, zəngin flora və faunaya sahib, sahəsi 21 min hektardan çox olan Laçın yasaqlığı bu ərazilərin turizm imkanlarını genişləndirəcək. Hələ işğaldan əvvəl Kəlbəcərin İstisu qəsəbəsində Ümumittifaq əhəmiyyətli 2 böyük sanatoriya fəaliyyət göstərirdi. Hər il orada 50 min nəfər müalicə olunur və istirahət edirdi. Buradakı "İstisu" mineral suları ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkün idi. Hətta orada kurort və mineral sudoldurma zavodu da tikilmişdi. Mütəxəssislərin fikrincə, Kəlbəcərin relyefi dünyanın ən heyrətamiz kanatlarının inşasına, ən maraqlı turizm xidmətlərinin qurulmasına imkan verir. Burada gələcəkdə Qafqazın ən böyük turizm mərkəzini yaratmaq mümkündür.

Eyni zamanda "Qafqaz Albaniyası turizm marşrutu" da Qarabağın tarixini saxtalaşdıran erməni yalanlarının ifşası  baxımından mühüm rol oynayacaq. Marşrut Qafqaz Albaniyasını araşdıran alimlərin məsləhət və tövsiyələri əsasında hazırlanır. Alban mədəniyyəti marşrutu Azərbaycanın 3 əsas dəhlizini - Bakı-Şəki-Zaqatala, Gəncə-Qazax və Qarabağı əhatə edir. Alban mədəniyyətinin izləri Qarabağda və Şərqi Zəngəzurda daha çoxdur. Burada Qafqaz Albaniyası ilə bağlı zəngin irs var. Bura məbədlər, kilsələr, həmçinin adət-ənənələr və s. daxildir. Qeyd edək ki, qədim Alban mədəniyyətinin izi ilə yaranacaq turizm marşrutu ölkəmizin, həmçinin Qarabağın zəngin və tarixi turizm potensialının tanıdılması istiqamətində xüsusi əhəmiyyət kəsb edəcək.

Qarabağın mövcud turizm potensialının tanıdılması üçün zəruri turizm infrastrukturunun yaradılması istiqamətində gərgin işlər davam edir. Xüsusi vurğulamaq lazımdır ki, turizmin iqtisadi tərəfi ilə yanaşı, tanıtım tərəfi də vardır. Turistlər həm Qarabağımızda dincələcək, təbiətin gözəlliyindən, mədəni-tarixi abidələrimizdən, yaradılmış əlverişli mühitdən zövq alacaq, həm də Ağdam, Cəbrayıl, Füzuli kimi ərazilərimizdə işğalın nəticələrini göstərmək

üçün eksponat kimi nümayiş olunacaq bəzi tikililərlə də tanış olmaqla Qarabağın erməni barbarları tərəfindən hansı vəziyyətə salındığının, indi isə əsl sahibləri tərəfindən necə abadlaşdırıldığının əyani şahidi olacaqlar. Ümumilikdə, Qarabağ və Şərqi Zəngəzurda turizmin inkişafı ilə bağlı planlar genişdir. Yaxın 4 ildə daxili və xarici turistləri nəzərə alaraq, Qarabağın 1 milyon insanı qəbul edəcəyi gözlənilir.

Qarabağda ekoturizmin bütün növlərinin inkişaf etdirilməsi üçün çox böyük şərait var: "Strateji plan hazırlanır. Yaxın vaxtlarda bu planın bəyan olunacaqdır. İctimai müzakirələrdə özəl və ictimai sektor nümayəndələri də bura cəlb olunur. Azərbaycan ekoturizmin, rekreasyon turizmin, eyni zamanda, sağlamlıq turizminin çox gözəl bir model ölkəsi ola bilər. 2021-ci ildə Ekoturizm Cəmiyyətinin Zirvə toplantısının da Azərbaycanda keçirilməsi nəzərdə tutulur. Bu baxımdan ekoturizm sahəsinə diqqət və təşfiqi siyasəti daha da genişləndirilməlidir. Nəzərə almalıyıq ki, pandemiya şəraitində daxili turizmin inkişafı böyük fürsətdir. Belə bir vaxtda ekoturizmin inkişafına xüsusi diqqət ayrılmalıdır. Burda da əsasən gənclərin və əhalinin aztəminatlı təbəqəsinin işə cəlb olunması həm iş yerləri baxımından, həm də sosial rifahın artırılması baxımından olduqca əhəmiyyətlidir".

**Açar sözlər:** Turizmin inkişafı, Azərbaycanda turizm, ekoturizm, strateji plan, turizmin inkişaf yolları.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanda Turizm. Statistik məcmuə, Bakı, 2020, 96 s.
2. Möhbalıyev F.F. Azərbaycanda turizm bazarı və aqroturizmin inkişaf perspektivləri, Əmək və Sosial Münasibətlər jurnalı, 2020, No1, s. 72-79.
3. İsmayilov V.İ. Azərbaycanda beynəlxalq turizmin reytinqi və inkişaf perspektivləri. Əmək və Sosial Münasibətlər jurnalı, 2019, No1, s. 85-93.
4. Azərbaycanda sağlamlıq turizmi - cari vəziyyət və inkişaf perspektivləri. Bakı, 2021, 184.
5. Abadov M.K. Azərbaycan turizmi və onun inkişaf problemləri. Bakı: Şərq-Qərb, 2014, 248 s.

# "YAŞIL DÜNYA" VƏ "YAŞIL TURİZM"İN QARŞILIQLI ƏLAQƏSİ

**Mədinə Məmmədova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
madina.mamedova2121@gmail.com

Günümüzdə sadəcə turizm sferasında deyil bütün dünyada əhəmiyyat qazanmış və narahatlıq doğuran məsələlərdən biridə yaşıl dünya və onun qorunması məsələləridir. Buna səbəb günü-gündən dəyişən iqlim şəraiti, təbiət və canlılar aləmidir. Bütün bu sərvətlərin qorunması və gələcək nəsillərə ötürülməsi yolları dünyanın gündəmindədir. Yaşıl turizm sadəcə təbii görməli yerləri ziyarət etməkdən daha çox məna ifadə edir. Yaşıl turizm bu səfərləri məsuliyyətli və davamlı şəkildə etməkdən ibarətdir. Termin özü ətraf mühitin qorunmasına diqqət yetirməklə təbii ərazilərə səyahəti təşkil edir. Məqsəd turistlərə təbiəti kəşf etmək şansı verərkən onları mühafizə səyləri haqqında məlumatlandırmaqdır. Göstərilən məqsəd səyahətçini maarifləndirmək, ekologiyanın mühafizəsi üçün vəsait təmin etmək, yerli icmaların iqtisadi inkişafına və siyasi səlahiyyətlərinə birbaşa fayda vermək və ya müxtəlif mədəniyyətlərə və insan hüquqlarına hörməti gücləndirmək ola bilər. "Yaşıl dünya" və "Yaşıl turizm" ifadələri bir-biri ilə sıx əlaqə təşkil edir. Beynəlxalq Təbiəti Mühafizə İttifaqı (IUCN) yaşıl turizmə mühafizə üçün əhəmiyyətli bir vasitə kimi baxır, baxmayaraq ki, mühafizə problemlərinə gəldikdə, bu, hər şeyi həll edən bir vasitə kimi görünməməlidir: 1980-ci illərdən etibarən yaşıl turizm ətraf mühitin mühafizəsi mütəxəssisləri tərəfindən mühüm cəhd hesab edilir və onlar gələcək nəsillərin insan müdaxiləsi ilə nisbətən toxunulmamış yerləri yaşamalarını istədiklərini söyləyirlər. Məsuliyyətli ekoturizm proqramlarına ənənəvi turizmin ətraf mühitə mənfi təsirlərini minimuma endirən və yerli əhalinin mədəni bütövlüyünü gücləndirən proqramlar daxildir. Buna görə də ekoloji və mədəni amillərin qiymətləndirilməsi ilə yanaşı, ekoturizmin tərkib hissəsi təkrar emalın təşviqi, enerji səmərəliliyi, suya qənaət və yerli icmalar üçün iqtisadi imkanların yaradılmasıdır. Bu səbəblərə görə, ekoturizm tez-tez ekoloji və sosial məsuliyyət tərəfdarlarına müraciət edir.

Tanınmış təbiəti qoruyan Ceyn Qudallın məşhur bir sitatı var: "Yalnız başa düşsək, əhəmiyyət verəcəyik. Yalnız qayğı göstərsək, kömək edəcəyik. Yalnız kömək etsək, hamı xilas olacaq". Öz gözlərimizlə görmədiyimiz bir şeyi başa düşmək çətin ola bilər və ekoturizm səyahətçilərə qarşılaşdıqları problemləri öyrənərkən təbii ərazilərdə yeni təcrübələr əldə etmək imkanı verir.

Yaşıl turizm həm də uşaqları təbiət haqqında maarifləndirir, potensial olaraq nə vaxtsa təbiəti mühafizə edənlər ola biləcək yeni nəsillər yaradır. Hətta yetkin ziyarətçilər öz ekoloji izlərini yaxşılaşdırmaq üçün yeni yollar öyrənə bilərlər. Bir çoxları "davamlı turizm" (bu, əlaqəli anlayışdır, lakin daha geniş) kimi "ekoturizm" terminini oksimoron hesab edir. Əksər uzun məsafələrə səyahətlər kimi, ekoturizm də çox vaxt iqlim dəyişikliyinə töhfə verən hava nəqliyyatından asılıdır.

Yaşıl turizm tez-tez turizmin məsuliyyətli forması kimi təqdim edilsə də buna baxmayaraq, bir sıra risklər daşıyır. Ekoturizmlə bağlı potensial ekoloji, iqtisadi və sosial-mədəni faydalar aşağıda təsvir edilmişdir.

Ekoturizm fəaliyyətləri və ya sadəcə səyahətçilərin müəyyən bir bölgədə və ya yerdə olması qorunan ərazilərin ekoloji bütövlüyünə mənfi təsir göstərə bilər.

Yerli icmalar üçün risklər

Yerli icmalara ekoturizm mənfi təsir göstərə bilər. Məsələn, turizmin digər formalarında olduğu kimi, ekoturizm turistlər və yerli icma üzvləri arasında sürtüşmə ilə nəticələnə bilər və potensial olaraq kirayə haqqını, tarifləri və əmlak dəyərlərini artıra bilər və bununla da yerli icma üzvlərini marginallaşdıra bilər.

Sağlamlıq riskləri

Ekoturizm vəhşi təbiət və ekosistemlərlə yanaşı, turistlər və yerli icma üzvləri üçün məlum sağlamlıq riskləri daşıyır. Səyahətçilər ekoloji cəhətdən həssas ərazilərə patogenlər gətirə bilər, vəhşi təbiəti, eləcə də yerli icmaları risk altında qoya bilər; ekoturizm fəaliyyətləri də səyahətçiləri sağlamlıq problemləri və ya xəsarət riski ilə üz-üzə qoya bilər.

Yaşıl turizmin potensial faydaları və numünələri

Şərqi Afrika ölkəsi zəngin təbii sərvətləri sayəsində qonşuları ilə müqayisədə bəzi rəqabət üstünlüklərinə malikdir və o, ümumi ərazisinin 25%-dən çoxunu vəhşi təbiət milli parklarına və qorunan ərazilərə ayırmışdır. Bu səbəbdən, turistlərin təxminən 90%-i ekoturizm fəaliyyəti axtarmaq üçün Tanzaniyaya səfər edir. Ekoturizm, öz növbəsində, 400,000 işi dəstəkləyir və milli ÜDM-in 17,2%-ni təşkil edir və aparıcı iqtisadi sektor kimi hər il təxminən 1 milyard dollar gəlir əldə edir [3].

Kosta Rika Rio Celeste şəlaləsi, Tenorio vulkanı milli parkı

Kosta Rika, çoxsaylı heyvan qoruqlarından tutmuş milli park və qoruqların bolluğuna qədər təbiətə əsaslanan turizmə verdiyi diqqəti ilə bütün dünyada tanınır. Onun "Ekoloji Mavi Bayraq" proqramı kimi proqramlar turistlərə ciddi ekoloji cəhətdən təmiz meyarlar dəstini qoruyan çimərliklər haqqında məlumat verməyə kömək edir. Hökumətin ölkədə daha çox qorunan ərazilər yaratmaq və ekoturizmi təşviq etmək qərarı sayəsində ölkənin meşə örtüyü

1983-cü ildəki 26%-dən 2021-ci ildə 52%-dən çox olub. İndi onun ümumi ərazisinin dörddə birindən çoxu qorunan ərazi kimi zonalaşdırılıb [3].

Yeni Zelandiya. Günəş çıxandan sonra əks olunan Matheson gölü

2019-cu ildə Yeni Zelandiyada turizm 16,2 milyard dollar və ya ÜDM-in 5,8%-ni təşkil edib. Həmin il ölkə vətəndaşlarının 8,4%-i turizm sənayesində məşğul olub və turistlər 3,8 milyard dollar vergi gəliri əldə ediblər. Ölkə heyvan qoruqlarından tutmuş quruda, dənizdə və hətta təbii mağaralarda təbii vəhşi təbiətə qədər çoxlu sayda ekoturizm təcrübəsi təklif edir. Buzlaqlar və vulkanik mənzərələr kimi görməli yerlərlə dolu Yeni Zelandiyanın Cənubi Sakit okean mühiti əslində olduqca kövrəkdir, buna görə də hökumət onu təhlükəsiz saxlamaq üçün çox səy göstərir [3].

Azərbaycanda bu məsələyə biganə qalmamış və bu istiqamətdə bir sıra addımlar atmışdır. 2024-cü ilin cənab prezidentinin sərəncamı ilə Azərbaycan Respublikasında "Yaşıl dünya naminə həmrəlik ili" elan olunması bunun nümunəsidir. Sərəncamın qısa məzmunu belədir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir [2].

**Açar sözlər:** Yaşıl turizm, dayanıqlı turizm, yaşıl dünya, turizmin inkişaf yolları.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Turizm haqqında Qanunu.
2. https://president.az/az/articles/view/62737
3. https://greenglobaltravel.com/what-is-ecotourism-history-principles-of-responsible-travel/

# AZƏRBAYCANDA KƏND TURİZMİNİN İNKİŞAF İMKANLARI

**Emil Məmmədov**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
emilmemmedovvv2001@gmail.com

Turizmin inkişafı hər bir ölkənin iqtisadiyyatına böyük təsir göstərir. Son illər respublikamızda turizmin inkişafına yönəlmiş dövlət səviyyəsində tədbirlər bu sahənin intensiv surətdə inkişafına böyük imkanlar yaratmışdır. Postpandemiya dövründə respublikamızda turizmin inkişafı yeni vüsət almağa başlamışdır. Hazırda respublikamızda turizmin inkişafında nəzərə çarpan aşağıdakı 2 əsas cəhəti qeyd edək:

1. Daxili turizmin daha intensiv inkişafı,
2. Kənd (icma) turizminin formalaşması.

Müasir dünyada son illərdə böyük şəhərlərdən kənar, bilavasitə təbiətlə təmasda istirahətin təşkili daha geniş vüsət almışdır. Böyük sənaye mərkəzlərindən və ya xaricdən gələn insanların adi kənd evində yaşayıb istirahət etmək arzusu böyük olur. Buna "kənd turizmi" də deyilir və adından da bəlli olduğu kimi, yerləşmə obyekti - kənd evidir. Dünya təcrübəsində ev sahibi öz evində turistləri qəbul etdiyi halda, bu ev kənd qonaq evi statusuna malik olur. Kənd qonaq evi adətən bir ailəyə məxsus olmaqla, qısa müddət ərzində buraya qonaq gəlmiş turistə qidalanma, yerləşmə, lazım gəldikdə ekskursiya və digər xidmətlər təqdim edən kiçik mehmanxana müəssisəsidir.

Respublikamızın əksər bölgələrində kənd turizminin inkişafı üçün əlverişli şərait vardır. Bir sıra bölgələrin təbii-iqlim şəraiti, yerli əhalinin adət-ənənələri və ənənvi məşğuliyyəti, bu yerlərdə olan tarixi abidələrin və maraqlı təbii obyektlərin olması həmin bölgələrdə kənd turizmini cəlbedici edir və daha da inkişaf etməsinə imkan verir. Bunu da qeyd edək ki, kənd turizmi təkcə gələn turistlərin istirahət etməsi, vaxtlarının səmərəli keçirməsi ilə xaraktyerizə olunmur. Kənd turizmi həm də yerlə əhalinin məşğulluğunun yüksəlməsinə, ailə təsərrüfatlarının büdcələrinə əlavə pul vəsaitinin daxil olması və bununla ailənin rifahının yüksəlməsinə şərait yaradır.

Lənkəran, Astara, Masallı, Yardımlı, habelə, Qəbələ və Göygöl rayonlarında bir neçə il bundan əvvəl yerli əhalinin fərdi surətdə turizmə və turistlərə olan münasibət barədə sorğu keçirilmişdir. Sorğu nəticəsində əhalinin kənd turizminə münasibətin müsbət olması, turistlərin kənd evlərində qəbul edilməsi üçün heç bir etirazları olmadığı və onların bu yolla ailə büdcələrini yaxşılaşdırmaqda maraqlı olmaları bəlli olmuşdur.

Bunlarla yanaşı respublikamızda kənd turizminin daha da inkişaf etməsi və müasir tələblərə cavab verməsi istiqamətində öz həllini gözləyən bir sıra problemlər qalmaqdadır və bunların həll edilməsi vacibdir.

Kənd yaşıl turizminin Azərbaycanda sürətli inkişaf etdirilməsi üçün əsas maneələrdən biri bir çox kənd evlərində su təchizatında fasilələr və sanitariya qovşaqlarının müasir tələblərə cavab verməməsidir. Turistləri qəbul etmək istəyən evlərdə sanitariya qovşaqları və mətbəxlərin müvafiq səviyyədə təmir olunması üçün kiçik kreditlərin verilməsinə ehtiyac duyulur.

Kənd, idman, ailəvi, xüsusi və maraq kəsb edən və digər turizm növlərinin inkişafına dair kompleks tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır. Bu məqsədlə kənd turizminin inkişafı layihələri hazırlanmalı və icrasını təmin etmək məqsədilə həmin layihələrin Türkiyənin və bu sahədə zəngin təcrübəsi olan digər ölkələrin iştirakı və texniki yardmı ilə həyata keçirilməsi məqsədəuyğundur. İstirahətin bu növünün insanlar üçün ucuz başa gəlməsi ilə yanaşı, həm də turistlərə daha çox rahatlıq gətirir.

Göygöl rayonu turizmin inkişafı üçün əlverişli şəraitə malikdir. Rayon Azərbaycanın qərbində dağlıq və dağətəyi zonada, Gəncə şəhərinin bilavasitə yaxınlığında yerləşir. Rayon füsunkar təbiəti ilə yanaşı, tarix və mədəniyyət abidələri ilə də zəngindir. Rayonda XII, XIV, XVI və XIX əsrlərə aid 31 yerli əhəmiyyətli tarixi və memarlıq abidələri mövcuddur. Bunlardan 8-i kurqan, nekropol və açıq düşərgə, digərləri isə bina və körpülərdir. Bütün bu mənəvi və maddi zənginliklər isə yerli turistlərlə yanaşı, əcnəbi qonaqları da özünə cəlb edir. Buna görə də “yaşıl turizm”, yəni, kənd turizmi bu rayonda sürətlə inkişaf etməyə başlamışdır.

Göygöl şəhərinə daxil olanda ilk dəfə diqqəti çəkən nizamla düzülmüş evlər olur. Qırmızı kərpiçdən tikilmiş və çox da hündür olmayan bu evlərin küçəyə baxan hissəsi, əsasən, taxtadandır. Son illər əsaslı şəkildə təmir edilərək əvvəlki görkəminə salınan bu evlər vaxtilə burada yaşayan almanlar tərəfindən inşa edilib.

Son illər Azərbaycanda turizm infrastrukturunun yenilənməsi nəinki yerli, eləcə də xarici turistlərin də ölkəmizə marağını xeyli artırmışdır. Ölkə rəhbərinin turizm sektorunun inkişafı ilə bağlı verdiyi tapşırıq və tövsiyələrə uyğun olaraq, artıq bu sahədə uğurlu göstəricilərə nail olunmuş, iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrilmişdir.

Yay mövsümündə qonaqlı-qaralı olan Göygöl rayonunun yarıdan çox kəndi Göygöl Milli Parkına yaxın ərazidə yerləşir. Yeni Zod, Aşıqlı, Toğanalı, Topalhəsənli, Üçbulaq, Çaykənd, Mixaylovka, Şəhriyar və sair kəndlərdə yay istirahətini keçirənlər çox asanlıqla milli parkın ərazisində yerləşən Göygölə səyahət edə bilirlər. Sevindirici haldır ki, keçən il Göygöl rayonuna 80 min nəfərdən çox turistin gəlməsi qeydə alınmışdır. Onun da 5 min nəfəri əcnəbilər

olmuşdur. Rayonda ən çox turist qəbul edən Aşıqlı kəndidir. Kənddə 400 ev, 2500-ə yaxın əhali vardır, rayon mərkəzindən cəmi 5 kilometr məsafədə yerləşir və hər cür infrastrukturla təmin edilib. Asfalt yol, su, qaz, elektriklə təminat yüksək səviyyədədir. Ərazisində “ADA”, “Gilavar”, “Kəpəz” və digər istirahət mərkəzləri fəaliyyət göstərir.

Hacıkənd və Göygölə gedən yolun üstündə olduğundan turistlər burada qalmağa daha çox üstünlük verirlər. Ona görə də kənd sakinləri hər il mövsümqabağı evlərini təmir etdirir, turistlərin rahatlığı üçün hər bir şərait yaradırlar. Onlar ikinci gəlir yeri kimi kənd turizminin inkişafı üçün bütün imkanlardan istifadə edirlər. Turistlər üçün ən vacib hesab edilən qiymət məsələsi də diqqət mərkəzində saxlanılır. Belə ki, turistlərin rahat istirahəti üçün yüksək şərait yaradılmış evlərin bir günü 20-30 manat civarında dəyişir. Keçən il kənddə 2000 nəfərdən artıq turist istirahət etmişdir. Bu il turistlərin sayında xeyli artım olması gözlənilir.

Ölkəmizin gələcək inkişafını təmin etmək üçün bü gün turizm sektorunun genişlənməsinə xüsusi önəm verilir. Regionlarda yaşıl turizmin inkişaf etdirilməsi üçün kənd əhalisinə bu istiqmətdə zəruri bilikləri vermək, onları müəyyən stereotiplərdən uzaqlaşdırmaq üçün yerli TV və mətbuatda çıxışlar etmək, insanlarla birbaşa ünsiyyətdə kənd yaşıl turizminin onlara və yaşadıqları ərazilərə maddi və ekoloji cəhətdən sərfəli olduğunu mütəmadi izah etmək gərəkdir.

**Açar sözlər:** Kənd qonaq evi, yaşıl turizm, tarixi və memarlıq abidələri.

## Ədəbiyyat

1. https://agroeconomics.az/az/article/70/kend-turizminin-olkenin-sosial-iqtisadi-inkisafina/
2. M. Mükərrəmoğlu, Xalq qəzeti.
3. Sabir Əliyev Azərbaycan, Kənd Yaşıl Turizminin İnkişafına Dəstək İctimai Birliyi.
4. https://fed.az/az/turizm/azerbaycanda-kend-turizminin-inkisafi-ucun-gorulen-isler-aciqlanib-130298

# YAŞIL TURİZMİN İNKİŞAF TENDENSİYALARI VƏ EKOLOJİ STANDARTLAR

**Sadiq Məmmədov**
Azərbaycan Turizm və Menecment Universiteti, Bakı, Azərbaycan
mammadov.sadiq.2301@atmu.edu.az

Müasir dünyada turizm sektoru özünəməxsusluğu və bir sıra cəhətləri ilə xarakterizə olunur. Turizmin sürətli inkişafı son illərdə bəzi ekoloji problemlərə dəsəbəb olmuşdur. Məsələn, dünya miqyasında turizmin istixana qazı emissiyaları təxminən 5% təşkil edir. Lakin

normal gedişatda bu rəqəmin 2035-ci ilə qədər əhəmiyyətli dərəcədə yüksələcəyi təxmin olunur ki, bu da planetimiz üçün çox ciddi təhdidlər doğurur. Turizmin inkişafı təbii sərvətlərin varlığına və ətraf-mühitin insanların marağını cəlb etməsinə bağlı olduğundan bu ehtiyatların qorunması və ətraf-mühitin zərər görməməsi turizmin davamlılığı baxımından əsas önəm təşkil etməkdədir. Davamlı turizm, turistlərin və bölgələrin ehtiyaclarını qarşılayır və eyni zamanda gələcəyə yönəlmiş fürsətləri qoruyan və inkişaf etdirən turizm yanaşmasıdır. "Yaşıl" iqtisadiyyat və turizmin qarşılıqlı əlaqəsi nəticəsində, bu iki fenomen bir-birini daha da gücləndirəcək və davamlı turizmin inkişafında mühüm rol oynayacaqdır [1]. "Yaşıl turizm" ekoturizm, təbiət turizmi, məsuliyyətli turizm və kənd turizmi kimi anlayışlarla əvəzedici mənada istifadə edilmişdir.

Birincisi, yaşıl turizm yerli icmaları dəstəkləyir. Xüsusilə, məsuliyyətli turizm yerli əhali üçün daha çox iqtisadi fayda gətirir və ev sahibi icmaların rifahını artırır, iş şəraitini və sənayeyə çıxışı yaxşılaşdırır. İkincisi, dayanıqlı turizm daha az ekoloji təsirə malikdir. Yaşıl turizmin bir hissəsi yerli məhsuldan və yerli müəssisələrdən istifadə etməkdir. Digər tərəfdən, ərzağın idxalı həm iqtisadi, həm də ekoloji baxımdan çox baha başa gəlir. Yerli qida ilə biz nəinki çoxlu tullantılara qənaət edirik, həm də qidanın daha keyfiyyətli olduğunu da görməyə nail oluruq. Üçüncüsü, yaşıl turizm sosial baxımdan yerli əhali ilə daha dərin və mənalı əlaqələr yaradır. Yerli mədəni, sosial və ekoloji problemləri daha yaxşı anlamaq yolu ilə "Yaşıl" turizm turistlər üçün daha xoş təcrübələr təqdim edir [4].

Turizm biznesi ilə paralel şəkildə hotelçilik biznesinin də ekoloji fəaliyyəti ciddi faktorlardan hesab oluna bilər. Hazırda Yer kürəsində istehsal olunan tullantıların 14%-i turizm və qonaqpərvərlik sənayesinin üzərinə düşür. Göründüyü kimi bu ciddi rəqəmdir və mütəxəssisləri düşünməyə vadar edir. Dünyanın aparıcı hotelləri, o cümlədən brend hotellər qənaət və marketinq fikirləri ilə "yaşıl" ideyaya müsbət yanaşmaqdadırlar. Onlar daha çox alternativ enerji mənbələrindən istifadə edirlər. Avropada yüzlərlə hotel "eko" adını daşımağa səy göstərirlər. Avropada eko-hotellərə Avropa Birliyinin rəsmi nişanını (Ecolabel) təqdim edirlər. Eko-hotellərə qoyulan tələblər ciddidir və məsuliyyətlidir. Burada hotelin bütün sahələrində qoyulan meyarlara riayət etmək vacibdir. Hotelin menecmenti qənaət rejiminə diqqət verməli, tullantılardan səmərəli istifadə yollarını araşdırmalıdır. Hotelə ekoloji təmiz maddələr və vasitələr alınmalıdır. Bu maddələr də öz növbəsində müəyyən edilmiş ekoloji standartlara cavab verməlidir [2]. Baxmayaraq ki, beynəlxalq və regional səviyyələrdə müxtəlif ekoloji standartlar qəbul edilib və uzun illərdir ki, tətbiq edilməkdədirlər, yalnız bu proseslər o qədər də sürətlə inkişaf etmirlər. Beynəlxalq və milli ekoloji standartlara cavab verən, bu kimi şəbəkələrə qoşulan yerləşmə müəssisələrinin sayı regionlar üzrə fərqlənməkdədir. Daha çox

qoşulmuş mehmanxanaları Avropa ölkələrində görmək mümkündür. Turizm və qonaqpərvərlik sənayesində istifadə edilən bir neçə beynəlxalq tanınmış sertifikatlaşma və bununla beynəlxalq şəbəkələrə qoşulmaq imkanı verən sistemlər mövcuddurlar. FEE (Foundation of Environmental Education) Ətraf Mühit Təhsili Fondu BMT-nin rəsmi Agentliyi hesab edilən UNESCO-nun bir proqramı kimi və onun tərkib hissəsi olaraq fəaliyyət göstərir. FEE tərəfindən bir neçə ekoloji standartlar tətbiq edilməkdədirlər [5].

Green Key (Yaşıl Açar) Proqramı yerləşmə vasitələri və digər turizm və qonaqpərvərlik müəssisələri üçün nəzərdə tutulmuş sertifikatlaşmadır. Bu sistemin tələblərinə cavab vermək arzusunda olan müəssisə ilk növbədə audit keçirib və tələblərə cavab vermək üçün bütün lazımi tədbirləri görməlidir. Green Key suyun qənaətlə istifadəsi, tullantıların idarə olunması, kimyəvi və digər zərərli maddələrin istifadəsini ləğv etmək, ekoloji və sağlamlıq dəyərlərinə xüsusi münasibət göstərmək, alternativ energetikaya üstünlük vermək kimi tələbləri özündə əks edir. Bu sistemə qoşulan mehmanxanalar geniş bir şəbəkənin üzvü olurlar, gündən günə sayı artan (Booking.com araşdırması 2018-ci ildə 74% səyahət edənlərin ekoloji cəhətdən sağlam yerləşmə vasitələrinə və turist destinasiyalarına üstünlük verirlər) eko-turistlər üçün rahat seçim yerinə çevrilirlər. Green Key sisteminə qoşulmuş mehmanxanaların sayı dünya üzrə 65 ölkədə 3200 mehmanxana və digər yerləşmə vasitələrini əhatə edir [6]. FEE tərəfindən tətbiq edilmiş digər ekoloji standartlar və sistemlər də mövcuddurlar. Bunlardan, Blue Flag (Mavi Bayraq), Learning about Forests, Eco-Schools, Young Reporters kimi proqramları qeyd etmək olar [5]. Ətraf-mühit insanların istehsalat fəaliyyəti nəticəsində müəyyən qədər dəyişkəndir. Ekoloji tarazlığın pozulması ölkəmizi də narahat edən məsələlərdəndir. Hansı ki, ölkəmiz bu kimi problemlərlə bağlı ciddi addımlar atmaqdadır. Hotellərin fəaliyyəti müəyyən mənada ətraf-mühitə təsir göstərir. Hotellər Azərbaycan Azərbaycan Respublikasının "Ətraf mühitin qorunması haqqında" Qanununa uyğun inşa olunmalı və fəaliyyət göstərməlidirlər. Hotel biznesi ekoloji vəziyyətə uyğun olmalıdır ki, rəqabətə davamlı olsun [2].

**Cədvəl 1.** Azərbaycan Respublikasında ekoloji standartlara aid dövlət və beynəlxalq standartları [3]

| | |
|---|---|
| 563-2011 (İSO 14031-99) | Ətraf-mühitin idarə olunması. Ekoloji effektivliyin qiymətləndirilməsi. |
| AZS İSO 4220-2014 | Ətraf-mühitin mühafizəsi. Atmosfer havası. Atmosfer havasının turşu aerozolları ilə çirklənmə indeksinin təyini. İndikator və patensiometr vasitəsilə ekvivalent nöqtənin aşkarlanması ilə titrimetrik metod. |
| İSO 14004-2004 | Ətraf-mühitin idarəetmə sistemləri. Prinsiplər, sistemlər və fəaliyyət üsullarına dair ümumi təlimat qaydaları. |

Beynəlxalq standartlarla yanaşı milli səviyyədə dövlətlər tərəfindən qəbul edilmiş ekoloji standartlar da mövcuddur. Standartların hazırlanmasında bir sıra sahələrdən mütəxxəssislər iştirak edirlər və beynəlxalq təcrübələr nəzərdən keçirilir. Məsələn, Green Russia ictimai təşkilatı "Ekoloji məsuliyyət nişanı" işləyib hazırlamışdır. Bu, ətraf-mühitə qayğı ilə yanaşan hotellərə verilən mükafatdır. ABŞ və Kanadada təbiətə qayğı ilə yanaşan müəssisələrə eko-leyb ekoloji keyfiyyət nişanı sertifikatı verilir. Avropada bu göy-yaşıl "EC-gülü"-dür. 2004-cü ildən ABŞ-da "Energetika və ekoloji lider" sertifikatı verilir [2].

**Açar sözlər:** Ekoturizm, yaşıl turizm, dayanıqlı turizm, davamlı turizm, ekoloji standartlar.

**Ədəbiyyat**

1. Çisil, E., Yrd. Doç. Filiz, T. Yeşil Ekonomi ve Turizm. Organizasyon ve Yönetim Bilimleri Dergisi, 1, 2013, 63-72 s.
2. M.M. Ağakərimov. Hotel biznesi. Dərs vəsaiti. 2-ci nəşr. Bakı: Mütərcim, 2021, 392 səh.
3. https://eco.gov.az/az/nazirlik/ekologiya-uzre-standartlarin-siyahisi
4. https://heritagehotelsofeurope.com/green-tourism-what-it-is-and-why-it-is-so-important/
5. https://www.fee.global/
6. https://www.greenkey.global/

## AZƏRBAYCANIN DAĞ RAYONLARININ TURİZM XİDMƏTİNİN DAYANIQLI İNKİŞAFINI FORMALAŞDIRAN AMİLLƏR

**Vahid Məmmədov**
Azərbaycan Kooperasiya Universiteti, Bakı, Azərbaycan
vahid_memmedov01@mail.ru

Ölkənin xarici ticarət balansının hərəkətverici qüvvəsi və ÜDM-in formalaşmasına töhfə verən amillərdən biri kimi turizm əhəmiyyətlidir. Ölkə iqtisadiyyatında üstünlük təşkil edən istehlak mallarının istehsalı, digərləri ilə yanaşı, turizm, kənd təsərrüfatı, tikinti, nəqliyyat və digər sənaye sahələri bu sahələrə əhəmiyyətli təsir göstərir və sosial-iqtisadi inkişafın xüsusilə səmərəli sürətləndiricisi rolunu oynayır.

Aşağıdakı fəaliyyətlər müxtəlif xalqlarda təşkilati və iqtisadi proseslərin inkişafına təkan verən beynəlxalq turizmin bir hissəsidir:

1. Əlaqədar yataqların inkişafı və diversifikasiyası üçün əhəmiyyətli təkan;
2. Xarici pul vəsaitlərinin sabit daxilolmaları;
3. Tədiyyə balansının stimullaşdırılması (turizmlə bağlı sahələrin inkişafını nəzərdə tutur) [1].

Demoqrafik və sosial dəyişikliklərə misal olaraq, əhalinin artımı, adekvat pensiya sığortası ilə pensiyaya çıxma, tənha və kimsəsiz insanların sayının artması, işləyən qadınların, uşaqsız ailələrin sayının artması və s. daxildir. Demoqrafik quruluş və sosial identifikasiya nümunələri daha çox insanın səyahət etmək üçün vaxtı, meyli və maliyyə resursları olduğu üçün dəyişdi [2].

Ölkələr turizm fəaliyyəti kontekstində göndərən (donor) və qəbul edən (qəbul edən) ölkələr kimi təsnif edilir. Fransa, ABŞ, İspaniya, İtaliya, Macarıstan və s. kimi ölkələr ABŞ, Almaniya, İngiltərə, Belçika və Danimarka kimi birincilərə aiddir [3].

Ümumdünya Turizm Təşkilatının mütəxəssisləri ölkənin ümumi iqtisadi vəziyyəti ilə turizmin inkişaf tendensiyası arasında güclü əlaqə aşkar ediblər. Səyahət dinamikası ölkənin iqtisadi vəziyyətinə xüsusilə həssasdır. ÜTT rəqəmlərinə görə, son bir neçə ildə xarici səyahətlərdən əldə edilən dünya üzrə gəlir artıb [4].

Dağlıq ərazilərdə yaşayan insanların ən perspektivli qazanc və dolanışıq mənbəyi turizmdir. Dağ torpaqları digər relyef xüsusiyyətlərinə nisbətən turizmin yaratdığı dəyişikliyə və deqradasiyaya daha kövrək və həssasdır. Dik yamaclar, geniş hündürlüklər diapazonu və qeyri-sabit hava şəraiti bu əraziləri pozulmalara son dərəcə meyilli edir ki, bu da insan müəssisələrinin yanlış idarə olunmasının hazırkı mərhələsinə kömək edir. Bu xüsusiyyətləri faydalılığa inteqrasiya etmək üçün dağ turizmi idealdır.

Müvafiq olaraq, davamlı inkişaf aşağıdakılara nail olmağı tələb edir:

1. Ekoloji davamlılıq - iqtisadi fəaliyyətlər və həyat keyfiyyəti üçün lazım olan ətraf mühitin keyfiyyətinin saxlanılması (ətraf mühitin mühafizəsi, çirkləndiricilərin emissiyalarının azaldılması, resurslardan səmərəli istifadə və s.);
2. Sosial davamlılıq – cəmiyyətin və mədəni özünəməxsusluğun qorunub saxlanılması mədəni müxtəlifliyə, irqə və dinə hörmət, sosial dəyərlərin, qayda və normaların qorunub saxlanılması, insan hüquq və bərabərliyinin qorunması və s.);
3. İqtisadi dayanıqlıq – təbii, sosial və insani dəyərlərin qorunması.
4. Turizmin sürətli və firavan inkişafını dəstəkləmək üçün dövlət nəzarətinin təşkili tələb olunur. Turizm sektorunda çalışanların maliyyə dəstəyinə xüsusi diqqət yetirilməlidir. Turizm sənayesində fəaliyyət göstərən sahibkarlara kiçik və orta biznes kreditləri üçün əlverişli şərtlər təmin edilməlidir.

**Nəticə**

Apardığımız araşdırma nəticəsində belə bir nəticəyə gələ bilərik ki, respublikada dağ turizminin inkişafı üçün mövcud şəraiti nəzərə alaraq aşağıdakı tədbirlər görülməlidir:

1. Kənd və dağ turizminin inkişafı üçün güzəştli maliyyələşdirmənin təmin edilməsi;
2. Turizm ehtiyatlarının qorunması və bu resurslardan optimal istifadə edilməsi;
3. Ərazidə turizm, o cümlədən aqroturizm, ekoturizm, biznes, ekstremal macəra, dağlıq, etnik, dini və virtual turizm sahələrini genişləndirmək və rəqabət qabiliyyətini artırmaq üçün xarici təcrübədən istifadə etmək;
4. Səyahətçilərə sərfəli və gəlirli səyahət variantları təklif etmək üçün ərazidə aşağı qiymətli və ya motel tipli yaşayış yerlərinin sayının artırılması. Bundan əlavə, bu, ərazidə iş yerlərinin saxlanmasına kömək edəcək;
5. Rayonda turizm menecmenti və fəaliyyətyönümlü tədris mərkəzlərinin yaradılması nəticəsində kiçik və orta sahibkarlıq subyektlərinin bu sahəyə cəlb edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi;
6. Turizm sahəsində zəngin təcrübəsi olan ölkələrlə beynəlxalq əməkdaşlığı genişlən-dirmək və təcrübə mübadiləsi aparmaqla turizm kadrlarının peşəkar hazırlığı səviyyəsini yüksəltmək.

**Açar sözlər**: Davamlı inkişaf, relyef xüsusiyyətləri, statistika, klaster, dağ turizmi.

**Ədəbiyyat**

1. Əvəzli K. Turizmin sosial-iqtisadi nəticələri. Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 81 s., 2016.
2. Glantz M. China's one Belt one Road (OBOR) Initiative: What a Differenced Brand can make. Post-Soviet Issues, 2017, 4(1), DOI: 10.24975/2313-8920-2017-4-1.
3. Eyvazov E.T., Balabəyova N.Ş. Beynəlxalq nəqliyyat əməliyyatları, Bakı, 2019. Elm və təhsil, 336 s.
4. Köçərli Y.Ə., Köçərli L.R. Turizmin iqtisadi əsasları və səmərəlilik göstəriciləri. ATİ. Elmi-Praktiki konfrans materialları. Bakı, 2018. 135 s.

# YAŞIL TURİZMİN MAHİYYƏTİ

**Zaur Məmmədzadə**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
Zaur.Mammadzada@student.au.edu.az

Yaşıl turizm təbii sərvətləri qorumaq, yerli iqtisadiyyata töhfə vermək və mədəni zənginləşdirmə kimi müxtəlif üstünlüklər təklif edir. Bu tədqiqat yaşıl turizmin qlobal təsirlərini və ətraf mühitə faydalarını vurğulayır, beləliklə, yaşıl dünya üçün turizmin rolunu anlamaq və təşviq etmək üçün əsas təmin etmək məqsədi daşıyır. Yaşıl turizm elə bir turizm növüdür ki, burada ətraf mühitin qorunmağı və yerli əhalinin maddi və mənəvi rifah halını yaxşılaşdırmaq, eləcə də onun tələblərini qarşılamaq üçün yüksək potensiala sahib olan davamlı bir turizm növü sayılır. Yaşıl turizm ekoloji cəhətdən təmiz səyahət variantları axtaran səyahətçilər arasında getdikcə populyarlıq qazanır. Bu girişdə yaşıl turizmin tərifi təqdim olunacaq, tədqiqatın əhəmiyyəti vurğulanacaq və tezisin strukturu ümumiləşdiriləcək.

Hər kəs saf sudan, təmiz havadan, ekoloji cəhətdən təmiz olan mühitdən yararlanmaq və sağlam bir həyat yaşamaq istəyər. Lakin son illərdə bu istəyin reallaşması ehtimalı azalıb. Dünya ölkələrində heç bir böyük şəhərin ekoloji təmizliyi artıq insan sağlamlığına təminat verə bilmir. İllər keçdikcə və texnologiya yenilənib inkişaf etdikcə bu istək bizdən bir az da uzaqlaşır. Təbii ki, texnikanın inkişafını dayandırmaq mümkün deyil. Lakin ətraf mühitə zərər verə biləcək hallardan qorunmaq mümkündür. Bunun üçün sadəcə tələb olunan şəraiti yaratmaq kifayətdir. Son dövrlərdə bu istək ekoturizmlə reallaşdırılır. Ekoturizm təbiətin hazırki, vəziyyəti ilə birbaşa maraqlanmaq, onun problemlərini dərk etməyə çalışmaq üçün həyata keçirilən səyahətdir. O adətən, əhali ilə əlaqə yaradaraq həyata keçirilir. Bu zaman isə insanlar arasındaki, sosial fərqlər müəyyən qədər aradan qaldırılır. Ekoturizmin təbiət turizmi, aqroturizm, əyləncə turizmi, macəra turizmi, elmi, dərketmə, rekreasiya, yaşıl turizm, kənd turizmi və digər növlərini ayırırlar.

Yaşıl Turizmin Faydaları: Ekoloji, Sosial və İqtisadi.

Yaşıl turizmin faydaları müxtəlif sahələrdə görünür. Ekoloji cəhətdən təbii sərvətlərin qorunmasına töhfə verməklə yanaşı, həm də yerli iqtisadiyyatları dəstəkləyir və sosial və iqtisadi cəhətdən sosial faydalar təmin edir.

Yaşıl turizm karbon izlərini azaltmaq üçün müxtəlif strategiyaları ehtiva edir. Ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrindən istifadə və enerji səmərəliliyi tədbirləri turizmin ətraf mühitə təsirini azaltmağa kömək edir. Yaşıl turizm təkcə təbiətlə əlaqəni nəzərdə tutmur, həm

də biomüxtəlifliyi qorumaq və təşviq etmək üçün xüsusi olaraq hazırlanmış istiqamətlərə diqqət yetirir. Bu yerlər nadir bitki və heyvan növlərinə ev ola bilər və ziyarətçilərə maarifləndirmə və maarifləndirmə təmin edə bilər.

Yaşıl turizm çərçivəsində kənd təsərrüfatı fəaliyyətinin turizmlə inteqrasiyası getdikcə populyarlaşır. Aqroturizm turistlərə üzvi əkinçiliklə məşğul olmaq və iştirak etmək imkanı verir. Ekoloji kənd təsərrüfatı müəssisələri davamlı kənd təsərrüfatı təcrübələrini dəstəkləməklə ekoloji cəhətdən təmiz turizm təcrübəsi təklif edirlər.

Yaşıl turizm təkcə təbii ərazilərə və biomüxtəlifliyə deyil, həm də bərpa olunan enerji mənbələrinə diqqət yetirir. Bu turizm növü su elektrik stansiyaları, külək stansiyaları və günəş panelləri kimi bərpa olunan enerji mənbələrini ziyarət etmək və öyrənmək imkanı verir.

Yaşıl turizm təkcə təbii əraziləri qorumur, həm də yerli icmalarla qarşılıqlı əlaqəni təşviq edir. Bu, ziyarətçilərə yerli insanlarla ünsiyyət qurmağa, yerli mədəniyyətlə tanış olmağa və yerli iqtisadiyyata töhfə verməyə imkan verir. Bəzi yaşıl turizm proqramlarına təbiətin bərpası fəaliyyətləri daxildir. Bura zədələnmiş və ya dağılmış ərazilərin bərpası və yaşıllaşdırılması prosesləri daxildir. Ziyarətçilər bu cür layihələrdə könüllü kimi iştirak edə və təbiətə təsirlərini kompensasiya etmək imkanı əldə edə bilərlər. Yaşıl turizm təkcə təbii mühitə diqqət yetirmir, həm də mədəni irsi də əhatə edir. Mədəni ekoturizm yerli xalqın ənənəvi həyat tərzini, sənətkarlığını, memarlığını və folklorunu təbliğ etmək məqsədi daşıyır. Bu turizm növü mədəni müxtəlifliyi qoruyub saxlamaqla davamlı turizm gəlirləri yarada bilər. Yaşıl turizm təbiətdə gəzintilər və ya dağ velosipedi turları kimi passiv fəaliyyətlərlə məhdudlaşmır. Eko-safari və vəhşi təbiəti müşahidə turları ziyarətçilərə təbii yaşayış yerlərində vəhşi təbiətə baxmaq imkanı verir. Bu cür turlar vəhşi təbiətin qorunması səylərinə də töhfə verə bilər.

Bu tezisdə araşdırılan məsələlər yaşıl turizmin ekoloji, sosial və iqtisadi əhəmiyyətini vurğulayır. Yaşıl turizmin davamlı inkişafa və təbiəti mühafizə səylərinə verdiyi töhfə gələcək üçün perspektivli perspektiv təklif edir.

**Açar sözlər:** Yaşıl turizmin faydaları, təbii sərvətlərin mühafizəsi, yaşıl turizmin əhəmiyyəti.

## Ədəbiyyat

1. https://www.azerbaijan-news.az/view-153434/yasil-turizm-kend-ehalisi-ucun-hem-de-ikinci-gelir-menbeyidir
2. https://unec.edu.az/application/uploads/2018/12/x-yev-Kamran-Yam-n-o-lu.pdf
3. https://lemanpirimova.wordpress.com/2011/01/19/ekoloji-turizm/
4. https://525.az/news/79298-ekoturizm-ve-onun-mahiyyeti

# ЗЕЛЕНЫЙ ТУРИЗМ В АЗЕРБАЙДЖАНЕ

**Севиль Мухтарзаде**
Университет Хазар, Баку, Азербайджан
sefil017@gmail.com

Вопрос об экологии становится все более актуальным на мировой арене с каждым годом. Уникальные природные ресурсы и достопримечательности привлекают внимание людей из различных стран, и каждый участник туристической деятельности несет ответственность за привлечение внимания международных посетителей.

Азербайджан обладает собственными богатствами, однако такие соседи, как Грузия [1] и Турция, занимают лидирующие позиции в развитии Кавказского туризма. Почему же Азербайджан отстает?

На данный момент существуют несколько проблемных факторов: закрытие сухопутных границы Азербайджана [2], нестабильная обстановка с Арменией [3] и недостаточные инвестиции в маркетинговые мероприятия [4]. Хотя регулярное загрязнение воздуха, морей и улиц в Баку и других индустриальных городах может влиять на экологическую обстановку, этот фактор не мешает развитию туризма даже в развитых странах.

Зеленый туризм, как экологический фактор, должен рассматриваться не только как источник дохода, но и как способ минимизации отрицательного воздействия на окружающую среду.

Например, зоны Карабаха богаты эндемичными растениями и уникальной символикой. Плодородность земли также может положительно сказаться на развитии агропромышленности. Такой набор возможностей у территории и стал одной из причин длительной кровопролитной войны [5].

Какие же меры следует предпринять для развития зеленого туризма?

– Создать экологически устойчивую инфраструктуру: строительство эколоджи-отелей, развитие экотроп и велосипедных маршрутов, а также предоставление экологически чистых транспортных средств.

– Охрана и восстановление экосистем: Принятие мер по охране и восстановлению природных угодий, в том числе создание национальных парков и заповедников.

– Продвижение устойчивых туристических практик: Организация образовательных программ и кампаний для туристов и местных жителей о значимости сохранения природы и местной культуры.

– Поддержка местных сообществ: Вовлечение местных жителей в развитие и управление туристическими объектами, а также создание местных исторических и культурных маршрутов.

–Продвижение через маркетинг и рекламу: Проведение маркетинговых кампаний для привлечения внимания к уникальным природным и культурным достопримечательностям Азербайджана как центра зеленого туризма.

Потенциал развития зеленого туризма в Азербайджане существует, и поэтому мы, как студенты и будущие специалисты в этой области, готовы помочь ему раскрыться и показать миру свои возможности.

**Ключевые слова:** Зеленый туризм, экология, экосистема, инфраструктура, местные жители, маркетинг.

## Литература

1. Грузия зарабатывает на туризме больше Азербайджана https://profi.travel/news/58903/details
2. Сухопутные границы останутся закрытыми до 2 апреля https://turan.az/ru/politika/suxoputnye-granicy-ostanutsia-zakrytymi-do-2-aprelia-2024-g-775223
3. Вторая Карабахская война https://ru.m.wikipedia.org/wiki/%D0%92%D1%82%D0%BE%D1%80%D0%B0%D1%8F_%D0%BA%D0%B0%D1%80%D0%B0%D0%B1%D0%B0%D1%85%D1%81%D0%BA%D0%B0%D1%8F_%D0%B2%D0%BE%D0%B9%D0%BD%D0%B0
4. Забытые маркетинговые исследования в Азербайджане https://banco.az/ru/news/zabytye-marketingovye-issledovaniya
5. Культура Карабаха https://www.virtualkarabakh.az/ru/post-item/25/40/kultura-karabaha.html

# YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏY OLAQ

**Aysel Nəhmətova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
ahuseynova301@gmail.com

Son illər planetimizdə baş verən təbii fəlakətlər, qlobal istiləşmə, daşqınlar, torpaq sürüşmələri və digər kataklizmlər hamını narahat etməkdədir. Bəlkə də bütün bunlar təbiətin hədsiz istismarına, insafsızlığa etiraz əlamətidir. Ətraf mühitin saflaşdırılmasında, mühafizəsində meşələrin, yaşıllıqların rolu ölçüyə gəlməz dərəcədə böyükdür. Hazırda bu mühüm məsələ ilə bağlı respublikamızda ardıcıl tədbirlər həyata keçirilir. Son illərdə Azərbaycanda turizm infrastrukturunun yenilənməsi nəinki yerli, eləcə də xarici turistlərin də ölkəmizə marağını xeyli artırmışdır. Ölkə rəhbərinin turizm sektorunun inkişafı ilə bağlı verdiyi tapşırıq və tövsiyələrə uyğun olaraq, artıq bu sahədə uğurlu göstəricilərə nail olunmuş, iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrilmişdir. Belə ki, bununla bağlı qəbul olunmuş dövlət proqramları ölkəmizdə turizmin inkişafını sürətləndirmiş, onun yüksək tələblər səviyyəsində qurulmasına imkanlar yaratmışdır.

Ölkəmiz müstəqillik qazandıqdan sonra iqtisadiyyatın digər sahələri kimi turizmin inkişafı da ön plana çəkilmişdir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən daha da təkmilləşdirilərək dünya standartlarına yaxınlaşdırılan bu gəlirli sahənin inkişaf etdirilməsi istiqamətində çoxlu sayda layihələr həyata keçirilmişdir. Bununla da qısa müddət ərzində daxili və xarici sərmayələrin cəlb edilməsinə, təqdim olunan xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara yaxınlaşdırılmasına və beləliklə də dünya turizm bazarında rəqabət qabiliyyətinin artırılmasına nail olunmuşdur.

Avropa və Asiya arasında körpü rolunu oynayan Azərbaycanda iqtisadiyyat, idman, mədəniyyət, incəsənət və digər sahələrdə qazanılan yüksək nailiyyətlər turizmin inkişafında da özünü göstərməyə başlamışdır. Artıq ən mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi turizm, xüsusilə kənd turizmi sürətlə inkişaf etməyə başlamışdır. İndi istər yerli, istərsə də xarici turistlərin kənd evlərində yaşayıb istirahət etmək həvəsi daha da artmışdır. Bunun da əsas səbəbi kənd həyatını yaşamaqla bir müddət səsli-küylü şəhərdən uzaqlaşmaq istəyidir. Sadə kənd evlərində yaşayıb istirahət edən bu insanlar kənd həyatından zövq almaqla yanaşı, həm də buna təbii müalicə üsulu kimi də baxırlar.

Həmçinin erməni işğalından azad olunmuş Kəlbəcər və Laçın rayonları, ümumilikdə Qarabağ bölgəsi böyük turizm potensialına malikdir və bu potensialı reallaşdırmaq üçün böyük işlər görmək lazımdır. Bununla da qısa müddət ərzində daxili və xarici sərmayələrin cəlb edilməsinə, təqdim olunan xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara yaxınlaşdırılmasına və beləliklə də dünya turizm bazarında rəqabət qabiliyyətinin artırılmasına nail olunmuşdur.

Avropa və Asiya arasında körpü rolunu oynayan Azərbaycanda iqtisadiyyat, idman, mədəniyyət, incəsənət və digər sahələrdə qazanılan yüksək nailiyyətlər turizmin inkişafında da özünü göstərməyə başlamışdır. Artıq ən mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi turizm, xüsusilə kənd turizmi sürətlə inkişaf etməyə başlamışdır. Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublika prezidentinin Sərəncamı dünyaya önəmli bir mesajdır. Azərbaycan bütün dünya ölkələrini yaşıl dünya naminə həmrəylik nümayiş etdirməyə çağırır. Vətənimizin iqtisadi potensialı artdıqca ekoloji məsələlərin həllinə diqqət artırılır. Son illərdə böyük miqyasda ekoloji problemlərin həllinə yönələn müxtəlif tədbirlər həyata keçirilmişdir. Cənubi Qafqazda Vəhşi Təbiətin Bərpası və Reabilitasiya Mərkəzi ilk olaraq Azərbaycanda yaradılıb. Azərbaycan Xəzəryanı ölkələr arasında yeganə dövlətdir ki, dənizin və onun su hövzəsinin və sahillərinin çirklənmədən təmizlənməsi üzrə kompleks tədbirlər həyata keçirir.

“Ekologiya ili” çərçivəsində və sonrakı illərdə ölkəmizdə milyonlarla ağac əkilməsi, yeni parkların salınması və dövlət başçısının özünün və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu kampaniyalarda iştirakı ətraf mühitin qorunmasına  xüsusi diqqətin göstəricisidir. Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın  rifahının yaxşılaşdırılması naminə istifadə edilməsi respublikada aparılan sosial-iqtisadi islahatların  tərkib hissəsindən biridir. Müstəqillik illərində ölkəmizdə ekoloji tarazlığın  qorunması, ətraf mühitin mühafizəsi sahəsində əsaslı dönüş yaranmış, təbii ehtiyatların, o cümlədən faydalı qazıntıların, su, torpaq, hava kimi insan həyatı üçün əvəzsiz təbii nemətlərin, meşə ehtiyatlarının, canlı aləmin mühafizəsi həmişə bu sahənin prioritet məsələləri olub. Dünyada mövcud olan 11 iqlim tipindən 9-na ölkəmizdə rast gəlmək mümkündür. Azərbaycan cənubda subtropik ağaclarına və meyvələrinə, şimalda isə alp buzlaqlarına görə unikal bir ölkə kimi dünyada məşhurdur. Bu iqlim xüsusiyyətləri Qafqazda vəhşi təbiətin flora və faunasının zəngin canlı müxtəlifliyini təmin edir. “İDEA” İctimai Birliyinin və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə fəaliyyəti ilə Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə Aran rayonlarında, Bakıdan müxtəlif ərazilərə gedən

avtomagistralların kənarlarında yeni meşə zolaqları salınmışdır. “Hərəyə bir ağac əkək” layihəsi geniş yaşıllıq hərəkatına çevrilmişdir. Bu hərəkatın həyata keçirdiyi işlər nəticəsində münbit olmayan torpaqlar münbitləşmiş, yeni meşə zolaqlarını damcı üsulu suvarılması təmin edilmiş, torpaqların eroziyasının qarşısı alınmışdır. Ölkəmizdə meşələrin ümümi sahəsi 1214 min hektardır ki, bu ümumi ərazinin 11,8 faizinə bərabərdir. Hər adambaşına təqribən 0,12 hektar meşə sahəsi düşür. Bu ümumdünya miqyasında götürülən müvafiq orta rəqəmdən 4 dəfə azdır. Ümumdünya miqyasında bu rəqəm 0,48 hektardır. Belə məlum olur ki, Azərbaycan meşə ehtiyatları az olan azmeşəli ölkələr sırasındadır. Meşələrin qorunması, yeni meşələrin salınması xalqımızın sağlamlığının qorunması üçün əsas amillərdəndir. Meşə oksigen istehsal edən yaşıl və canlı laboratoriyadır. Bir çox ölkələrdə meşələri “yaşıl ciyər”, yaxud, “ağ ciyər” adlandırırlar. Ölkəmizdə təkrar istehsal sahəsində sahibkarlar və investorlar üçün əlverişli şərait yaratmaq məqsədi ilə dövlət başçısının 2011-ci il 28 dekabr Sərəncamı ilə Balaxanı Sənaye Parkı yaradılmış, 2012-ci ildə istehsal gücünə görə Şərqi Avropa və MDB məkanında ən iri müəssisə hesab olunan Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu fəaliyyətə başlamışdır. Ölkəmizin zəngin təbiətini qorumaq üçün mütəmadi yeni layihələr həyata keçirilir. Ekoloji tarazlığın qorunması, təbii sərvətlərin mühafizəsi sahəsində mövcud olan “Azərbaycan- 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, “Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya”, “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri” və digər dövlət proqramları çərçivəsində mövcud ekoloji problemlərin həlli istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. Heydər Əliyev Fondunun ekologiyanın, ətraf mühitin qorunmasına xidmət edən “Hərəmiz bir ağac əkək” layihəsi də bu sahəyə böyük töhfələr verib. Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihə çərçivəsində ölkəmizdə hektarlarla sahə yaşıllaşdırılıb.

Yuxarıda qeyd olunanlar bir daha sübut edir ki, həm ölkəmizdə, həm də bütün dünyada insanlar təbiətə qayğı ilə yanaşmalı, planetimizin gələcəyi naminə öz həmrəyliklərini ortaya qoymalıdırlar. Məhz bunun nəticəsində sağlam və xoş gələcəyə nail ola bilərik.

**Açar sözlər:** Yaşıl dünya, yaşıl turizm, ekoloji tarazlıq.

# AZƏRBAYCANDA EKOLOJİ TURİZMİN İNKİŞAFININ AKTUAL MƏSƏLƏLƏRİ

**Naibə Nəsirova**
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

Son illər Respublikamızda şəhər əhalisinin daha da artması, paytaxt Bakıda həddən çox sıxlığın yaranmasına, eyni zamanda insanların təbiətdən uzaqlaşmasına və sənaye sahəsinə daha çox önəlməsinə gətirib çıxarmışdır. Ümumiyyətlə, son vaxtlarda maşınların səs-küyündən, zavodların tüstüsündən uzaqlaşıb, daha sakit və təmiz havanı ciyərlərə çəkmək insanları bu günlərdə cəlb edən başlıca mövzulardan biridir.

Bunun üçün də ölkəmizdə "ekoturizmin" və yaxud "yaşıl turizimin" inkişafına böyük ehtiyac vardır. İlk öncə qeyd edək ki, yaşıl turizm dedikdə, bir növ təbiətə səyahət başa düşülür. Belə ki,insanlar daim təbiətlə qarşılıqlı əlaqəyə malikdir və bu zaman insan özü də bilməyərəkdən təbiətə hədsiz dərəcədə ziyan vurur. Düzdür, insan təbiəti məhv etmir, amma öz fəaliyyəti nəticəsində onu iflic vəziyyətinə salır. Buna misal olaraq, meşə sahələrinin qırılması, həmin ərazilərdə zavod, yaşayış binaları, fabriklərin, yolların və s. salınmasını göstərmək olar. Amma "yaşıl turizm" təbiətə zərər vermədən onunla birbaşa əlaqədə olaraq, onun mənzərəsinin, gözəlliklərinin ləzzətini dadmaqdır.

Ölkəmizdə son illərdə "yaşıl turizim" və ya "ekoturizm" fenomeni geniş yayılıb. Bu fenomenin inkişafı üçün, ilk növbədə Azərbaycan Respublikasının gəzib-görməli yerlərini müəyyənləşdirmək, ora ekskursiyalar təşkil etmək vacib məsələlərdən biridir. Təbiətə edilən ekskursiyalar təkcə insanlara istirahət və yaxud gözəl mənzərə bəxş etməklə kifayətlənmir, həm də tarixi-coğrafi cəhətdən mühüm olan ərazilərimiz haqqında məlumat əldə etməyimizə kömək göstərir. Dünya səviyyəsində bu turizmə böyük önəm verilir. Beynəlxalq Ekoturizm Cəmiyyətinin verdiyi məlumata əsasən, turizimin bu sahəsinin inkişafı nəticəsində, onun illik dövriyyəsi 470 milyard dollar civarında müəyyənləşə bilər.

Ümumiyyətlə, ölkəmiz təbii müxtəlifliyi, rekreasiya ehtiyatları turizm baxımından çox zəngindir. Ekoloji turizmin bir çox sahələrini fərqləndirirlər. Bunlar aşağıdakılardır:

1) Çimərlik turizmi,
2) İdman turizmi,
3) Ekoloji turizm,
4) Dini turizm,
5) Kənd turizmi,
6) Qış dağ turizmi və s. [2].

Demək olar ki, Azərbaycanda bu sahələrin inkişafı üçün böyük potensial vardır. Xüsusilə, ölkəmizdə çimərlik turizmi inkişaf etmişdir. Bu turizm ölkəmizdə Abşeron yarımadası, Bakı şəhəri və digər Xəzər sahili bölgələrdə daha geniş yayılmışdır.

Yaşıl turizm baxımından respublikamızda kənd turizminin inkişafı üçün əlverişli şərait mövcuddur. Lakin bizim ölkəmizdə əsas problemlərdən biri həmin turizm zonalarını düzgün təqdim edə bilməməyimizdir. Belə ki, Azərbaycan Respublikasının yerləşdiyi ərazi həm mədəni, tarixi, etnik və dini baxımdan, eyni zamanda coğrafi cəhətdən zəngin muzeyə bənzəyir. Ona görə bu turizm növünü ölkəmizdə genişləndirmək üçün, həmin turizm zonaları müəyyənləşdirilməli və bu ərazilərə ekskursiyalar, turlar təkil olunmalıdır. Bir sözlə desək, düzgün reklam etməyi bacarmalıyıq, yəni həmin ərazilər haqqın da video- çarxlar çəkməklə, bu yöndə müxtəlif tədbirlər planı həyata keçirməklə bunu edə bilərik .

Bununla yanaşı istirahət edərkən təbiəti qorumağı və ətraf mühitə zərər verən hər bir fəaliyyətdən kənar durmalıyıq. Bu sahədə insanları məlumatlandırmaq, geniş təbliğat işləri aparmaq vacib məsələlərdən biridir. Məsələn, kənd turizmini inkişaf etdirmək istəyiriksə, ilk öncə kənd sakinlərinin fikirləri ilə yaxından tanış olmaq lazımdır. Bunun üçün müxtəlif sorğular, maarifləndirici tədbirlər təşkil olunmalıdır.

Həmçinin, turistlərin gəldikləri bölgədə rahat yerləşdirilmələri, bu ərazilər haqqında geniş məlumatlar əldə etmələri üçün kənd sakinləri geniş fəaliyyət göstərməlidir. Bu isə kor-koranə şəkildə deyil, dövlətin nəzarəti altında həyata keçirilməlidir. Təbii ki, bu cür sorğulara hər bir kəs müsbət cavab verməyə bilər, lakin müsbət rəy bildirənlərə təlimlər keçmək, eyni zamanda turistləri qəbul edən evlərə dəstəyin, kiçik kreditlərin dövlət tərəfindən ayrılması mühüm amillərdən biridir [7].

Ölkəmizdə son illərdə yaşıl turizmi genişləndirmək yolunda addımlar atılır. burada əsas problemlərdən biri də, infrastrukturun natamam inkişafıdır. Beləki, xaricdən gələn turistlərin çoxu paytaxt Bakıya üz tutur. Buna da səbəb digər bölgələrdə nəqliyyat və yerləşmə müəssələrinin düzgün inkişaf etdirilməməsidir [3].

Əgər kəndlərimizdə turistlərin gəlib rahat şəkildə istirahət edə bilmələri üçün şərait yaradılsa, məsələn, dağ evlərinin olması buna daha uyğun olar. Xüsusilə, kənd sakinlərinin də bu işə cəlb olunması da, həm onların rifahının yüksəlməsinə, həm də iqtisadiyyatımızın yüksək səviyyədə inkişafına səbəb olar.

Azərbaycan Respublikasında müalicə məqsədilə sağlamlıq turizmi də geniş yayılmışdır. Bu turizm zonalarına Abşeron yarımadasının təbii-iqlim şəraiti, Şıx mineral suyu, Bədo mineral suyu, Naftalan nefti, Qalaaltı, İstisu, palçıq vulkanları və s. aid edilir. Lakin bu sahədə turizmin inkişaf etməsi yolunda problemlərlə qarşılaşırıq. Beləki, bu ərazilərdə xüsusilə,

Bilgəh, Şıx və Pirşağı kimi sanatoriya-kurort müəssələrinin yerləşdiyi ərazilərdə məcburi köçkünlərin məskunlaşmasıdır [5]. Ümid edirik ki, yaxın zamanda həmin insanlar öz doğma torpaqlarına- azad Qarabağa qayıdacaqlar.

Bu kimi problemləri aradan qaldırmaq üçün dövlət səviyyəsində müxtəlif tədbirlər həyata keçirilir. Bu istiqamətdə 2009 – 2018 ci illərdə Azərbaycanda sağlamlıq turizmi sahəsində bir çox yenilikləri həyata keçirmək, inkişafa mane olacaq problemləri həll etmək üçün Dövlət Proqramı qəbul edilmişdir [1] .

Bu gün artıq işğaldan azad olunmuş torpaqlarımızda da yaşıl turizmin inkişaf etməsi yolunda addımlar atılır. Xüsusilə, Qarabağ və Şərqi Zəngəzur bölgəsi bu istiqamətdə geniş tədbirlər planına daxil edilmişdir. Bu zonalar da həyata keçirilən “Ağ fil” layihəsinə əsasən 2021- ci ildə Füzuli və 2022 – ci ildə Zəngilan da hava limanları istifadəyə verilmişdir. [4]

Həmçinin Şuşa, Laçın, Kəlbəcər və Zəngilan kimi bölgələrimiz yaşıl turizmin inkişafı baxımından yüksək potensiala malikdir. Zəngilan, Kəlbəcər və Laçın rayonlarında qış xizək turizminin inkişafı daha perspektivlidir. Bundan əlavə, Şuşada “İsa bulağı”, Kəlbəcərdə “İstisu”, Laçında “Turşsu”, Hadrutun “qızlar bulağı” tərkibinə görə çox zəngindir, bir sözlə qızıl qiymətindədir [6].

İşğaldan azad olunmuş torpaqlarımızda, yaşıl turizmin inkişafı üçün dövlətlə birgə vətəndaşlarımız da fəallıq göstərməli, düzgün, məqsədyönlü şəkildə fəaliyyət göstərməlidirlər. Məsələn, yerli sahibkarlar tərəfindən bu yerlərdə sanatoriya-kurort müəssələrin tikilib istifadəyə verilməsi, ekoloji turizm marşurutlarının hazırlanması, bu bölgələrə turların təşkil olunması və s. bunlara aid edilə bilər. Həmçinin gənclərimiz üçün də müxtəlif layihələr həyata keçirilə bilər. Belə ki, “ölkəmizi tanıyaq” adlı keçirilən layihələrdə Qarabağ və Şərqi Zəngəzur bölgəsinə də turların təşkil olunması faydalı olar. Bu həm gənclərimizə ölkəmizi daha yaxından tanımağda, həm də təbiəti haqqında geniş məlumatlara sahib olması yönündə böyük inkanlar açar.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yaşıl turizmin inkişafı sahəsində geniş tədbirlər planı həyata keçirilməkdədir. Biz də öz növbəmizdə ekoturizmi təbliğ edərək inkişaf etdirməliyik. Bununla da Azərbaycanımızı “təbiət ocağına” çevirməliyik.

**Açar sözlər:** Yaşıl turizm, ekoturizm, Kəlbəcər, Qarabağ, dövlət, təbiət.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət proqramı. Azərbaycan Respublikasının Qanunvericiliyi toplusu II cild, Bakı: Avrasiya press, 2011.
2. Balasənli, K. (2018). Azərbaycanda alternativ turizm növlərinin inkişaf problemləri, s. 10.
3. Balasənli, K. (2018). Azərbaycanda alternativ turizm növlərinin inkişaf problemləri, s. 17.
4. BBC.com Qarabağın və Şərqi Zəngəzurun Ağ fil layihələri: Füzuli, Zəngilan, Laçın hava limanları, 2023, 18 may.
5. Hacıyeva Afaq, Cəfərova Firuzə Azərbaycan da balneoloji turizmin inkişafının əhəmiyyəti və problemləri, 2005.
6. Havar Şəfiyeva İşğaldan azad olunmuş ərazilər də turizmin inkişafı, 2022.
7. Ramiz Yusifli Azərbaycan da kənd turizminin perspektivi böyükdür, 2015.


# YAŞIL TURİZMDƏ VERGİNİN OPTİMALLAŞDIRILMASI


**Sevinc Qasımova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan


Bu məqalədə yaşıl turizmin vergilər sektoruna təsiri ilə bağlı ümumi ədəbiyyatın yüksək səviyyədə qiymətləndirilməsi təqdim olunmuşdur. Turizm iqtisadi artıma, dövlət gəlirlərinə, məşğulluğa və sosial inkişafa geniş təsirləri olan əsas iqtisadi fəaliyyətdir. Bayramlar və əlaqədar xərclər (uçuşlar, mehmanxanalar, restoranlar və s.) istehlak xərclərinin əhəmiyyətli maddələrini təşkil edir və əlaqədar vergilər bir çox yurisdiksiyalarda hökumətlər üçün əhəmiyyətli gəlir mənbəyini təşkil edir.

Yaşıl dünya naminə "Yaşıl Turizm"

Davamlı turizm kimi də tanınan yaşıl turizm, turizm sənayesində ekoloji cəhətdən təmiz təcrübələri vurğulayan bir anlayışdır. Bu, turizm fəaliyyətinin ətraf mühitə mənfi təsirləri azaldan tədbirlərlə uyğunlaşdırılmasını nəzərdə tutur. Yaşıl turizmin əhəmiyyəti onun ekoloji idarəetmə sistemlərindəki rolundadır, çünki turizm ətraf mühitlə sıx bağlıdır. Davamlı turizm təcrübələri ekologiyanın, yerli icmaların, bizneslərin və turistlərin ehtiyaclarını balanslaşdırmaq məqsədi daşıyır, məsuliyyətli turizmi təşviq edir.

Yaşıl turizmin həyata keçirilməsi enerji və suya qənaət, tullantıların azaldılması, təkrar emalı və ətraf mühitin davamlılığını dəstəkləyən infrastrukturun qurulması kimi müxtəlif

strategiyaları əhatə edir.

Yaşıl turizm kontekstində hökumət standart sertifikatlaşdırma sistemlərinin yaradılmasında və yaşıl brendlərin təşviqində mühüm rol oynayır. Müxtəlif ölkələrdə Turizm Nazirliyi məhsuldar turizm təcrübələrini təşviq edərək, yaşıl məhsul və xidmətlərə olan tələbatı ödəməyə çalışır. Bundan əlavə, şəhərlərə turist axınının yaşıl keçidlərə müsbət təsir göstərdiyi, ağıllı turizmin və ağıllı şəhərlərin inkişafına töhfə verdiyi aşkar edilmişdir.

"Turizm vergiləri" və "turizm rəqabət qabiliyyəti"nin müəyyən edilməsi

Vergilərin turizm sektorunun rəqabət qabiliyyətinə təsirini qiymətləndirmək üçün biz ilk növbədə "turizm vergisi"nin nədən ibarət olduğunu, "turizm rəqabətqabiliyyətliliyi" dedikdə nəyin nəzərdə tutulduğunu və birincinin ikinciyə təsirinin necə qiymətləndirilə biləcəyini müəyyənləşdiririk.

Turizm vergilərini iki kateqoriyaya, yəni ümumi vergilər və xüsusi və ya diferensial turizm vergilərinə ayrılmışdır. Ümumi turizm vergiləri "ümumi turizm məhsullarının və xidmətlərinin tədarükünə, turizm biznesindən əldə edilən gəlirlərə və turizm müəssisələrinin işçilərinə kompensasiyalara tətbiq edilənlərdir" [1]. Bu yanaşma həm turizmə, həm də turizm yönümlü olmayan müəssisələrə tətbiq edilən ümumi vergiləri və sektorun özündən tutulan daha konkret vergiləri əhatə edir.

Bir turizm məkanını həqiqətən rəqabətədavamlı edən onun turizm xərclərini artırmaq, ziyarətçiləri daha çox cəlb etmək, onlara məmnunedici, yaddaqalan təcrübələr təqdim etmək və bunu sərfəli şəkildə etmək, eyni zamanda destinasiya sakinlərinin rifahını yüksəltmək və təbii şəraiti qorumaqdır [2]. Buna uyğun olaraq, rəqabətqabiliyyətliliyin qiymətləndirilməsi yalnız vergilərin biznes və turistlərə təsirinə deyil, həm də bu vergilərin turizm sektorunun rəqabətədavamlı olmasını (və qalmasını) təmin etmək üçün tələb olunan infrastruktur və xidmətlərin maliyyələşdirilməsinə töhfə verməlidir.

Qiymətlərin rəqabət qabiliyyəti və verginin təsiri

Qiymət rəqabətliliyi turizmin rəqabətliliyi ədəbiyyatında tez-tez rast gəlinən məsələdir. İqtisadi nəzəriyyə təklif edir ki, əgər turizm tələbi nisbətən elastik olsa, turizmlə əlaqəli mal və xidmətlərə (mehmanxana və restoranlar kimi) vergi dərəcəsinin azaldılması turizm tələbinin artmasına və əksinə vergi dərəcələrinin artmasına səbəb olacaqdır. Bununla belə bu, vergi dərəcəsindəki dəyişikliyin istehlakçıya "keçirilməsi"nin dəyərinə və ya qənaətinə əsaslanır və onların üzləşdiyi qiymətə təsir göstərir. Bir çox hökumətlər üçün turizm tələbinin əhəmiyyətini nəzərə alaraq, turizm vergisində dəyişikliklərin potensial təsirini tədqiq edən bir sıra tədqiqatlar aparılmışdır. Onlardan bəziləri təhlilin ilk addımı kimi ayrıca keçid məsələsini də nəzərdən keçirdilər.

Turizmin rəqabət qabiliyyətinə təsir edən qeyri-qiymət amilləri

Turizm Rəqabət Qabiliyyəti İndeksi bir çox ölçülərdən ibarətdir, onlardan bəziləri digərlərindən daha çox vergitutma və biznes mühitinə uyğundur. Rəqabət qabiliyyətinin 90 fərdi göstəricisi arasında dördü qiymət rəqabət qabiliyyətinə aiddir. Uğura töhfə verən amillər mədəni zənginlik, dünya səviyyəli turizm xidmət infrastrukturu, əla sağlamlıq və gigiyena şəraiti, viza rejiminin sadələşdirilməsi və yüksək beynəlxalq açıqlıq, eləcə də təhlükəsizlikdir.

Vergi qeyri-qiymət amilləri üçün vacibdir, çünki o, infrastruktur, mədəni, təhlükəsizlik, açıqlıq, texnologiya, sosial inkişaf və ətraf mühit kimi turizmin rəqabət qabiliyyətinə töhfə verən digər amillərə xərcləmək üçün lazım olan gəliri təmin edir. Bir çox hallarda sektor üzrə vergilər digər sektorlardakı vergilərdən nisbətən yüksək olur.

Qonaqlama provayderləri və səyahət agentləri və turoperatorlarla bağlı vergilər

Hesabatlar təklif edir ki, yaşayış təminatçıları üçün aşağı ƏDV dərəcələri həm qonaqpərvərlik sektorunda daxili tələbi genişləndirə, həm də daha çox turist axınına səbəb ola bilər.

Səyahət Agentliklərinin ƏDV üzrə Marja Sxemi (TAMS) Avropa Birliyi daxilində səyahət agentləri və turoperatorlar üçün ən diqqətəlayiq vergi xüsusiyyətidir [3]. Bu, əyahət vasitələrinin təqdim edilməsində müştərilərlə öz adından məşğul olan və digər vergi tutulan şəxslərin təqdim etdiyi mal və ya xidmətlərdən istifadə edən hər hansı təchizatçı üçün ƏDV-nin məcburi sadələşdirilməsi mexanizmidir. TAMS sektordakı bizneslər üçün sadələşdirici mexanizmdir və turizm malları və xidmətlərinin əsas təchizatı ilə bağlı istehlakçının çəkdiyi vergi xərclərinə təsir göstərmir. Bunun səbəbi, səyahət agenti və ya turoperatora TAMS çərçivəsində satın alınan və müştərilərinə yenidən təqdim edilən səyahət xidmətləri ilə bağlı heç bir giriş vergisi kreditinin mövcud olmamasıdır. Buna görə də, agent və ya operator bu dəyəri öz ümumi qiymətində kompensasiya etmədikdə, əsas təchizat üzrə ƏDV dəyəri səyahətçinin ödədiyi qiymətə köçürülür. TAMS, əsas səyahət xidmətlərinin həyata keçirildiyi ölkələrə bu xidmətlərə görə ƏDV-ni toplamaq imkanı verir, səyahət agentləri və turoperatorların qurulduğu ölkələr isə həmin müəssisələrin etdiyi marjalar üzrə ƏDV-ni yığır. Bu, təyinat və gediş ölkələri arasında ƏDV gəlirlərini effektiv şəkildə bölüşdürür.

**Açar sözlər:** Yaşıl turizm, turizmdə vergi, verginin optimallaşdırılması.

## Ədəbiyyat

1. European Commission, 2017.
2. Forsyth, P.,L. Dwyer, 2002, Market Power and the Taxation of Domestic and Intemational Tourism. Tourism Economics, 8(4), pp. 377-399.

3. Mazanec, J.A., Wober, K., Zins, A.H., 2007, Tourism Destination Competitiveness: From Definition to Explanation?. Journal of Travel Research, available from: http://journals.sagepub.com/doi/pdf/10.1177/0047287507302389

# QARABAĞDA YAŞIL TURİZMİN FORMALAŞMASI İMKANLARI

**Şadman Qənbərov**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
sadman.qanbarov@gmail.com

Azərbaycan son illər ərzində bir çox uğurlara imza atıb, qələbələr qazanıb. Müzəffər Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı Zəfər ölkənin müasir tarixinin ən parlaq səhifələrini təşkil edir. Bütün bu uğur və qələbələr xalqın zəngin insan potensialı ilə əlaqəlidir.

Azərbaycanı dünyaya tanıdan neft sərvəti dövlətin iqtisadi gücü və qüdrətinə çevrilib. "Qara qızıl" adlandırılan neftin insan kapitalına çevrilməsi və vətəndaşlara xidmət etməsi üçün addımlar atılıb.

Bir il öncə Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Bu dövrü "qara qızıl"dan "yaşıl qızıl"a keçid kimi qiymətləndirə bilərik. Söhbət turizmdən gedir. Hazırda hədəf ölkə iqtisadiyyatının turizmlə inkişaf etməsini təmin etməkdir.

Hələ işğaldan əvvəl turizm-rekreasiya sahəsindəki geniş inkişaf potensialına görə fərqlənən Qarabağ və ətraf rayonlarımızda hazırkı dövrdə erməni işğalı nəticəsində təhlükəsizliyin təminatında yaranan problemlər, infrastrukturun dağıdılması səbəbindən turizmin təşkili hələlik mümkünsüzdür.

Təbii ki, Qarabağ və ətraf rayonların turizm imkanlarından tam istifadə üç əsas amil təmin edildikdən sonra mümkün olacaq. Bunlar ərazilərdə təhlükəsizliyin təminatı, əhalinin oraya qayıdışı və infrastrukturun yaradılmasıdır. Yaxın gələcəkdə bütün bu məsələlər həll edildikdən sonra Qarabağın Azərbaycanın turizmində öz hegemonluğu ilə seçiləcəyi heç kimdə şübhə doğurmur. Hətta inamla söyləmək olar ki, Qarabağ regional əhəmiyyətli, daha sonra dünya əhəmiyyətli ekoturizm mərkəzinə çeviriləcək. Azad edilmiş torpaqlarda həyat yenidən dirçələcək və bölgə qısa zamanda regionun cəlbedici turizm istiqamətlərindən birinə çeviriləcək.

Artıq işğaldan azad edilən ərazilərimizdə infrastrukturun qurulması işlərinə start verilib. Bununla paralel şəkildə Qarabağın turizm potensialının dünyaya tanıdılması istiqamətində maarifləndirici işlərə, bölgənin turizm imkanlarından faydalanmaq üçün ilkin araşdırmalara da başlanılıb. Qarabağda turizm sektorunun inkişafı bu bölgənin iqtisadi baxımdan tez bir zamanda dirçəlməsinə müsbət təsir göstərəcək.

Ərazilərdə təhlükəsizliyin təminatı, əhalinin oraya qayıdışı və infrastrukturun yaradılması təmin olunduqdan sonra Qarabağ və ətraf rayonlarda yeni turizm məhsulları yaradılaraq turistlərə təqdim ediləcək. Həmin zonada ilk mərhələdə daxili turizmin təşkili əsas istiqamət olacaq. Bu bölgələrdə ilk mərhələdə daha çox ziyarət tipli turizmin təşkili, infrastruktur tam bərpa edildikdən sonra isə istirahət turizminin təşkili nəzərdə tutulur.

Qarabağın turizm mərkəzinə çev-rilməsi üçün çox geniş imkanlar var. Bu imkanların reallığa çevrilməsi üçün əsas vəzifə düşmənin 30 ilə yaxın bir müddət-də viran qoyduğu əraziləri yenidən qur-maq, qayıdış üçün əlverişli zəmin forma-laşdırmaqdır. Artıq rabitə-kommunikasiya xətləri çəkilib, kilometrlərlə yeni yollar salınıb, dağıdılan binaların, tarixi-mədəni abidələrin bir hissəsi bərpa olunub [2].

Qarabağda turizmin çox növləri – eko, dağ, qış, ov, sağlamlıq turizminin inkişafı üçün böyük imkanlar var. Azərbaycanın bu qədim tarixə malik olan bölgəsi özünün flora və faunası, mətbəxi, tarixi mədəni-dini abidələri, qədim qalaları, körpüləri, meşələri, bulaqları və s. Görməli məkanları ilə turistləri cəlb edəcək. Təbii ehtiyatlarla zəngin olan Qarabağda həm də müxtəlif növ ekstremal turizm, aqroturizm, yaşıl turizm təşkil etmək olar. Bütün bunlar turizmin inkişafı üçün geniş perspektivlər yaradır. Kəlbəcər rayonu qış turizmi üçün ideal məkandır. İşğaldan azad olunmuş ərazilərimizdə turizm infrastrukturunun qarşılıqlı əlaqə şəklində qurulması vacibdir. Şuşa Azərbaycan turizminin simvol şəhərlərindən biri olacaq. Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verəcək. Şuşa mülayim iqlim şəraitinə, mineral suları isə müalicəvi xüsusiyyətlərə malikdir. Bunlar da turizm üçün çox yararlı istiqamətlərdir. Burada tanınmış bəstəkarlar, muğam ustadları, incəsənət xadimləri yetişib. Bütün bunlar imkan verir ki, Şuşada maraqlı turizm xidmətləri marşrutları yaradaraq onları turistlərimizə təqdim edək.

Kifayət qədər geniş rekreasiya imkanlarına malik olan Laçındakı İlıqsu müalicəvi əhəmiyyətli mineral bulağı, zəngin flora və faunaya sahib, sahəsi 21 min hektardan çox olan Laçın yasaqlığı bu ərazilərin turizm imkanlarını genişləndirəcək. Hələ işğaldan əvvəl Kəlbəcərin İstisu qəsəbəsində Ümumittifaq əhəmiyyətli 2 böyük sanatoriya fəaliyyət göstərirdi. Hər il orada 50 min nəfər müalicə olunur və istirahət edirdi. Buradakı “İstisu” mineral suları

ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkün idi. Hətta orada kurort və mineral sudoldurma zavodu da tikilmişdi. Deməli, Kəlbəcərin turizm potensilı hətta Gürcüstanın turizm mərkəzlərinə əsaslı rəqib ola biləcək bir potensiala malikdir.

Mütəxəssislərin fikrincə, Kəlbəcərin relyefi dünyanın ən heyrətamiz kanatlarının inşasına, ən maraqlı turizm xidmətlərinin qurulmasına imkan verir. Potensialından düzgün istifadə edilərsə, burada Qafqazın ən böyük turizm mərkəzini yaratmaq, Gürcüstana olan turist axınının istiqamətini dəyişmək mümkündür.

İşğal sonrası Qarabağ iqtisadiyyatında turizmin yeri buranın təbii ehtiyatları, coğrafi mövqeyi, tarixi Zənginlikləri və potensial nəqliyyat imkanları ilə əlaqədardır. Buna görə də Qarabağın zəngin təbii ehtiyatlarının və xalqımıza məxsus milli-mədəni mirasının turizm dövriyyəsinə cəlb olunması qarşıdakı dövrdə görüləcək mühüm işlərdən biri olacaq. 30 ilə yaxın doğma yurd həsrəti çəkən Qarabağ sakinlərinin, onların yaxın qohum-əqrabalarının, müxtəlif humanitar missiyalar həyata keçirən beynəlxalq təşkilatların nümayəndələrinin, dünyanın hər yerindən olan media ordusunun və bölgəyə yeni sərmayə yatırmaq üçün Azərbaycana gələcək investorların səyahət məsələləri digər işlərlə bərabər şəkildə həyata keçiriləcəkdir [4].

Ümumiyyətlə, Qarabağ bizim üçün yeni turizm destnasiyası olacaq. Təkcə iki rayonun deyil, Qarabağın ərazisində yeni bir turizm məkanı olacaq. Bu destnasiyaların təhlükəsizliyini təmin etmək lazımdır. Turist üçün ora gedib-gəlmək təhlükəsiz olmalıdır. Ümid edirəm ki, bütün alimlər birgə Qarabağın ərazisini yenidən təhlil edib, yeni turizm marşrutları, turizm məhsulları yaradacaqlar. Turizm sahəsində böhran aradan qalxdıqdan sonra bu məhsulları satıb, çoxsaylı turist cəlb edəcəyik. Xüsusi yeni turizm növləri meydana gələcək. Əminəm ki, Qarabağ ekoloji turizm məkanına çevriləcək, regional ekoloji turizm məkanı kimi tanınacaq. Vaxt gələcək, İsveçrənin Alp dağlarında yerləşən kurortlardan, Fransanın, İtaliyanın, Almaniyanın istirahət mərkəzlərindən daha gözəl yerləri Qarabağ və ətraf ərazilərdə yaradacağıq.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişhəcmli tikinti-quruculuq, abadlıq işlərinin aparılması yaxın gələcəkdə regionun turizmin inkişafına əhəmiyyətli təsir göstərəcək. Yol infrastrukturunun sürətlə qurulması, “ağıllı kənd” və “ağıllı kənd təsərrüfatı” layihələrinin gerçəkləşdirilməsi bu sektorun tezliklə yeni inkişaf mərhələsinə daxil olacağına əminlik yaradır [2].

İşğaldan azad olunmuş ərazilərdə turizmin inkişafı iqtisadiyyatın güclənməsi üçün əsas şərtlərdən biridir. Tədqiqat Şərqi Zəngəzur iqtisadi rayonunun turizm potensialını tədqiq etmək məqsədi daşıdığı üçün bu ərazilər üzrə turizm sektorunu inkişaf etdirmək istifadə edilə bilər.

Eləcə də tədqiqatda sözügedən ərazilərdə mədəniyyət turizmi potensialının yüksək olduğu nəticəsinə gəlinmişdir. Tədqiqat, mədəniyyət turizmini Şərqi Zəngəzurda inkişaf etdirmək üçün əsaslı təhlil və nəticələr irəli sürür.

**Açar sözlər:** Qarabağda turizm, turizmin inkişafı, yaşıl turizm, turizmin inkişaf istiqamətləri.

**Ədəbiyyat**

1. Cabbarov Ə. (2015). Turizmin iqtisadi əsasları, Elm nəşriyyatı, Bakı, s.215
2. Xalq qəzeti, 2022-ci il, 6.
3. Qurbanov F.İ. (2017), Azərbaycanda Turizmin inkişaf problemləri, Elm nəşriyyatı, Bakı, s. 368.
4. Musayev Asiman. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin perspektivli investisiya imkanları, 2022, s.58-77.
5. Soltanova H.B. (2015). Azərbaycanda turizm və onun inkişafı, Bakı, Elm nəşriyyatı, s.214.

## KƏND YAŞIL TURİZMİNİN REGİONLARIN İNKİŞAFINDA YERİ

**Hüseyn Ramazanov**
Xəzər Universiteti, Bakı, Azərbaycan
huseynramazanov1818@gmail.com

Hal-hazırda kənd turizmi ən çox ehtiyac duyulan turizm növlərindəndir. İstirahət etmək, şəhərin hay-küyündən uzaq olmaq istəyənlər kəndə üz tutur. Amma kənd qonaq evlərinin azlığı və şəraitin yaxşı olmaması ucbatından onlar yenə də çəhərlərdə yerləşən hotellərdə qalmağa məcbur olur. Aydındır ki, hotellərin öz nizam-intizam qaydaları var. Məsələn, müəyyən olunan vaxtda yuxudan oyanmalı, səhər yeməyi yeyilməlidir. Ona görə də turistlər rayona gedərkən hotellərdə qalmaq əvəzinə kənd qonaq evlərində qalmağı daha çox istəyirlər. Amma kənd qonaq evləri müştəri tapmaq üçün yaxşı şəraiti olmalıdır. Çünki turistlər ilk növbədə rahatlığa üstünlük verir. Turizmin bu növünün inkişafı bölgələrdə əhali üçün məşğulluq sahələri yaradır. Beləliklə də, kənd sakinləri iş-güc tapmaq üçün ailələrindən uzaq qalmağa ehtiyyac duymur. Bütün bunlar kənd turizminin önəmini vurğulayır. Turizm sadəcə dəb və maraq deyil həmçinin insanların vərdiş etdiyi həyati tələbatdır. Son illərdə turizmin təşkili işi qloballaşaraq sırf beynəlxalq fəaliyyət dairəsinə daxil olmuşdur.

Son illərdə turizm infrastrukturunun yenilənməsi nəinki yerli eləcədə xarici turistlərin ölkəmizə marağını arttırmışdır. Avropa və Asiya arasında körpü rolunu oynayan Azərbaycanda iqtisadiyyat, idman, mədəniyyət və digər sahələrdəki nailiyyətlər turizm inkişafını sürətləndirmişdir. Artıq Azərbaycanda qeyri-neft sektoru olan turizm, xüsusilədə kənd turizmi inkişaf etməyə başlamışdır. İndi istər yerli istərsə də xarici turitlərin kənd evlərində yaşayıb istirahət etməyə marağı artmışdır. Şəhərin səs-küyündən bezən insanlar kəndlərə üz tutur. Sadə kənd evlərində dincəlmək bu insanlar üçün nəinki istirahət həmdə bir müalicə üsulu kimi baxırlar. Ümumiyyətlə kəndə istirahətə gələn turistlər, kənd əhalisinin bütün sosial təbəqələrinə öz təsirini göstərir. Məsələn, əhalinin maddi rifahının yaxşılaşdırılması, istehsal olunan məhsulların satışı, insanlar arasında ünsiyyət və yaxınlaşma, kənd adət-ənənələri ilə tanışlıq və digər məsələlərdə öz həllini tapır. Bütün bu deyilənlər təsdiqlədi ki, kənd turizmi hər bir bölgəyə hətta onun əhalisinədə gəlir gətirir [1].

Kənd turizmini bir sıra yollarla inkişaf etdirmək olar:

1. Məşğulluğun təmini – "Gənc ailələr arasında kənd - yaşıl turizmini stimullaşdırmaq" layihəsinin icra edilməsi:

Kəndlərdə yaşayan gənc nəslillərə kənd infrastrukturunun verdiyi imkanlardan yararlanması barədə müzakirə aparılmasıyolu ilə kəndlərdə yaşayan gəncləri fotoovçuluq, aqroturizm, yaşıl turizm operatorluğu kimi sahələrə həvəsləndirmək lazımdır.

2. Bu sahəyə tətbiq olunan vergilərin azaldılması – Müəyyən dövr ərzində, kənd turizmi ilə məşğul olan fiziki və hüquqi şəxslərin vergilərdən azad olması inkişafın digər yoludur. Çünki bu addım kənddən şəhərə olan axının azalması və işsizliyin həll olunmasına yönəlmiş fəaliyyətdir [2].

Digər bölgələrdə olduğu kimi, işğaldan azad olunmuş bölgələrdədə yaşıl turizm inkişaf etdirilməli və bunun üçün tədbirlər, layihələr həyata keçirilməlidir. Qarabağ və Şərqi Zəngəzur bölgəsi öz gözəlliyi ilə hər kəsi heyran edir. Lakin həmin bölgələrimizin 30 ildən artıq işağl altında qalması sözü gedən ərazilərə mənfi təsir göstərmişdir. Fikrimizcə, bu ərazilərə rəhbərlik tərəfindən investisya yatırılması və şirkət-hotellərin fəaliyyətə başlaması, inkişafa səbəb olar.

**Açar sözlər:** Yaşıl turizm, kənd turizmi, kənd - qonaq evləri, müalicə, məşğulluq, inkişaf.

### Ədəbiyyat

1. https://youthfoundation.az/
2. Azerbaijan news.com
3. Kaspi.az

# AZƏRBAYCANDA YAŞIL TURİZMİN İNKİŞAFINI ŞƏRTLƏNDİRƏCƏK AMİLLƏR

**Elvin Sadıxov**
Azərbaycan Turizm və Menecment Universiteti, Bakı, Azərbaycan
sadixov.elvin.2301@atmu.edu.az

Qloballaşan dünya inkişaf etdikcə insanların səyahət vərdişləri get-gedə dəyişir, təkcə mədəni-tarixi yerlərlə deyil, eyni zamanda təbii gözəlliklərə də maraqları artır. Bu kontekstdə "yaşıl turizm" anlayışı getdikcə daha çox əhəmiyyət kəsb edir. Sənaye cəhətdən inkişaf etməmiş və ya alternativ istehsal imkanları olmayan bölgələrdə yerli əhalinin iqtisadi inkişafı üçün mühüm resurs olan ekoturizm, regionun strukturuna uyğun olaraq regionun və ətraf mühitin inkişafı üçün mühüm vasitə kimi görünür [3, s.25].

Turizm marketinqində 3S faktoru, yəni dəniz-qum-günəş 3E faktorunun yaranmasına səbəb olmuşdur. 3E faktoru təhsil-əyləncə-mühit davamlı turizmə aiddir. Turistlər getdikləri yerin ətraf mühitlə harmoniyasının təmin edilməsi ilə təşkil edilən keyfiyyətli turizm təcrübələri gözləntiləri ilə artıq səyahət qərarları verirlər. Turistlərin ekoloji maariflənmə tələblərini başa düşmək və onlara cavab vermək zərurəti marketinq araşdırmaları ilə də dəstəklənir [2, s.229]. İstehlakçılarını turizm məkanına cəlb edən ən mühüm amillərdən biri olan ətraf mühitə üstünlük verən müəssisələr, ekoloji idarəetmə sistemlərini yaradır və funksional sahələrdə ekoloji cəhətdən təmiz təcrübələr tətbiq edirlər.

Azərbaycanın unikal coğrafi xüsusiyyətləri, zəngin biomüxtəlifliyi və davamlı turizm səyləri ilə regionda potensial "yaşıl turizm" mərkəzi kimi seçilməsinə zərurət yaranır. Yeni turizm marşrutlarının yaradılması, bunun üçün yol xəritələrinin fiziki və onlayn formada dərc edilməsi və təbliği formatında bir sıra işlər görülmüşdür. 2019-cu ildə yaradılmış AzETA – Azərbaycan Ekoloji Turizm Assosiasiyasının yaradılması eko-mədəniyyətin və ekoturizmin təşviqi üçün böyük təşəbbüsdür [4]. Bundan əlavə, Azərbaycan ərazisində yeni sistemləşdirilmiş ekoloji turizm marşrutlarının hazırlanmasına ehtiyac var. Dövlət Turizm Agentliyinin media açılqlamasında bildirilmişdir ki, təkcə 2021-ci ildə 15 dağ ekoturizm marşrutları hazırlanmışdır. Quba-Qusar, Şəki-Qax-Zaqatala və Tovuz-Gədəbəy-Daşkəsən ərazisinin hər birində 5 ədəd belə turizm məhsulu var.

Bu kimi marşrutları sistemləşdirilmiş və xəritələndirilmiş şəkildə hazırlanmasının regionda ən geniş yayılmış təcrübəsi Gürcüstand toplanmışdır. 2022-ci il üçün hazırlanması nəzərdə tutulsa da, hal-hazırda reallaşdırılmayan "Transqafqaz" layihəsidir. Bu layihə

Azərbaycanla Gürcüstanı birləşdirəcək. Zaqatalaya qədər olan marşrutu Balakənə qədər çatdırıb, Gürcüstanla birləşdirməyi nəzərdə tutur [5].

**Cədvəl 1.** Gürcüstan ərazisində qorunan təbii ərazilərə ziyarət edənlərin sayı [1, 38 s.]

| Milli Park | Yanvar | Fevral | Mart | Aprel | May | İyun | İyul | Avqust | Sentyabr | Oktyabr | Total |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Göygöl MP | 5,665 | 2,028 | 7,955 | 9,040 | 10,772 | 25,688 | 51,839 | 62,251 | 10,856 | 6,187 | 192,281 |
| Abşeron MP | 703 | 666 | 1,674 | 3,390 | 2,653 | 1,498 | 2,878 | 3,419 | 1,827 | 729 | 19,437 |
| Şahdağ MP | 302 | 114 | 378 | 755 | 1,331 | 1,313 | 1,335 | 1,824 | 480 | 973 | 8,805 |
| Ağgöl MP | 788 | 228 | 526 | 695 | 448 | 81 | 394 | 280 | 504 | 687 | 4,631 |
| Hirkan MP | 26 | 44 | 164 | 170 | 1,450 | 900 | 559 | 210 | 37 | 65 | 3,625 |
| Samur-Yalama MP | 30 | 50 | 140 | 274 | 563 | 693 | 559 | 636 | 255 | 154 | 3,354 |
| Altıağac MP | 139 | 143 | 414 | 500 | 272 | 555 | 420 | 459 | 133 | 89 | 3,124 |
| Şirvan MP | 172 | 114 | 311 | 542 | 469 | 332 | 181 | 88 | 91 | 137 | 2,437 |
| Qızılağac MP | 29 | 52 | 493 | 85 | 305 | 47 | 179 | 22 | 10 | 90 | 1,312 |
| Cəmi | 7,854 | 3,439 | 12,055 | 15,451 | 18,263 | 31,107 | 58,344 | 69,189 | 14,193 | 9,111 | 239,006 |

**Cədvəl 2.** Azərbaycan Ərazisində Milli Parklara 2023-cü ildə səyahət edən yerli vətəndaşların sayı [7]

| Milli Park | Yanvar | Fevral | Mart | Aprel | May | İyun | İyul | Avqust | Sentyabr | Oktyabr | Total |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Göygöl MP | 78 | 23 | 90 | 250 | 191 | 164 | 147 | 133 | 166 | 204 | 1,446 |
| Abşeron MP | 66 | 53 | 116 | 168 | 138 | 186 | 234 | 197 | 176 | 83 | 1,417 |
| Şirvan MP | 5 | 22 | 208 | 60 | 66 | 30 | 52 | 34 | 47 | 22 | 546 |
| Şahdağ MP | 0 | 0 | 10 | 41 | 63 | 36 | 63 | 54 | 38 | 7 | 312 |
| Hirkan MP | 0 | 0 | 8 | 30 | 50 | 80 | 61 | 23 | 0 | 0 | 252 |
| Qızılağac MP | 1 | 0 | 6 | 5 | 0 | 0 | 9 | 0 | 29 | 11 | 61 |
| Altıağac MP | 0 | 0 | 14 | 5 | 0 | 7 | 7 | 3 | 0 | 8 | 44 |
| Samur-Yalama MP | 24 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 24 |
| Ağgöl MP | 2 | 3 | 1 | 2 | 7 | 0 | 0 | 2 | 0 | 0 | 17 |
| Cəmi | 176 | 101 | 453 | 561 | 515 | 503 | 573 | 446 | 456 | 335 | 4,119 |

**Cədvəl 3.** Azərbaycan Ərazisində Milli Parklara 2023-cü ildə səyahət edən xarici vətəndaşların sayı [7]

| Qorunan təbii ərazilərə ziyarət edənlərin sayı | Cəmi | Xarici vətəndaş | Gürcüstan vətəndaşı |
|---|---|---|---|
| 2019 | 1,999,011 | 611,989 | 587,022 |
| 2020 | 240,268 | 26,432 | 213,836 |
| 2021 | 589,098 | 311,014 | 278,084 |
| 2022 | 902,063 | 488,408 | 413,655 |
| 2021 və 2022-ci illərin fərqi (faizlə) | 53,1 | 57 | 48,8 |

1-ci cədvəldəki statistik nəticələrə uyğun olaraq görmək olar ki, qonşu ölkədə yaşıl turizmə, milli park və təbii qoruqlara ziyarətlərdə ciddi irəliləyiş vardır ki, hətta "Covid-19" pandemiyasından sonra da belə ərazilərə maraq artım tempi ilə davam etmişdir. 2-ci və 3-cü cədvəllərdəki rəqəmlərə əsasən, isə qonşu ölkə ilə Azərbaycan arasında böyük fərqlərin olduğunu görürük. Azərbaycan Respublikasında yaşıl turizmin inkişafına nəzər saldıqda və qonşu ölkə Gürcüstanla müqayisə etdikdə bir çox problemlərin olduğunu görürük. Buna səbəb, ilkin mərhələdə turizmin bu növünün təbliğatının daha zəif inkişafı həmçinin, bu sahədə marşrut xəritələrinin və çap materiallarının çox az olmasını qeyd etmək olar. İstər xarici, istər

yerli turistlərin qorunan ərazilərin - qoruqların və milli parkların ziyarətinə müəyyən nəzərə çarpacaq dərəcədə maraq vardır. Bu marağı real turizm hərəkətlərinə çevirmək üçün, həm düzgün marketinq siyasəti, həmçinin düzgün statistikaların tərtib olunmasını təmin etmək lazımdır ki, düzgün inkişaf dinamikasına nəzarəti təşkil etmək mümkün olsun. Günümüzün real vəziyyətinə uyğun olaraq demək olar ki, biz bu fəaliyyətə düzgün nəzarəti təşkil edə bilmirik. İstənilən halda, hər hansı bir fəaliyyətinin inkişafının ölçülməsinin əsasını da statistika təşkil edir.

Azərbaycanın yaşıl turizmin inkişaf etdirilməsini şərtləndirəcək bir sıra amillər vardır:

**Təbii gözəlliklər**

Azərbaycan, təbii gözəllikləri ilə məşhur bir ölkədir. Qafqaz dağlarının qarlı zirvələri, Xəzər dənizinin bənzərsiz mavi suları, yaşıl meşələr, milli parklar və təbii qoruqlar, ölkənin gözəl peyzajını təşkil edir. Bu təbii gözəlliklər, trekkinq, kempinq, alpinizm, xizək sürmə və quş seyri kimi bir çox müxtəlif açıq hava fəaliyyətləri üçün əla şərait yaradır. Qafqaz dağları, Azərbaycanın şimal-qərbi hissəsində uzanır və qarlı zirvələri ilə müşayiət olunmuşdur. Bu bölgə, alpinizm və trekkinq üçün ideal ərazi təşkil edir, həm də təbiət dostları üçün unikal peyzajları ilə maraqlıdır. Xəzər dənizi kənarındakı sahildə yerləşən Azərbaycan, geniş çimərlikləri və mavi suları ilə tanınır. Bu əla ərazi, su idmanları, xüsusilə son illərdə Şurabad sahillərində təşkil edilən sörfinq və sahillər boyu gəzinti kimi fəaliyyətlər üçün mükəmməl bir məkan təşkil edir.

**Hökumət Dəstəyi**

Azərbaycan hökuməti yaşıl turizmin inkişafı və təşviqi üçün müxtəlif siyasət və proqramlar həyata keçirmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun elan etdiyi VI qrant müsabiqəsinin C kateqoriyası üzrə Gənclər Fondunun, eyni zamanda Oğuz rayon Gənclər və İdman idarəsinin dəstəyi ilə Oğuz rayonunun Xal-Xal kəndində "Kəndlərdə yaşıl turizmin inkişafına dəstək" adlı layihə həyata keçirmişdir. Layihə may, iyun, iyul aylarında Oğuz rayonunda həyata keçirilir. Layihənin keçirilməsində əsas məqsəd hal-hazırda Oğuz rayonunun kəndlərində aztəminatlı gənc ailələr, gənc kənd sakinləri arasında kənd yaşıl turizmini stimullaşdırmaqla onların məşğulluğunun təmin edilməsinə və sosial-iqtisadi göstəricilərinin artmasına, kənddə infrastrukturun yaradılmasına dəstək vermək, kəndliləri yeni peşə və ixtisaslara həvəsləndirməklə regionlardakı vətəndaşların özünü və öz imkanlarını reallaşdırmaq bacarıqlarının formalaşdırılmasıdır [6]. Bu kimi növbəti illərdə müxtəlif QHT-lərin rəhbərliyi ilə regionlarda keçirilən infoturlar regionlarda yaşıl turizmin inkişafına dəstək vermişdir.

**İnfrastrukturun inkişafı**

Son illər Azərbaycanda turizm infrastrukturu xeyli inkişaf edib. Yeni yollar, otellər və digər turizm obyektləri tikilib. Bu inkişaflar yaşıl turizm üçün daha əlçatan bir istiqamət yaratmağa imkan verdi. Təbiət qoynunda yeni kempinq sahələrinin yaradılması, təbiət qoynunda konteyner evlərin, A-frame evlərin tikilməsi yaşıl kənd turizmə marağı artırır.

**Yerli əhalinin iştirakı**

Azərbaycanda yerli əhali yaşıl turizmin inkişafında fəal iştirak etsə belə əlavə təbirlərin görülməsinə ehtiyac vardır. Yerli əhali turistlərə yerləşdirmə, bələdçi və digər xidmətlər təklif edir. Xüsusilə regionların turizm sahəsinə cəlb edilməsi üçün, yerli əhalidə buna maraq yaratmaq, həmçinin turistlərlə xoşagəlməz halların və toqquşmaların qarşısını almaq üçün maarfləndirici tədbirlər keçirmək çox vacibdir. Bu iştirak turistlərə orijinal təcrübə təqdim edir və yerli icmaların inkişafına töhfə verir.

Azərbaycan, digər ölkələrlə iqlim dəyişiklikləri, ətraf mühitin qorunması və ekoturizm sahəsində təcrübə mübadiləsi üçün əməkdaşlıq etməlidir. Bu, digər ölkələrdə nail olunmuş uğurlu təcrübələri öyrənmək və tətbiq etmək üçün bir imkan verir. 2024-cü ilin noyabr ayında keçiriləcək “COP-29” tədbiri bu cəhətdən mühüm bir addım sayılır. Bu tədbirlər, Azərbaycanın ekoturizm sahəsində inkişafını təmin etməyə kömək edə bilər və eyni zamanda ətraf mühitin qorunmasına dəstək olmaq üçün önəmli addımlar atmağa nail ola bilər.

Göründüyü kimi, Azərbaycanda yaşıl turizmin inkişafı üçün kifayət qədər imkanlar və potensial vardır. Qarşıda duran əsas məsələ bu imkanları səfərbər edərək yaşıl turizmin daha da inkişafına nail olunmasıdır.

**Açar sözlər:** Ekoturizm, yaşıl turizm, Azərbaycanda ekoturizm, ekoturizm marşrutları.

## Ədəbiyyat

1. Georgian Tourism in Figures (Structure & Industry Data) (Georgian National Tourism Administration, 2022), 42 s.
2. Güngör Y., Karacan S., Karacan E. Yeşil İşletmeler Sürdürülebilir Turizm ve Kartepe, International Journal of Tourism, Economic and Business Sciences, 2(2), 2018, 225-233s.
3. Kırmacı E. Swot Analizi İle Ekoturizm Potansiyelinin Belirlenmesine Yönelik Bir Çalişma: Mudurnu Örneği, Journal of Silk Road tourism researches, 2, 2022, 24-36 s.
4. https://ecotour.az/about/
5. https://iqtisadiyyat.az/az/post/azerbaycanda-yeni-ekoturizm-marsrutlari-yaradilir-38153
6. https://youthfoundation.az/22795/
7. https://tourism.gov.az/page/statistics

# YAŞLI "YAŞIL TURİZM"

**Bəhruz Sultanov**
Xəzər Universiteti, Bakı, Azərbaycan
bahruzsultanov03@gmail.com

**"**Robotlaşan dünyada, emosiyalar satılacaq"

Əgər şəhərin səsindən uzaq, sənayedən uzaq, bütün urbanizasiya ərazilərindən uzaq bir həyat olsa necə olar? Ya da müasir dünya insanlarının yaşamadığı bir həyat. Artıq dünyada bir çox ölkələrdə "suburbanizasiya" prosesi gedir. Suburbanizasya – şəhər əhalisinin kənd ərazilərinə köçməsinə deyilir. Suburbanizasyanın daha çox yayıldığı ölkələr: Norveç, İsveç, İsveçrə, İngiltərə, ABŞ, Kanada və.s inkişaf etmiş ölkələrdir [4]. Məhz yuxarıda sadalanan proseslərə görə robotlaşan dünyada insanlar psixoloji rahatlıq tapmaq üçün kənd ərazilərinə köç edirlər. Lakin bir çox insan da köç edə bilmir, yalnız səyahət edir "Kənd Turizm"indən, yaxud yaşamadıqları keçmiş həyatı yaşamaq üçün "Aqro Turizm"dən istifadə edirlər.

Kənd Turizmi – kənd və rayonlara edilmiş turlara deyilir.

Aqro Turizm – səyahət etdiyi ərazidə fəaliyyət göstərərək xidmət sahələrinə ödəniş etmir [1].

Yuxarıda qeyd edilən məsələlərə əsasən son dövrlərdə artıq "Yaşıl Turizm" neyromarketinqlə bağlıdır. Neyromarketinq insan hissləri ilə bağlıdır və neyromarketinq vasitəsi ilə "Yaşıl Turizm" Azərbaycanda düzgün formada təqdim olunmalıdır. Qeyd etmək lazımdır ki, turizm ümumiyyətlə cismani bir qarşılıq deyil, turizm insanın mənəvi istirahəti üçündür.

Fikrimizcə görə insan faydaları 3 yerə bölünür:

1. Maliyyə;
2. Strategiya;
3. Şəxsi.

Turizm isə bir mənalı şəkildə turizmin növlərindən asılı olaraq strategiya və şəxsi qazancdır.

İlk olaraq Azərbaycan daxilində insanlara turizm anlayışını aşılamaq lazımdır. Bunun üçün düzgün təqdim olunma vacibdir. Fikrimizcə, Azərbaycanda Bakıdan başqa turizm "nüvə" şəhərlərin sayı artırılmalıdır. Bunlara aiddir: Şuşa, Gəncə, Şəki, Mingəçevir, Kəlbəcər, Lənkəran kimi turizm potensiallı ərazilər.

Bu "nüvə şəhərlər" "peyk" şəhərlərin xidmət sahəsini yüksək səviyyədə təmin etməlidir.

Belə olduğu təqdirdə gələn turistlər razı qalacaqlar. Ona görə ki, yaşlı "Yaşıl Turizm" keçmişə dayanan bir turizmdir və bir sözlə turistlər keçmiş həyatı səyahətdə dərk edirlər.

Yəni turizmdə insanlar emosiyalar alır.

Qeyd etmək lazımdır ki, "Yaşıl Turizm" turistləri üçün kənd və rayonlarda infrastruktur keyfiyyətli təchiz olunmalıdır. Yəni dünyada olduğu kimi artıq Azərbaycanda da "Yaşıl Turizm" özünə məxsusluğunu itirmədən, modern halına gətirmək lazımdır ki, turistlər tur zamanı sıxılmasın, təhlükəli ola biləcək hər hansı hadisə yaşanmasın. Turistlərə maraqlı ola biləcək bir neçə nümunə çəkə bilərəm:

1. "Mərkəzi Aran" iqtisadi rayonunda "Buz Ev" adlı süni soyuq bir dünya yaratmaq, regionun yüksək temperaturunu nəzərə alsaq turistlərə həm maraqlı, həm də fərqli hisslər yaşadar. Bu proses son illərdə Ərəb ölkələrində daha intensiv şəkildə gedir.

2. Azərbaycanın kənd ərazilərində günəş radiasiyasının çox olduğu yerlərdə günəşlənmə üçün modern formada daha yaxşı şərait yaradıla bilər, əlavə olaraq sanatoriyalar üçün əlverişli olar.

3. Yeni üsul texnologiyaları kənd ərazilərinə tətbiq etmək.

4. Azərbaycanın yüksək və alçaq dağlıq ərazilərində təhlükəsizliyi təmin edərək, kempinqlərə şərait yaradılmalıdır. Həmçinin insanların günü-gündən marağı artdığı karvan turizmini qeyd etmək lazımdır. Karvan turizmini dünyada olduğu kimi Azərbaycanda da daha əlçatan etmək, təhlükəzliyi təmin etmək lazımdır.

Əsasən də "Mərkəzi Aran" bölgəsini inkişaf etdirmək lazımdır, çünki Dövlət Turizm Agentliyinin statistikasına nəzər yetirsək bütün bölgələrdə inkişaf və ya durğunluq gedir, amma "Mərkəzi Aran" bölgəsində statistika çox aşağıdır. Statistikanın yeni nəzərə alındığı ərazilər Cənab Ali Baş Komadanımızın əmri, Şəhidlərimizin, Qazilərimizin, Veteranlarımızın naminə işğaldan azad olunmuş "Qarabağ" və "Şərqi Zəngəzur" iqtisadi rayonudur. İşğaldan azad olunmuş ərazilər hörmətli Cənab Prezidentimiz İlham Əliyevin təşəbbüsü ilə günü gündən inkişaf edir. 2023-cü ilin ilk 9 ayında Şuşadakı hotellər insan sayına görə və gəlirə görə Şəkini geridə qoymuşdur, artıq Şuşa turizm şəhərinə çevrilib [2].

Statistikaya görə daxili turizmdə ən çox istifadə edilən turizm 48,3%-lə təbiət turizmidir [3].

Təbiət turizmini ekoloji cəhətdən qorumaq ən vacib məsələlərdəndir. Dövlət Turizm Agentliyinin "üstünlüklər" cədvəlində kənd turizmi liderdir. Üstünlükləri:

1. Kənd turizmi "son 2 il ərzində sınanmış" və "sınanılması istənilən turizm növü" baxımından birmənalı liderdir.

2. Başlıca ərazilər əksəriyyəti “gözəl təbiət” və “dostlar və qohumlar” baxımından ziyarət edilir.

3. Bakı ən çox “dostlar və qohumlarla” yanaşı, “daha inkişaf etmiş infrastrukturuna” görə səyahət olunur [2].

Bildiyimiz kimi biotexnoloji inqilabın 2 istiqaməti var: “Orqanik” və “Genetikası modifikasiya olunmuş” [4]. Nəzərə alsaq ki, COP-29 Azərbaycanda keçiriləcək, fikrimcə turistlərə maraqlı təcrübə yaşatmaq olar.

Biotexnoloji inqilab ilə sintez COP-29 da yaşıl turizmə müsbət təsir göstərəcəkdir.

Son olaraq nəzərinizə çatdırmaq istədiyim məsələ cəmiyyətimizlə bağlıdır. Mövzunun əvvəlində “turizm anlayışını aşılamaq lazımdır” fikrini qeyd etdim. Çünki, əksər kütlə səyahət, istirahət, turizmin əhəmiyyətini ciddiyə almır və yaxud anlamır.

David Eagleman 3 insan üzərində bir tədqiqat aparır. Birinci şəxs, gecə-gündüz çalışır, çox çalışqan olur, özünə heç istirahət belə vermir, baxmayaraq ki, bu qədər əzmkardır, amma psixoloji problemləri var.

İkinci şəxs, tam əksi olaraq çox boş vaxtı olduğundan, tənbəl insan idi. Çox çalışmırdı, onun isə əzm və iradə problemi var idi.

Üçüncü şəxs isə normal qaydada işi ilə məşğul olur, həftədə ən azı 1 dəfə olmaqla səyahət edir, müxtəlif turizm növlərindən istifadə edirdi. Onun səyahətlər etməsi ona mənəvi cəhətdən kömək olurdu və beləcə onun nə psixoloji, nə də əzm və iradə problemi olurdu. Məhz bu mahiyyəti və fikri cəmiyyətimizə çatdırmalıyıq. Turizm ödəniş edib, mənəvi rahatlıq almaqdır və dünya modern halına gəldikcə də, turizmə tələbat daha da artır, yəni “robotlaşan dünyada, emosiyalar satılacaq”. “Yaşıl turizm” isə kənd, aqro, dərketmə, ekoloji, mədəni və bir çox növləri özündə birləşdirir.

**Açar sözlər:** Suburbanizasiya, neyromarketinq, Yaşıl Turizm, Yeni Turizm bölgələri, statistika, COP29.

## Ədəbiyyat

1. UNWTO (Ümumdünya Turizm Təşkilatı).
2. Dövlət Turizm Agentliyi (turizm.gov.az).
3. azərtag.az
4. Şəhmir Mehdiyev, Coğrafiya dərs vəsaiti (Bakı-2019, Azəri Poliqrafiya).

# YAŞIL TURİZMDƏ MARKETİNQİN ROLU

**Orxan Şeyxov**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
orxansheyxov77@gmail.com

Turizm davamlı inkişaf məqsədlərinə nail olmağa təsir edən perspektivli sektorlardan biri kimi tanınır. Yoxsulluğun azaldılması, geniş miqyaslı iş yerlərinin yaradılması, tolerantlığın təşviqi və digər əlavə elementlər vasitəsilə böyümə fəaliyyətlərini dəstəkləyir. Milyonlarla insanın həyatında real əhəmiyyət kəsb etməyə davam edir [2]. Bu terminlərin istifadə olunduğu müzakirədə tez-tez istifadə olunan, lakin nadir hallarda müəyyən edilən "yaşıl" termini ilə nə demək istədiyimizi qısaca qeyd etməklə başlaya bilərik.  Əksər terminlərin tərifləri təbii fiziki mühitə yönəlmişdir. Bu, indi daha dəbli olan "Dekommunizasiya" ifadəsindən fərqli olaraq, gələcəyə və ətraf mühit, cəmiyyət və dünya arasındakı tarazlığa toxunmağa meyllidir.

*İqtisadi sistem*. Son illərdə ekoloji və ya "yaşıl" məsələlər bir çox ölkədə ictimai mübahisələrə səbəb oldu. Bunlara "qlobal istiləşmə", heyvanların və vəhşi təbiətin qorunması, təbiətdə yaranan çirklənmə və təkrar emal daxildir. Yaşıl turizm, bölgənin təbii mühiti və mədəni irsi ilə əlaqəli və ya ətraf mühitin idarə edilməsi (və ya ətraf mühitin qorunması) ilə bağlı yaxşı təcrübə aparan bütün turizm növlərinə tətbiq edilə bilən bir termindir. Aşağıda Turizm praktikasının ekoloji cəhətdən təmiz bir əməliyyat sayılması üçün ətraf mühitə təsirinin qarşısının alınması və ya minimuma endirilməsi üsullarını nümayiş etdirməli olduğu üç üsul verilmişdir:

- Xammal, su və enerji kimi mənbələrdən ağıllı istifadə;
- Çirklənmənin qarşısının alınması (hava, torpaq və su);
- Biomüxtəlifliyin qorunması və mümkün qədər inkişafı [1].

Yaşıl turizm, məsuliyyətli Turizm və davamlı turizm. Bunun üçün bir çox adı var, lakin hamısı eyni tərifə malikdir: təbii mühiti məhv etmək əvəzinə qiymətləndirən, yaxşılaşdıran və qoruyan aşağı təsirli turizm. Ümumdünya Turizm Təşkilatının davamlı turizmin tərifi yuxarıdakı anlayışları ləğv edir və davamlı turizmi "ziyarətçilərin, sənayenin, cəmiyyətin və ətraf mühitin ehtiyaclarına uyğun olaraq müsbət iqtisadi, sosial və ekoloji nəticələr verən turizm" olaraq təyin edir.

Yaşıl turistlər - Daha çox ekoloji qaydalar ortaya çıxdıqca və insanların ekoloji şüuru artdıqca, istehlakçılar ənənəvi istiqamətlərdən daha çox ekoloji cəhətdən təmiz istiqamətlər axtarırlar. Nəticədə bir çox istiqamət fəaliyyətinin "yaşıllığını" artırmaq üçün müxtəlif

yenilikçi metodlar tətbiq etməyə başladı [3]. Yaşıl istehlakçılar yararsız turizm məhsullarından çəkinmələri ilə müəyyən edilir. Bu nəticələrə digər insanların və ya ətraf mühitin sağlamlığı daxildir; çox sayda mənbədən istifadə; lazımsız tullantılar; heyvan istismarı; nəsli kəsilməkdə olan növlərə aid materialların istifadəsi və s. Ekoloji davranışla əlaqəli çətinliklərə baxmayaraq, turizm sənayesi hələ də istehlakçıların ekoloji problemlərinin turistlərlə necə əlaqəli olduğunu və bu problemlərin səyahət və ya istirahət davranışlarına necə çevrildiyini anlamağa çalışır [4].

Yaşıl turistlər müxtəlif turizm kontekstlərində tətil zamanı ekoloji cəhətdən təmiz davranan turistlər, ekoloji turistlər isə təbiət turizmi kontekstində tətil zamanı ekoloji cəhətdən təmiz davranırlar. Beləliklə, eko-turistlər yaşıl turistlərin alt hissəsidir [5].

Digər tərəfdən, yaşıllıq hər bir təyinat yerinin imicinin və brendinin həqiqətən dəyərli atributudur. Yaşıllıq, fərqli maraqlı tərəflərdən fərqli şəkildə şərh olunur və sağlamlıq, qidalanma, memarlıq və mədəni kimlik, ətraf mühit estetikası, keyfiyyət və idarəetmə aspektlərini əhatə edir. Bu fərdi xüsusiyyətlər fərdi turizm müəssisələri tərəfindən müəyyən seqmentlərə yönəldilmək üçün istifadə olunur [8]. Müsbət marketinqlə şirkətin səhmdarları yaşıllaşmanı şirkətin müştərilərini uğur qazanmağın bir yolu kimi görəcəklər. Bunun maraqlı bir təsiri var [7]. Bir çox otel tədqiqatçısı ekoloji cəhətdən təmiz bir otelin xidmət sektorunda rəqabət edə biləcəyini və əks halda xərclərə qənaət etmək, müsbət imic yaratmaq və müştəriləri cəlb etmək və saxlamaqdan faydalana biləcəyini qeyd edir [9]. Yaşıl turizm marketinq istiqamətlərinin vacib elementlərindən biri kimi tanınıb. Müqayisə olunan yerlər içərilərindəki yaşıl turizmdir və hansı istiqamətlərin daha uğurlu olduğunu göstərmək üçün yalnız turizmə sahibdirlər. Yaşıl turizm məhsulunun marketinq məqsədləri üçün satıldığını, ancaq məhsulun etiketlənməsi həm istehlakçı gözləntilərinə, həm də sənaye standartlarına cavab verdikdə istifadə etmək məntiqlidir, "yaşıl" konsepsiyası turizm sənayesinə mənfəət əldə etmək üçün ticarət strategiyasını qoruyarkən imicini və təcrübəsini yaxşılaşdırmağa imkan verir. "Yaşıllaşdırma" praktikada tətbiq olunan yanaşma deyil, yalnız görüntü məqsədləri üçün istifadə olunsaydı, orijinal görməli yerləri təmin edən mənzərə, mədəniyyət və irs yox olardı [10]. Müştərilər, şübhəsiz ki, endirimlər, təkliflər və sadiqlik proqramlarından təsirlənirlər. İnsanlar bu cür yaşıl otelləri ziyarət etmək meyli ilə xarakterizə olunur, onlara yaşıl otel üçün bonus xalları və adi oteldən istifadə etdikləri üçün mükafatlandırıldıqları təqdirdə endirimlər kimi üstünlüklər verir. Çox yaxşıdır ki, hazırda otellər markalarını tanıtmaq və otellərinə daha çox satış göndərmək üçün kifayət qədər qəbul etmirlər. Bu istehlakçılar yaşıl otellərin "qorunması" üçün mükafat gözləyirlər [6].

Marketinq baxımından yaşıl turizm marketinqinin əsas məqsədi istehlakçılar (turistlər) üçün dəyər yaratmaqdır. Strategiyanın hazırlanması və həyata keçirilməsi həmişə istehlakçı

yönümlü olmalıdır, turistlər tərəfindən mümkün qədər yaxşı başa düşülməlidir. İcma qruplaşdırılması və ya seqmentləşdirmə strategiyası bir qrup səyahət icmasını idarə etmək və saxlamaq üçün bir mövqe yaratmaqla edilir. Strateji səviyyədə marketinqin inkişaf mərhələləri bazarın yerləşdirməsi və marka, eləcə də marketinq kompleksinə yönəlmiş seqmentasiya mərhələlərinin birləşməsi olmalıdır [11].

Turizm şirkətləri və menecerləri yaşıl turizmin mənəvi tərəfinə xüsusi diqqət yetirməlidirlər. Yaşıl turizm mənəvi turizmin bir formasıdır, çünki bəşəriyyətə ətraf mühitlə mənalı qarşılıqlı əlaqə qurma imkanı verir. Yaşıl turizm üçün destinasiyanın yerləşdiyi yerə əsaslanan bir çox strateji düsturlar var. Bu konseptual sənədin məqsədi yaşıl turizmin istiqamətini və əlaqəli prosesləri anlamaqdır. Cəmiyyətin infrastrukturunu və turizm mənbələrini qiymətləndirmək üçün bir istiqamət qiymətləndirməsi aparmaq vacibdir. Bu işi hərtərəfli yerinə yetirmək hər kəsə fayda verə bilər. Turizm marketinqi, əksər turizm yerlərində olduğu kimi, daha çox ziyarətçi cəlb etmək üçün bir vasitə kimi qəbul edilməməlidir. Bunun əvəzinə marketinq, Turizm məkanının davamlılığını təmin edən strateji hədəflərə çatmaq üçün satış vasitəsi kimi deyil, planlaşdırma və idarəetmə ilə koordinasiyada strateji bir mexanizm kimi istifadə edilməlidir.

**Açar sözlər:** Yaşıl turizm, ekoloji təmizliyi qorumaq, “yaşıl turistlər”, yaşıl turizm marketinqi.

## Ədəbiyyat

1. Lee S., Honda H.C., Ren G., Lo Y. The implementation of green Tourism and hospitality. J Tour Hosp., 2016, 5(4).
2. Bhuiyan B.A., Wahab A. Competitive Tourism Sector Development in Negara Brunei Darussalam: Application of LeanThinking and Kaizen Approach as Strategic Options. J Tour Hosp., 2018, 10(4172), 2167-0269.
3. Han H., Hsu L.T.J., Lee J.S., Sheu C. Are lodging customers ready to go Green? An examination of attitudes, demographics, and eco-friendly İntentions. Int J Hosp Manag., 2011, 30(2), 345-355.
4. Bergin-Seers S., Mair J. Emerging green tourists in Australia: Their Behaviors and attitudes. Tour Hosp Res., 2009, 9(2), 109-119.
5. Dolnicar S., Matus K. Are green tourists a managerially useful target Segment?. J Hosp Mark Manag., 2008, 17(3-4), 314-334.
6. Fukey L.N., Issac S.S. Connect among green, sustainability and hotel İndustry: A prospective simulation study. ECMs., 2014, 6, 8.

7. Micioni C.W. Going green in the hospitality industry, 2009.
8. Cooper M.A., Sparks B., Buckley R. Green destination image: Construction, projection and perception. Proc. 2017, 363.
9. Jeon S.M., Jeong W., Kim D. The effects of green hotel practices on Hotel image, visit intention, and word-of-mouth: Focusing on the Moderating roles of consumer environmental worldviews. Int J Soc Sci Res., 2015, 1(1), 491-499.
10. Gibson A., Dodds R., Joppe M., Jamieson B. Ecotourism in the city? Toronto’s green tourism associationInt. J Contemp Hosp., 2003, 15(6), 324-327.
11. Ali H. Word of Mouth Marketing. Yogyakarta: Media Pressindo Utama, 2010.

## ОПЫТ ЗЕЛЕНОГО ТУРИЗМА В ЭКВАДОРЕ

**Аллахверди Велиев**
Университет Хазар, Баку, Азербайджан

Эквадор – страна контрастов и невероятной красоты. Расположенная по обе стороны экватора, она очаровывает путешественников не только своими живописными пейзажами, но и уникальной философией зеленого туризма. Здесь, где сливаются воедино снежные вершины Анд, изумрудные джунгли Амазонки и лазурные воды Тихого океана, туристы могут не просто насладиться красотой природы, но и стать частью движения за ее сохранение.

На сравнительно небольшой территории страны представлены 4 биогеографических региона: Амазония, Анды, Тихоокеанское побережье и Галапагосские острова. Данные регионы – это лишь часть богатства природы и удивительных возможностей, которые предлагает Эквадор для зеленого туризма. Амазония занимает 40% территории страны и известна своими влажными тропическими лесами и богатой флорой, и фауной. С заповедником Куябено и рекой Напо, это место, где можно встретить кайманов, обезьян и дельфинов.

В то время как Анды, занимающие 25% территории, предлагают захватывающие пейзажи с вулканами и ледниками. Национальный парк Котопакси и вулкан Чимборасо – лишь небольшая часть того, что можно увидеть и испытать в этой горной системе.

Тихоокеанское побережье простирается на 10% территории и предлагает уникальные мангровые леса и пляжи, обитаемые морскими черепахами и дельфинами.

Национальный парк Мачалья и пляж Монтанита – это лишь некоторые из мест, где можно насладиться богатством этого региона.

И, конечно же, Галапагосские острова – архипелаг вулканических островов, известных своим уникальным эндемичным миром. Остров Санта-Крус, остров Исабела и остров Флореана предлагают невероятные возможности для погружения в мир уникальных видов растений и животных. Это невероятное разнообразие обуславливает богатство флоры и фауны Эквадора. Здесь обитают 1600 видов птиц, 25 000 видов растений, 4000 видов бабочек и 1000 видов рыб.

В Эквадоре зеленый туризм – это не просто модное направление, а образ жизни. Правительство страны активно инвестирует в развитие устойчивого туризма, делая упор на сохранение окружающей среды и поддержку местных сообществ.

Развитая сеть эко-маршрутов позволяет туристам исследовать самые разные уголки Эквадора: от знаменитых троп Инки до горных троп Эль Чако и бескрайних просторов Амазонки.

Эквадорские отели и курорты все чаще переходят на использование возобновляемых источников энергии, практикуют рациональное использование воды, заботятся о озеленении территории и используют местные продукты питания. Например, в таких отелях как Wyndham Quito, Hotel La Basílica, Wyndham Guayaquil все чаще практикуют эти методы, в дополнение к этому на территории данных отелей находятся очень много растений, деревьев и зелени.

Путешественники, выбирающие зеленый туризм в Эквадоре, могут не только насладиться комфортным отдыхом, но и внести свой вклад в сохранение окружающей среды. Для этого существует множество возможностей: участие в очистке пляжей, восстановлении лесов, мониторинге редких видов животных, волонтерская работа в заповедниках. В Эквадоре реализуется множество экологических проектов, направленных на сохранение биоразнообразия, защиту окружающей среды и развитие местного сообщества. Туристы могут стать частью этих проектов, тем самым сделав свой вклад в общее дело.

Многие тур фирмы, направляющие туристов в Эквадор, могут предложить вам путевки с такими активностями. Эквадор – страна, где зеленый туризм творит чудеса. Путешествие в Эквадор – это не просто отдых, это незабываемое приключение, которое меняет людей. Здесь каждый может стать частью движения за сохранение природы, осознать свою ответственность за будущее планеты и сделать мир чуточку лучше.

Эквадор – это не просто страна, это философия зеленого туризма, которая

вдохновляет людей по всему миру. В дополнение к вышесказанному хотелось бы сказать, что Эквадор является одним из лидеров в области зеленого туризма. Страна получила множество международных наград за свои достижения в этой сфере. Эквадорский опыт зеленого туризма может быть применен в других странах мира. Зеленый туризм в Эквадоре – это не просто модное направление, это будущее туризма.

## YAŞIL TURİZM - YAŞIL ARTIM

**Fuad Vəliyev**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
fuadveliyev472@gmail.com

Azərbaycan – Qafqaz regionunda ən zəngin təbii sərvətlərə malik, unikal tarixi və mədəni irsi olan ölkəsdir. Əlverişli coğrafi mövqeyi, doqquz iqlim qurşağı, flora və faunasının müxtəlifliyi və zənginliyi, dəniz sahilində yerləşməsi, mədəni-tarixi irsi, ləziz mətbəxi, yüksək qonaqpərvərlik ənənələrinin olması ölkəmizdə turizmin inkişafı üçün böyük perspektivlər açır. Azərbaycanda turizm sahəsində mövcud olan geniş imkanlar ölkəmizin bir sıra beynəlxalq təşkilatlarla turizmin inkişafı istiqamətində əməkdaşlıq etməsinə şərait yaradır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, turizm iqtisadiyyata təsir göstərən güclü amildir. Dövlət büdcəsinin formalaşmasında, ticarət balansının sabitləşməsində turizm mühüm rol oynayır. Lakin turizmin rolu təkcə bununla bitmir, ölkədə turizmin dayanıqlı inkişafı ölkə iqtisadiyyatının bütün istiqamətlərinə mühüm təsir göstərir və ölkənin beynəlxalq imicinin formalaşması və nüfuzunun  yüksəlməsinə zəmin yaradır [1].

Azərbaycanda iqtisadiyyatın ən gəlirli sahələrindən olan turizmin inkişafı son illərdə diqqət mərkəzindədir və bu sahədə böyük uğurlar əldə edilib. Turizmin inkişafı üçün lazım olan bütün infrastruktur yaradılıb. Ölkəmizdə turizm sektorunun inkişafı Prezident İlham Əliyevin adı ilə bağlıdır. Dövlətimizin başçısının səyləri nəticəsində Azərbaycan dünyanın cəlbedici turizm ölkələrindən birinə çevrilib. Azərbaycanda yaşıl turizmin inkişafı, bələdçilərin təlimatlandırılması, mükəmməl turizm marşrutlarının işlənib hazırlanması, daxili və xarici turistlərə təqdim edilməsi, turizm sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarlığın inkişafı - ölkədə dayanıqlı turizmin inkişafı və qeyri-neft sektorundakı sahələrdə çalışan insanların gəlirlərinin artırılması və insanların yaşayış səviyyəsinin yaxşılaşdırılmasına birbaşa müsbət  təsir göstərəcək.

Azərbaycan son illər ərzində bir çox uğurlara imza atıb, qələbələr qazanıb. Bütün bu uğur və qələbələr xalqın zəngin insan potensialı ilə əlaqəlidir. Azərbaycanı dünyaya tanıdan neft sərvəti dövlətin iqtisadi gücü və qüdrətinə çevrilib. "Qara qızıl" adlandırılan neftin insan kapitalına çevrilməsi və vətəndaşlara xidmət etməsi üçün addımlar atılıb. Bir il öncə Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Bu dövrü "qara qızıl"dan "yaşıl qızıl"a keçid kimi qiymətləndirə bilərik. Söhbət turizmdən gedir. Hazırda hədəf ölkə iqtisadiyyatının turizmlə inkişaf etməsini təmin etməkdir. Dövlət qurumları və ekspertlər bildirirlər ki, valyuta gətirən bu sahənin inkişafı üçün Qarabağda böyük potensial var. Bildiyiniz kimi, ümumi götürüldükdə Qarabağ regionu böyük turizm resurslarına malikdir. Yeraltı və yerüstü sərvətlərlə zəngin olan Qarabağ turizm potensialına görə, qısa zamanda dünyada ən məşhur turizm mərkəzinə çevriləcək [2].

Qarabağda turizmin bir çox növləri-ekoturizm, dağ turizmi, qastronomik turizm, qış turizmi, ov turizmi, sport turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar mövcuddur. Azərbaycanın bu qədim tarixə malik olan bölgəsi özünün flora və faunası, təbii landşaftı, tarixi-memarlıq abidələri, mətbəxi, qədim qalaları, məscidləri, karvansarayları, məqbərələri, körpüləri, meşələri, bulaqları və s. görməli məkanları ilə turistləri cəlb edəcək. Bölgəmizin turizm potensialı çox zəngindir. Qarabağda müxtəlif tipli turizm obyektləri tikilməlidir. Dünya brendləri olan 5 ulduzlu lüks otellər, yerli markamız olan 5 ulduzlu otellər, 3-4 ulduzlu mehmanxanalar, qonaq evləri, istirahət mərkəzləri, ticarət obyektləri, müalicə sanatoriyaları tikilməlidir [4].

Qarabağda tarixin izləri hər şəhərdə var. Azıx mağarası, alban məbədləri, qədim xristian monastrları, paleolit dövrünün izləri, xanların qalaları və s. olan tarixi turlarımız dünyada tanınmalıdır Dünyada keçirilən turizm sərgilərində Qarabağın turizm potensialı tanıdılmalıdır. Turizm şirkətlərinin nümayəndələri dəvət olunub, reklam turu keçirilməlidir. Qarabağın təbiəti unikaldır. Turizm üçün ideal coğrafiyadır. Dünyada son illər baş verən hadisələr sağlamlıq turizminin vacib olduğunu göstərdi. Və Qarabağın müalicə turlarını dünyaya tanıtmağın vaxtı gəlib. Musiqimiz, rəqslərimiz dünyaya Qarabağda tanıdılmalıdır. Əminliklə demək olarki, dünyanın yeni turizm destinasiya brendi artıq vətənimizdir.

**Açar sözlər:** Qarabağ, turizm, inkişaf, iqtisadiyyat, təbii sərvətlər.

## Ədəbiyyat

1. Həşimli A. Azərbaycanın turizm sektoru – İmkanlar və maneələr, 2019, 3.
2. Kazımov M. Turizm sektorunun region iqtisadiyyatına təsiri. Bakı Dövlət Universitetinin nəşrləri, 2015, Bakı.

3. Leyla Z. Əliyeva, Şəhla M. Rzayeva. Azərbaycan iqtisadiyyatında turizmin inkişafının əsas istiqamətləri. Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan: Bakı, 18-19 iyun 2020-ci il.
4. Rövşən İbrahimov, Azərbaycanın azad edilmiş ərazilərinin iqtisadi potensialı: Qısa icmal, Hankuk Xarici Dillər Universiteti, fevral 2021.

# İQTİSADİYYATDA YAŞIL TURİZM

**Əmrah Zeynallı**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
amrahzeynal@gmail.com

Yaşıl Turizm və Yaşıl Turizm proqramı, Global Sustainable Tourism Council (GSTC) tərəfindən müəyyən edilmiş kriteriyalara uyğun hazırlanan bir proqramdır. Yaşıl Turizm proqramı, davamlı idarəetmə, mədəni davamlılıq, sosial-iqtisadi dayanıqlılıq və ekoloji davamlılıq məsələlərini əhatə etmək və bu məsələlər üzrə təhsil və məlumatlılıq, siyasətin qurulması, biznes, dövlət qurumları və digər qurumlar üçün ölçmə-qiymətləndirmə və sertifikatlaşdırma məsələlərini həyata keçirən məsələlərdən ibarətdir. Bu proqram 42 kriteriyadan ibarətdir. Kriteriyaların əsas məqsədi yuxarda qeyd edilənlərə düzgün şəkildə əməl edərək turizmə və onun sahələrinə töhfə verməkdir [3].

Yaşıl Turizm haqqında bilməyimiz lazım olan həqiqətlərdən qısaca danışılsa, qeyd oluna bilər:

1. Ekoloji sabitliyi və bioçeşitliliyi qorumağa köməkçi olur;
2. Ətrafa zərər verən vasitələrin azalmasını həyata keçirir;
3. Yerli mədəniyyətlərin irslərinə hörmət etməyə zəmin yaradır;
4. Tükənən və yaxud bərpa olunmayan resurslardan tükənməz resurslara keçərək enerji səmərəliliyinin artırılmasına yardımçı olur;
5. Turizm məhsulundan istifadə edənlərin məlumatlılıq səviyyəsinin artırılmasına təsir edir;
6. Dünya təcrübələrini bölüşərək bir çox yerlərdə faydalı şəkildə mənimsənilməsinə köməklik edir;
7. Ölkələrin turizm və digər sahələrinin əlaqələndirilərək inkişafına şərait yaradır [5].

Ənənəvi turizmin mənfi cəhətlərinə baxan zaman biz Yaşıl Turizmin önəmini bir daha başa düşürük. Misal olaraq ənənəvi turizmdə yollar və aeroportlar kimi əsas altyapılar, istirahət məkanları, restoranlar, mağazalar, hotellər və s. inşa edilərkən ortaya çıxan tullantıları görə bilərik. Hava və dəniz də çirkliliyin artması, təbii yaşam ərazilərinin azalması, bioçeşidliliyin məhvi kimi bir çox nümunələrin də şahidi ola bilərik.

Yaşıl Turizmin ölkə iqtisadiyyatına faydaları haqqında bəhs olunsa, aşağıdakıları xüsusi qeyd etmək olar:

1. Ölkənin turist cəlbetmə qabiliyyəti daha çox artar.
2. Ölkə iqtisadiyyatı daha çox inkişaf etmiş olar, həmçinin turizmin iqtisadiyyatın sektor baxımından faydası yüksələr, ÜDM və adambaşına ÜDM-in artması müşahidə edilə bilər.
3. Ətraf mühit və ekologiya daha təmiz və sağlam şəkildə olar.
4. İnteqrasiya prosesinə müsbət yöndə təsir etmiş olar.
5. Rifah səviyyəsinə birbaşa təsir etmiş olar.
6. Turizmin inkişaf etməsi, birbaşa daha çox işçinin ora cəlbinə səbəb olar ki, bu da məşğulluğun artması, işsizliyin isə azalmasına gətirib çıxarar.
7. Davamlı inkişafa birbaşa təsir etmiş olar.
8. Sosial və mədəni baxımdan müsbət yönümlü inkişafa səbəb olar.
9. Mədəni irsin, multikulturalizmin tanınmasına və qorunmasına yardımçı olar.
10. İnvestisiya axınına zəmin yaradar.
11. Brend kimi tanınmada iştirak edər.
12. Firmaların arasında həm əlaqənin artmasına, həm də rəqabətə şərait yaratmış olar.
13. Maariflənmə istiqamətində təsirini göstərmiş olar.

Yaşıl Turizmdə hal-hazırda mövcud olan mənfi cəhətləri qeyd etsək:

1. Yaşıl Turizmlə əlaqəli görüşlərin çox olmaması.
2. Bu sahə ilə əlaqəli bilgi toplamaq və onun paylaşılmasındakı əskikliklər.
3. Yaşıl Turizmlə əlaqəli akademik işlərin azlığı.
4. Yüksək maliyyə tələb etməsi və buna dövlət dəstəyinin çox yüksək səviyyədə olmaması.
5. Firmaların və müəssisələrin bu sahədən daha çox ticari fikirlərə önəm verməsi.
6. Bu sahəyə edilən yatırımların turizm məhsulunda qiymət artımına səbəb olması.
7. Bəzən haqsız rəqabət səviyyəsinə qalxması [5].

Azərbaycanda Yaşıl Turizmin vəziyyətinə baxan zaman son zamanlar bəzi işlərin görüldüyünü və davam etdirildiyini görmək olur, amma istənilən səviyyədə olmadığının şahidi oluruq. Ərazi və potensial olaraq imkanların olduğunu vurğulaya bilərik. Aparılmış işlərə nəzər

salan zaman, aydın olur ki, milli parkların istifadəsinin artması, beynalxalq konfranslarda iştirak, qaydaların təkmilləşdirilməsi, proqramların qəbulu, maliyyə vəsaitinin ayrılması bu yöndə inkişafın olduğunun göstəricisidir. Amma bunların daha da artırılması və diqqətin daha çox yönəlməsinin əvacibliyini qeyd etməliyik. Misal olaraq ərazilərədə aparıla biləcək işlərə nümunələr göstərilə bilər [1].

Şimal bölgələrimizdə və cənub regionumuzda turizm potensialı olan ərazilərin turizm sahəsi kimi inkişafına zəminin daha da inkişaf etdirilməsi. Daha sonra brend kimi formalaşdırma. Ardınca investisiya layihələrinin qəbul edilməsi. Bundan sonra, əsas ekoloji yanaşma tərəfdən, təmizliklərin yüksək həddə çatdırılması, infrastrukturun inkişafı, dövlət qurumlarınının diqqətinin daha çox artırılması qeyd oluna bilər. Dağ turizminin, xizəkçiliyin daha çox fərqlənməsi yönündə işlərin aparılması lazımdır.

Ən vacib yerlərdən biri olan işğaldan azad olunmuş Qarabağ bölgəsinə diqqətin artırılmasıdır. Burada ilk öncə düzgün planın qəbulu lazımdır. Daha sonra, kurort məkanların yaradılması, rekreasiya və müalicə mərkəzlərinin tikilməsi, otellərin inşası, təbii və ekoloji turizmin inkişafı, mədəni-irsi mərkəzlərin bərpası, alternativ resurslardan daha çox istifadə və həmçinin güzəştli şərtlərlə investisiya layihələrinin qəbulu [2].

**Nəticə**

Turizm sahəsi qeyd olunduğu kimi, bir çox sahələri və faktorları özündə cəmləşdirir. Buna görə də daim yeniliklərin tətbiqi üzərində işlər aparılır. Yaşıl Turizm də bu sahədə hər zaman yeni işlərin görülməsi üçün vacib qərarlar qəbul edir və həyata keçirir.

Bilindiyi kimi 1990-cı illərdən bu tərəfə "Yaşıl Turizm", "Davamlı yüksəliş" kimi konsepsiyalar əsas müzakirə məsələləridir. Əsas məqsəd gələcək nəsillərə təbiətə və ekologiyaya zərər vermədən təmiz bir çevrənin ötürülməsini təmin etməkdir. Yaşıl Turizm də bu istiqamətdə bir çox işlərin görülməsində birbaşa rol oynayır. Həmçinin bunun vasitəsi ilə turizm sahəsinin inkişafına töhfələr vermiş olur, iqtisadiyyatın böyüməsinə də öz təsirini göstərmiş olur. Azərbaycanda da bir çox ərazilərdə Yaşıl Turizmin qarşıya qoyduğu hədəflər üçün işlər aparılır. Yuxarda qeyd olunanların tətbiqi ilə yaxın gələcəkdə ekoloji baxımdan təmiz, inteqrasiya olunmuş, çoxlu turist qəbullu bir ölkəyə çevrilmiş olacayıq.

**Açar sözlər:** Yaşıl turizm, ənənəvi turizm, iqtisadiyyatda yaşıl turizm, regionlarda turizm.

## Ədəbiyyat

1. Sustainable development of tourism in Azerbaijan: Current situation, problems and solution. Bayramlı Gadir. Bakı, 2019.

2. Ecotourism becomes one of main types of sustainable tourism in Azerbijan. Report. Bakı, 2021.
3. Yeşil Turizm ve Ekonomi. Çisil Erkan, Filiz Tutar, Erdinç Tutar, Mehmet Vahit Eren, 2013.
4. Yeşil Turizm, Green Tourism. Cihat Karslı, Ali Erhan Zalluhoglu, 2022.
5. Sustainable tourism development and innovation: Recent advances and challenges. Vasiliki Vrana, 2023.

# BÖLMƏ 2. AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN İNKİŞAFININ AKTUAL MƏSƏLƏLƏRİ

## GREEN TOURISM FOR A GREEN WORLD

**Natig Aghazada**
Azerbaijan University, Baku, Azerbaijan

Green tourism is a type of tourism promoted by operators who pay a special attention to the relationship between tourist activity and nature, adopting operational strategies in a spirit of harmony and respect. Tourism can become the main tool for territory's safeguard and for local traditions and identities' recovery; moreover, green tourism is an investment for everyone: populations, operators, municipalities, with benefits for all, including the tourist.

The United Nation has established a certain standard of ecotourism, but green tourism can cover wide range of criteria, from fully compatible environmental pressure below standard travel. There are many green travel opportunities available around the world has been increasing, which make the green tourism more desirable and in some area is necessary. It seems more sensible for some people to protect natural habitat and primitive, fragile environment that are forbidden to tourist, but many places rely on tourism revenue to support their local economy. Green, sustainable tourism is considered to be the best of two world, the ecology of an area protection, at the same time keep the local school and business prosperity.

The main purpose of green tourism is to minimize the negative effects of tourism on the environment. Green tourism also focuses on the financial empowerment of local people and offers employment opportunities for locals. The purpose is to preserve the local culture with the goal to raise awareness of visitors on the local culture. The core idea is to design a positive experience for tourists, as well as employees. Green tourism adopts practices that protect the environment and emits less carbon dioxide with the goal to enhance energy efficiency as well as the use of renewable energy.

In brief, green tourism consists of all ecologically, economically and socially sustainable practices. The main purpose of green tourism is to create a sustainable tourism industry. The ultimate goal here is to maximize socio-economic benefits while minimizing the negative impacts on the environment.

Furthermore, green tourism improves the local welfare. Green tourism adopts the principle of participation, enhances social sustainability; considers the benefit of local people from tourism revenues, employment of local people and equal distribution of income; respects the historical heritage, culture, traditions and diversity of the host communities, while also preserving the cultural heritage and adopting practices for the recognition of the local culture.

Ecotourism, sustainable tourism, green tourism, responsible tourism, ethical tourism. The common point of all these terms differing from each other is that the tourism industry embraces environmental, economic and social sustainability. All of these terms support a tourism destination to be respectful to the environment, preserve cultural heritage and improve the welfare of local people. [4].

Formation and Development Directions of "Green Tourism" in Karabakh and Eastern Zangezur.

The tourism potential of Karabakh is very rich, there are all opportunities for the development of many types of tourism — ecotourism, mountain tourism, winter tourism, hunting and health tourism. The strategy and concept of the tourism development of liberated territories by the State Tourism Agency have been developed. In addition to traditional tourism in Kalbajar, winter and health tourism can be developed. Shusha, which is considered the cradle of culture, is mainly planned to hold festivals, to show the results of the "dark" occupation in Aghdam and business tourism. Khojavand also has special tourism potential. The famous Azikh cave, Taglar cave are also located in this area. There are certain plans related to Sugovushan too. This ancient region of Azerbaijan has its own flora and fauna, cuisine, historical cultural and religious monuments, ancient fortresses, bridges, forests, springs, etc. it will attract tourists with its sights. Various types of extreme tourism, agrotourism and green tourism can also be organized in Karabakh, which is rich in natural resources. All this creates broad prospects for the development of Tourism. The richness of the flora is primarily responsible for the extensive usage of folk medicine in Karabakh, which has a long history. The Karabakh region's distinctive flora holds considerable promise for the manufacturing of herbal medicines and the development of novel medications [5]. At the same time, the "tourist route of Caucasian Albania" will play an important role in exposing Armenian lies that falsified the history of Karabakh. The route is prepared on the basis of advice and recommendations of scientists studying Caucasian Albania. The Albanian culture route covers 3 main corridors of Azerbaijan — Baku-Sheki-Zagatala, Ganja-Gazakh and Karabakh. Traces of Albanian culture are more in Karabakh and East Zangezur. It has a rich heritage related to Caucasian Albania. This place includes temples, churches, as well as traditions, etc. included. It should be noted that the tourist

route, which will be created in the footsteps of the ancient Albanian culture, will be of particular importance for the promotion of the rich and historical tourism potential of our country, as well as Karabakh. Hard work is underway to create the necessary tourism infrastructure to promote the existing tourism potential of Karabakh. It should be emphasized that tourism, along with the economic side, has a promotional side. Tourists will rest in our Karabakh, enjoy the beauty of nature, cultural and historical monuments, the favorable environment created, as well as get acquainted with some buildings to be demonstrated as exhibits to show the results of occupation in our territories such as Aghdam, Jabrayil, Fuzuli and see what situation Karabakh was brought into by Armenian barbarians and now they will be witnessing how they are improved by their true owners. In general, there are broad plans to develop tourism in Karabakh and East Zangezur. In the next 4 years, considering domestic and foreign tourists, Karabakh is expected to receive 1 million people. [2]

Actual Issues of Tourism Development in Azerbaijan.

According to the research, the weak points of the established strategies and developments in Azerbaijan's tourism sector are: Concentration of tourism structures mainly in Baku – in the future, the over-use of the capital by tourists may cause crowding. The over-use of transport and accommodations can negatively affect locals. Deficiency of the infrastructure in the country's regions – considering the double growth of tourist flows expected for the next 10 years, the lack of capacity of tourist establishments in the regions is expected. Dissatisfaction related with the low quality of services and infrastructure, especially considering accommodations, may cause overcrowding in the regions. Lack of the flights to various international destinations and from different destinations and regions to Azerbaijan and low competitiveness in the air transportation system of Azerbaijan result in high prices for air tickets, which can affect tourist flows. For instance, not having direct flights to Azerbaijan limits the diversification of tourists by country of origin, also flights of tourists with different budgets are limited so it might result in inequality of tourist types based on their budget. Insufficiency of the accommodations and other types of tourist infrastructure, lack of the differentiation and diversification and not having structured classification system of hotels. Most tourist accommodations in the regions artificially inflate prices, pushing tourists away in the warm season [1].

A new State Program related to the development of tourism was created for 2010-2014. It was designed to eliminate shortcomings of the previous legislation and to ensure further development of the tourism sector. The Program aimed to form a modern tourism industry that meets the highest economic, social and environmental requirements and to ensure the tourism

sector became one of the key pillars on which the country's economy was further developed [3].

The World Travel and Tourism Council produced a publication called Economic Impact of Travel and Tourism to Economy of Azerbaijan in 2018. In it, they provided a review of recent years, as well as forecasts for the next 10 years. According to the statistics of the World Travel & Tourism Council, the direct contribution of the tourism industry to Azerbaijan's GDP in 2017 was 4.2%. In addition, it is expected that this portion will rise to 5.6% for 2028. Based on the statistics, in 10 years Azerbaijan will be among the most highly demanded tourism countries, like Spain, Italy and Sri-Lanka, in the list of countries in which the tourism industry has high direct contributions to the economy. This prediction supports the Azerbaijani government's own predictions that in the near future the tourism industry will play a major role in the economy of Azerbaijan [6].

**Keywords:** Azerbaijan, Karabakh, green, tourism, development.

## References

1. Azerbaijan's Tourism Sector – Opportunities and Obstacles. Madina Hashimli, p. 27.
2. Gunel Ibrahimova, Baku, 2013, Challenges to the development of tourism in Azerbaijan, p.63- 65.
3. https://azerbaijan.az/en/related-information/223
4. https://www.sentrum.com.tr/en/blog/everything-you-need-to-know-about-green-tourism#:~:text=Green%20tourism%20adopts%20practices%20that,economically%20and%20socially%20sustainable%20practices
5. Mehdiyeva N. (2011), Biodiversity of medicinal flora of Azerbaijan, Baku, Letterpress, 2011, p. 186.
6. World Travel and Tourism Council, Travel and Tourism Economic Impact 2017 World, 2017, p.1.

# TURİZMİN İNKİŞAFININ QARABAĞ İQTİSADİYYATINA TƏSİRİ

**Aygün Atakişiyeva**
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

**Giriş.** İşğal sonrası Qarabağ iqtisadiyyatında turizmin yeri buranın təbii ehtiyatları, coğrafi mövqeyi, tarixi zənginlikləri və potensial nəqliyyat imkanları ilə əlaqədardır. Buna görə də Qarabağın zəngin təbii ehtiyatlarının və xalqımıza məxsus milli-mədəni mirasının turizm dövriyyəsinə cəlb olunması qarşıdakı dövrdə görüləcək mühüm işlərdən biri olacaq. 30 ilə yaxın doğma yurd həsrəti çəkən Qarabağ sakinlərinin, onların yaxın qohum-əqrabalarının, müxtəlif humanitar missiyalar həyata keçirən beynəlxalq təşkilatların nümayəndələrinin, dünyanın hər yerindən olan media ordusunun və bölgəyə yeni sərmayə yatırmaq üçün Azərbaycana gələcək investorların səyahət məsələləri digər işlərlə bərabər şəkildə həyata keçiriləcəkdir.

Turizm növlərinə gəldikdə, əvvəllər, yəni sovet dönəmində Şuşa, əsasən, yay istirahət zonası olub, buradakı pansionat və fərdi evlərdə çox sayda şəhərli turislər yerləşirdi. Ancaq 8 noyabr — Şuşanın işğaldan azad olunması günü tarixi turizm baxımından da xüsusi əhəmiyyət daşıyacaq. Belə turlara qatılan hər yaş təbəqəsindən və hər cür sosial qrupdan olan insanlar Azərbaycan Ordusunun keçdiyi zəfər yolunu bu dəfə turist kimi keçəcəklər. Bu marşrutun cazibə elementləri kimi insanları heyrətə salacaq təkcə təbiət və relyef gözəllikləri deyildir.

Bakı-Şuşa istiqamətində ilk səfərə çıxanlar, xüsusən, diplomatlar və xarici media təmsilçiləri üçün belə səfərlər erməni vandalizminin əsl mahiyyətini göstərmək üçün xüsusi bir fürsət olacaq. Qarabağın 30 illik işğal dövrü ərzində hər yerdə dağıdılmış insan məskənlərini, korlanmış ekosistemi (https://www.smh.com.au), dağıdılmış məzarlıqları və eləcə də daş dövrünü xatırladan primitiv erməni həyat tərzini bütün bəşəriyyətə göstərmək belə tanışlıq turlarının əsas motivi olacaq, foto-video həvəskarları üçün yeni bir gizli dünya açılacaq.

Qarabağın azadlığı uğrunda həlledici döyüşlərin aparıldığı, Azərbaycan Ordusunun yüksək dəqiqliklə düşmənə öldürücü zərbələr endirdiyi nöqtələri görmək isə daha yaddaqalan olacaq. Bu marşrutlar Suqovuşandan Xankəndinə, işğaldan ilk azad olunmuş Cəbrayıldan Kəlbəcərədək çox geniş bir ərazidə çox zəngin informativ bir resursa sahib olacaq. Xarici jurnalistlər, eləcə də bütün əcnəbi turistlər işğaldan miras qalmış şəhər və kəndləri gördükcə bu onlarda ermənilərin gerçək xarakteri haqda ən real təsəvvür yaradacaq. Onda bütün dünya biləcək ki, faşizm ruhlu bu insanlar istədiyi vaxt sıx məskunlaşdıqları Los-Ancelos, Marsel, Beyrut, Rostov kimi şəhərlərdə də hər an belə izlər qoyub getməyə hazırdılar. İşğal sonrası

Qarabağda turizmin inkişafı hər şeydən əvvəl bu bölgənin iqtisadiyyatının dirçəldilməsi və ölkəmizin digər yerlərində məskunlaşmış yerli insanların öz torpaqlarına qayıdışı üçün mühüm faktorlardan biri olacaq. Turizmin çox ciddi sosial-humanitar məzmunlu funksiyaları bunu etməyə imkan verir. Belə ki, turistlərə təklif olunacaq xidmətlər digər sahələrə nisbətən öz xərcini daha tez çıxardığından bu, bölgəyə işçi qüvvəsi axınına səbəb olacaqdır.

Qarabağda həm ekorturizm, həm mədəni tanışlıq, həm də müalicə turizmi üçün geniş imkanlar olduğundan burada turistlərə təklif olunan zərf xidmətlərin də çeşidi və məzmunu olduqca müxtəlif olacaq. Laçın, Kəlbəcərin unikal relyef müxtəlifliyi burada həm yay, həm də qış turizminin perspektivlərini artırır.

Turist marağı baxımından dünyada çox populyar olan və Azərbaycan mifologiyasında geniş yer tutan səhləb bitkisi Xarı-bülbülün Şuşada canlı olaraq izlənilməsi Qarabağın turizm cazibədarlığını xüsusi olaraq artırır. Qarabağ bölgəsi Azərbaycanın bir çox yerlərindən fərqli olaraq qışı və yayı mülayim keçən, yaşıllıqlarla zəngin olan bir ərazidir. Belə bir unikal təbii-iqlim xüsusiyyətləri ərazidə aqroturizmin və kənd-yaşıl turizminin də inkişafı deməkdir.

Erməni işğalından sonra burada kənd infrastrukturunun sürətlə yenilənməsi, normal həyat üçün bütün zəruri şəraitin yaradılması şəhərli turstlər üçün bölgə kəndlərini sevimli istirahət məkanı edəcək.

## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN TURİZM İMKANLARI

**Məhsəti Ataxanova**
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

Turizmin inkişaf etdirilməsi Azərbaycan dövlətinin əsas prinsiplərindən biridir. Azərbaycanda son illər turizmin inkişafı isiqamətlərində ciddi işlər görülsə də, ölkəmizin ən böyük turizm potensialına malik Qarabağ və Şərqi Zəngəzur işğal altında olduğundan bu proseslərdən kənarda qalırdı. Saf havası, zəngin zərvətləri, füsunkar təbiəti, müalicəvi suları və tarixi abidələri ilə dillərə dastan olan bu diyar artıq düşmən tapdağından azaddır. İşğal ərəfəsində zəngin təbii sərvətləri talanmış və ekologiyasına külli miqdarda zərər dəymiş Qarabağ artıq işğaldan sonra yenidən qurulur. Qarabağın turizm potensialı olduqca zəngindir, burada turizmin çox növləri – ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar vardır. Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası və konsepsiyası hazırlanmışdır [2]. Dövlət

səviyyəsində, özəl sektor və alimlərin birgə səyi sayəsində Dağlıq Qarabağın həm təbii, həm də antropogen turizm resursları gündəmə gətirilir. Qarabağ dağlıq ərazi olduğundan dağ və alpinizm turizmi xüsusilə diqqətdədir. Bundan başqa, gəzintilər, aktiv və ekstremal turizmin inkişafı üçün biri-birindən maraqlı layihələr işlənib. İşğaldan azad edilmiş ərazilərdə infrastruktur bərpa olunduqca, ilk növbədə, Azərbaycan vətəndaşlarının həmin ərazilərə səfərləri nəzərdə tutulub. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında karbon neytrallığın təmin edilməsi ölkəmizin əsas hədəflərindən biridir. Qarabağ və Şərqi Zəngəzurun turizm resurslarının qiymətləndirilməsi, turizm nümayiş obyektlərinin uçotunun aparılması, turizm potensialından səmərəli istifadə edilməsi, sağlamlıq, dağ və mədəni turizm resurslarının Araşdırılması ilə bağlı “Turizm resurslarının qiymətləndirilməsi” adlı ilkin Metodologiya sənədi hazırlanıb [5]. Müasir dövlət kimi inkişaf edən Azərbaycan Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərin bərpasında yeni yanaşmalar tətbiq etməkdədir. Cənab Prezident İlham Əliyev həmin zonaları “yaşıl enerji zonası” elan edib. Postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərin yaşıl enerji patensialından səmərəli formada istifadə etmək üçün yeni lahiyələr hazırlanaraq həyata keçrilməsinə başlanıb. Artıq bir sira lahiyələr demək olar ki, tamamlanmışdır. Bu ərazilərdə ümumi gücü 320MVt -dan artıq olan 50-dən artıq su elektrik stansiyalarının bərpası üçün araşdırmalar aparılır. Cəbrayıl rayonu ərazisində Araz çayı üzərində 140MVt gücündə, Xudafərin və Qız Qalası hidroqovşaqlar və su elektrik stansiyalarında tikinti və təmir işləri aparılır. Dövlət Turizm Agentliyi tərəfindən Qarabağda turizm resuslarının təhlili və turizm patensialının mövcud vəziyyətinin qiymətləndirilməsi üçün lahiyələr icra edilir. İnfrastruktur layihələrinin həyata keçrilməsi onu göstərir ki Qarabağ və Şərqi Zəngəzurun bərpası Azərbaycan dövlətinin əsas məsələlərindəndir. Qarabağ və Şərqi Zəngəzurun turizm potensialının olmasını bir ərazilərdə səfərdə olan “NomadMania” klubunun üzvləri də demişdir. Səyyah Salvatore Lavollo deyib ki, bu yerlərlə tanış olmaq üçün çox yaxşı imkanlar olub və hal hazırda bu çox sürətli quruculuq-bərpa işləri həyata keçirilir. Səfərdə olan səyyah Nikola Koratella bildirib ki, xüsusilədə Kəlbəcərin çox gözəl təbiəti var, Kəlbəcərdə turizmin inkişafı üçün böyük potensialı var. Hazırda inşa edilən yeni avtomobil və dəmir yolları o regionun inkişafı üçün böyük əhəmiyyət kəsb edir, o əlavə olaraq qeyd edib ki, “Biz burda çox böyük dağıntılar gördük” [5]. Kəlbəcər də məşhur termal – mineral su olan İsti bulağı ətrafında salınmış kurortun yenidən qurulmasına başlanmasını hamımız gözləyirdik. Mütəxəssislərin fikrincə, Kəlbəcərin relyefi dünyanın ən heyrətamiz kanatlarının inşasına, ən maraqlı turizm xidmətlərinin qurulmasına imkan verir. Burada gələcəkdə Qafqazın ən böyük turizm mərkəzini yaratmaq mümkündür. Kəlbəcər rayonu qış turizmi üçün ideal məkandır. İşğaldan azad olunmuş ərazilərimizdə turizm infrastrukturunun qarşılıqlı əlaqə şəklində

qurulması vacibdir. Şuşa Azərbaycan turizminin simvol şəhərlərindən biri olacaq. Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına da, imkan verəcək. Həmçinin Laçın rayonun da, böyük turizm potensialı var. Kifayət qədər geniş rekreasiya imkanlarına malik olan Laçındakı İlıqsu müalicəvi əhəmiyyətli mineral bulağı, zəngin flora və faunaya sahib, sahəsi 21 min hektardan çox olan Laçın yasaqlığı bu ərazilərin turizm imkanlarını genişləndirəcək. Rayon ərazisində qədim Tunc dövrünə aid olan kurqanlarla zəngindir, və bu turistlər üçün daha maraqlıdır. Füzuli Beynəlxalq Hava limanı region da turizmin inkişafında müstəsna rol oynayacaq. Prezidentin əmri ilə inşa edilən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi Xocavənd, Şuşa və Füzulinin turistlər üçün əlçatan olmasını təmin edəcək [3]. Xocavənd rayonu da xüsusi turizm potensialına malikdir. Tuğ və Hadrutun şərab marşrutuna salınması daha uyğundur. Məşhur Azıx mağarası, Tağlar mağarası da bu ərazidə yerləşir. Suqovuşanla bağlı da müəyyən planlar mövcuddur. Sərhəd rayonu olan Zəngilanı "imperiyaya" çevirmək olar İran və Ermənistan ilə sərhəddə yerləşmə, Naxçıvan və Türkiyəyə yeganə dəmir yolu və avtomobil yolunun üstündə yerləşmə onun turizm potensialını daha da, artırır. Təbiətin qorunması, əlbəttə ki, ön planda olmalıdır. Zəngilan rayonunun çox gözəl təbiəti var, füsunkar təbiəti var və təbiət nöqteyi-nəzərdən hesab edirəm ki, ölkəmizin ən gözəl rayonlarından biridir. Təbii ki, Zəngilan rayonunda böyük turizm potensialı vardır. Çünki gözəl meşələr, dağlar, bulaqlar, çaylar və beynəlxalq hava limanı, dəmir yolu, avtomobil yolları bütün bunlar böyük bir sərvət olacaq. Zəngilan rayonunun turizm potensialı, əlbəttə ki, digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılmalıdır. Ermənistan işğal dövründə ekologiyamıza böyük zərər vurmuşdur. 50-60 min hektar meşə zolağı tamamilə məhv edilmişdir. Bunlar xüsusilə Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonlarında daha çox özünü göstərirdi. Ümumiyyətlə Avropada ikinci böyük çinar meşəsi Zəngilan rayonunda olub. Burada olan Bəstiçay təbiət qoruğunun böyük bir hissəsi məhv edilib. Artıq burada bərpa işlərinə başlanılıb. Erməni vandalları Kəlbəcər və Zəngilan rayonunda olan qızıl və digər qiymətli metal yataqlarını vəhşicəsinə istismar etmişlər [6]. İndi Zəngilan, Qubadlı, Laçın yolu ilə Şuşa şəhərinə də məsafə çox qısa olacaq, çox rahat olacaq.İşğaldan azad olunmuş bölgəyə növbəti ekspedisiyalar zamanı Yaponiyanın "TEPSCO" şirkətinin yerli nümayəndələri ilə birgə "Azalternativenerji" MMC-nin əməkdaşları Qarabağ ərazisində mövcud olan bir sıra elektroenergetika qurğularına, kabel-kommunikasiyalara və Tərtər, Laçın, Qubadlı rayonlarında su elektrik stansiyalarına, Kəlbəcərin külək potensiallı ərazilərinə baxış keçirilmiş, Cəbrayıl günəş ölçü-müşahidə qurğusunda kiçik təmir-sazlama işləri aparılmışdır. Yəni, Zəngilan rayonunun turizm imkanları dərindən təhlil edilir. Zəngilan rayonu həm də

Şərqi Zəngəzur iqtisadi rayonun qapısıdır, iqtisadi, siyasi-hərbi cəhətdən strateji əhəmiyyət kəsb edir. Zəngin turizm potensialı olan rayonlarımızdan biridə Ağdamdır. Dark turizm həvəskarlarının Ağdama maraq göstərəcəyi obyektlərdən biri “Çörək muzeyi”nin dağıdılmış binasıdır. Dark turizm üçün önəmli obyektlərdən biri də İşğal muzeyidir. Muzey hazır olduqdan sonra dark turizm həvəskarları bu muzeydəki informasiyalardan istifadə etməklə işğal dövrünün ağrılı-acılı günləri barədə geniş məlumat əldə edəcəklər. Çünki muzeyin giriş hissəsində nəhəng ekranlar quraşdırılacaq. Orada işğal dövrünün ağrılı-acılı günləri nümayiş etdiriləcək [4]. Turistləri Ağdama cəlb etmək üçün Zəfər marşrutu üzərində işlənilir. Bu turizm növü “qara turizm” adlanır. İşğal nəticəsində dağılan tikililəri göstərmək üçün nəzərdə tutulmuşdur. Bununla da bu ərazilərə gələn turistlərə erməni vəhşiliyinin çox az qismini göstərmək olar. Ağdamda mövcud olan əlverişli coğrafi şərait, adət-ənənələr, qonaqpərvərlik kənd yaşıl turizminin inkişafına əlverişli şərait yaradır. Ağdam rayonu aqroturizm üçün ideal məkandır. Daha sonralar kəndlərdə yaşayan gəncləri aqroturizm, fotoovçuluq, yaşıl turizm operatorluğu kimi yeni peşə və ixtisaslara həvəsləndirmək mümkündür. Ağdam öz potensialı ilə yüksək inkişaf vəd etməkdədir. Otuz il ərzində düşmən tapdağı altında qalması rayona nə qədər böyük ziyan vursa da, ümid edirik ki, çox qısa zamanda Ağdam Azərbaycanın ən əsas iqtisadi rayonlarından birinə çeviriləcəkdir [1]. Qarabağın mövcud turizm potensialının tanıdılması üçün zəruri turizm infrastrukturunun yaradılması istiqamətində gərgin işlər davam edir. Turistlər həm Qarabağımızda dincələcək, təbiətin gözəlliyindən zövq alacaq, həm də Ağdam, Cəbrayıl, Füzuli kimi ərazilərimizdə işğalın nəticələrini göstərən eksponat kimi nümayiş olunacaq bəzi tikililərlə tanış olacaqlar. Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurda turizmin inkişafı ilə bağlı planlar genişdir. Yaxın 4 ildə daxili və xarici turistləri nəzərə alaraq, Qarabağın 1 milyon insanı qəbul edəcəyi gözlənilir. Təsadüfi deyil ki, ölkəmizin turizm sahəsində 50 minə yaxın insan çalışır və turizm sənayesinə layiqli töhfələrini verirlər. Dövlət başçısı İlham Əliyevin müvafiq sərəncamı ilə ölkəmizdə 29 sentyabr “Turizm işçiləri günü” peşə bayramı kimi qeyd olunur [2]. Bu gün gənclər olaraq düşmənin 30 illik zərər vurduğu ekologiyamızı, yenidən dirçəltmək və turizm sahəsində bacardığımız qədər dəstəyimizi göstərməliyik.

## Ədəbiyyat


1. Ağdamın turizm potensialı – Şəfəq Hüseynqızı.
2. Azerbaijan.az Qarabağ və Şərqi Zəngəzur turizm bölgəsi.
3. Azərbaycan qəzeti - Qarabağın zəngin turizm potensialı var.
4. Xalq qəzeti. az – Ağdamın zəngin turizm potensialı dirçəldiləcək.

5. İki Sahil Gündəlik İctimai-siyasi qəzeti, Qarabağ və Şərqi Zəngəzurun çox böyük turizm potensialı var, Xarici səyyahlar.
6. M. Mükərrəmoğlu, Xalq qəzeti – Qarabağ və Şərqi Zəngəzurun zəngin turizm potensialı var.
7. Sabahinfo.az – Zəngilanın iqtisadi və turizm potensialı ilə bölgənin inkişafına töhfə verəcək.

## KƏLBƏCƏRİN TURİZMİ

**Jalə Babazadə**
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
babayevajale0@gmail.com

Füsunkar mənzərəli təbiəti, zəngin mənəvi və mədəni ənənələri olan Qarabağın bir çox görkəmli Azərbaycanlı alimlərin, şairlərin, yazıçıların, sənətkarların, musiqiçilərin və xanəndələrin doğulduğu yerdir. Qarabağ Azərbaycan musiqisinin beşiyi olmaqla önəmli bir yerə malikdir.

Qarabağın turizm potensialı olduqca zəngindir, burada turizmin çox sahələri – ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar vardır. Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası və konsepsiyası hazırlanmışdır. Kəlbəcərdə ənənəvi turizmdən əlavə, qış və sağlamlıq turizminin inkişafı mümkündür və bu sahədə dövlət gələcəyə dair planlar hazırlamaqdadır [1].

Turizm üçün bütün zəruri potensial Şuşada, Kəlbəcərdə, Zəngilanda və digər ərazilərimizdə mövcuddur.

Kəlbəcər rayonu 1930-cu ildə inzibati rayon statusu almışdır, eyni zamanda Kəlbəcər rayonu ölkəmizin ən yüksək dağ rayonu olmaqla zəngin faydalı yataqlara malikdir.

Kəlbəcərdə turizmin inkişafı üçün əlverişli relyefi, möhtəşəm təbiəti və mineral suları onun iqtisadiyyatında başlıca rol oynayır, həmçinin yuxarı və aşağı istisu mineral su yataqları mövcuddur.

Alagöllər, Qaragöl, Zalxa gölü və s. kimi gölləri vardır. Zirvələri Gamış dağı (3724 m) və Dəlidağdır (3616 m).

Rayonun ərzasində yerləşən isti su mineral bulaqları öz tərkibindəki kimyəvi minerallara görə fərqlənirlər o su vasitəsilə insanlar həm daxili həmdə xarici xəstəliklərini müalicə edirlər. İstisu bulağı üstündə 80-ci illərdə iri kurort və mineral sudoldurma zavodu tikilmişdir. Həmin zavod sutkada 800 min litr su istehsal etmə qabiliyyətinə malikdir. Rayonun İstisu qəsəbəsində

İstisu sanatoriyaları fəaliyyət göstərirdi ki, bu sanatoriyalarda  hər il 50 mindən artıq insan müalicə olunurdu, həm də  istirahət edirdilər. Bu sanatoriyaların yenidən bərpası və fəaliyyət göstərməsi isə bura olan turist marağının sayını artıracaqdır [2].

Ərazi dəniz səviyyəsindən 1500-3800 metr yüksəklikdə, Tərtər çayı vadisində, Kiçik Qafqaz dağlarında, zəngin flora və faunaya, müalicəvi termal sulara (İstisu), tarixi abidələrə malikdir.

Kəlbəcər rayonu bir çox turistlərdə maraq yaradacaq tarixi abidələrlə də zəngindir. Burada alban dövrünə aid bir çox tarixi abidələr var olmaqdadır. Kəlbəcərin Ağdaban kəndinin də qədim alban tayfasının adını daşıdığı ehtimal edilir. Lakin Erməni vandallığı tarixi abidələrimizə zərər vurmaqla öz vəhşiliklərini  bir daha dünyaya göstərmiş oldular. Sübut etmiş oldular ki, bu tarixi abidələr, bu torpaqlar, heç bir zaman onların olmayıb. Kəlbəcər ərazisindəki qayaüstü təsvirlər Qobustandakı yazılı və şəkilli daşların oxşarı – “əkiz”lərdir.

Hətta sovetlər dövründə istisuyun istismarına xüsusi diqqət yetirilmişdir. 1970-ci ildə SSRİ hökumətinin qərarı ilə İstisu kurortu ümumittifaq əhəmiyyətli kurortlar siyahısına daxil edilmiş. Burada hər il 50 min nəfərə yaxın insan müalicə olunub və istirahət etmişlər.

Kəlbəcərdə el arasında “Xotəvəng” və ya “Xudavəng”, yəni “Allah məbədi” adlandırılan monastr kompleksi var.

Mütəxəssislərin fikrincə, Kəlbəcərin relyefi dünyanın ən heyrətamiz tikililərinin inşasına, ən maraqlı turizm xidmətlərinin qurulmasına imkan verir. Potensialından düzgün istifadə edilərsə, o zaman  burada Qafqazın ən böyük turizm mərkəzini yaratmaqla  Gürcüstana olan turist axınının istiqamətini dəyişmək mümkündür.

**Açar sözlər:** Kəlbəcər, turizm, potensial, inkişaf.

## Ədəbiyyat

1. Mənim Qarabağım və Qarabağ düyünü 2022.
2. Azərbaycan iqtisadiyyatı - Murad Qurbanov.

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA YAŞIL TURİZMİN FORMALAŞMASI VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Əntiqə Bəhlullu**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
Entiqebehlullu96@gmail.com

44 günlük müharibədə şanlı Azərbaycan ordusu işğalçı Ermənistanı diz çökdürdü, silahlı qüvvələrini məğlub etdi, hərbi texnikalarını sıradan çıxardı, otuz ildən sonra Qarabağı və Şərqi Zəngəzuru öz əbədi sakinlərinə qaytardı.

Qarabağ və Şərqi Zəngəzur işğaldan azad edildikdən sonra dövlətimizin başçısı İlham Əliyevin müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq bu ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. Çox böyük maliyyə vəsaiti tələb edən nəhəng infrastruktur layihələr icra olunur, kəndlər, şəhərlər yenidən qurulur, hava limanları istifadəyə verilir, dini-mədəni abidələr bərpa edilir, bir sözlə, geniş quruculuq işləri bütün sahələri əhatə edir. Qarabağda və Şərqi Zəngəzurda ekovəziyyəti yenidən bərpa etmək üçün bu istiqamətdə bir sıra addımlar atılır. Füzuli, Zəngilan və Ağdam rayonları ərazilərində, əsasən, Şərq çinarı olmaqla, minlərlə müxtəlif növ ağac əkilir, meşə zolaqlarına palıd və digər ağacların toxumları səpilir. Ağacəkmə aksiyaları Qubadlıda, Cəbrayılda da davam etdirilir.

Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad olunması şübhəsiz ki, turizm üçün yeni imkanlara yol açır. İndiki dönəmdə bu sahəyə yatırılacaq investisiyalar ölkə iqtisadiyyatına gələcək illərdə böyük töhfə verəcəkdir. Aparılan araşdırmalara görə, ərazilərin əlverişli coğrafi şəraiti turizm üçün əhəmiyyətlidir, eyni zamanda tarixi abidələrlə zəngin olması bölgəyə turist axınını da artıracaq.

Qarabağ iqtisadi rayonunun ərazisinin iqlimi 1000-2000 metr yüksəklikdə mülayim soyuq, düzənlik və alçaq, dağətəyi sahələrdə isə nisbətən quru və istidir. İllik yağıntıların miqdarı relyefdən asılı olaraq 400-900 mm-dir. Bu cür iqlim şəraiti iqtisadi rayonun kurort-turizm təsərrüfatının və digər sahələrin inkişafına xüsusi şərait yaradır. İqtisadi rayonun əsas təbii sərvətləri, çayları, meşələri, Turşsu, Şırlan kimi mineral bulaqları həm istirahət, həm də müalicə baxımından əsas turizm sərvətləri hesab olunur.

Şərqi Zəngəzur iqtisadi rayonu Azərbaycanın cənub-qərbində yerləşir. Qərbdən Ermənistan, cənubdan İran ilə həmsərhəddir. Şərqi Zəngəzur iqtisadi rayonu öz coğrafi mövqeyinə və tarixi abidələrinə görə turizm marşrutları üçün mühüm əhəmiyyət daşıyır.

Rayonda dağlıq landşaft üstünlük təşkil edir, əlverişli təbii şəraiti, zəngin ehtiyatları, bol günəş enerjisi, yaxşı su təminatı, müxtəlif mineral ehtiyatları ilə zəngin olması rayonu turizm sahəsi üçün xeyli əlverişli edir. İstisu, Minkənd, Tutqunçay mineral bulaqları, dağ meşələri kurort baxımından çox qiymətlidir. Azərbaycanda yeganə vulkan mənşəli göllər olan Böyük və Kiçik Alagöllər, Qaragöl turizm baxımından çox sərfəlidir. Eyni zamanda iqtisadi rayon mineral sularla da zəngindir. Qarabağ vulkanik yaylasında toplanmış mineral su ehtiyatları müxtəlif kimyəvi tərkibə malikdir. Şərqi Zəngəzur iqtisadi rayonu Azərbaycanın ümumi mineral su ehtiyatlarının 33 faizini təşkil edir. Ən böyük mineral su ehtiyatları – Yuxarı və Aşağı İstisu, Turxun, Keşdək, Qoturlu (Kəlbəcər) və Minkənd (Laçın) müalicəvi əhəmiyyətə malikdir. Mütəxəssislərin qənaətinə görə, yaxın gələcəkdə Kəlbəcər dağ turizminin mərkəzinə çevriləcək. Şəhərin baş planı dünyanın ən məşhur şəhərlərinə rəqabətli şəkildə layihələndirilir. Digər azad olunan ərazilərin baş planında “ağıllı şəhər”, “ağıllı kənd” konsepsiyası və yaşıl enerji layihələrinin tətbiqi öz əksini tapıb. Ecazkar təbiəti olan Kəlbəcər təsəvvürümüzdə canlandırdığımız İsveçrənin, Avstriyanın dağ turizminin şəhərlərinə bənzər layihələndirilir. Sözsüz ki, Kəlbəcərin özəllikləri və xüsusiyyətləri layihələndirmədə nəzərə alınır [4].

Qarabağın gözəl guşələrindən biri olan, tarixi abidələri, dağ silsilələri, Araz çayının füsunkar mənzərəsi, bərəkətli torpaqları ilə seçilən Füzuli rayonunun kənd turizmi üçün əlverişlidir. Həm də Füzuli şəhərinin yaxınlığında hava limanı yerləşir. Təbii ki, hava limanı gələcəkdə bu bölgəyə turist axınına geniş şərait yaradacağını göstərir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda təsdiq edilən baş planlarda hər bir rayonun özünəməxsusluğu, coğrafi şəraiti, tarixi və qədimliyi nəzərə alınıb. Eyni zamanda əhalinin sayına uyğun olaraq infrastruktur quruculuğu həyata keçirilir. Ağdam şəhərinin regional mərkəzə çevrilməsi də bu faktlara əsaslanır. İlk dəfə olaraq Ağdam şəhəri yüz minlik şəhər kimi planlaşdırılır. Burada böyük bir sənaye mərkəzi salınır, həmçinin şəhərdə Qarabağ Universiteti və böyük idman kompleksləri tikilməsi planlaşdırılır. Tariximizin bir parçasını özündə yaşadan, təbiət gözəllikləri ilə adamı heyran edən Ağdam gələcəyin ən müasir şəhərinə çevriləcək. Qeyd edək ki, işğaldan azad olunan ərazilərdə həyata keçiriləcək bütün işlər karbon emissiyasının sıfır həddə endirilməsini təmin edəcək. Bu da Qarabağı və Şərqi Zəngəzuru yaşıl enerji zonasına çevirəcək və turizm bölgəsi kimi məşhurlaşdıracaq.

Şərqi Zəngəzur iqtisadi rayonunu Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonları əhatə edir. Bu iqtisadi rayona daxil olan ərazilər tarixən yüksək potensialları turizm mərkəzləri olmaqla seçilmişdirlər. Turizm fəaliyyətləri həyata keçirildiyi bölgələrə iqtisadi töhfə verir, lakin turizm sənayesi terror, cinayət və müharibə kimi şiddət hadisələrindən yüksək dərəcədə təsirlənən bir sənayedir. Turistlər təbii olaraq rahat və dinc istirahət etmək istədikləri

üçün tətil keçirəcəkləri yerlərdə siyasi zorakılığa çox həssas yanaşır və siyasi zorakılığın davam etdiyi bölgələrə səyahət etməkdən çəkinirlər. Azərbaycanda son vaxtlar Qarabağ müharibəsi və təlatümlər və bu vəziyyətin ölkə iqtisadiyyatına əks olunması ölkəmizdə bir sıra sosial-iqtisadi problemlərə səbəb olub. Xüsusilə, döyüş bölgəsi və qonşu rayonlar həm bu qarışıqlıqların ən ağırını yaşamış, həm də II Qarabağ müharibəsinin yaratdığı bütün problemlərlə birbaşa üzləşməli olmuş bölgələr sırasındadırlar.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan yüksək potensiallı, zəngin təbiət və təbii sərvətləri ilə seçilən rayonlarda biri də Qubadlı rayonudur. Bu rayonun ərazisindən keçən Bazarçay düz şəhərin ortasından keçir, ümumilikdə 2 böyük çay rayon ərazisindən keçir. Digər ikinci böyük çay isə Həkəri çayıdır. Bu çay nəinki Qubadlı rayonu, eləcə də Azərbaycan üçün əvəzsiz sərvətdir. Bu çaylarla yanaşı, Bəsitçay, Tərtərçay da rayonun ərazisindən keçən çaylardandır ki, bu çaylar uzun illər düşmən tapdağı altında olmuşdur. Yüksək turizm potensialına sahib Qubadlı rayon ərazisi meşələri, bulaqları, gözəl təbiəti ilə bura səyahət edən turistləri cəzb edir.

2020-ci ilin payızında Azərbaycanın 20 faiz ərazisinin Ermənistan ordusunun işğalından azad edilməsindən sonra yeni yolların çəkilməsi və hava limanlarının istifadəyə verilməsi, “ağıllı” şəhər və kəndlərin salınması həmin ərazidə turizmin inkişafına xeyli dərəcədə təkan verəcəkdir.

**Açar sözlər:** Turizmin inkişafı, Qarabağ və Şərqi Zəngəzurda turizm, yaşıl turizmin istiqamətləri, Azərbaycanda turizm.

## Ədəbiyyat

1. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 22 dekabr, 2021.
2. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, 2021.
3. Bağırov O. (2020), Azad edilmiş ərazilərdə bərpa prosesinin əsas İstiqamətləri, Təhlil, Air Center, 9 səh.
4. https://xalqqazeti.com/mobile/az/news/82383

# SUSTAINABLE STRATEGIES FOR GLOBAL FOOD SECURITY: BALANCING THE PLATES WITH THE PLANET

**Cherif Lahgazi**
Azerbaijan University, Baku, Azerbaijan

Food security remains a pressing global concern amidst the backdrop of climate change. This delves into multifaceted approaches to address the challenge of feeding a growing population while mitigating environmental impacts. From sustainable agricultural practices to dietary shifts and innovative solutions, we explore strategies that can reconcile food security with climate resilience.

The global population is undernourished, and climate change threatens food systems worldwide, the imperative to find sustainable solutions to feed the planet has never been more urgent. However, the quest for food security often collides with efforts to combat climate change. Agriculture contributes significantly to greenhouse gas emissions, deforestation and biodiversity loss. Thus it aims to explore innovative and sustainable approaches that can nourish the world's population without exacerbating climate change.

The majority of Moroccans said they have been disappointed by the government’s employment policies, and they think authorities are not doing enough to curb unemployment. 87 percent said that authorities “have done nothing” to fight poverty and unemployment.

There is a lot of possible solutions that needs to be tried or done, Starting of by:

Sustainable Agricultural practices: Embracing sustainable agricultural practices is paramount in achieving food security while mitigating environmental degradation. Techniques such as agroforestry, conservation agriculture and precision farming offer promising avenues to enhance productivity while minimizing resource inputs and ecological footprints. For instance, agroforestry integrates trees into agricultural landscapes, enhancing soil fertility, carbon sequestration and biodiversity. Moreover, precision farming utilizes technology to optimize resource utilization, reducing waste and environmental impact.

Shifting diets toward sustainabilty: Promoting dietary shifts towards plant-based diets can significantly reduce the environmental footprint of food production. For instance, a 2010 study estimated that a 25% reduction in meat consumption could significantly minimize the impact of agriculture on ecosystems and biodiversity. Even small dietary shifts can make a difference. Reducing meat consumption and incorporating more plant-based meals can contribute to a more sustainable food system.

Livestock farming, a major contributor to greenhouse gas emissions, land degradation, and water consumption, necessitates a transition towards more sustainable protein sources. Encouraging consumers to embrace diets rich in fruits, vegetables, legumes and grains not only benefits human health but also reduces pressure on natural resources and mitigates climate change. Furthermore, innovations in alternative protein sources such as plant-based meat substitutes and cultured meat offer promising solutions to meet protein demands sustainably.

Tackling food loss and waste: Addressing food loss and waste throughout the supply chain is crucial for optimizing food security and minimizing environmental impacts. Improving storage facilities, transportation infrastructure and distribution networks can mitigate spoilage and losses, thereby increasing food availability. Moreover, consumer education campaigns and policy interventions play a vital role in raising awareness about the consequences of food waste and promoting sustainable consumption. Redirecting surplus food to those in needs through food banks and redistribution networks further enhances efficiency and equity in the food system.

Conservation and restoration of Ecosystems: Preserving and restoring a natural ecosystem such as forests, wetlands and mangroves are essential for safeguarding biodiversity and ecosystem services critical for food production. Halting deforestation, promoting sustainable land-use practices and supporting initiatives like reforestation and habitat restoration are paramount in mitigating climate change and enhancing food security. Moreover, integrating ecosystem-based approaches into agricultural landscapes enhances resilience to climate variability and extreme weather events, ensuring sustainable food production in the face of environmental challenges.

Conclusion:

The intertwined challenges of food security and climate change demand innovative and collaborative solutions. By embracing sustainable agricultural practices, promoting dietary shifts towards plant-based diets, tackling food loss and waste and conserving ecosystems, we can forge a more resilient and equitable food system. However, achieving sustainable food security requires concerted efforts from governments, businesses, civil society and individuals worldwide. Together, we can strike a balance between feeding the world and safeguarding the planet for future generations.

**Keywords:** Climate change, food security, ecosystem, safeguarding the planet.

## References


1. FAO. (2019). The state of food security and nutrition in the World 2019. Food and Agriculture Organization of the United Nations.
2. https://www.mdpi.com/2076-0760/12/1/28
3. NCBI - Plant-Based Diets: Considerations for Environmental Impact, Protein Quality, and Exercise Performance.
4. IPCC. (2019). Climate Change and Land: An IPCC Special Report on Climate Change, Desertification, Land Degradation, Sustainable Land Management, Food Security and Greenhouse Gas Fluxes in Terrestrial Ecosystems.
5. Springmann, M. et al. (2018). Options for keeping the food system within environmental limits. Nature, 562(7728), 519–525.
6. Tilman, D., Clark, M. (2014). Global diets link environmental sustainability and human health. Nature, 515(7528), 518–522.
7. Foley, J.A. et al. (2011). Solutions for a cultivated planet. Nature, 478(7369), 337–342.


# AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFININ AKTUAL MƏSƏLƏLƏRİ


**Əsnayə Cumayeva**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan

Esnaye.memmedova@mail.ru


Azərbaycan son illərdə iqtisadiyyatın bütün sahələrinin inkişaf etdiyi ölkəyə çevrilib. İqtisadiyyatın bir çox sahələrində olduğu kimi, turizm sahəsində də dövlət qayğısı hesabına bir sıra irəliləyişlər mövcuddur. Azərbaycan turizm baxımdan kifayət qədər geniş perspektivlərə malik olan ölkə hesab olunur. Ərazisinin nisbətən kiçikliyinə baxmayaraq, turizmin inkişafı üçün yetərli qədər təbii ehtiyatlara, maddi-texniki bazaya və tarixən formalaşmış mədəni irsə malik olması Azərbaycanı potensial turizm ölkəsinə çevirə biləcək amillər hesab olunur. Əlbəttə ki, bunlarla yanaşı, bu sahədə dövlət dəstəyi əsas məsələlərdən biri hesab olunur. Son 10 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə turizm sahəsində bir sıra islahatlar aparılıb.

Turizmin inkişafında mühüm addımlardan biri Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" hesab oluna bilər. Bu mühüm sənəddə ilk əvvəl 2020-ci, daha sonra isə 2025-ci ilə qədər turizmlə bağlı hədəflər (ümumilikdə 4 hədəf),

prioritetlər və tədbirlər müəyyən olunub.Burada dayanıqlı turizm növləri olan ekoloji və kənd turizm növlərinin inkişafına xüsusi dəstək verilməsi nəzərdə tutulur.Son illər dövlət səviyyəsində Azərbaycan turizminə göstərilən diqqətin bariz nümunəsi mübaliğəsiz olaraq Prezident İlham Əliyevin 2018-ci il 20 aprel tarixli "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam"ına əsasən Azərbaycan Dövlət Turizm Agentliyinin yaradılması olub. Agentlik turizm sahəsində vahid dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, turizm sahəsində normayaratma fəaliyyətinin icrasını, dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni, turizmin inkişafı məqsədi ilə digər dövlət orqanları, müəssisələri və təşkilatları, habelə fiziki və hüquqi şəxslər, o cümlədən beynəlxalq və qeyri-hökumət təşkilatları arasında əlaqəli fəaliyyəti təmin etmək, qoruqların ərazilərindən məqsədyönlü istifadəni təşkil etmək və onların qorunub saxlanılmasını təmin etmək, milli kulinariya nümunələrinin qorunmasını və təbliğini təmin etmək istiqamətində fəaliyyət göstərir.

Azərbaycanın zəngin mədəni irsi nəzərə alınaraq, tarixi marşrutlar (məsələn, Böyük İpək Yolu, məşhur hərbi yürüşlər, tarixi döyüş yerləri və s.) mədəni turizmin bir hissəsi olmaqla, turizmə təsiri və potensialı baxımından xüsusilə əhəmiyyətli hesab olunur. Ölkədə bir sıra mədəni marşrutlar – "Böyük İpək Yolu" mədəni turizm marşrutu, eləcə də müxtəlif maraq seqmentlərinə aid olan turistlər üçün ölkənin cəlbediciliyini daha da artırmaq məqsədilə "Aleksandr Düma Qafqazda", "Azərbaycanda şərab yolu", "Azərbaycanda alman izləri", "Azərbaycanda polyak izləri", "Babaların tarixi zəfər və şəhadət yolu" və Naxçıvanda "Nuhun gəmisi" təkmilləşdirilərək həyata keçirilir.

Biznes məqsədilə ölkə xaricinə səyahətləri əhatə edən işgüzar turizm müasir dövrdə turist axınının əsas tərkib hissəsi hesab edilir. Bu perspektivli turizm növünə müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlər arasında görüşlər, konqres tipli tədbirlər, habelə beynəlxalq sərgilərdə və yarmarkalarda iştirak kimi səyahət məqsədləri daxil edilir. İşgüzar turizmin inkişafı ölkədə məşğul əhalinin sayının artmasına və ÜDM-də turizm sektorunun xüsusi çəkisinin yüksəldilməsinə təsir göstərib, mövsümilik amilinin aradan qaldırılmasına təkan verəcəkdir. Bu sahədə Azərbaycan Turizm Bürosunun nəzdində fəaliyyət göstərən Azərbaycan Konqreslər Bürosunun (AzKB) və onun Fəxri Səfirlər Klubunun fəaliyyətini xüsusilə qeyd etmək lazımdır.

Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosu tərəfindən ölkəmizin turizm istiqaməti kimi beynəlxalq səviyyədə tanıdılması və təbliği məqsədilə bir sıra işlər həyata keçirilir. Onlara beynəlxalq tədbirlərdə iştirak və Azərbaycanda beynəlxalq səviyyəli tədbirlərin keçirilməsini xüsusilə qeyd etmək lazımdır. Azərbaycan Turizm Bürosu (ATB) hər

il 30-a yaxın beynəlxalq turizm sərgisində iştirak edir. Berlində “ITB” və Londonda “WTM” kimi mühüm turizm sərgiləri, eləcə də Barselonada “IBTM World” və Frankfurtda “IMEX” kimi işgüzar tədbirlər (konqres, konfrans və sərgi) turizmi (MICE) ilə bağlı sərgilər də bunların arasında yer alır. Eyni zamanda, Azərbaycan bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi edir.

Azərbaycana gələn turistlərin sayı son 10 illikdə artmaqda davam edir. 2011-ci ildə Azərbaycana gələn turistlərin sayı 2,3 milyon nəfər təşkil edib. 2019-cu ildə Azərbaycana ümumilikdə 3,2 milyon turist gəlib ki, bu da 2018-ci illə müqayisədə rekord səviyyədə - 11,4 faiz çoxdur. Onlardan 932 mini Rusiyadan, 725 mini Gürcüstandan və 361 mini Yaxın Şərq ölkələrindən gəlib. Azərbaycan İrandan 255 min nəfər, Mərkəzi və Cənubi Asiya ölkələrindən isə 249 min turist qəbul edib. 2020-2021-ci illərdə COVID-19 pandemiyası ilə əlaqədar olaraq turistlərin sayı kəskin azalıb [1].

Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların inkişafını təmin məqsədini rəhbər tutaraq, Prezident İlham Əliyev tərəfindən iqtisadi rayonların yeni bölgüsü həyata keçirilərək Qarabağ (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) iqtisadi rayonları yaradılıb. Bu iqtisadi rayonların təbii ehtiyatları, təbii gözəllikləri, tarixi abidələri gələcəkdə bu ərazidə turizmin bir çox növlərini inkişaf etdirmək imkanı verəcəkdir. Bu növlərdən mədəni-tarixi, rekreasiya, ekoloji turizm növlərini xüsusilə qeyd etmək olar. Bu bölgəyə bir çox turizm marşrutlarının hazırlanması və həyata keçirilməsi nəzərdə tutulmuşdur. Eyni zamanda, bölgədə yerləşən bir çox dini abidələrin gələcəkdə bərpası burada həm dərketmə, həm də dini turizmin inkişafına təkan verəcəkdir. Yaradılan yol, nəqliyyat infrastrukturu hesabına (avtomobil yolu, dəmir yolu, hava limanı) burada həm daxili turistləri, həm də qonşu ölkələrdən (xüsusilə Türkiyə və İran) gələn xarici turistləri qəbul etmək imkanı olacaqdır.

Qarşıdakı dövrdə Azərbaycanda turizmin daha da inkişaf etdirilməsinin müxtəlif istiqmətləri mövcuddur. Bu istiqamətlərdən ən aktualı işgüzar turizm hesab edilə bilər. Çünki, işgüzar turizm məzmununa görə təkcə insanların ölkəyə gələrək pul xərcləməsi deyil, eyni zamanda müxtəlif ölkələrdən olan sahibkarların və iş adamlarının ölkəmizə gələrək işgüzar əlaqələr qurmaq, gələcəkdə birgə biznes təşkil etmək imkanları da yaradır.

Son illərdə işgüzar turizmlə birgə turizmin digər istiqamətləri, o cümlədən intensiv-turizm, konqres, klub, kooperativ, elmi, elitar, etnomədəni, ekstremal, dağ velosipedi turizmi

və s. kimi yeni fəaliyyət növləri yaranmış və aktiv şəkildə inkişaf etməkdədir, bu da öz növbəsində müxtəlif məqsədli turizm səyahətlərini əks etdirir [2].

**Açar sözlər:** Turizmin inkişafı, Azərbaycanda turizm, turizm siyasəti, turizm reytinqi, turizmin inkişaf yolları.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanda Turizm. Statistik məcmuə, Bakı, 2020, 96 s.
2. Möhbalıyev F.F. Azərbaycanda turizm bazarı və aqroturizmin inkişaf perspektivləri, Əmək və Sosial Münasibətlər jurnalı. 2020, 1, s. 72-79.
3. İsmayılov V.İ. Azərbaycanda beynəlxalq turizmin reytinqi və inkişaf perspektivləri. Əmək və Sosial Münasibətlər jurnal. 2019, 1, s. 85-93.
4. https://sesqazeti.az/news/politics/1100398.html

# İQTİSADİYYATIN MÜHÜM SEKTORU KİMİ TURİZMİN İNKİŞAFI

**Natiq Daşdiyev**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
natiq.dasdiyev90@bk.ru

**Giriş.** Ölkəmizdə və dünyada turizm sferasının yeni inkişaf mərhələsi iqtisadiyyatın bu sektorunda müəyyən islahatların aparılmasını tələb edir. Hazırda ölkədən kənar turizm səfərlərinin sayı azalmaqla yanaşı, daxili turizm dinamik şəkildə inkişaf etməyə başlamışdırş Daxili turizmə yeni marşrutlar əlavə olunur, çünki azad olmuş ərazilərə turistik səfərlər edilməsi arzusunda olanların sayı getdikcə artır. Məqalənin məqsədi indiki yeni iqtisadi şəraitdə turizm sahəsinin təhlil edilməsidir.

Turizm müasir iqtisadiyyatın insanların tələbatlarının ödənilməsinə və əhalinin həyat səviyyəsinin yüksəlməsinə yönəlmiş mühüm fəaliyyət sahələrindən biridir. Eyni zamanda iqtisadiyyatın digər sahələrindən fərqli olaraq turizm təbii ehtiyatların tükənməsinə səbəb olmur. İxracyönümlü sahə olmaqla turizm dünya bazarındakı qeyri-sabit vəziyyətlərdə digər sahələrdən fərqli olaraq daha çox stabillik nümayiş etdirir. Ölkəmiz Şərq və Qərb mədəniyyətlərini özündə birləşdirən zəngin mədəni irsə malikdir. Millətin kökünü, bünövrəsini təşkil edən bu irs əsrlərdir ki, onu qoruyur. Ardı-arası kəsilməyən hücumlara, işğal və

istismarlara müqavimət, hətta işğalçıya öz mədəniyyətini qəbul etdirmək gücü də məhz burdan qaynaqlanır. Azərbaycan əsrlərdir qoruyub saxladığı mədəni irsini bəşəri dəyərlərlə birləşdirən dinamik inkişafa malikdir.

Onu da unutmaq olmaz ki, Azərbaycanın inkişafını nəzərdə tutduğu və gələcəyə hesablanan böyük planlar qurduğu sahələrdən biri, mədəniyyətin təbliği baxımından da mühüm əhəmiyyət kəsb edən turizmdir. Neft sektorundan qeyri-neft sektoruna keçid prosesinin sonunda ölkəyə ən böyük gəlir gətirən sahələrdən birinin də məhz turizm olacağını nəzərə alsaq, bu inkişafın illər sonrakı nəticəsini təsəvvür etmək çətin deyildir.

Ölkənin əcnəbi qonaqlarına təqdim edəcəyi çox böyük mədəni irs və turizm üçün əlverişli bölgələri vardır. Odur ki, bütün ölkə ərazisində tətbiq edilən regionların inkişafı proqramının nəticələrinin uğuru ucqar əyalətlərdə də artıq görünməkdədir. Ölkəmizin mövcud turizm potensialının səmərəli istifadə olunması məqsədilə turizm sahəsində planlaşdırılmış işlərə 2001-ci ildən başlanmışdır.

Dünyada turizmin əhəmiyyəti daima artır ki, bu da sahənin iqtisadiyyata təsirinin güclənməsi ilə səciyyəvidir. Turizm gəlirlərin və məşğulluğun mühüm mənbəyi olmaqla**,** xidmət edən yeni sahələr yaratmaqla iqtisadiyyatın diversifikasiyasına səbəb olur. Bundan əlavə, turizm dövlətin xarici siyasətinin reallaşdırılmasının mühüm amillərindən biridir. Azərbaycan Respublikasının mövcud ehtiyatları turizm infrastrukturunun lazımi səviyyədə inkişaf etdirilməsi şərtilə xarici turistlərin qəbulunu dəfələrlə artırmağa imkan verir.

Ölkəmizdə tədricən turizmə realist yanaşma və onun Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üçün çox böyük əhəmiyyətə malik iqtisadi sahə kimi qəbul olunması baş verir. Azərbaycan Respublikasının rəqabət üstünlükləri siyasi stabillik və ölkədə təhlükəsizliyin təmini, adambaşına düşən gəlirlərin getdikcə artması və milli valyutanın – manatın stabilliyi hesab oluna bilər. Bununla belə, qeyd etmək lazımdır ki, ölkəmizin malik olduğu nadir təbiət və iqlim ehtiyyatları, həmçinin mədəni irs Azərbaycan turizminin uğurlu inkişafını təmin edən yeganə və kifayət edəcək şərt kimi nəzərdən keçirilə bilməz, çünki bunlar yalnız turizm təklifinin elementlərindən biridir. Dünyada təbii və mədəni ehtiyatlara görə Azərbaycan Respublikası ilə müqayisə oluna bilən, lakin inkişaf etmiş keyfiyyətli turizm infrastrukturuna malik olan ölkələri misal göstərmək olar. Belə ölkələrdən ərazisi və əhalisi ölkəmizlə eyni olan Avstriyanı, həmçinin Fransa və ya İspaniyanı qeyd etmək olar. Bu ölkələr hər il yalnız beynəlxalq turizmdən on milyardlarla dollar gəlir əldə edirlər.

Azərbaycan Respublikasında turizmin inkişafının məqsədi Azərbaycanın və xarici vətəndaşların turizm xidmətlərinə olan tələbatlarının təmini, əhalinin məşğulluğu və gəlirlərinin artırılması üçün geniş imkanlar açan müasir rəqabətə davamlı turizm bazarının

formalaşdırılmasıdır. Bu məqsədə çatmaq üçün inkişafın elementlərindən biri, ölkənin beynəlxalq nüfuzunun möhkəmləndirilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsi vasitəsi kimi Azərbaycan Respublikasında gəlmə və daxili turizmin uğurlu inkişafı üçün stimullar həyata keçirmək lazımdır.

Rəqabətə davamlı turizm bazarı formalaşdırmaq üçün yalnız infrastrukturun inkişafı üçün səylər yetərli deyil. Milli turizm məhsulunun satışı üçün turist göndərən əsas bazalara istiqamətlənmiş və təcavüzkar xarakterə malik effektli strategiyaya ehtiyac vardır ki, nəticədə gəlmə və daxili turizmi Azərbaycan Respublikasının iqtisadiyyatında əsas gəlir vasitəsinə çevirmək olar.

Uğur əldə etmək üçün böyük həcm, müntəzəmlik və daimi təsir lazımdır. Reklam kompaniyası müəyyən bir zamandan sonra iqtisadi səmərə verməyə başlayır. Bu məqsədlə həm ölkədaxili, həm də xarici reklam-informasiya kompaniyası aparılmalı, Beynəlxalq turizm və digər sərgilərdə iştirak edilməli, Azərbaycan Respublikasının turizm imkanlarının təqdimatı keçirilməlidir. Həmçinin əsas turist göndərən bazaların dilində reklam çap məhsulları hazırlanmalı və yayılmalıdır. Bunlardan bəziləri artıq həyata keçirilir. Bununla belə hazırda Azərbaycanın milli turizm məhsulunun təbliği üçün büdcədən ayrılan vəsait mövcud turist axınına çox cüzi təsir edə bilər. Bunun üçün xeyli vəsaitin ayrılmasına ehtiyac vardır.

Dünyanın bir çox ölkələri, iqtisadiyyatda turizmin əhəmiyyətini dərk edərək turist göndərən və qəbul edən əsas bazarların xüsusiyyətlərini nəzərə almaqla milli turizm məhsulunun təbliği üçün böyük vəsait sərf edirlər. Ölkənin turizm imkanlarının geniş reklam kompaniyası xarici və daxili turistlərin artımına və nəticə etibarı ilə ölkə iqtisadiyyatına daxil olmaların çoxalmasına gətirib çıxarır. Hal-hazırda ölkəmizdə ən çox inkişaf etmiş iqtisadiyyat sahəsi neft sənayesidir. Bugünkü gündə ölkəmiz ən çox gəliri məhz neft sənayesindən əldə edir. Respublika öz xərclərinin böyük həcmini də bu sənayedən gələn gəlir hesabına ödəyir. Lakin neft tükənəbiləcək bir təbii sərvətdir. Buna görə də gərək neft sənayesi ilə yanaşı digər sənaye sahələri də inkişaf etdirilsin.

Bildiyimiz kimi ölkəmiz böyük turizm ehtiyatına malik olan coğrafi mövqedə yerləşmişdir. Son zamanlar Azərbaycanda turizmin inkişafı üçün bir çox tədbirlər həyata keçirilir ki, bu da Azərbaycanda turizm sahəsinə olan diqqəti özündə əks etdirir. Eyni zamanda bu tədbirlər ölkəyə turist axınını gücləndirir, turizm sahəsindən gələn gəlirin ölkə büdcəsində daha fəal iştirak etməsini təmin edir.

Turizm iqtisadiyyatının inkişafı üçün aparılan işlərə bir çox turizm obyektlərinin, pansionatların, restoranların, ulduzlu otellərin və s. tikilməsi misal ola bilər. Həm də respublikanın əksər regionlarında tikilmiş və tikilməkdə olan olimpiya kompleksləri də ölkə

iqtisadiyyatına müəyyən miqdarda təsir göstərir. Digər sahələrdə olduğu kimi, turizm sektorunda da istehsal - istehlak edilməkdə, əmək məşğulluğu başlıca ünsür olmaqda və investisiya qoyulmasına davam edilməkdədir. Bununla birlikdə, məhsulun reklam edilməsi, satışa çıxarılması, keyfiyyəti, paylaması ilə yeni investisiyalar, məşğulluqla bağlı ətraflı işlər görülməkdədir.

Bütün ölkələrdə dövlət və sektor nümayəndələri bu sektorun iqtisadi əhəmiyyətini dərk etdikləri üçün turizmin hər mənada dəstəklənilməsindən yanadırlar. Çünki dünya daxilində bu sektoru maraqlandıran makro-iqtisadi təməl göstəricilərə baxıldığı zaman, sektorun son əlli il içində ortaya qoymuş olduğu performans bunu açıqca təsdiqləməkdədir. Son illər ölkəmizdə turizm sahəsinin təkmilləşdirilməsi üçün bir sıra tədbirlər görülməkdədir. Qüvvədə olan çoxsaylı aktlar, keçirilmiş islahatlar ölkənin turizm resurslarından istifadəsi onun təkcə neft ölkəsi kimi deyil, həmçinin turizm imkanlarına, əlverişli coğrafi mövqeyə malik olan bir dövlət kimi tanınmasına şərait yaradır. Azərbaycan müstəqil bir dövlət olsa da, müharibə şəraitindədir. Artiq turzim imkanlarını reallaşdırmağın vaxtıdır. Bunun üçün də ölkəmizin turizm ehtiyatlarını lazımınca dünyaya tanıtmağa çalışmalıyıq.

**Açar sözlər:** Daxili turizm, turizm sahəsi, turizm potensialı, daxili və gəlmə turizmi.

## Ədəbiyyat

1. Vergi borclarının məcburi alınması haqqında Vergilər Nazirliyinin A-181 saylı əmri.
2. Vergi xəbərləri.
3. Sadıqov T.Ə. Dərslik. Vergi uçotu və auditi. Bakı, 2014, 680s.
4. Kəlbiyev Y.A., Məhərrəmov R.B., Rzayev P.Q. (2011). Xarici ölkələrin vergi sistemi. Bakı: İqtisad Universiteti, 554 s.
5. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. Vergilər və vergitutma. Dərslik, Bakı, 2010, s. 512
6. Кузулгуртова А.Ш. Особенности государственной налоговой политики в периоды глобальной финансовой нестабильности, Финансы и кредит, 2012, No.4.
7. Майбуров И.А Налоги и налогообложение. М., 2012.
8. Пансков В.Г. Налоги и налогообложение: Теория и практика: учебник для вузов. М., 2010.
9. Алиев Б.Х., Абдулгалимов А.Н. Теоретические основы налогообложения: учеб. пособие для вузов. М., 2008.

# AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ

**Elcan Əhmədov**
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

Müasir dünyada bütün dövlətlərin qarşısında müəyyən sosial-iqtisadi porblemlər durur. Bu problemlərə ətraf mühitin çirklənməsi, təbii ehtiyacların tükənməsi və insan tələbatlarının artıqlığını misal göstərmək olar. Problemlərin qarşısını almaq məqsədilə dünyanın qabaqcıl ölkələri "Təmiz ətraf mühit, Yaşıl artım" kimi böyük məsələləri Beynəlxalq Təşkilatlarda müzakirəyə qoydular. Aparılan müzakirələr nəticəsində bir çox ölkələr bəzi tədbir proqramları hazırladı. Bu dövlətlər sırasına Azərbaycan Respublikası da daxildir. Azərbaycan Respublikası bu tədbirləri öz dövlət siyasəti çərçivəsində həyata keçirməyi qarşısına məqsəd qoymuşdur.

Məlumdur ki, Azərbaycan ərazisi tarix boyu yüksək geo-coğrafi məkan sahibi olmuşdur. Azərbaycan dövlətinə ilk səyahətlər ticarət, dini, siyasi və dərketmə məqsədləri ilə əlaqədar olmuşdur. Qədim Azərbaycan ərazisindən keçən ilk ticarət karvanları ilk səyahətlər hesab olunur. Hələ eramızdan əvvəl Azərbaycan ərazisində olmuş səyyah və alimlərdən Plininin, Herodotun, Ptolomeyin və Strabonun adlarını çəkmə olar.

Azərbaycan hələ qədim dövrlərdə Böyük İpək Yolu üzərində mühüm dayanacaq kimi tanınan bir ölkə olmuşdur. İpək Yolu vasistəsi ilə gətirilən mallar Azərbaycanın Mingəçevir rayonuna yerləşdirilir və buradan Qafqaz Albaniyasına və digər şəhərlərə göndərilirdi [1].

1990-cı ilən etibarən Azərbaycanda fəaliyyət göstərən ümumitiffaq və beynəlxalq turist marşrutları ləğv olundu. Müharibə və ölkədəki qeyri-stabil vəziyyət truzim sferasında bir çox problemlərin yaranmasına səbəb olmuşdur. Məsələn, Həmkarlar itiffaqları sistemində mövcud olan 10 turist bazasının ikisi isğal olunmuş ərazilərdə qalmış, qalan yerlərə isə məcburi köçkün ailələri yerləşdirilmişdir. 1991-ci ilin sentyabr ayında mövcud olan xarici turizm üzrə idarələr ləğv olundu, onun yerinə isə Azərbaycan Respublikası Nazirlər Kabineti nəznində Xarici Turizm Şurası yaradıldı. Lakin bütün bu problemlərin qısa müddətdə həll edilməsi qeyri-mümkün idi. Azərbaycanda turizmin dirçəldilməsi və yenidən inkişafı üçün  bütövlükdə ölkə iqtisadiyyatının inkişafı əsas şərt idi.

Turizmin inkişaf tendensiyası ölkənin ali qanunvericilik aktlarında öz əksini tapdı. 1999-cu ildə Milli Məclisdə "Turizm haqqında" qanun qəbul edildi. Bu qanun Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar olmasına gətirib çixardı. 2001-ci ilin sentyabr ayının 25-də ilk dəfə olaraq Cənubi Koreya respublikasının paytaxtı Seul şəhərində Ümumdünya Turizm Təşkilatının XIV Baş Assambleyasında Azərbaycan

Respublikası bu beynəlxalq turist təşkilatına üzv oldu. 2001-ci ildə ilk dəfə olaraq Azərbaycanı tam genişliyi ilə təbliğ edən "Welcome to Azerbaijan" adı xüsusi disk hazırlandı, ÜTT-nın Baş Assamblemiyasına təqdim olundu. Bununla yanaşı, diskin "Tourism in Azerbaijan" adlı veb səhifəsi yaradıldı. 2002-ci ildə ilk dəfə Bakıda xarici ölkələrin turizm şirkətlərinin iştirakı ilə Beynəlxalq Turizm Sərgisi təşkil olundu və ÜTT-nin dəstəyini qazandı. Beləliklə Azərbaycan Respublikası tədricən dünyada turizm məkanı kimi qəbul olundu və tanınmağa başlandı [2, s.442].

Ölkə daxilində turizmi inkişaf etdirmək və turizm ehtiyatlarından səmərəli şəkildə istifadə etmək məqsədilə respublika Prezidentinin 2002-ci il 27 avqust tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq olundu. Bu proqramın həyata keçirilməsi sayəsində artıq XXI əsrin başlanğıcında Bakıda, Gəncədə, Naxçıvanda və digər şəhərlərdə xarici qonaqları qəbul edə bilən müasir mehmanxana və hotellər fəaliyyət göstərməyə başladı. Turizm üçün regionlarda əlverişli şəraitin yaradılması ilə respublikamıza gələn xarici qonaqların sayı sürətlə artmağa başladı.

2009-cu ilin aprel ayında Bakıda Heydər Əliyev adına İdman və konsert Kompleksində 8-ci dəfə Beynəlxalq Turizm Sərgisi keçirildi. "2009-2018-ci illərdə Azərbaycan Respublikasında kurortların inkişafı üzrə Dövlət Proqramı" Azərbaycanda gələcəkdə turizm-kurort sahələrinin planlı surətdə inkişaf etdirilməsinə və səmərəli şəkildə istifadəsinə zəmin yaratdı.

Dövlət Turizm Agentliyinin məlumatlarına görə, 2024-ci ildə qış mövsümündə Azərbaycana ən çox Rusiya, Türkiyə və Ərəb ölkələrindən qonaqlar gəlmişdir.

2023-cü ilin yanvarında Azərbaycan Xarici İşlər Nazirliyi ölkəyə gəlmək istəyən əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə elektron viza ərizəsi formasını doldurmaq imkanı verən "Viza Müraciət portalı"nı istifadəyə verib. Daha sonra onlar bu anketi təsdiqləyib, baxılmaq üçün respublikanın diplomatik nümayəndəliklərinə və konsulluqlarına göndərə bilər.

**Nəticə**

Azəbaycan daima qonaqpərvərliyi ilə bütün dünyaya öz qapılarını açmaqdadır. Bunun üçün dövlət siyasəti çərçivəsində çoxlu təbirlər keçirilməkdədir. Azərbaycanın II Qarabağ Müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə yeni turizm məkanları istifadəyə verilməkdədir. Hazırda daxili və xarici turistlər üçün fəaliyyət göstərən müasir turizm infrastrukturu yaradılır və Şuşa şəhəri tezliklə turizm şəhərinə çevriləcəkdir.

**Açar sözlər:** Milli Turizm prioritetləri, turizmin dirçəldilməsi, turizm tendensiyası.

**Ədəbiyyat**

1. https://economy.gov.az/az
2. İ. Hüseynov, N. Əfəndiyev, Turizmin əsasları.
3. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması.

## KƏND TURİZMİNİN REGİONUN İNKİŞAFINA TƏSİRİ

**Gülnar Əliyeva**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
gulnar.tahirli@student.au.edu.az

Kənd mühitində səyhətçilərin yaşam şəraitini təmin etmək üçün olan xidmət fəaliyyəti hesab edilir. Burada şəhərdən və eləcə də əcnəbi turistlərin xərcləri kəndlilərin qazancına çevrilir. Belə ki, ölkədaxili pul axını təmin olunmaqla rayonlararası gəlir fərqləri nisbətən azalır. Kənd turizmi daha çox mövsumi xarakter daşıyır. Belə ki, bəzi kəndə turistlər qışda üz tuturlarsa da, bəzi kəndlərə yay aylarında gedirlər. Bunun səbəbi isə kənd əhalisinin məşğuliyyəti və həmin bölgənin şəraiti ilə bağlıdır. Turizmin inkişafı, həmçinin əhalinin gəlirlərinin artmasına onların həyat tərzinin xeyli yaxşılaşmasına və dəyişməsinə, işsizlik səviyyəsinin və yoxsulluğun azalmasına təsir edir. Göründüyü kimi, bu fəaliyyətlə, daha çox kənd sakinləri məşğul olurlar. Kənd camahatı turistlərə öz evlərində yaxud da əlavə rahat edə biləcəkləri evdə yer verir və onlar üçün bələdçilik, sürücülük, qidalanma və s. kimi xidmətlər təklif edilir. Kənd turizminin inkişafı üçün və eyni zamanda yerli camaatın ənənələrə sadiq qalması üçün, milli mədəniyyətin, mentalitetin təbliğinə, təbiətin qoruması üçün addımların atılması üçün və kənd turizminin daha da çox inkişafında istənilən nəticəni əldə etmək üçün yerli əhalinin bu istiqamətdə maarifləndirilməsi üçün addımların atılması olduqca əhəmiyyətlidir.

Son illərdə "İxtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə və "Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda aqroturizmin inkişafı üzrə qarşıya qoyulmuş əsas öhdəliklərin yerinə yetirilməsi məqsədilə müxtəlif növ layihələr icra olunmuşdur. Hal - hazırda "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial - iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq, turizm potensialı olan kəndlərdə, qəsəbələrdə "turistik kənd"lərin formalaşdırılması istiqamətində işlər görülür. Bu işlərin həyata

keçirilməsində bir sıra dövlət qurumlarının, beynəlxalq təşkilatlar eləcədə yerli qeyri - hökumət təşkilatları iştirak edirlər.

Bu ərazidə yaşayan yerli əhali üçün bu fəaliyyət, ənənəvi kənd təsərrüfatı əldə olunan qazanc gəlir mənbəyi kimi təqdim olunur. Kənd turizm biznesinin artması və inkişafı nəticəsində bir sıra imkanlar yarana bilər. Kənd təsərrüfatı məhsullarının dəyərinin digər məhsullarla bərabərləşdirilməsi və ənənəvi kənd təsərrüfatından gələn gəlirin azalması, məhsulun müxtəlif dad və görnüşünün dəyişməsi ilə nəticələnmişdir. Kənd turizmi inkişaf etmiş həmin regionun adət-ənənəsinin, mətbəx və digər mədəni-məişət sahələrinin təbliğində ən əhəmiyyətli vasitə kimi özünü göstərir. Turistlərin adət və ənənələrə göstərdikləri marağın günbəgün artması, yerli adamları bu sahədə daha çox məlumat öyrənməyə və turistlərin tələbinə uyğun biliklərini artırmağa vadar edir. Kənd əhalisinin əsas hissəsi hətda dörddən üçü ətraf mühitin qorunmasina adətən çox az əhəmiyyət verir.

Kənd turizmində turisti daha çox təbiət mənzərələri cəlb etdiyi üçün daha çox ətraf mühitin qaygısına qalırlar. Bunu nəzərə alaraq bu sahədə kənd əhalisi də təbiətə əvvəlki münasibətlərini dəyişməyə başlayırlar. Bundan başqa istehsalçı öz ənənəvi fəaliyyətlərindən fərqli olaraq, yeni məqsədlərə nail olmaq üçün də istifadə üçün əlverişli ərazilər və mənzərəli yerlər tapır. Kənd turizminin inkişafı və dəstəklənməsi yerli inkişafın dəstəklənməsi deməkdir. Kənd mühitində bu tip yeni biznes sahəsi kimi həm də başqa sahələr arasında nəqliyyat, səhiyyə xidməti, kommunikasiya, habelə yolların bərpası və düzəldilməsi məqsədilə dəstəyin verilməsi tələbini qoyub.

Kənd turizminin günü-gündən inkişafı həmçinin urbanizasiyanın da qarşısını alır. Turizmin inkişafı eləcədə kənd turizminin inkişafı yolların infrastrukturundan başlayır. Son zamanlarda ölkə rəhbərliyinin tapşırığı ilə Azərbaycanda yol infrastrukturu yüksək səviyyəyə çatdırılıb və bununla bağlı tədbirlər hələ də görülməkdədir. Bu da yerli əhalinin və xarici turistlərin ucqar kəndlərə rahat gəliş - gedişini və eyni zamanda səyahət etmələrinə imkan yaradır ki, buda ucqar kəndlərlə əlaqələri sıxlaşdırır.

Pandemiya zamanı bütün sərhədlərin bağlanması eləcə də quru sərhədlərin bağlanması yerli sakinlərimizi respublikamızın bölgələrinə daha çox səyahət etməsinə səbəb oldu ki, buda kənd turizminə marağı artırdı. Lakin başqa ölkələr və qonşu dövlətlərlə müqayisə etsək, ölkə daxilində səyahətlə bağlı qiymətlər və xidmətlər heç də ürək açan deyil. Ölkəmizdə xidmət göstərən turizm kompleksləri və mehmanxanaları eləcədə qidalanma və satış obyektləri turistlərə daha yaxşı xidmət göstərməli və minimum qiymət təklif etməklə daha çox turisti cəlb etməyə maraqlı olmalıdırlar. Məhz buna görə də investorlar da daha aşağı büdcəli gecələmə və qidalanma obyektlərinin tikilməsinə önəm verməlidirlər. Kənd turizminin günü – gündən

inkişafı yerli sakinlərin rifahının yaxşılaşmasına xidmət edir. Kəndlərdə hər ildə neçə- neçə yeni iş yerləri açılır. Bu isə onların gəlirlərini artırır ki, buda yerli əhalinin sosial vəziyyətlərinin daha da yaxşılaşmasına xidmət edir. Turizm obyektləri kənd təsərrüfatı təmiz və təbii kənd məhsullarının satışına daha çox üstünlük verməli, onları birbaşa kəndlilərdən almalı və heç bir qatqı olmadan satışını həyata keçirməlidirlər. Çünki yerli əhali və turistlər təmiz və təbii məhsulları hər zaman kəndən əldə edəcəyini düşünür.

**Açar sözlər:** Kənd turizmi, kənd yaşıl turizmi, turizm, turist.

**Ədəbiyyat**

1. Qəhraman Yusupov Kənd qonaq evlərinin fəaliyyətinin əsasları kitab 2016.
2. https://az.wikipedia.org/wiki/K%C9%99nd_turizmi
3. https://azerbaijan-news.az/az/posts/detail/kend-turizmi-1669423919
4. https://www.anl.az/down/meqale/medeniyyet/2010/iyun/122392.htm
5. https://medeniyyet.az/page/news/5706/-Kend-turizmi:-Avropa-tecrubesi.html?lang=ru
6. https://ulduztourism.az/xeberler/azerbaycanda-kend-turizmi
7. https://www.anl.az/down/meqale/respublika/2010/sentyabr/134245.htm

## QLOBAL PANDEMİYANIN TURİZMİN İNKİŞAFINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Nicat Əliyev**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
Nicadt19@gmail.com

**Xülasə:** COVID-19 pandemiyasının turist davranışının dəyişdirilmiş mənzərəsini və ümumi turizm inkişafında olan dəyişiklikləri araşdırır. Mövzumuz dəyişikliklərin əsas rolunu vurğulayaraq müasir səyahətçilərin inkişaf etmiş üstünlükləri və seçimləri üzə çıxarır, turizmdə maraqlı tərəflərə strategiyaları və təklifləri uyğunlaşdırmaq üçün vacib olan fikirləri təqdim edir. Post-pandemiya turizm sektorunun inkişafında olan dəyişiklikləri araşdırmaq mövzumuzun əsas məqsədidir.

**Giriş**

Qlobal turizm sənayesi uzun müddətdir ki, iqtisadi artım, mədəni mübadilə və sosial inkişaf üçün katalizator rolunu oynayır. Bununla belə, 2019-cu ilin sonlarında COVID-19

pandemiyasının ortaya çıxması sektor üçün misli görünməmiş problemlər və fasilələr dövrünü açdı. Ölkələr virusun sürətlə yayılması ilə mübarizə apardıqca, yoluxmanın qarşısını almaq üçün sərt səyahət məhdudiyyətləri, sərhədlərin bağlanması və kilidləmə tədbirləri həyata keçirildi ki, bu da beynəlxalq səyahət və turizm fəaliyyətlərinin demək olar ki, tamamilə dayanmasına səbəb oldu.

Bu fonda pandemiyanın turizmin inkişafına çoxşaxəli təsirinin başa düşülməsi vacib olur. Mövzumuz pandemiyanın qlobal miqyasda turizm mənzərəsini yenidən formalaşdırdığı müxtəlif ölçüləri araşdıraraq mürəkkəb dinamikanı üzə çıxarmağa çalışır. Turistlərin gəlişi, gəlirin yaradılması, məşğulluq səviyyələri və təyinat yerlərinin idarə edilməsi kimi əsas aspektləri araşdıraraq, bu araşdırma pandemiyanın turizm sektoruna təsirlərinin hərtərəfli icmalı təmin etmək məqsədi daşıyır.

Mövzumuz pandemiyanın yaratdığı çətinlikləri həll etmək üçün turizm sənayesi daxilində maraqlanan iştirakçılar tərəfindən görülən dinamik reaksiyaları və uyğunlaşmaları araşdıracaq. İnnovativ marketinq strategiyaları və rəqəmsal transformasiya təşəbbüslərindən tutmuş siyasi müdaxilələrə və icma əsaslı turizm təşəbbüslərinə qədər, maraqlı tərəflər çətinliklər qarşısında möhkəmlik və çeviklik nümayiş etdiriblər.

Qlobal pandemiyanın yaratdığı pozulma ənənəvi olaraq turizm sektorunun fəaliyyətini və inkişafını ölçən əsas ölçü və göstəricilərdə öz əksini tapıb. Təyinatların cəlbediciliyi və tələbinin əsas ölçüsü olan turist gəlişləri dünyada səyahət məhdudiyyətləri və sərhədlərin bağlanması ilə görünməmiş azalma yaşadı. Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Turizm Təşkilatının (UNWTO) məlumatlarına görə, 2020-ci ildə beynəlxalq turist sayı əvvəlki illə müqayisədə 74% azalıb ki, bu da qeyd olunan tarixdə ən kəskin azalmanı təmsil edir [5].

Eynilə, turistik mərkəzlər və turizm biznesləri üçün mühüm gəlir mənbəyi kimi xidmət edən bu gəlirlər pandemiyanın yaratdığı tənəzzül nəticəsində kəskin azalmanın şahidi oldu. Ümumdünya Səyahət və Turizm Şurası (WTTC) iqtisadi təsirin böyüklüyünü vurğulayaraq, 2020-ci ildə səyahət və turizm ÜDM-də qlobal itkilərin 4,5 trilyon dollar olacağını təxmin etdi [7].

Bundan əlavə, turizm sektorunda məşğulluq səviyyəsi pandemiyanın yaratdığı fasilələrdən ciddi şəkildə təsirləndi. Otellərin, restoranların, turoperatorların və turizmlə əlaqəli digər müəssisələrin geniş şəkildə bağlanması ilə milyonlarla iş yeri itirildi və ya risk altında qaldı, xüsusən məşğulluq və dolanışıq üçün turizmdən çox asılı olan istiqamətlərdə. Beynəlxalq Əmək Təşkilatının hesablamalarına görə, qlobal turizm sektoru 2020-ci ildə təxminən 100 milyon iş yerini ixtisar edib ki, bu da pandemiyadan əvvəlki səviyyələrlə müqayisədə heyrətamiz 28% azalma deməkdir [2].

Qlobal pandemiyanın başlaması turizm sektorunda maraqlı tərəfləri sürətlə səfərbər olmağa və böhranın yaratdığı görünməmiş fəsadlara uyğunlaşmağa sövq etdi. Virtual turlar, rəqəmsal təcrübələr və immersiv hekayələr, qlobal kilidləmə zamanı potensial səyahətçiləri cəlb etmək üçün effektiv vasitələr kimi ortaya çıxdı.

Turizm müəssisələri yeni əməliyyat mühitinə uyğunlaşmaq üçün əhəmiyyətli dəyişikliklərə məruz qaldı. Hotellər və yaşayış yerləri təmassız qeydiyyat prosedurlarını, təkmilləşdirilmiş təmizləmə protokollarını və çevik ləğv siyasətlərini qəbul etdi. Tur operatorları və turizm agentlikləri yerli və regional turizm bazarlarına yönəlmiş, yerli seçimlərə uyğunlaşdırılmış təcrübələr təklif etmişlər.

Hökumətlər mübarizə aparan bizneslərə yardım göstərmək və turizm ekosistemində iş yerlərini qorumaq üçün iqtisadi stimul paketləri, maliyyə yardımı proqramları və vergi güzəştləri təqdim etdilər. Beynəlxalq təşkilatlar qabaqcıl təcrübələri bölüşmək, cavab tədbirlərini əlaqələndirmək və qlobal səhnədə sektorun maraqlarını müdafiə etmək üçün platformalar təqdim etdilər.

Turizm sektorundakı maraqlı tərəflər qlobal pandemiyanın yaratdığı fəsadlara cavab olaraq möhkəmlik və uyğunlaşma qabiliyyəti nümayiş etdirsələr də bərpa yolunda mühüm maneələr qalmaqdadır. Pandemiyanın trayektoriyasını əhatə edən qeyri-müəyyənlik və onun səyahət davranışı və seçimlərinə davamlı təsiri uzunmüddətli planlaşdırma üçün problem yaradır.

Turizm sektorunda innovasiya və inkişaf imkanları çoxdur. Pandemiya rəqəmsallaşma, sağlamlıq turizmi və davamlı səyahət kimi tendensiyaları sürətləndirib, fərqləndirmə və dəyər yaratmaq üçün yeni imkanlar təqdim edib. Maraqlı tərəflər arasında əməkdaşlıq və tərəfdaşlıq davamlılığın yaradılması, inklüziv inkişafın təşviq edilməsi və sektorda davamlı inkişafın təmin edilməsi üçün vacibdir.

**Nəticə**

Qlobal pandemiyanın turizmin inkişafına təsirinin qiymətləndirilməsi sektorda ciddi pozuntuları, dinamik reaksiyaları və yaranan imkanları vurğuladı. Turistlərin gəlişində və gəlir əldə edilməsində görünməmiş azalmadan tutmuş geniş yayılmış iş yerlərinin itirilməsinə və təyinat nöqtələrinin idarə edilməsi problemlərinə qədər pandemiya turizm ekosistemində maraqlı tərəflərin davamlılığını və uyğunlaşma qabiliyyətini sınaqdan keçirdi [3].

Böyük çətinliklərə baxmayaraq, turizm sektorunda maraqlı tərəflər böhranı idarə etməkdə diqqətəlayiq möhkəmlik və yenilik nümayiş etdiriblər.

Orindaru və digərlərinin (2021) dediklərini də nəzərə alara onu deyə bilərik ki, gələcəyə baxsaq, turizmin bərpası və dayanıqlılığına aparan yol davamlılığı, inklüzivliyi və innovasiyanı

əhatə edən çoxşaxəli yanaşma ilə xarakterizə olunacaq [4]. Məsuliyyətli turizm təcrübələrinə üstünlük verməklə, rəqəmsallaşma və texnologiyadan istifadə etməklə, əməkdaşlıq və tərəfdaşlığı inkişaf etdirməklə, maraqlı tərəflər gələcək böhranlara tab gətirmək və uzunmüddətli sosial-iqtisadi inkişafa töhfə vermək üçün daha möhkəm, davamlı və ədalətli turizm sektoru qura bilərlər.

Keçmişin dərslərindən ibrət götürməklə, innovasiya və inkişaf imkanlarından istifadə etməklə və daha davamlı və əhatəli gələcək üçün ortaq baxışı mənimsəyən turizm sektoru daha güclü, daha dayanıqlı və qarşıda duran çağırış və imkanları idarə etməyə daha yaxşı hazır ola bilər.

Yekun olaraq qeyd edək ki, qlobal pandemiyanın turizmin inkişafına təsiri dərin və əhatəli olsa da, bu sektorda transformasiya və yeniləşmə üçün katalizator rolunu oynamışdır. Bütün dünyada maraqlı tərəflərin kollektiv qətiyyətindən, yaradıcılığından və davamlılığından istifadə etməklə, turizm sektoru böhrandan daha güclü, daha davamlı və sürətlə dəyişən dünyada inkişaf etmək üçün daha yaxşı mövqe tuta bilər.

**Açar sözlər:** Covid-19 pandemiyası, turizm, iqtisadiyyat.

## Ədəbiyyat

1. European Commission. (2021). Tourism and Transport in 2020 and Beyond: Challenges and Opportunities.
2. International Labour Organization. (2021). COVID-19 and Sustainable Recovery in the Tourism Industry.
3. Journal of Business Research. (2020). Tourism and COVID-19: Impacts and implications for advancing and resetting industry and research, Volume 117, 312-321.
4. Orîndaru, A., Popescu, M.F., Alexoaei, A.P., Căescu, Ș.C., Florescu, M.S., Orzan, A.O. (2021). Tourism in a post-COVID-19 era: Sustainable strategies for industry's recovery. Sustainability, 13(12), 6781.
5. UNWTO. (2021). Tourism Recovery Tracker.
6. World Economic Forum. (2021). The Future of Travel and Tourism: Building Back Better.
7. WTTC, Ümumdünya Səyahət və Turizm Şurası, 2021.

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Əhədəmin Heydərli**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
ehdeminheyderli@icloud.com

Qarabağ Azərbaycanın ən gözəl bölgələrindən biridir. Füsunkar mənzərəli təbiəti, zəngin mənəvi-mədəni ənənələri olan Qarabağ Azərbaycanın bir çox görkəmli alimlərinin, şairlərinin, yazıçılarının, rəssamlarının, musiqiçilərinin, müğənnilərinin vətənidir. Qarabağ Azərbaycan musiqisinin beşiyidir. Qarabağda Azərbaycan xalq folklorunun ən qədim və nadir nümunələrindən biri olan yüzlərlə musiqi əsəri yaradılmışdır. Qarabağ Azərbaycanın ən qədim tarixi bölgələrindən biridir. Bu qədim diyarların zəngin təbiəti, təbii sərvətləri daim diqqət mərkəzində olub. Təəssüf ki, 30 ilə yaxın işğal nəticəsində bütün sərvətlərimiz bu ərazilərdə istismar, talan edilib. Burada yerləşən mədəniyyət ocaqları, muzeylər, tarixi abidələr də dağıdılıb, qədim tarixə malik olan qiymətli əşyalar ölkəmizdən çıxarılıb. İşğal rejimi ikinci Qarabağ müharibəsi başa çatana qədər Qarabağın müxtəlif bölgələrində qanunsuz arxeoloji qazıntılar aparıb, tapılan artefaktlar Ermənistana daşınıb. Tarix və mədəniyyət abidələrimiz talan edilib, bütün infrastruktur dağıdılıb, qədim memarlıq abidəsi sayılan məscid və onun minarələri, ziyarətgahlar dağıdılıb. Bütün bu dağıntılara, maddi və mənəvi zərərlərə baxmayaraq, dövlətimiz bir tərəfdən barbarlığa məruz qalmış dini, tarixi, mədəniyyət abidələrimizin bərpası ilə məşğuldur. Ümumiyyətlə Yaşıl turizm nədir? Yaşıl turizm, turizmin ətraf mühitə mənfi təsirini azaltmaqla təbii ehtiyatların qorunmasının təşviqi ilə nəticələnən ekoloji cəhətdən təmiz və məsuliyyətli səyahət təcrübələrinə yönəlmişdir. Bu, həmçinin yerli icmalara və onların iqtisadi inkişafına dəstək verməklə yanaşı, mədəni maarifləndirmə və hörməti təşviq etməyi də əhatə edir.

Yaşıl turizm ekoloji cəhətdən təmiz nəqliyyatdan istifadə, ekoloji cəhətdən təmiz yaşayış yerlərində qalmaq və vəhşi təbiətin mühafizəsi layihələri və ya mədəni immersiya təcrübələri kimi məsuliyyətli və davamlı turizm fəaliyyətlərində iştirak kimi fəaliyyətləri əhatə edir. Yaşıl turizm həm ətraf mühitə, həm də yerli icmalara fayda verən daha davamlı və məsuliyyətli səyahət sənayesi yaratmağa kömək edir. Yaşıl turizm hərəkatı illər ərzində populyarlıq qazansa da, bir çox insanlar hələ də necə töhfə verə biləcəyini bilmirlər.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində böyük turizm potensialı olduğunu və

bərpa quruculuq işləri aparıldıqdan sonra hətta inamla söyləmək olar ki, Qarabağ regional əhəmiyyətli, daha sonra dünya əhəmiyyətli ekoturizm mərkəzinə çevriləcək. İşğaldan azad edilmiş ərazilərimizdə aparılan quruculuq işləri, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması yaxın gələcəkdə Qarabağın istirahət imkanlarından istifadə etmək üçün şərait deməkdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizmin inkişafı, bu sahənin genişləndirilməsi, yeni istiqamətlərin müəyyənləşdirilməsi baxımından çox yüksək potensiala malik olduğunu inkar etmək olmaz. Xüsusilə, Füzuli və Zəngilan beynəlxalq hava limanlarının hazırkı fəaliyyəti, 2025-ci ildə Laçında hava limanının istifadəyə verilməsi gözlənilən rayonda beynəlxalq turizmin inkişafı üçün möhkəm zəmin yaradır. Bu, turizm sektoruna investisiyaların cəlb edilməsi üçün əlverişli şərait deməkdir. Bu şərtləri nəzərə alan Azərbaycanın profil strukturları Avropa, Türkiyə, Çin, postsovet ölkələrində keçirilən ixtisaslaşmış turizm forumlarına investorların cəlb edilməsi istiqamətində işlərini xeyli gücləndirib. Qeyd edək ki, bir çox yerli və xarici özəl şirkətlər bu sahənin inkişafında maraqlıdır. Artıq işğaldan azad edilmiş ərazilərimizdə termal, dağ, qış, ovçuluq, əkinçilik və "yaşıl" turizmə böyük maraq var. Dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində turizm sahəsində bəzi layihələrin həyata keçirildiyi də diqqətdən kənarda qalmır.

Mədəni fəaliyyətin bərpasında Heydər Əliyev Fondunun rolu danılmazdır. Qısa müddət ərzində Şuşada "Qarabağ" və "Xarıbülbül" mehmanxanaları istifadəyə verilmişdir. Bu, Azərbaycanın mədəniyyət paytaxtı Qarabağın incisi sayılan Şuşaya gəlmək istəyən həm yerli, həm də xarici turistlərə Kəlbəcərin heyrətamiz təbiəti, ekoturizm imkanları olan İstisu kurortuna səyahət etmək imkanı verəcək. Qarabağın turizm potensialı çox zəngindir, turizmin bir çox növlərinin - ekoturizm, dağ turizmi, qış turizmi, ovçuluq, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar var. Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərin turizminin inkişaf strategiyası və konsepsiyası hazırlanıb. Kəlbəcərdə ənənəvi turizmlə yanaşı, qış və sağlamlıq turizim yerləri yaradılmışdır. Mədəniyyətin beşiyi sayılan Şuşada, əsasən, festivalların keçirilməsi, Ağdamda "qaranlıq" işğalın nəticələrinin göstərilməsi və işgüzar turizm nəzərdə tutulub. Xocavənd də xüsusi turizm potensialına malikdir. Yedək və Hadrutun şərab marşrutuna daxil edilməsi daha məqsədəuyğundur. Məşhur Azıx mağarası, Tağlar mağarası da bu ərazidə yerləşir. Suqovuşanla bağlı dövlətimizin mühüm müəyyən planları var.

Azərbaycanın bu qədim bölgəsinin özünəməxsus flora və faunası, mətbəxi, tarixi mədəniyyət və dini abidələri, qədim qalaları, körpüləri, meşələri, bulaqları və s. görməli yerləri ilə turistləri cəlb edəcək. Təbii sərvətlərlə zəngin olan Qarabağda müxtəlif növ ekstremal turizm, aqroturizm, yaşıl turizm də təşkil edilə bilər. Bütün bunlar Turizmin inkişafı üçün geniş perspektivlər yaradır. Kəlbəcər qış turizmi üçün ideal yerdir. İşğaldan azad edilmiş

ərazilərimizdə qarşılıqlı fəaliyyət formasında turizm infrastrukturunun yaradılması vacibdir. Şuşa Azərbaycan turizminin simvol şəhərlərindən biri olacaq. Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın tarixi abidələri və unikal memarlığı yeni turizm marşrutları yaradacaq. Sahəsi 21 min hektardan çox olan Laçın qoruğu kifayət qədər geniş rekreasiya imkanlarına malik, zəngin flora və faunaya malik Laçının turizm imkanlarını genişləndirəcəkdir. Gələcəkdə Qafqazda ən böyük turizm mərkəzinin yaradılması mümkündür.

Eyni zamanda, Qarabağ tarixini saxtalaşdıran erməni yalanlarının ifşasında “Qafqaz Albaniyasının turizm marşrutu” mühüm rol oynayacaq. Marşrut Qafqaz Albaniyasını tədqiq edən alimlərin məsləhət və tövsiyələri əsasında hazırlanır. Alban mədəniyyət marşrutu Azərbaycanın 3 əsas dəhlizini - Bakı-Şəki-Zaqatala, Gəncə-Qazax və Qarabağı əhatə edir. Alban mədəniyyətinin izləri daha çox Qarabağda və Şərqi Zəngəzurdadır. Qafqaz Albaniyası zəngin irsə malikdir. Buraya məbədlər, kilsələr, eləcə də adət-ənənələr və s. daxildir. Qeyd edək ki, qədim Alban mədəniyyətinin izi ilə yaradılacaq turizm marşrutu ölkəmizin, eləcə də Qarabağın zəngin və tarixi turizm potensialının təbliği baxımından xüsusi əhəmiyyət kəsb edəcək.

Qarabağın mövcud turizm potensialının təbliği üçün lazımi turizm infrastrukturunun yaradılması istiqamətində gərgin iş aparılır. Xüsusi vurğulamaq lazımdır ki, turizmin iqtisadi tərəfi ilə yanaşı, tanıtım tərəfi də var. Turistlər Qarabağımızda dincələcək, təbiətin gözəlliyindən, mədəni-tarixi abidələrdən, yaradılmış əlverişli mühitdən həzz alacaq, həmçinin Ağdam, Cəbrayıl kimi ərazilərimizdə işğalın nəticələrini göstərmək üçün eksponat kimi nümayiş etdiriləcək bəzi tikililərlə tanış olacaqlar.

Ümumiyyətlə, Qarabağda və Şərqi Zəngəzurda turizmin inkişafı ilə bağlı geniş planlar var. Yaxın 4 ildə yerli və xarici turistləri nəzərə alsaq, Qarabağın 1 milyon insan qəbul edəcəyi gözlənilir.

**Açar sözlər:** Zəngin təbiət, turizm infrastrukturu, yaşıl turizm.

## Ədəbiyyat

1. https://azerbaijan.az/en/related-information/223
2. https://bakivaxti.az/az/posts/detail/azerbaycanin-yasil-qizili-qarabag-turizm-merkezine-cevrilecek-1634671386
3. https://culture.gov.az/en/common-news/study-tour-to-latvia-on-topic-of-the-rural-tourism

# AZƏRBAYCANDA TURİZMİN DAYANIQLI İNKİŞAFI MƏSƏLƏLƏRİ

**Ləman Heydərova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
Leman.heyderov.99@mail.ru

"Turizm sektorunun inkişafı prioritetlər sırasındadır"– deyən ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən Ümummilli Liderimizin siyasi xətti uğurla davam etdirilir, turizmin inkişafı vacib istiqamətlərdən biri kimi daim diqqətdə saxlanılır. Son illər ölkəmizin turizm potensialının beynəlxalq aləmdə tanıdılması, habelə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilir. Ölkə başçısının imzaladığı sərəncamlar, qəbul edilən Dövlət proqramlarının uğurlu icrası Azərbaycanı dünyada turizm ölkəsinə çevirmişdir. Artıq Azərbaycanın bütün bölgələrində yeni turizm obyektləri, yay-qış turizm kompleksləri, mehmanxanalar inşa olunmuş, mədəni-tarixi qoruqlar yaradılmışdır.

Bütün dünyada olduğu kimi, ölkəmizdə də turizm iqtisadiyyatın əsas inkişaf və gəlir istiqamətlərindən biri sayılır. Bu baxımdan, son illərdə Azərbaycanda da qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası istiqamətində turizm sahəsinə xüsusi diqqət ayrılıb. Turizm sektorunun dayanıqlı inkişafını təmin etmək və turizmin ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsinə nail olmaq məqsədilə bu sahəyə davamlı diqqət və qayğı göstərilir. Bu siyasəti həyata keçirən Dövlət Turizm Agentliyinin (DTA), Azərbaycan Turizm Bürosunun (ATB) və turizm sahəsində fəaliyyət göstərən digər əlaqədar qurumların reallaşdırdığı tədbirlər nəticəsində turizm ölkə iqtisadiyyatının ən vacib sahələrindən biri kimi artım tempini davam etdirir, həmçinin regional turizmin inkişafı istiqamətində mühüm işlər görülür.

Azərbaycan Respublikasında turizmin dayanıqlı inkişafını təmin etmək məqsədilə turizm sahəsində dövlət idarəetməsinin əsaslarını, turizm sənayesinin tənzimlənmə mexanizmlərini, turizm ehtiyatlarından səmərəli istifadə qaydalarını və turizm sahəsinin maliyyələşdirilmə mənbələrini müəyyən edən "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə ölkə Prezidenti tərəfindən 2022-ci il 18 fevral tarixdə Fərman imzalanıb. Turizm sahəsində normativ-hüquqi bazanın və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, turizm və rekreasiya zonalarında müvafiq infrastrukturun yaradılması, ölkənin turizm potensialından istifadə imkanlarının genişləndirilməsi, ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, yeni turizm marşrutlarının yaradılması, turizm xidmətlərinin keyfiyyətinin

artırılması və bu kimi yeniliklərin Azərbaycan turizm bazarında tətbiqi bu sahənin inkişafı istiqamətində atılmış uğurlu addımlardır. Mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi, turizm sahəsi üçün kadr hazırlığı və ixtisasartırma sisteminin təkmilləşdirilməsi, xarici dövlətlərdə məqsədli təhsil üzrə layihələrin həyata keçirilməsi, Azərbaycanın milli tarixi, mədəni və mənəvi irsinin, milli adət-ənənələrin dünyada təbliği, ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən materialların nəşr etdirilməsi və yayılması, müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi turizmi inkişaf edən bir sahəyə çevirmişdir [1].

Azərbaycan Respublikası regionlarının, o cümlədən Naxçıvan Muxtar Respublikasının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu strategiyanın həyata keçirilməsində, o cümlədən bölgələrin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramları xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda bütün sahələrin inkişafı ilə yanaşı, turizmin inkişafı da prioritet sahələrdən biri kimi qeyd olunmuşdur. Muxtar respublikanın duz yataqları, mineral suları, tarixi və dini abidələrindən, ekoturizm üçün təbii əlverişli şəraitindən yararlanmaqla, regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi məqsədilə bu sahənin inkişafına yönəlmiş tədbirlərin görülməsi nəzərdə tutulur. Sağlamlıq turizminin imkanlarının genişləndirilməsi, qış və kənd turizminin, ekoturizmin inkişaf etdirilməsi, turizm infrastrukturunun yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilməsi də Dövlət Proqramında qeyd olunan əsas tədbirlərdəndir. Naxçıvan Muxtar Respublikasının turizm cəlbediciliyinin artırılması və tarixi memarlıq abidələrinin beynəlxalq səviyyədə qorunması məqsədilə həmin abidələrin UNESCO-nun maddi-mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün işlərin aparılması, eyni zamanda regionun turizm potensialının gücləndirilməsinə əhəmiyyətli təsir göstərəcək turizm və rekreasiya zonalarının yaradılması, turizm potensialının təbliği ilə bağlı layihələrin həyata keçirilməsi və turizm atlasının hazırlanması istiqamətində tapşırıqlar ön plana çəkilmişdir.

Məlumdur ki, ötən il keçirilən Azərbaycan Turizm Sammitində xarici və daxili turizm üzrə növbəti 4 ilə hesablanmış hədəflər açıqlanıb. Növbəti 4 il üçün turizmin hərtərəfli inkişafına yönəlmiş 10 əsas təməl istiqamət üzrə hədəflər müəyyənləşdirilib. Bu hədəflər həm də “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial iqtisadi inkişaf Strategiyası”nda nəzərdə tutulan məqsəd və tapşırıqların icrasına istiqamətlənib. Əsas məqsəd Azərbaycanı dayanıqlı, əlçatan və keyfiyyətli turizm destinasiyasına çevirməkdir. Əsas hədəflərdən biri

2026-cı ildə Azərbaycana səfər edən əcnəbilərin sayını 4 milyon nəfərə, ölkə daxilində turizm səfəri edən yerli vətəndaşların sayını isə 6 milyon nəfərə çatdırmaqdır. 2026-cı ildə turizm xərcləmələri 2021-ci illə müqayisədə 4 dəfə artaraq 11,2 milyard manata çatacaq, bunun da 49 faizi, yaxud 5,5 milyard manatı əcnəbi turistlərin payına düşəcək. Ümumilikdə isə 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda ÜDM istehsalı 2019-cu illə müqayisədə 1,5 dəfə artacaq, orta hesabla hər il turizm sektorunda 20 faiz artım qeydə alınacaqdır. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”na əsasən “Turizm sektorunun davamlı inkişafını təmin etmək üçün strateji, institusional və maliyyələşmə mexanizmlərinin gücləndirilməsi” fəaliyyəti üzrə ən azı 2 regional turizm şurasının yaradılması nəzərdə tutulub. Regional turizm şuralarının yaradılmasında əsas məqsəd turizm sektoru iştirakçılarının fəaliyyətinin mütəmadi dialoq formasında əlaqələndirilməsi mexanizminin qurulması, regional səviyyədə turizmin inkişafı ilə əlaqədar bütün tərəfləri bir araya gətirmək, əlaqələndirmək və mövcud resursları regional səviyyədə turizm inkişafına səfərbər etməkdir [4].

**Açar sözlər:** Turizmin inkişafı, sərəncamlar, Azərbaycanda turizm, turizmin aktual məsələləri.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanda turizm. Statistik Məcmuə. Bakı, 2020, 96 s.
3. Möhbalıyev F.F. Azərbaycanda turizm bazarı və aqroturizmin inkişaf parspektivləri, Əmək və Sosial Münasibətlər jurnalı. 2020, No.1, s.72-79
4. https://sesqazeti.az/news/politics/1100398.html

# QARABAĞ REGİONUNDA TURİZMİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİNİN İSTİQAMƏTLƏRİ

**Firdovsi Hüseynov**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
firdovsihuseynov02@gmail.com

Qarabağ bölgəsi və ətraf rayonların turizm imkanlarından tam istifadə etmək yalnız üç əsas amil təmin edildikdən sonra mümkün olacaq: təhlükəsizlik, əhalinin qayıtması və

infrastrukturun yaradılması [1]. Bütün bu problemlər həll edildikdən sonra Qarabağ bölgəsinin yaxın gələcəkdə Azərbaycanın turizm sektorunda lider olacağı şübhəsizdir. Əminliklə demək olar ki, Qarabağ regionu regional, sonra isə qlobal əhəmiyyətli ekoturizm mərkəzinə çevriləcək.

Azad edilən torpaqlarda artıq infrastruktur işlərinə başlanılıb. Son vaxtlarda respublikamızın müvafiq qurumları ilə BƏƏ-dən olan şirkətlər arasında imzalanan müqavilələrin icrası ölkə üzrə bərpaolunan enerji mənbələrindən "yaşıl enerji" istehsalını əhəmiyyətli dərəcədə artırmağa imkan verəcək. 2026-cı ilə qədər xarici investorların (o cümlədən Türkiyə, BƏƏ, İtaliya, Böyük Britaniya və Rusiyadan) fəal cəlb edilməsi hesabına Qarabağdakı layihələrə ayrılan investisiyaların təxminən 10 milyard dollar (ÜDM-in 18%-i) səviyyəsində planlaşdırılır. Belə müqavilələrdən biri 2020-ci ilin yanvarında Nazirlər Kabinetində Energetika Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri arasında imzalanıb. Artıq bəhs olunan layihənin icrası qısa müddətdə və yüksək səviyyədə təmin olunub. Cari il oktyabrın 26-da Prezident İlham Əliyevin iştirakı ilə "Masdar" şirkətinin inşa etdiyi 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimi olub. Həmçinin bu şirkətlə yeni müqavilələr imzalanıb. Azərbaycanın işğaldan azad olunmuş əraziləri də bərpaolunan enerji mənbələri ilə zəngindir. "Masdar" və BƏƏ-nin digər şirkətləri işğaldan azad olunmuş ərazilərdə bu istiqamətə sərmayələr yönəldə bilərlər. "Bizim böyük planlarımız var və əminəm ki, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək", Gözəl turizm məkanları olan Şuşa, Laçın və Kəlbəcərdə dağ turizmi, ekoturizm, sağlamlıq və mədəni turizm potensialını dəyərləndirərkən Qarabağın iqtisadi dirçəlişinə töhfə vermək olar [2]. Eyni zamanda, işğaldan azad edilmiş torpaqlar Azərbaycanın iqtisadi imkanlarını gücləndirməyə və vətəndaşlarının rifahının yüksəlişini sürətləndirməyə imkan verəcək, çünki bu region təbii sərvətlərlə zəngindir. Prezident İlham Əliyev tərəfindən yaradılan "Qarabağ Dirçəliş Fondu" işğaldan azad edilmiş ərazilərə xarici və daxili investisiyaların cəlb edilməsi, iqtisadiyyatın yenidən qurulması və inkişafı üçün olduqca mühüm amildir.

Azərbaycan yeni nəqliyyat xətlərinin açılması, işğaldan azad edilmiş şəhərlərin bərpası və tarixi abidələrin bərpası ilə regionu iqtisadiyyat və turizm mərkəzinə çevirməyi qarşısına məqsəd qoyub. Bu gün milyonlarla insan meditasiya, epilyasiya, plastik cərrahiyyə, nəqliyyat və yaşayış kimi səyahət xidmətlərindən istifadə edir. Hər il sağlamlıq turizminə iştirak və maraq durmadan artır. O qədər ki, insanlar sağlamlıq imkanlarını və xərclərini təkcə öz ölkələrində deyil, həm də digər ölkələrdəki ən yaxşı müalicə və qiymət variantlarını müqayisə edərək sağlamlıq problemlərini həll etmək üçün hərəkətə keçirlər. Unikal tarixi-mədəni

məkanları ilə məşhur olan Azərbaycan bu proseslərdən heç də geri qalmır. Azərbaycanda bir çox alternativ turizm növləri olsa da, sağlamlıq turizminin bir alt qolu olan termal turizmin yüksək potensialı hələ də dəyərləndirilməyib.

Sağlamlıq turizmi sahəsində Qarabağ bölgəsini inkişaf etdirmək və bu baxımdan nümunə göstərmək olar. Uzun müddət Ermənistanın işğalı altında olan rayonda turizm obyektləri dağıdılıb. Nəticə etibarı ilə yüksək potensiala malik bu rayon yaxın illərdə bir çox xəstəliklərin müalicəsində istifadə oluna biləcək mühüm mərkəzə çevriləcək [3]. Bölgədə sağlamlıq turizminin inkişafı ilə Rusiya, Gürcüstan, Qazaxıstan, Türkmənistan və Özbəkistan kimi keçmiş sovet ölkələri ilə yanaşı, Türkiyə və Avropa ölkələrindən də Qarabağ bölgəsinə turistik səfərlər təşkil olunacaq. Beləliklə, regional və milli iqtisadiyyatda alternativ gəlir mənbəyi yaradıla bilər. Bundan əlavə, istehlakçıların sağlamlıq turizmi xidmətlərindən faydalanmasının səbəbləri müəyyən edilərək turizm investisiyaları daha faydalı və qazanclı hala gətirilə bilər. Bu, Azərbaycanda iqtisadiyyatın daha da inkişafına töhfə verə bilər. Son illər Azərbaycanda turizm sektorunun inkişafı üçün bir çox beynəlxalq təşkilatlar, tədbirlər keçirilir. Azərbaycan yaxın illərdə turizmlə zəngin olan bu bölgədə çoxlu müasir obyektlər tikməyi planlaşdırır.  Bunun nəticəsidir ki, Azərbaycanda termal turizmlə zəngin ərazilər var [5]. Xüsusilə Şuşa,  Kəlbəcər və Laçın rayonları bu mineral su ehtiyatları ilə daha zəngindir. Qarabağın bu bölgələrindəki termal bulaqlardakı bu mineral sular yaxın illərdə daha çox turistin gəlməsi ilə sağlamlıq turizmində istifadə olunacaq. Mineral suların müalicəvi xüsusiyyətləri insanları yaxşılaşdırır.  2040-cı ilin sonuna qədər bu problemi tamamilə bitirib, məcburi köçkünləri öz doğma yurdlarına qaytarmaq, dağılmış iqtisadiyyatı bərpa etməklə bağlı Azərbaycanın qarşısında ciddi hədəflər var. Hesab edirəm ki, 3 milyard manat bu maliyyə təminatının ilkin rolunu oynaya bilər. Çünki bu ərazilərə xərclənəcək vəsaitlər sözlə ifadə edilə bilməyəcək qədər ciddi rəqəmlərdir Qarşıdakı illərdə Azərbaycanın Qarabağ bölgəsində tikiləcək sağlamlıq turizmi obyektləri nəticəsində termal turizmdə yerli və xarici turistlərin iştirak faizini artırmaq və sağlamlıq turizmini inkişaf etdirmək üçün əsas təkliflər bunlardır [4]:

- Qarabağ bölgələrində istirahət kompleksləri yenilənməlidir,
- Bölgələrdə və rayonlarda yerli turizm mərkəzləri yaradılmalıdır,
- Termal turizm müəssisələri yenidən qurulmalı və xidmət keyfiyyəti artırılmalıdır, İstilik qurğularında xidmət, təhlükəsizlik, gigiyena və infrastruktur baxımından keyfiyyət standartları müəyyən edilməlidir.
- İnkişaf etmiş ölkələrin termal turizmdəki müraciətləri araşdırılmalı və Qarabağda uğurlu tətbiqlər edilməlidir,

- Termal turizm müəssisələrində təlim keçmiş kadrların işə götürülməsi üçün araşdırmalar aparılmalıdır,
- Azərbaycanın Qarabağ bölgəsinin turizm brendinin təbliği,
- Azərbaycan turizmin inkişafı üçün əlverişli şəraitə malik ölkə kimi təbliğ edilməlidir.

Azad edilmiş ərazilərin təbii potensialı çox böyükdür. Bəzi hesablamalara görə, əvvəllər Ermənistan tərəfindən işğal olunmuş torpaqlarda təbii sərvətlərin istismarı Azərbaycana ÜDM-in 30%-dən çoxunu çıxarmağa imkan verəcək. İndi bu ehtiyatlar Azərbaycan iqtisadiyyatına böyük təkan verəcək, həm də yerli sakinlərin (keçmiş məcburi köçkünlərin) vətənlərinə tezliklə qayıtmasına səbəb olacaqdır.

**Açar sözlər:** Qarabağ, turizm, iqtisadiyyat, inkişaf, sağlamlıq turizmi, termal turizm.

## Ədəbiyyat

1. Bayramlı G. Azərbaycanda turizmin davamlı inkişafı: Mövcud vəziyyət, problemlər və həlli, 2019, s.332-339.
2. Həşimli A. Azərbaycanın Turizm Sektoru, İmkanlar və Maneələr, 2019, 3.
3. Kazımov M. Turizm sektorunun region iqtisadiyyatına təsiri. Bakı Dövlət Universitetinin nəşrləri, 2015, Bakı.
4. Leyla Z. Əliyeva, Şəhla M. Rzayeva. Azərbaycan iqtisadiyyatında turizmin inkişafının əsas istiqamətləri. Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, 18-19 iyun 2020-ci il.
5. Rövşən İbrahimov, Azərbaycanın azad edilmiş ərazilərinin iqtisadi potensialı: Qısa icmal, Hankuk Xarici Dillər Universiteti, fevral 2021.

# QARABAĞ YAŞIL TURİZM DESTİNASİYASIDIR

**İbrahim Hüseynzadə**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
ibrahim.huseynli333@gmail.com

Azərbaycanda turizmi inkişaf etdirmək və təbiəti qorumaq məqsədilə "yaşıl turizm" potensialı var. "Yaşıl turizm" insanların təbiətlə daha yaxından tanış olmalarına və təbiətin gözəlliklətindən və möhtəşəm, füsunkar mənzərəsini təbii yaşamalarına imkan verən səyahətlərdir. Təmiz hava, gözəl mənzərələr və ekoloji cəhətdən sağlam fəaliyyətlər bu turizm növünün əsas xüsusiyyətləridir [2]. Böyük sənaye şəhərlərindən, xaricdən gələn turistlərdə adi

kənd evində bir müddət yaşamağ, istirahət etmək xəyalı olur. Buna "kənd turizmi" də deyilir və adından da göründüyü kimi yerləşmə obyekti kənd evidir. Kənd evi adətən bir ailəyə məxsus olur, qısa müddətlik bura qonaq gəlmiş turistə gecələmə, qidalanma, lazım gəldikdə əyləncə, ekskursiya və digər xidmətlərlə təmin edən kiçik turizm destinasiyasıdır.

Aparılan tədbirlər çərçivəsində kənd turizminin yaradılması, inkişafı yönündə siyasət yürüdülməsi diqqət mərkəzində saxlanılır. Artıq insanlar şəhərin sıxlığından, səs-küyündən "qaçıb" kəndlərə, ucqar yaşayış yerlərinə üz tuturlar. Respublikamızın ərazisi bu baxımdan böyük potensiala malikdir.

Qarabağ Azərbaycanın tarixən ən qədim bölgələrindən biridir. 1968-ci ildə Qarabağ ərazisində yerləşən Azıx mağarasında qədim insanın qalıqları tapılmışdır. Güman ki, bu ərazidə insanlar hələ 250-300 min il əvvəl yaşamışlar. Bu qədim torpaqların zəngin təbiəti və təbii sərvətləri həmişə  diqqət mərkəzində olmuşdu. Təəssüf ki, 30 ilə yaxın işğal nəticəsində bu ərazilərdə bütün sərvətlərimiz istismar olunub, talanıb. Düşmən hər şeyi özününküləşdirərək iyrənc əməllərindən geri qalmamışdır. Burada olan mədəniyyət ocaqları, muzeylər, tarixi abidələr də məhv edilmiş, dağıdılmış və qədim tarixə malik olan qiymətli  əşyalar ölkəmizdən çıxarılmışdır. İşğalçı rejim İkinci Qarabağ müharibəsinin son günlərinədək Qarabağın müxtəlif bölgələrində qanunsuz arxeoloji qazıntılar aparmış və tapılmış artefaktlar Ermənistana daşınmışdır. Tarixi-mədəni abidələrimiz talan edilmiş, bütün infrastruktur məhv edilmiş, qədim memarlıq abidəsi sayılan məscid və onun minarələri vəhşicəsinə uçurulmuş, ziyarətgahlar darmadağın edilmişdir. Bütün bu dağıntılara, maddi və mənəvi ziyana rəğmən dövlətimiz bir tərəfdən də barbarlığa məruz qalan dini, tarixi, mədəni abidələrimizin bərpası ilə məşğuldur [3]. Qarabağın mədəniyyət beşiyi hesab edilən Şuşada başlayan mədəni quruculuq işləri digər bölgələrimizdə də davam etdiriləcək. Qısa bir müddət ərzində Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu, Üzeyir Hacıbəylinin dağıdılmış evinin bərpasına başlanıldı, Bülbülün ev muzeyinin açılışı baş tutdu, Natəvan bulağı bərpa edildi. Prezident İlham Əliyevin göstərişi ilə ermənilər tərəfindən güllələbaran edilmiş dahi şəxsiyyətlərimizin - Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri gətirildi və mərkəzi meydanda qoyuldu. Üç məsciddə təmir-bərpa işləri başlandı, Vaqif Poeziya günləri və "Xarıbülbül" festivalı da bərpa olundu. Bütün bu mədəni fəaliyyətin bərpasında Heydər Əliyev Fondunun rolu danılmazdır. Qısa bir müddət ərzində Şuşada "Qarabağ" və “Xarıbülbül” otelləri istifadəyə verildi. Qarabağda 3 hava limanının tikilməsi də təsadüfi deyildir. Füzuli Hava Limanı artıq fəaliyyətə başlamışdır, Zəngilan və Laçın Hava Limanlarının da yaxın vaxtlarda fəaliyyətə başlaması istisna olunmur. Bu isə Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəlmək istəyən, Kəlbəcərin füsunkar təbiəti, ekoturizm

imkanları, İstisu kurortuna üz tutan istər yerli, istərsə də xarici turistlərin bu hava limanlarından istifadə etməklə səyahətlərini daha rahat və asan gerçəkləşdirmələrinə imkan yaradacaqdır.

Qarabağın turizm potensialı olduqca zəngindir, burada turizmin çox növləri - ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar vardır [1]. Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası və konsepsiyası hazırlanmışdır. Kəlbəcərdə ənənəvi turizmdən əlavə, qış və sağlamlıq turizminin inkişafı mümkündür. Mədəniyyət beşiyi hesab olunan Şuşada əsasən festivalların keçirilməsi, Ağdamda "dark tourism" - yəni işğalın nəticələrinin var olan şəkildə göstərilməsi və işgüzar turizm nəzərdə tutulub [4]. Xocavənd rayonu da xüsusi turizm potensialına malikdir. Tuğ və Hadrutun şərab marşrutuna salınması daha uyğundur. Məşhur Azıx mağarası, Tağlar mağarası da bu ərazidə yerləşir. Suqovuşanla bağlı da müəyyən planlar mövcuddur.

Azərbaycanın bu qədim tarixə malik olan bölgəsi özünün flora və faunası, mətbəxi, tarixi mədəni-dini abidələri, qədim qalaları, körpüləri, meşələri, bulaqları və s. görməli məkanları ilə turistləri cəlb edəcək. Təbii ehtiyatlarla zəngin olan Qarabağda həm də müxtəlif növ ekstremal turizm, aqroturizm, yaşıl turizm təşkil etmək olar. Bütün bunlar turizmin inkişafı üçün geniş perspektivlər yaradır. Kəlbəcər rayonu qış turizmi üçün ideal məkandır. İşğaldan azad olunmuş ərazilərimizdə turizm infrastrukturunun qarşılıqlı əlaqə şəklində qurulması vacibdir. Şuşa Azərbaycan turizminin simvol şəhərlərindən biri olacaq. Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verəcək.

Kifayət qədər geniş rekreasiya imkanlarına malik olan Laçındakı İlıqsu müalicəvi əhəmiyyətli mineral bulağı, zəngin flora və faunaya sahib, sahəsi 21 min hektardan çox olan Laçın yasaqlığı bu ərazilərin turizm imkanlarını genişləndirəcək. Hələ işğaldan əvvəl Kəlbəcərin İstisu qəsəbəsində Ümumittifaq əhəmiyyətli 2 böyük sanatoriya fəaliyyət göstərirdi. Hər il orada 50 min nəfər müalicə olunur və istirahət edirdi. Buradakı “İstisu” mineral suları ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkün idi. Hətta orada kurort və mineral sudoldurma zavodu da tikilmişdi. Mütəxəssislərin fikrincə, Kəlbəcərin relyefi dünyanın ən heyrətamiz kanatlarının inşasına, ən maraqlı turizm xidmətlərinin qurulmasına imkan verir. Burada gələcəkdə Qafqazın ən böyük turizm mərkəzini yaratmaq mümkündür.

Eyni zamanda “Qafqaz Albaniyası turizm marşrutu” da Qarabağın tarixini saxtalaşdıran erməni yalanlarının ifşası baxımından mühüm rol oynayacaq. Marşrut Qafqaz Albaniyasını araşdıran alimlərin məsləhət və tövsiyələri əsasında hazırlanır. Alban mədəniyyəti marşrutu Azərbaycanın 3 əsas dəhlizini - Bakı-Şəki-Zaqatala, Gəncə-Qazax və Qarabağı əhatə edir.

Alban mədəniyyətinin izləri Qarabağda və Şərqi Zəngəzurda daha çoxdur. Burada Qafqaz Albaniyası ilə bağlı zəngin irs var. Bura məbədlər, kilsələr, həmçinin adət-ənənələr və s. daxildir. Qeyd edək ki, qədim Alban mədəniyyətinin izi ilə yaranacaq turizm marşrutu ölkəmizin, həmçinin Qarabağın zəngin və tarixi turizm potensialının tanıdılması istiqamətində xüsusi əhəmiyyət kəsb edəcək.

**Açar sözlər:** Qarabağ turizm potensialı, yaşıl turizm, tarixi-mədəni abidələr, qara turizm.

**Ədəbiyyat**

1. https://azerbaijan.az/related-information/223
2. https://mod.gov.az/az/qarabagin-tarixi-075/
3. http://anl.az/down/meqale/yeni_az/2011/fevral/159583.htm

## AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFININ AKTUAL MƏSƏLƏLƏRİ

**Əhməd Kərimov**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
ehmed070203@gmail.com

Hal-hazırda dünya ölkələri arasında iqtisadi əlaqələrin sürətli şəkildə inkişaf etdiyi bir dövrdə beynəlxalq turizm xarici iqtisadi fəaliyyətin ən yüksək səviyyədə inkişaf edən sahələrindən birinə çevrilib. Turizm xidmət sferasının xüsusi bir sahəsi olmaqla yanaşı, insanların beynəlxalq hərəkəti və ya səyahəti ilə bağlıdır. Bu sahənin inkişafı XX əsrin ikinci yarısından başlayaraq geniş vüsət almışdır.

Turizmin sosial-iqtisadi mahiyyəti onun ölkə iqtisadi potensialının formalaşması və dinamikasında rolu, xüsusi resursları və digər iqtisadi və əhali potensialı ilə izah olunur. İqtisadi ədəbiyyatlarda turizmə fəaliyyət növü, iqtisadi sahə, sahələrarası kompleks və ya bazar, ərazi potensialı və həmçinin sosial – iqtisadi inkişaf amili kimi baxılma istiqamətləri mövcuddur.

Müstəqilliyini bərpa etdikdən sonra yeni ictimai-iqtisadi inkişaf yoluna qədəm qoyan və açıq bazar iqtisadiyyatı sisteminin tələbləri əsasında özünü inkişaf etdirən Azərbaycan beynəlxalq aləmə inteqrasiya prosesləri çərçivəsində dünya dövlətləri ilə iqtisadi əlaqələrini genişləndirib. Azərbaycanda bu əlaqələrin bir qolu olan beynəlxalq turizm münasibətlərinin inkişaf etdirilməsi istiqamətində də təqdirəlayiq işlər görülüb.

Respublikamızda turizmin inkişafına hər zaman xüsusi diqqət yetirilmişdir. Azərbaycan Respublikasında 2002-2005-ci illər və 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramları qəbul edilmiş və bu proqramların qarşısında duran vəzifələrin yerinə yetirilməsi nəticəsində, son illərdə ölkə iqtisadiyyatında turizm sektorunun payı əsaslı dərəcədə artmışdır. Ölkəmizdə bir neçə turizm müəssisələri, otellər və mehmanxanalar inşa edilərək istifadəyə verilmişdir.

Qeyd etmək yerinə düşər ki, ölkəmiz çox nadir təbii, mədəni, milli və etnoqrafik obyektlər kompleksinə malikdir. Əlverişli coğrafi mövqeyi, doqquz iqlim qurşağı, flora və faunasının müxtəlifliyi və zənginliyi, dəniz sahilində yerləşməsi, mədəni-tarixi irsi, ləziz mətbəxi, yüksək qonaqpərvərlik ənənələri Azərbaycanda turizmin inkişaf etdirilməsi üçün böyük perspektivlər açır. Ölkəmizdə turizm sahəsində mövcud olan geniş imkanlar Azərbaycanın bir sıra beynəlxalq təşkilatlarla turizmin inkişafı sahəsində əməkdaşlıq etməsinə imkan yaradır. Bu beynəlxalq qurumlar arasında Dünya Turizm Təşkilatının, İslam Konfransı Təşkilatının, GUAM-ın, Müstəqil Dövlətlər Birliyinin və digər təşkilatların adlarını çəkmək mümkündür.

Həmçinin, Azərbaycan turizm sahəsində zəngin təcrübəyə malik olan Türkiyə, Polşa, İtaliya, Gürcüstan, Ukrayna, Rumıniya, Belarus, Yunanıstan, Moldova, Qətər və digər ölkələrlə bu sahədə əməkdaşlığa aid hökumətlərarası sazişlər imzalayıb.

Bunu da qeyd etmək yerinə düşər ki, Azərbaycanda turizmin müxtəlif növlərinin inkişaf etdirilməsinə, turizm sahəsində çalışan kadrların hazırlanmasına yeni təkan verəcək "Azərbaycan Respublikasında 2007-2016-cı illər üçün turizmin inkişafına dair Dövlət Proqramı" qəbul edilib. Dövlət Proqramının əsas məqsədi əsasən "Turizm haqqında" Qanunda, habelə digər müvafiq normativ-hüquqi aktlarda nəzərdə tutulmuş müddəalara əsas olaraq turizm sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkənin sosial-iqtisadi inkişafını təmin edən vasitələrdən biri kimi turizm sərvətlərindən səmərəli şəkildə istifadə olunmasını və turizmin ölkə iqtisadiyyatının əsas istiqamətlərindən biri kimi tanınmasını və bu sahənin səmərəliliyinin artırılmasını təmin etməkdir.

Ölkəmizdə turizmin inkişafı sahəsində qarşıya qoyulan əsas məqsədlər sırasında turizm ehtiyatlarının öyrənilməsi və onların genişləndirilməsi, turistlərin istirahəti, onların tələbatının ödənilməsi üçün zəruri olan xidmətlərin, ekskursiya və digər mədəni tədbirlərin çeşidinin genişləndirilməsi və müasir standartlara uyğunlaşdırılması, sanatoriya-kurort sərvətlərinin öyrənilməsi və davamlı istismarı, mehmanxanaların və digər turizm obyektlərinin tikintisinin genişləndirilməsi, turizm marşrutlarının artırılması, turizm növlərinin inkişaf etdirilməsi, prioritet turizm növü kimi mədəni turizm, ekoloji turizm və kənd yaşıl turizmi, rekreasiya

turizmi sahəsində dövlət tənzimlənməsinin gücləndirilməsi, milli adət-ənənələrimizi, Azərbaycan xalqının tarixi-mədəni irsini, ayrı-ayrı regionların və şəhərlərin tarixini nümayiş etdirən materialların nəşr etdirilməsi və yayılması, milli sənətkarlıq və suvenir məhsullarının istehsalının, o cümlədən, satışının genişləndirilməsi kimi istiqamətləri qeyd etmək daha doğru olar.

Eyni zamanda bunu da qeyd edə bilərik ki, Azərbaycanı turizmin inkişafı üçün əlverişli şəraiti olan ölkə kimi dünyada tanıtmaq məqsədi ilə yeni Azərbaycan turizm əmtəə nişanının və turizm sahəsində olan Azərbaycan brendlərinin reklam-təbliğat və məlumat-sorğu fəaliyyətinin canlandırılması, beynəlxalq proqramlar çərçivəsində regional mədəni turizm marşrutlarının yaradılması və inkişaf etdirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi əsas priorit istiqamətlərdəndir.

Turizm sahəsinin inkişaf etdirilməsində özəl sektorda da bir sıra dövlət islahatları həyata keçirilmişdir. Respublikamızda ölkə prezidentinin azad sahibkarlığa olan dəstəyi və özəl turizm müəssisələrinin inkişafına şərait yaratması ilə ölkənin iqtisadi inkişafında azad sahibkarların rolu günü – gündən artmaqdadır.

Müşahidələr göstərir ki, Azərbaycan da daxil olmaqla dünyanın əksər ölkələrində pandemiyanın turizm sektoruna vurduğu ziyan tam olaraq aradan qaldırılmayıb və bir çox problemlər hələ də qalır. Bəzi ekspertlərin fikrincə, bu il həm ölkədə, həm də dünyada turizm bazarı pandemiyadan əvvəlki dövrlə müqayisədə 80% bərpa olunacaq.

Rəsmi statistikaya əsasən, 2023 ildə ərzində ölkəmizə 2.1 mln xarici vətəndaş səyahət edib və bu rəqəm 2021-ci il ilə müqayisəd 3 dəfə artım deməkdir, ancaq pandemiyadan əvvəlki 2019-cu illə müqayisədə 30% azdır azdır, belə ki, həmin il Azərbaycana 3 milyon 170 min nəfər turist gəlib.

Turizm sektoru üzrə artım proqnozları nə qədər real olacaq, bunu zaman göstərəcək. Lakin həm qiymətlərin baha olması, həm xidmət keyfiyyətinin dünya standartlarından aşağı olması, eyni zamanda uçuş biletlərinin əl yandıran qiymətləri turistləri narazı salan məqam kimi qiymətləndirilə bilər [4].

**Açar sözlər:** Turizm, turizmə yanaşmalar, turizmin inkişafı, Azərbaycanda turizm, aktual məsələlər.

## Ədəbiyyat

1. Salıfov, T. Azərbaycanda turizmin sosial-mədəni istiqamətdə Araşdırılmasının yolları, Bakı: Bakı Qızlar Universiteti, Elmi Əsərlər, 2017, No.4, 336-342.

2. Salıfov, T. Azərbaycanda sosial amillərin turizmin inkişafında rolu. Bakı: AMEA Gənc tədqiqatçı elmi-praktik jurnalı, 2017, III Cild, No.2, 263-265.
3. https://modern.az/
4. https://www.stat.gov.az
5. https://azertag.az/xeber/heyder_eliyev_ve_azerbaycanda_turizm-2355398

# INTEGRATION OF SOCIAL MARKETING FRAMEWORKS AND PROGRAMMES FOR IMPROVEMENT OF GREEN TOURISM IN AZERBAIJAN

**Habib Mahmudov**
Azerbaijan Tourism and Management University, Baku, Azerbaijan
habib.mahmudov@atmu.edu.az

**Abstract**

Green tourism is gaining its prior popularity and reach with modern approaches and standards in travelling to green destinations. Nowadays the norms in such tourist visits have change drastically and show positive perspective into development of this particular profile of country's tourism capacity. Nevertheless, there are still gaps and possible fields to work on in Azerbaijan and its green tourism industry's capabilities.

**Introduction**

Green tourism has been on the rise right after the pandemic and global stop of continuing flights to several green destinations. Now a new challenge is on horizon, how to keep the travellers entertained in those particular green destinations. One of the many ways is integration of social marketing frameworks and programmes to increase the motivation and sense of desire for a relaxing visit or stay at the specified green destinations. In this case, social marketing practitioners and tourism expert should collaborate for identification the ideal scenarios for certain segments and target groups that are willing to travel to the set green destination.

**Social Problem and Social Marketing Background**

The challenges and issues that existed at the start of the twenty-first century in many parts of the world's societies have continued and grown more intertwined as a result of globalisation and the massive urbanisation of densely populated areas. As a result, the concept of a social problem has shifted to focus more on finding solutions for current issues in a community or throughout society. A definition that focuses on potential social causes that a person or group

may encounter in a given culture has been recognised by Thompson, Hickey and Thompson: “A social problem is an issue within society that makes it difficult for people to achieve their full potential. Poverty, unemployment, unequal access to education, racial discrimination and many other issues have been called social problems” [5].

In the context of extensive field study and growing interest in the subject, Kotler and Zaltman's 1971 work contained the term's original definition, which read as follows: “Social marketing is the design, implementation and control of programs calculated to influence the acceptability of social ideas and involving considerations of product planning, pricing, communication, distribution and marketing research” [3, p.3-12]. The rapidly evolving global landscape and diverse societal contexts have presented novel obstacles for scholars and practitioners of social marketing. Frameworks and programmes for social marketing must now be more tailored to the traits of each target group or segment of the population, as well as more detail-oriented. In order to have a clear vision for the social marketing programme and to address the social problems that are currently facing the relevant demographic segment, the social marketing process must be carefully planned and carried out.

**Notion of Green Tourism**

The term of green tourism has been analysed by several researchers since its first entry. The concept of "green tourism" or any other term pertaining to environmental concerns, is primarily used to describe nature vacations to far-off places [6]. On the other side, claims about green tourism can be made to indicate that the tourism industry operating there does not negatively impact the environment [2]. Additionally, green tourism is widely characterized as tourism that operates in an environmentally sustainable manner [4]. Thus, protection of green areas and national parks is of high importance when dealing with green tourism activities.

**Tourism Statistics in Azerbaijan**

Data from the State Border Service indicates that in 2022, Azerbaijan received 1602,3 thousand foreign nationals and stateless individuals from 178 different countries, which is a 2,0 times increase from the previous year [1].

**Possible Green Trends for Azerbaijan**

Azerbaijan has many directions in developing massive trends for visiting tourist and domestic travellers as it has unique and stunning eco parks and eco system. Below is a representation of some possible green trends that can become extremely viral in Azerbaijan especially among domestic tourists:

**Table 1.** Green trends in Azerbaijan

| | |
|---|---|
| Green Accommodation | Energy-efficient procedures, a decrease in single-use plastics, the procurement of organic and locally grown food and the integration of renewable energy sources like solar or wind power are all being adopted by hotels, resorts and lodges. |
| Cultural Immersion and Community Tourism | Travellers can interact with residents, discover customs and make a direct contribution to community development projects through homestays, cultural exchanges and community-based tourism programmes. |
| Educational Eco-Tourism | Operators in the ecotourism industry provide immersive learning opportunities, workshops and guided tours to encourage travellers to take action and bring attention to urgent environmental issues. |
| Water Conservation and Responsible Aquatic Tourism | Tourists are looking for aquatic adventures that emphasise sustainable fishing methods, support marine conservation initiatives and prioritise responsible water use. |
| Green Transportation Options | Travellers are finding more and more options for sustainable transportation. This covers fuel-efficient and emission-free cruises, eco-friendly tour buses, electric car rentals and bike-sharing schemes. |
| Sustainable Events and Festivals | Event planners are taking steps to reduce trash, recycle, offset carbon emissions and source organic and locally grown food for guests. |

**Source:** Self elaboration

## Conclusion

Altogether, Azerbaijan has all the potential to become a leading green tourism destination not only regionally but global as well. To reach the desired level it is vital to arrange particular programmes leading to popularisation of the mentioned above green trends. Some of the initiatives in this direction can be social marketing frameworks and programmes tailored for each of the green tourism trends. Considering possible scale of the initiative such approaches can be done by public and private sectors.

**Keywords:** Sociology, social problem, social marketing, society, tourism, green tourism, green trends, behavioural change, social marketing, social marketing framework, social marketing programme.

## References

1. AzStat (2023, January 18). Current state of tourism, The State Statistical Committee of the Republic of Azerbaijan. The State Statistical Committee of the Republic of Azerbaijan. https://www.stat.gov.az/news/index.php?lang=en&id=5415

2. Font, X., Tribe, J. (2001). Promoting Green Tourism: The Future of Environmental Awards. International Journal of Tourism Research, 3, 9–21.
3. Kotler, P., Zaltman, G. (1971). Social Marketing: An approach to planned social change. Journal of Marketing, 35(3), 3–12. https://doi.org/10.2307/1249783
4. Megeirhi, H.A., Woosnam, K.M., Ribeiro, M.A., Ramkissoon, H., Denley, T.J. (2020). Employing a value-belief-norm framework to gauge Carthage residents' intentions to support sustainable cultural heritage tourism. Journal of Sustainable Tourism, 28(9), 1351–1370. https://doi.org/10.1080/09669582.2020.1738444
5. Thompson, W.E., Hickey, J.V., Thompson, M.L. (2016). Society in focus: An Introduction to Sociology. Rowman & Littlefield Publishers.
6. Wight, P. (1994). Environmentally responsible marketing of tourism. In Ecotourism: A Sustainable Option? Cater, E., Lowman, G. Wiley: Chichester, 39–53.

**Xülasə**

Yaşıl turizm prioritet populyarlıq qazanır və yaşıl istiqamətlərə səyahətdə müasir yanaşmalar və standartlara çatır. Hazırda bu cür turist səfərlərində normalar kəskin şəkildə dəyişir və ölkənin turizm potensialının bu xüsusi profilinin inkişafına müsbət perspektiv göstərir. Buna baxmayaraq, Azərbaycanda və onun yaşıl turizm sənayesinin imkanlarında hələ də boşluqlar və üzərində işləmək mümkün sahələr vardır.

# TURİZM MÜƏSSİSƏLƏRİNDƏ TİCARƏT NİŞANLARININ MÜHAFİZƏSİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

**Elmir Məmmədov**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan

mammadov@student.au.edu.az

Yeni turizm məhsulu işlənib hazırlandıqda, səyahət şirkəti adətən ona brend adı və turizm şirkətinin məhsullarını rəqiblərinin məhsullarından fərqləndirən simvol və ya dizayn verir.

Brend adlarının verilməsi üçün strateji mülahizələr bunlardır:

– Marketinq məqsədləri. Şirkətin adı şirkətin ümumi marketinq məqsədlərinə uyğun olmalıdır. Məsələn, gənclər bazarına çıxmaq niyyətində olan şirkət gənclər auditoriyasını cəlb edən brend adlar hazırlamalıdır.

– Turizm brendinin auditi. Müvəffəqiyyət əldə etmək üçün kritik amillər olan daxili və xarici qüvvələrin qiymətləndirilməsi (başqa bir ad unikal satış təklifidir).

– Turizm brendinin məqsədləri. Marketinq məqsədləri kimi, turizm brendi üçün ümumi niyyətləri müəyyən etmək lazımdır.

– Səyahət brendi strategiyasına alternativlər - səyahət brendinin məqsədinə çatmağın digər yolları və onun uğuruna təsir edən digər amillər brend adının seçilməsini şərtləndirir. Əksər ölkələrdə səyahət brendlərinin adları qeydiyyat yolu ilə qorunur, lakin səyahət markalarının bəzi mühafizəsi ötürmə cəhdi faktı ilə təmin edilir ki, məhsulun markalı məhsula satılmaması qeyri-qanuni hesab edilir. Məsələn, tanınmış səyahət markasının adına çox oxşar bir addan və ya hətta oxşar dizayndan istifadə etmək, məhsulu səyahət markası kimi təqdim etmək cəhdi kimi qiymətləndirilə bilər. Bu, cinayət deyil, mülki hüquq pozuntusudur, ona görə də işin davam edib-etməməsi səyahət markasının sahibinin ixtiyarındadır.

Səyahət markalarının düzgün xüsusiyyətləri:

– Alıcının diqqətini cəlb etmək;

– Savadlı olmaq onların əzbərlənməsinə kömək edir. Alliterasiya - kompozisiyaya başlayan inisiallar və ya samitlər uyğun gələn sözlərin seçilməsidir;

– Məhsulun xəritədə yerləşdirilməsi, istehlakçı qavrayışı ilə bağlı olmaq;

– Vizual obrazla əlaqəli olmaq;

– Turizm məhsulu haqqında məlumat daşımaq və ya turizm məhsulu haqqında məlumat vermək üçün yararlı olmaq;

– “ləqəblərin” yaradılmasını təşviq edin (məsələn, “Kanarya” Kanar adalarının “ləqəbidir”);

– Onların telefonla asanlıqla müəyyən edilməsi və ya kataloqda tapılması vacibdir.

**Əmtəə nişanı -** sahibkarın əmtəələrini və yaxud xidmətlərini başqa sahibkarın əmtəələrindən və ya xidmətlərindən fərqləndirən və qrafik təsvir olunan nişan və ya nişanların hər hansı bir kombinasiyasıdır.

Əmtəə nişanı kimi bu sadalanan nişanlar qeydiyyata alına bilər: sözlər, şəxsi adlar, hərflər, rəqəmlər, təsviri elementlər, əmtəələrin forması və ya onların qablaşdırılması, rənglərin və yuxarıda göstərilənlərin hər hansı kombinasiyası.

“Marka” və “loqo” kimi terminlər çox vaxt “ticarət nişanı” ilə əvəzedici mənada işlədilir. Bununla belə, "ticarət nişanı" həm də hər hansı cihaz, etiket, marka, ad, söz, imza, rəqəm, məktub, qablaşdırma, malların forması, qoxu, səs, rəng, qoxu, səs, hərəkəti əhatə edir. Əmtəə nişanının ixtisaslaşdırılmış növlərinə sertifikatlaşdırma nişanları, kollektiv ticarət nişanları və müdafiə əmtəə nişanları aiddir. Bir məhsul və ya xidməti təsvir etmək məşhur

olaraq istifadə olunan ticarət nişanı bəzi hallarda ümumiləşdirilmiş ticarət nişanı kimi tanınır. Əgər belə nişan həmin məhsul və ya xidmətlə sinonimləşərsə, o səviyyədə əmtəə nişanı sahibi öz mülkiyyət hüquqlarını reallaşdıra bilmirsə, marka ümumi olur.

**Əmtəə nişanı** hansısa bir istehsalçının (bu fiziki və ya hüquqi şəxs də ola bilər) istehsal etdiyi məhsulu başqa istehsalçının həmin məhsulundan fərqlənmə qabiliyyətinə malik olduğu nişandır. Buna görə də əmtəə nişanı ancaq istehlakçının tələb olunan məhsulu tanımağa və başqa istehsalçıların oxşar məhsulu ilə qarışdırmamağa imkan verdikdə qəbul edilir. Buna görə də əmtəə nişanının hüquqi mühafizəsinin lazımi şərti onun yeniliyidir. Amma yenililik tələbi nisbi oduğu üçün orijinallığı mütləq şərt deyil. Əmtəə nişanı istehsalçısının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə ərizəsi əsasında ona Şəhadətnamə verilir. Təqdim olunan əmtəə nişanını əks etdirən işarələrin ondan əvvəl bilinən əmtəə nişanına bənzər hallarında, bənzərlik səviyyəsinin yaxınlığı, dəqiq ifadə etsək, bənzərliyin qarışdırmaq kimi olması yolverilməzdir. Əmtəə nişanının qeydiyyata almaq üçün fərqlilik tələbi vacib şərtdir.

İxtira və sənaye nümunəsi müəlliflik hüququ obyektlərindən fərqlənərək, təkrar oluna biləndir və həmçinin iki ayrı şəxs vasitəsilə yaradıla bilər.

Patent hüququnu obyektiv, eyni zamanda subyektiv mənada anlamaq olar. Obyektiv mənada patent hüququ onu nəzrərdə tutur ki, Azərbaycan Respublikası daxilində ixtiraların və sənaye nümunələrinin yaradılması, hüquqi mühafizəsi ilə bağlı əmələ gələn əmlak və şəxsi qeyri-əmlak tipli münasibətləri nizamlayan hüquq normalarının məcmusu başa düşülür.

Subyektiv anlamında patent hüququ deyəndə, ixtira və sənaye nümunəsinə münasibətdə subyektin əmlak və şəxsi qeyri-əmlak barəsində olan hüquqları başa düşülür.

Patent hüququ sənaye mülkiyyətinin ayrı-ayrı növlərinin – ixtiraların, faydalı modellərin və sənaye nümunələrinin yaradılması, hüquqi mühafizəsi və onlardan istifadə edilməsi ilə bağlı yaranan əmlak münasibətlərini və bu münasibətlərlə əlaqədar olan şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu və sistemi kimi başa düşülür [1].

Patentləşmiş məhsul və ya istehsal üsulu patentin qeydə alındığı ölkədə qorunma müdətində (adətən 8-20 il) patent sahibi xaricindəki şəxslərə verilmir" [12].

C. Hettingerə görə, patentlər mülkiyyət hüququnun təməlidir. Patent hüququ aradan qaldırıldıqda bütün mülkiyyət hüququ da aradan qalxacaqdır [6].

Əqli mülkiyyət hüquqlarının texnoloji inkişafa töhfə vermək, müəyyən sahələrdə xüsusi sektorun iştirakını təşviq etmək üçün nəzərdə tutulmuş və qanuni olaraq tanınan hüquqlar olaraq xarakterizə edilməsi də belə bir əlaqənin nəticəsidir [3].

Digər tərəfdən hesab edilir ki, bir qayda olaraq istehlakçılar üçün inhisar səbəbindən yaranan yüksək qiymətlərlə bağlı xərclər, innovasiyanın yenilik faydaları ilə üst-üstə düşür [5].

Beləliklə, ədalət və humanizm baxımından əqli mülkiyyət hüququnun verdiyi imkanlardan istifadə edən rəssamın rəsm əsəri ilə bir xərçəng xəstəsi üçün həyati əhəmiyyəti olan dərma-nın əldə olunmasını eyni tutmaq və inhisarçı qaydalara tabe etmək insan hüquqlarının qorunması baxımından qəbuledilməzdir. Bu səbəbdən, mütəxəssislər tərəfindən müxtəlif növ mülklərə fərqli qoruma mexanizmlərinin tətbiq olmasının zəruri ola biləcəyi fikri tez-tez önə çıxarılır [4].

Eyni zamanda onu da qeyd etməliyik ki, həm İnsan Hüquqları Bəyannaməsinin, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Paktın, həm də TRİPS Sazişinin hazırlanması zamanı əqli mülkiyyət hüququnun insan hüquqları xüsusiyyəti müzakirə mövzusu olmuş, bəzi dövlətlərin nümayəndələri, həmçinin mütəxəssislər belə bir qorumanın lazım olmadığı mövzusunda israrçı olaraq əqli mülkiyyət qorumasının yalnız sənət və elm ictimaiyyətinin seçməçi imtiyazını əks etdirdiyini irəli sürmüşlər [11].

**Açar sözlər:** Turizm, əmtəə nişanı, patent hüququ, ticarət nişanı.

## Ədəbiyyat

1. Allahverdiyev S.S. Əqli mülkiyyət hüququ. Dərs vəsaiti. Bakı: Digesta, 2006, s.11.
2. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, Milli brendlərimizi qoruyaq, Bakı, 2018.
3. Cullet P. Human Rights and Intellectual Property Protection in the TRIPs Era, Human Rights Quarterly, 2007, Vol.29, p. 404.
4. Старженецкий В.В. Интеллектуальная собственность и право на охрану здоровья. Вестник Высшего Арбитражного Суда Российский Федераций, No.10 от 28 октября 2009 года. с.2. http://www.szrf.ru/doc.phtml?nb=edition07&issid=2009010000&docid=18
5. Hettinger C. Edwin. Justifying Intellectual Property. Philosophy and Public Affairs, 1989, Vol.18, No.1, p. 31.
6. https://en.wikipedia.org/wiki/Trademark
7. https://patent.copat.gov.az/slider-slider1
8. https://patent.copat.gov.az/slider-slider3
9. http://tourfaq.net/travel-business/firmennye-nazvaniya-v-turizme/
10. Loff B., Heywood M. Patents on Drugs: Manufacturing Scarcity or Advancing Health, Journal of Law, Medicine & Ethics, 2002, Vol.30, p. 628;
11. http://www.wipo.int/patents/en/

12. R.A. Göyüşov, R.Ə. Bayramov, Ş.B. Yüsifov, Mülki hüquq, ümumi hissə, mühazirələr toplusu, Qanun nəşriyyatı 2013.

## AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM VƏ TURİZM İMKANLARI

**Fidan Mütəllimli**
dilshad8080@mail.ru

Müasir dövrdə Azərbaycanda turizmin inkişaf səviyyəsi getdikcə artmaqdadır. Ölkənin turizm sahəsi iqtisadiyyatın mühüm və vacib aspektlərindən biridir. Ona görə də turizmin inkişafı iqtisadi siyasətin uğurla həyata keçirilməsindən asılıdır. İqtisadi siyasətlə yanaşı ölkənin milli – mədəni dəyərləri, tarixi mədəni irsi, əlverişli coğrafi mövqedə yerləşməsi də turizmin inkişaf etməsində mühüm rol oynayır. Bu göstərilən amillərin Azərbaycanda mövcud olması onun turizm sahəsinin inkişafı ilə nəticələnmişdir. İqtisadi-siyasət sahəsində turizmin inkişaf perspektivlərinin əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Müasir dövrdə isə bu inkişaf xətti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu siyasəti ilə davam etdirilir.

Turizmin inkişaf proqramı bütün ölkələrdə kompleks yanaşma prinsipləri əsasında hazırlanır. Daha doğrusu bu tipli proqramda milli, regional və beynəlxalq amillər nəzərdə tutulur. Proqramın bu şəkildə hazırlanması həm yerli, həm də beynəlxalq amillərdən istifadə etmək imkanı yaradır. İnsanlara yeni iş yerləri yaradılır, eyni zamanda onların bir çox yaradıcılıq məhsullarının yeni satış bazarı açılır. Belə ki, əksər turistlər, səfər etdiyi ölkələrin milli adət və ənənələri, xalq yaradıcılığı nümunələri ilə çox maraqlanırlar. Həmçinin, beynəlxalq turizm insanlar arasında nəinki mədəni, siyasi, iqtisadi əlaqələr yaradır, həmçinin, dostluq və qardaşıq münasibətlərinin möhkəmlənməsinə də müsbət təsir göstərir. Bu sahədə beynəlmiləl əlamətlər milli elementlərlə zənginləşir [2].

2003-cü ildən prezidentlik fəaliyyətini həyata keçirən İlham Əliyevin bu sahədə addımları danılmaz faktdır. Azərbaycanın son illər bir sıra beynəlxalq mədəni-kütləvi tədbirlərə ev sahibliyi etməsi də buraya istirahətə gələnlərin sayını dəfələrlə artırıb. Qonaqlar tədbirlərdə iştirak etməklə yanaşı, ölkənin müxtəlif məkanlarındakı müasir turizm obyektlərində dincəlir, tarixi abidələri ilə tanış olur, əsrarəngiz təbiətini seyr edirlər. Bununla yanaşı, ölkəmizdə uğurla sona yetən "Eurovision-2012" mahnı müsabiqəsi də Azərbaycanın turizm imkanlarının geniş məkanda tanımasına böyük yollar açdı. "Eurovision - 2012" mahnı müsabiqəsi ilə əlaqədar

ölkəmizə dünyanın 40-dan artıq ölkəsindən gələn qonaqlar Azərbaycan gözəlliklər ilə tanış olub, birbaşa təmasda olmuş, müasir tələblər səviyyəsində qurulmuş otellərdə istirahət etmişlər.Məlumdur ki, qonaqlar özləri canlı reklam rolunu oynayırlar. Onlar Azərbaycanı öz ölkələrində təbliğ etmək iqtidarındadırlar. Ona görə də turistlərin Azərbaycandan razı qalması üçün əlverişli şəraitin yaradılması əsas işlərdəndir.

Turizmin bir neçə növü vardır: Dünya səviyyəsində də ən geniş yayılmış növlərindən biri idman turizmidir. Son zamanlar Azərbaycanda idman turizmi inkişaf etdirilir və onun rəqabət imkanlarının artırılması istiqamətində əhəmiyyətli addımlar atılır. Avropa və dünya təcrübəsi nəzərə alınaraq Azərbaycanda idman turizminin daha da inkişaf etdirilməsinə ehtiyac vardır. Azərbaycandan xaricə idman turizmi məqsədilə gedənlərin sayı daha çoxdur. Bu özünü daha çox qış idman növlərində biruzə verir.

Son zamanlar Şahdağ qış-yay turizm kompleksinin inkişafı bu problemin həllində əhəmiyyətli rol oynamışdır. 2011-ci il turizm ili, 2012-ci il də idman ili elan olunmuşdur. Həmin illər ərzində idman və turizm sahəsində əsaslı dəyişiklər baş vermiş, bu sahələrin yüksək inkişafı üçün bir sıra tədbirlər görülmüşdür. Qeyd etdiklərimizdən belə bir nəticə çıxara bilərik ki, Azərbaycanın beynəlxalq səviyyədə idman turizmi sahəsində rəqabət apara bilmə səbəblərindən biri də bu sahəyə yüksək dövlət dəstəyinin olmasıdır. Azərbaycanda çoxlu sayda beynəlxalq yarışlar keçirilmiş və keçirilməkdə davam edir. Belə beynəlxalq idman yarışları Azərbaycanın idman turizmindən yüksək gəlir əldə etməsinə də şərait yaradır. Həmçinin Azərbaycan artıq regional və beynəlxalq səviyyədə idman yarışlarına ev sahibliyi etmək iqtidarındadır və öz mövqeyini bu sahədə daha da gücləndirir.Bakı şəhərində, eləcə də regionlarda tikilən Olimpiya İdman Kompleksləri, stadionlar belə beynəlxalq yarışların keçirilməsi istiqamətində atılan əhəmiyyətli addımlardandır. Bütün bu istiqamətlərin həyata keçirilməsi təkcə, xarici turistlərin deyil, eyni zamanda Azərbaycan xalqınında marağını cəlb edir. Hal-hazırda isə ölkəmizin müstəqil siyasət həyata keçirməsi, iqtisadi inkişafı, xarici siyasətin genişlənməsi və uğurla həyata keçirilməsi bizim üçün çox böyük qürurdur.

Turizm sahəsində dövlət idarəetməsinin effektivliyinin yüksəldilməsi dövlət tərəfindən sektorun inkişafına "yuxarıdan aşağı" və "aşağıdan yuxarı" yanaşmalar arasında tarazlı siyasətin təmini istiqamətində tədbirlərin görülməsini zəruri edir. Dövlət Turizm Agentliyi (DTA) və Azərbaycan Turizm Bürosu (ATB) keyfiyyətli strateji planlaşdırma, ziddiyətli məqamların uzlaşdırılması, maraqlı tərəflərin fəaliyyətini istiqamətləndirmə, koordinasiya və dayanıqlı maliyyə mexanizmlərinin təkmilləşdirilməsi yolu ilə dövlət və özəl sektordan olan maraqlı tərəflər arasında milli və yerli səviyyələrdə liderliyi təmin edir. Azərbaycanda ixtisaslaşmış turizm sənayesində dövlət idarəçili- yinin təkmilləşdirilməsi sahəsində bir sıra

nailiyyətlər nəzərəçarpacaq dərəcədədir. 2018-ci ildən bəri Dövlət Turizm Agentliyi və onun ixtisaslaşmış qurumları olan Azərbaycan Turizm Bürosu və Qoruqları İdarəetmə Mərkəzi, həmçinin regional DMT-lər yaradılmışdır. Bununla yanaşı, 3 yeni turizm sənayesi assosiasiyasının - Azərbaycan Hotellər Assosiasiyası, Azərbaycan Turizm Bələdçiləri Assosiasiyası və Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının yaradılması dövlət tərəfindən dəstəklənmişdir. Həmçinin regional səviyyədə koordinasiya aləti olan regional turizm şuralarının yaradılması "2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf Strategiyası"na daxil edilmişdir. Dövlət Turizm Agentliyi İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun Müşahidə Şurasına üzv seçilmişdir və turizmin inkişaf ehtiyaclarını hökumətin sosial-iqtisadi inkişaf Strategiyasında bilavasitə əks olunmasını təmin etmişdir.

21-ci əsrin beynəlxalq turizm bazarında destinasiyanın səmərəli inkişafı, idarə edilməsi və təşviqi üçün innovativ vasitələrin tətbiqi qaçılmazdır. DTA və ATB texnoloji irəliləyişlərdən maksimum faydalanmaq məqsədilə bir sıra elektron alətlərin inkişafına resurs yönəltmişdir. azerbaijan.travel veb-səhifəsi istifadəyə verilmiş və digər bütün müvafiq veb-səhifələr üçün axtarış sisteminin optimallaşdırılması prosesi həyata keçirilmişdir. Paralel olaraq, ziyarətçilər üçün "qaynar xətt" telefon xidməti istifadəyə verilmiş, turizm informasiya sistemi formalaşdırılmış (turizm biznesi, resurslar və tədbirlərin reyestri), səyahət sferası peşəkarları üçün onlayn təlim platforması işə salınmış və "RİTM" (Regional İnnovativ Turizm Məhsulu) startap müsabiqəsi keçirilmişdir. Bu sahədə strateji baxış sürətlə inkişaf edən texnoloji yeniliklər və alətlərə uyğunluğu təmin etmək və bundan destinasiyanın uğurlu inkişafı üçün ən səmərəli şəkildə istifadə etməkdir [3, s.8].

**Nəticə**

Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində turizm ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilib. Təsadüfi deyil ki, Azərbaycan 2024-cü ildə qədər 4 milyona yaxın turist qəbul etməyə hazırlaşır. Hətta son illər Bakının ev sahibliyi etdiyi sammitlərdə, konfrans və simpoziumlarda, digər beynəlxalq tədbirlərdə dövlət və siyasət adamları çıxışlarında ölkəmizin turzm uğurlarını yüksək dəyərləndirmişlər.

2020-ci il Qarabağ müharibəsinin nəticəsində işğal edilmiş torpaqlarımız azad edildi. Hal-hazırda Qarabağın milli-mədəni irslərinin bərpa olunması ilə yanaşı, bu bölgədə turizmin inkişafı üçün də böyük işlər görülməkdədir. Qarabağda turizmin inkişaf etdirilməsi üçün hər cür imkanlar var. Bu gün bir tərəfdən Qarabağın tarixi görkəmi özünə qaytarılır, digər tərəfdən yaşayış üçün ən müasir infrastruktur qurulur, turizmin potensialı yaradılır. Qarabağda turizm çoxşaxəlidir. Burada həm istirahət, həm səhiyyə, həm dağ, həm də kulinariya turizminin inkişafı üçün böyük inkanlar var.

**Açar sözlər:** Turizm, iqtisadi siyasət, inkişaf, idman nturizmi.

**Ədəbiyyat**

1. Azərbaycan respublikasında turizm və onun inkişafı - H. Soltanova.
2. Turizmin əsasları - İlqar Hüseynov, Nigar Əfəndiyeva.
3. Azərbaycan Respublikasının Turizm Strategiyası (2023-2026).

## AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFINA ÖTƏRİ NƏZƏR

**Ləman Osmanova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
lemanosmanova.3103@gmail.com

Azərbaycan zəngin tarixi, təbii gözəllikləri və mədəni müxtəlifliyi ilə turizm baxımından böyük potensiala malik ölkədir. Son illər turizm sektorunda ciddi irəliləyişlər oldu.

Turizm fəal istirahətin geniş yayılmış və ən kütləvi növlərindən biridir. Hər il minlərlə insan istirahət həvəskarları sırasına qoşulur və bununla da turizm getdikcə daha geniş vüsət alır. Turizm sadəcə maraq deyil. Bu, son 15-20 ildə respublikamızda insanların vərdiş etdikləri həyati tələbatına çevrilmişdir. Lakin Azərbaycanda turizmin tarixi göstərilən bu illərlə məhdudlaşmır. Əgər qədim səyahətləri xatırlasaq, aydın olur ki, Azərbaycan ərazisinə müxtəlif məqsədlər üçün səfər edən səyyahlar olmuşlar. Onlar turist sayılmasalar da zaman keçdikcə bu ərazidə qonaqpərvərlik sənayesi formalaşmağa başlamışdır. Bunu nəzərə alaraq, Azərbaycanda turizmin inkişaf mərhələləri aşağıdakılardır :

1. Qədim və orta əsrlərin ticarət karvanları mərhələsi;
2. XIV-XIX əsrin sonlarına qədər olan mərhələ;
3. XIX əsrin sonu XX əsrin ortalarına qədər olan mərhələ;
4. Müstəqillik dövrünə qədərki mərhələ (1950-1991);
5. Müstəqillikdən sonrakı mərhələ.

<u>Qədim və orta əsrlərin ticarət karvanları mərhələsi</u>

Azərbaycana ilk səyahətlər ticarət, dini, siyasi və dərketmə məqsədləri ilə əlaqəli olmuşdur. Qədim Azərbaycan ərazisindən keçən ticarət karvanlarının hərəkətini ilk səyahətlər hesab etmək olar. Azərbaycan hələ qədim dövrlərdə Böyük İpək Yolunun (BİY) üzərində mühüm dayanacaq kimi tanınan bir ölkə olmuşdur.

IX-XV əsrlərdə Azərbaycanda karvansaralar, "qonaq evləri", rabatlarm geniş şəbəkəsi yaradılmışdı. Həmin dövrdə Təbrizdə 200-300-dən çox, Şamaxıda 60-dan çox, Dərbənddə 100-dən çox karvansara fəaliyyət göstərirdi. Karvansaralar öz funksional təyinatına görə şəhər, yol kənarları və limanlarda tikilən gecələmə yerləri, müxtəlif əmlakların saxlandığı yerlər olmuşdur. Şəhər karvansaraları otaqlarının sayı çox olmaqla böyük idi. Tacirlər və müxtəlif səyahətçilərə xidmətlər göstərilməklə yanaşı, onlar həmçinin çeşidli ticarət, pul əməliyyatlarının aparılması üçün də əlverişli yer sayılırdı.

<u>XIV-XIX əsrin sonlarına qədər olan mərhələ</u>

Rusiyadan İrana və Hindistana gedən dəniz və quru yollarının ayrıcında yerləşən Bakının XIV əsrin ortalarında Qərblə Şərq arasında ticarət əlqələrində böyük rolu var idi. Ağ dənizdən Volqa çayı vasitəsilə Xəzər dənizinə və sonra İran və Hindistana aparan Volqa-Xəzər dəniz yolu, Bakıda yeni karvansaraların tikilməsinə səbəb oldu. Bunların ölçüləri əvvəlki dövrlərdə inşa edilənlərə nisbətən daha böyük idi. Müxtəlif zamanlarda Azərbaycana səyahət edən tarixçilər və səyyahlar o dövrlərdə mühüm yerləşdirmə obyektləri sayılan karvansaraları öz səyahətnamələrində qeyd etmişlər.

XIX əsrin ortalarında Bakıda inzibati və ictimai müəssisələrin sayı çoxalırdı. Həmin dövrdə müxtəlif banklar, kredit müəssisələri, telefon-rabitə stansiyası, gecələmə yerləri istifadəyə verildi, Bakı-Tiflis dəmir yolu xətti çəkildi və s. Həmçinin bir sıra ölkələrin Bakıda konsulluqları açılırdı. Bakıda neft "hay-küyü"nün dünyaya yayılması da xarici ölkələrdən Azərbaycana gələnlərin sayının artmasına təsir edirdi. Bu isə xidmət sektorunun yaradılmasına imkan yaradırdı.

<u>XIX əsrin sonu XX əsrin ortalarına qədər olan mərhələ</u>

XIX əsrin sonlarında XX əsrin əvvəllərində Bakının karvansaralarında qonaqlar üçün komfort şərait yaratmaq məqsədi ilə karvansara binalarında yenidənqurma işləri aparılaraq onlardan mehmanxana kimi istifadə olunurdu. XIX əsrin sonu XX əsrin əvvələrində turizmin inkişafına elmi və həvəskar cəmiyyətlər (coğrafiya cəmiyyəti, təbiəti sevənlər cəmiyyəti, xalq universitetləri cəmiyyəti və b.) diqqət yetirməyə başladılar. Azərbaycanda sovet hökuməti qurulduğu ilk onillikdə turizm və ekskursiya hərəkatından daha çox siyasi təbliğat vasitəsi kimi istifadə edilməyə başlanılır.

İkinci dünya müharibəsi illərində bütün SSRİ-də olduğu kimi, Azərbaycanda da turizm-ekskursiya fəaliyyəti donduruldu.

<u>Müstəqillik dövrünə qədərki mərhələ</u>

Bu dövrdə turizmin maddi-texniki bazası genişlənir, yeni istirahət mərkəzləri, turist bazaları, uşaq istirahət düşərgələri istifadəyə verilir. 1950-ci il sentyabr aymda Bakıda turist

bazası yaradıldı. O, vaxtlar bu baza Nizami adma istirahət parkında yerləşdirildi. Bu dövrdə turizmin maddi-texniki bazası genişlənir, yeni istirahət mərkəzləri, turist bazaları, uşaq istirahət düşərgələri istifadəyə verilir. Respublikada turizm-ekskursiya fəaliyyəti genişləndikcə və onun müxtəlif formaları yarandıqca, onun maddi-texniki bazasında da yeniliklər baş vermişdi.

Müstəqillik illərinədək Azərbaycanda turizmin inkişafının ən yüksək səviyyəsinin 1987-ci ildə olması qeyd edilir. Həmin ildə respublikaya xarici ölkələrdən 50 min, sabiq sovet respublikalarından 250 minə yaxın turist gəlmişdi. Tranzit marşrutlarda isə 20 min nəfər iştirak etmişdi. Həmin il Azərbaycan vətəndaşlarının 10 min nəfəri xarici ölkələrdə, 300 min nəfərə yaxmı isə SSRİ ərazisində turist səfərlərində olmuşlar. 1988-ci ildə başlanan Ermənistan-Azərbaycan münaqişəsi turizm təsərrüfatında idarəolunma sisteminin pozulmasına səbəb oldu. Azərbaycanda fəaliyyət göstərən ümumittifaq və beynəlxalq turist marşrutları ləğv olundu. Dağlıq Qarabağda baş verən məlum hadisələr, keçid dövrünün çətinlikləri, iqtisadi-mədəni əlaqələrin qırılması turizm hərəkatına mənfi təsir etdi və bu sahə tənəzzülə uğradı.

Müstəqillik mərhələsi

Ölkədə xarici turizmin dövlət tərəfindən tənzimlənməsi və bu sahədə olan fəaliyyəti əlaqələndirmək məqsədi ilə 1991- ci ildə Nazirlər Kabineti nəzdində Xarici Turizm Şurası yaradıldı. Yalnız 1990-cı illərin sonunda turizmin inkişaf tendensiyası ölkənin qanunverici aktlarında öz əksini tapdı. Bu şuranın səlahiyyətlərinə dövlətin turizm siyasətini həyata keçirmək, əlaqələndirmək, turizmlə məşğul olan şirkətlərə lisenziya verilməsi aid edilirdi.

2001-ci ildə yaradılmış Azərbaycan Turizm Sənayesinin İnkişafı İttifaqı (ATSİİ) respublikada turizm xidmətlərindən istifadə edənlərin hüquqlarının qorunması, normativ-hüquqi aktların nizamlanmasına yardım göstərilməsi, beynəlxalq turizm bazarında Azərbaycanın imicinin yüksəlməsi və digər məsələlərə xidmət edir.

Müasir dövrdə Azərbaycanda turizmin inkişafına dövlət tərəfindən xüsusi diqqət yetirilir. Azərbaycanda turizm sahəsinin inkişaf etdirilməsi üçün turagent və turoperatorların fəaliyyəti vacib şərtlərdəndir. 2015-ci ilin məlumatına görə, Azərbaycanda Mədəniyyət və Turizm Nazirliyi tərəfindən lisenziya almış 277 turizm şirkəti vard idi. Həmin il turizm fəaliyyəti ilə məşğul olmaq üçün lisenziyanın olması ləğv edildi. Hazırda 500-dən çox turizm şirkəti fəaliyyət göstərir. Dövlət Turizm Agentliyi ölkəmizdə turizm sahəsinin inkişafını istiqamətləndirən əsas dövlət qurumudur.

Əgər müstəqilliyin ilk illərindəki Dövlət Proqramlarında diqqət iqtisadi obyektlərin yaradılmasına yönəldilmişdisə, sonrakı inkişaf proqramları sosial yöniimlü tədbirlər planı kimi həyata keçirilirdi, bununla yanaşı hər il üçün yeni prioritet inkişaf istiqaməti müəyyən edilir və həmin istiqamət üzrə 2011 -ci il "Turizm ili" kimi qeyd olunmuş və buna müvafiq tədbirlər

həyata keçirilmişdir. Nəticədə turizm sahəsində pozitiv dəyişikliklər baş vermişdir. Məhz həmin ildə Bakıda bir neçə brend otel inşa edilmiş, turizmə həsr olunmuş regional, beynəlxalq konfranslar keçirilmişdir.

Azərbaycanda turizmin potensial göstəricisi, onun əhalisinin sayı, əhalisinin turist xidmətindən istifadə etmək qabiliyyətinə malik olan kontingentlərinin sayı, həmçinin turizmin maddi-texniki bazasını təşkil etmək üçün maliyyə resurslarının miqdarı ilə müəyyənləşə bilir.

**Açar sözlər:** Ticarət karvanları, elmi və həvəskar cəmiyyətlər, turizm şirkəti.

**Ədəbiyyat**

1. https://kitabxana.net/files/books/file/1534007378.pdf
2. https://unec.edu.az/application/uploads/2016/03/Suleymanov_Elvin.pdf

## DÖVLƏT ORQANLARI VƏ BEYNƏLXALQ TƏŞKİLATLAR TƏRƏFİNDƏN YAŞIL TURİZMƏ DƏSTƏK

**Alişan Qarayev**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

Yaşıl turizm həm də yaşıl iqtisadiyyat deməkdir. Turizm sektoru təbiəti, mədəniyyəti, ətraf mühiti və insanları birləşdirən özəlliyi ilə məşğulluq, ixrac gəliri və yerli inkişaf baxımından milli iqtisadiyyatın əhəmiyyətli sahələrindən biridir. Turizm sektorunda davamlılıq siyasəti, xüsusiyyətlərindən asılı olaraq "yaşıl turizm" adı altında müxtəlif formalarda tətbiq oluna bilər. Yaşıl turizm ziyarət edilən ərazinin ekoloji tarazlığına təsir göstərir. Ətraf mühitin qorunmasını, yerli sakinlərin mədəniyyətini qorumaq və saxlamaq məqsədi daşımaqla yanaşı, regional inkişafı da təmin etmək məqsədi daşıyır. Yaşıl turizm probleminə turizmin kodeksi olan "Çili bəyannaməsi"nin 3-cü maddə, 1-ci bəndində xüsusi yer verilmişdir. Maddə 3. Turizm davamlı inkişaf amili kimi Turizmin inkişafında maraqlı olan bütün tərəflər bugünkü və gələcək nəsillərin ehtiyac və arzularının bərabərlik zəminində təmin edilməsi üçün sağlam, davamlı və daimi iqtisadi inkişafa nail olmaq məqsədi ilə təbii mühiti mühafizə etməlidirlər [6].

Ekoloji turizm (ekoturizm), yumşaq turizm, kənd turizmi və məsuliyyətli turizm ənənəvi kütləvi turizmə reaksiya olaraq davamlılığa əsaslanan yaşıl turizm kimi  adlandırılmışdır.

Ölkəmizdə hələ XX əsrin əvvəllərindən yaşıl və kənd turizmi mövcud idi. Şuşada ilk istirahət evi 1936-cı ildə istifadəyə verilib. Oradakı pansionat isə 1964-cü ildə yaradılıb, 1970-

ci ildən sanatoriyaya çevrilib. "Kənd turizmi" anlayışı Azərbaycanın digər bölgələrində son 10-15 ildə təşəkkül tapsa da, Şuşa və Kəlbəcər rayonlarında "kənd turizmi" hələ ötən əsrin ortalarından mövcud olmuşdur. Şuşa şəhəri, eləcə də rayonun Xəlfəli və Turşsu kəndlərində təxminən 2 min ailədən artıq rayon sakini mənzillərini turistlərə kirayəyə verirdilər. Kəlbəcərdə İstisu mineral bulağı ətrafında 80-ci illərdə iri kurort və mineral sudoldurma zavodu tikilmişdi. Həmin illərdə "İstisu" sanatoriyası ildə 50 minədək turist qəbul edirdi.

Erməni işğalı dövründə tamamilə dağıdlmış həmin turizm-müalicə ocaqları hazıra bərpa olunmaqdadır və tezliklə öz əvvəlki şörətini qaytaracaqdır. 2023 il 26 İyulda Prezident İlham Əliyev Kəlbəcər rayonunda "İstisu" sanatoriyasının təməlqoyma mərasimində iştirak edib. Bundan əlavə Dövlət Turizm Agentliyi tərəfindən cari ilin may ayında Kəlbəcər rayonunun İstisu qəsəbəsinin turizm əsaslı uzunmüddətli və davamlı inkişafı istiqamətində ərazilərə baxış keçirilmiş, hədəflər, istiqamətlər müəyyən edilmiş və Kəlbəcər rayonunun çoxşaxəli turizm potensiallı olduğunu nəzərə alaraq, hazırda ərazidə turizm resurslardan səmərəli istifadə, strateji hədəflər, turizm növləri, turizm və rekreasiya zonalarının inkişafı istiqamətlərini özündə əks etdirəcək "Kəlbəcərin turizm inkişafı Konsepsiyası" hazırlanır. Dövlətimiz Qarabağda yaşıl turizm fenomeninə xüsusi diqqət yetirərək bölgənin eko sisteminə minimum təsir ilə intensiv turizm fəaliyyətinin həyata keçirilməsini qarşıya məqsəd qoymuşdur. 2025-2030 illər arasında Qarabağ və Şərqi Zəngəzur bölgəsinə 1.5 mln. turist gəlişi gözləntisi var.

<u>Yaşıl Turizm. Sertifikatlar və ətraf mühitə dəstək.</u>

Dünya ölkələri, eləcə də bir sıra beynılxalq təşkilatlar tərəfindən yaşıl turizmin inkişafı və təşviqi istiqamətində böyük təcrübə toplanmışdır və bunlardan respubliamızda istifadə edilməsi məqsədəuyğundur. Aşağıda onlardan bəzilərini misal kimi göstərək:

-Dünya Səyahət və Turizm Şurası (WTTC) "Yaşıl Qlobus" kimi tanınan sertifikatı ətraf mühitin qayğısına qalan və onu qoruyan müasir ekoloji cəhətdən təmiz bizneslərə verir.

<u>Mavi bayraqlı çimərliklər</u>

Mavi bayraq xüsusi ekoloji etiket mükafatıdır. Davamlı inkişaf Tələbləri dəstəkləyən marinalar və çimərliklər üçün Beynəlxalq Ətraf Mühit Təlimi Ekoloji Təhsil Fondu tərəfindən Mavi Bayraq sertifikat verilir.

– II Dünya Müharibəsindən böyük itkilərlə çıxan İtaliya diqqətini yaşıl turizmin inkişafına yönəltdi və əhəmiyyətli uğurlar əldə edə bildi.

– Türkiyədə Hökumətin və Qeyri-Hökumət Təşkilatlarının təşəbbüsü ilə turizm müəssisələrinin daha ekoloji yönümlü fəaliyyət göstərməsi üçün təcrübələr həyata keçirilməyə başlanmışdır.

<u>Yaşıl turizmin üstünlükləri</u>

Yaşıl turizm anlayışının son illərdə trendə çevrilməsi səbəblərindən biri də təbiətin qorunması ilə bağlı bütün dünyada sosial qayğının olmasıdır. Yaşıl turizm həm ətraf mühit, həm də fərdlər üçün bir çox üstünlüklər təqdim edir. Xüsusilə ziyarət edilən ünvanda yerli sakinlərin maddi vəziyyətinin yaxşılaşmasına töhfə verir [3].

Tullantıların azaldılması, istirahət edənlərə getdikcə daha çox yaşıl sertifikatlı obyektlərin və məkanların təklif edilməsi istirahət edənlərin nəzərində, yaşıl turizm təcrübələri ilə destinasiyanın ümumi inkişafı imicini yaxşılaşdırmağa kömək edir.

**Nəticə**

Məhdud resurslar və artan insan sayı səbəbindən təbii ehtiyatlardan həddindən artıq və nəzarətsiz istifadə hər gün bəşəriyyət üçün yeni təhlükələr yaradır. Bu gün təbii ekoloji quruluş turizm baxımından kritik ehtiyatlar, turizmlə bağlı fəaliyyətlər isə ekoloji resurslar kimi qəbul edilir. Ətraf mühitə mənfi təsirlərin minimuma endirilməsi diqqət mərkəzində olan məsələyə çevrilir. Turizm fəaliyyəti, insan həyatının mühüm rekreasiya fəaliyyəti kimi iqtisadiyyatlar üçün kritik əhəmiyyətə malikdir.

Dövlət orqanları yaşıl turizm fəaliyyətlərinə töhfə verə biləcək yaşıl turizm fəaliyyətləri üçün sabit siyasi və iqtisadi mühit yaratmalıdırlar. Bakı şəhərinin 2040-cı il üçün olan inkişaf layihəsində yaşıl ərazilərin sahəsinin artırılması, ekoloji nəqliyyat vasitələrinə üstünlük, velosiped yollarının çəkilməsinin intensivləşdirilməsi, ekologiyanın daim diqqətdə olması və Bakı şəhərinin regionun turizm mərkəzinə çevrilməsi əsas prioritetlər sırasındadır [1].

**Açar sözlər:** Yaşıl iqtisadiyyat, kənd turizmi, dövlət orqanları, beynəlxalq təşkilatlar, ekoturizm.

**Ədəbiyyat**


1. https://arxkom.gov.az/bakinin-bas-plani
2. www.mavibayrak.org.tr
3. https://tourismteacher.com/butlers-tourism-area-life-cycle-model/
4. https://webunwto.s3.eu-west-1.amazonaws.com/s3fs-public/2019-11/azeri.pdf
5. https://www.unwto.org/news/international-tourismarrivals-could-fall-in-2020
6. https://webunwto.s3.eu-west-1.amazonaws.com/s3fs-public/2019-11/azeri.pdf

# TURİZM SƏNAYESİNDƏ ELEKTRON TİCARƏTİN İNKİŞAFI

**Zulfiqar Qasımzadə**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
Zulfigar.Gasimzada@student.au.edu.az

E-ticarət yeni bir məfhum olduğu üçün mütəxəssislər tərəfindən fərqli şəkillərdə tərifi verilir. Ümumi olaraq ticarətin elektron şəkildə həyata keçirilən formasına elektron ticarət (e-ticarət) deyilir. Başqa bir tərifə görə e-ticarət hər cür malın və xidmətin kompyuter texnologiyası, elektron rabitə kanalları və kompyuter texnologiyalarından (ağıllı kart-smart card, elektron fond transferti - EFT, POS terminalları, faks kimi) istifadə edilərək satılması və satın alınmasını əhatə edən bir prosesdir [6, s.105].

Bütün komputer və informasiya şəbəkələrinin ən geniş yayılmış forması kimi bilinən internet dünya miqyasında məhsul, xidmət informasiyalarının yayılmasını bir anda həyata keçirir [1, s.16]. 1960-cı illərdə meydana gələn internet daha sonra inkişaf edərək bugün dünyada milyonlarla insanı bir-birinə bağlayan şəbəkə olmuşdur.

2000-ci ildə dünya əhalisinin 6%-i internet istifadəçisi idisə, 2015-ci ildə bu göstərici 45% -ə qədər artmışdır. Azərbaycan üzrə bu göstərci isə 2000-ci ildə 0.1%, 2015-ci ildə 80% təşkil edir [10, s.1].

E-ticarət dar mənada mal və xidmətlərin elektron mühit və telekommunikasiya şəbəkələri vasitəsilə hazırlanması, reklamı, satışı və çatdırılmasının həyata keçirilməsidir. Geniş anlamda bu terminə 4 aspektdən baxılır. Rabitə aspektindən baxıldığı zaman özündə mal və xidmətlərin, informasiyaların komputer şəbəkələri vasitəsilə yayılmasıdır. Müddət baxımından müəssisənin işinin daha az zamanda həyata keçirilməsidir. Xidmət baxımından firmanın az xərclərlə yüksək keyfiyyətli xidmət göstərməsinə istiqamətlənmiş addımdır. Aktivlik aspektindən baxılsa e-ticarət mal və xidmətlərin, informasiyanın alış-verişini aktiv surətdə həyata keçirilməsidir [8, s.30].

E-ticarətin tətbiqi altı vasitə ilə həyata keçməkdədir. Bunlar telefon, faks, tv, elektron ödəmə və pul transferi, elektron məlumat mübadiləsi (verilənlərin elektron mübadiləsi) və internetdir. VEM və internet digər dörd vasitəyə nisbətən daha fərqli bir mövqeyə malikdir. Digər vasitələr arasında FTP, elektron poçt, səsli mesaj, görüntülü ünsiyyət də mövcuddur. Lakin bu vasitələr arasında internet e-ticarətdə ən üstün vasitə olaraq qəbul edilir [8, s.31].

Elektron ticarət dörd istiqamətdə həyata keçirilir. Bunlar şirkətlər, müştərilər, dövlət orqanları və vətəndaşlardır. Bu təsnifata görə B2B, B2C, B2A, C2A, C2C fərqləndirilir.

Business-to-business (B2B) - Bu istiqamət şirkətlər arasındakı əlaqələrin bütün səviyyələrini əhatə edir. Burada məlumatların elektron mübadiləsinin EDİ kimi xüsusi texnologiya və standartları istifadə edilə bilər. Bu cür əməkdaşlığın faydası göz qabağındadır. Məsələn, diller sifarişlərini özü yerləşdirib tədarükçünün məlumat bazasından onların yerinə yetirilməsini izləyə bilər. Eynilə tədarükçü də anbar bazalarına daxil olub ortağının ehtiyatlarının vəziyyətini öyrənib müntəzəm olaraq onları artıra bilər. Bu cür misalları bütün sahələrdən gətirmək mümkündür;

Business-to-consumer (B2C) - Bu istiqamət elektron pərakəndə ticarətə əsaslanır. Belə ki, bu gün internetdə geniş çeşiddə mal və xidmətlər təklif edən xeyli sayda elektron mağazaları fəaliyyət göstərir;

Business-to-administration (B2A) - Sahibkarın məmurlarla işgüzar əməkdaşlığı yerli hakimiyyətlərdən tutmuş beynəlxalq təşkilatlaradək bütün səviyyələrdə həyata keçirilir. Burada inkişaf etmiş dövlətlərin və beynəlxalq təşkilatların internetdə ticarəti inkişaf etdirməyə yönələn tədbirlərini göstərmək olar;

Consumer-to-administration (C2A) - Daha az inkişaf edən bu istiqamət xeyli imkanlara malikdir və dövlət qurumları ilə istehlakçıların daha çox sosial və vergi sahələrində əlaqələrinin inkişafında istifadə edilə bilər;

Consumer-to-consumer (C2C) - Burada istehlakçıların ticari məlumat mübadiləsi sahəsində əlaqələrindən söhbət gedir. Məsələn, hansısa bir malı almaq təcrübəsi, hansısa bir şirkətlə əməkdaşlıq təcrübəsi və sairə ola bilər. Həmin istiqamət fiziki şəxslər arasında hərrac şəklində ticarət əlaqələrini də əhatə edir.

Turizmdə yerləşdirmə müəssisələri, səyahət agentlikləri və turoperatorlar müxtəlif informasiya texnologiyalarından istifadə edərək idarəetmə, marketinq kimi sahələrdə e-ticarətə üstünlük verirlər [1, s.77]. Məsələn, hər-hansı bir turizm şirkəti marketinq/maliyyə funksiyalarını yerinə yetirmək üçün rabitədən istifadə etdikdə e-turizm fəaliyyətini də həyata keçirmiş olur. Turizm sektorunda elektron ticarət əlaqələri Cədvəl 1-də göstərilmişdir.

**Cədvəl 1.** Turizm sektorunda e-ticarət əlaqələri

| **E-ticarət əlaqələri** | **Şirkət** | **Müştəri** | **Dövlət** |
|---|---|---|---|
| **Şirkət** | B2B<br>Otellər və tur firmalar arasındakı informasiya şəbəkələri (extranet) | B2C<br>İstehlakçıların avia biletləri aldıqları zaman istifadə etdikləri elektron ticarət vasitələri | B2G<br>Dövlət qurumları ilə iş əlaqələri (otel investorunun otelin planının dövlət tərəfindən təsdiqlənməsi kimi) |

| | | | |
|---|---|---|---|
| **Müştəri** | C2B<br>İstehlakçıların seçimlərini avia şirkətlərin və ya otellərin özəl klublarında qeyd edilməsi | C2C<br>Istehlakçıların yaxşı ya da pis təcrübələrini digər istehlakçılarla bölüşməsi | C2G<br>İstehlakçıların viza üçün müraciət etmələri, xəritə və ya gediləcək yer haqqında məlumat əldə etmə istəkləri |
| **Dövlət** | G2B<br>Dövlətin otelləri ərzaq təhlükəsizliyi və ya vergilər mövzusunda məlumatlandırması | G2C<br>Dövlətin istehlakçıları hüquqi dəyişikliklər, təhlükəsizlik, viza və ya peyvəndlər haqqında məlumatlandırması | G2G<br>Dövlətlərin turizm siyasəti mövzusunda beynəlxalq şirkətlərdən texniki dəstək alması |

**Mənbə:** Pırnar İ. Turizm endüstrisinde e-ticaret, Ekonomik ve Sosyal Araştırmalar Dergisi, 2005, No.1, s.40.

Hər sahədə olduğu kimi turizm sahəsində də e-ticarətin tətbiqinin üstünlükləri və çatışmazlıqları mövcuddur. İnternet vasitəsilə həyata keçirilən reklam, satış, ödəniş prosesləri daha ucuz başa gəlir. İnternet həm də səsli, görüntülü və yazılı bir mətni eyni zamanda müştəriyə çatdırmaqda daha əlverişlidir. İnformasiyanın yayılmasında asanlıq və zaman baxmından az vaxtda daha çox iş görülməsi internetin üstünlüklərindəndir. İnternet vasitəsilə turizm şirkəti daimi müştərilərini diqqətdə saxlamağı bacarır, şirkət öz yeniliklərini asanlıqla müştəriyə çatdıra bilir. Bu həm də şirkət üçün lazımsız kağız sərfiyyatının qarşısını alır. Müştəri öz iş və ya yaşayış yerini tərk etmədən istədikləri əməliyyatı asanlıqla həyata keçirə, öz istəklərinə uyğun səyahət təşkil edə bilirlər. Turizm sektorunda e-ticarətin faydaları aşağıdakı kimidir:

- Surətlilik;
- Fərdilik;
- Nəticələrin ölçüləbilən olması;
- Ehtiyaclara uyğunluq və elastiklik;
- Xərclərin az olması;
- Marketinq araşdırması və məlumat toplanmasında asanlıq;
- Birbaşa ünsiyyət;
- Turizm müəssisələrinin xidmət keyfiyyətinin artması [8, s.42].

E-turizmin zəif tərəflərinə bəzi insanların hələ də internet istifadəçisi olmaması, göndərilən məktubların lazımlı-lazımsız hər kəsə çatması (SPAM), online-ödəniş zamanı təhlükəsizlik, əməliyyat zamanı komputer şəbəkələrində nasazlıq baş verməsi, bağlantılarda surətsiz internet kimi halları misal göstərmək olar. Elektron ticarətdən faydalanan şirkətlərin əsas məqsədi istehlakçılara təqdim etdikləri xidmətin keyfiyyətini artırmaq, daha çox gəlir əldə etmək və beləcə bazar payını artırmaqdır [9, s.67].

**Ədəbiyyat**


1. Buhalis D. eTourism. London: Prentice Hall, 2010.
2. Çöklü Ece (2004), Çeviren: Recep Özgür Yakupoğlu, Turizmde E-İş, Dünya Turizm Örgütü (WTO), İstanbul.
3. Glover M. Steven, Stephen W. Liddle ve Douglas F. Prawitt (2002), E-Business, Second Edition, Prentice-Hall, Upper saddle River, New Jersey.
4. Kamalov N., Zengin E., Öztaş C., E-ticaret ve KOBİLER. Elm və təhsildə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə dair elmi-praktiki konfransın materialları. Bakı: Qafqaz Universitetinin nəşriyyatı, 2007.
5. Məmmədov R.R., Abutalıbov R.R Qloballaşma və elektron ticarət. Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya. İqtisadiyyat və beynəlxalq münasibətlərə həsr olunmuş 3-cü Beynəlxalq konfrans materialları, Bakı: 2010, s. 103-120.
6. Məmmədov R.R. Səyahət agentliklərində internet istifadəsi: Azərbaycan Nümunəsi. Journal of Qafqaz University, 2009, No.28, s. 71-76.
7. Pırnar İ. Turizm endüstrisinde e-ticaret. Ekonomik ve Sosyal Araştırmalar Dergisi, 2005, No.1, s. 40-55.
8. Poon Aulina (2002), Tourism, Technology and Competitive Strategies, CAB International.
9. https://data.worldbank.org/indicator/IT.NET.USER.ZS
10. http://diskurs.az/az-rbaycan-elektron-ticar-t-ustunlukl-ri-v-catismazliqlari/


## AZƏRBAYCAN RESPUBLİKASINDA YAŞIL MALİYYƏ TƏTBİQLƏRİNİN DAVAMLI İNKİŞAFA TƏSİRİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ


**Nihad Qurbanzadə, Ruslan Məmmədov**

Azərbaycan Texniki Universiteti, Bakı, Azərbaycan

nihad.qurbanzade@gmail.com, ruslan.mammadov.e@gmail.com


Bu tezis Azərbaycanda yaşıl maliyyənin davamlı inkişafa təsirlərini araşdırmaq məqsədi daşıyır. Yaşıl maliyyənin qəbul edilməsinin motivi ətraf mühitin davamlılığı prinsiplərini əks etdirən layihələrə maliyyə dəstəyi verməkdir. Bu araşdırmada Azərbaycanın yaşıl maliyyə təcrübələrini mənimsəməsinin iqtisadi, ekoloji və sosial təsirlərini qiymətləndirmək üçün müxtəlif göstəricilərə nəzər salınacaqdır.

Yaşıl maliyyə ekoloji davamlılıq prinsipinə uyğun olaraq iqtisadi fəaliyyətləri

istiqamətləndirməyi hədəfləyən maliyyə yanaşmasıdır. Bu kontekstdə ətraf mühitə təsirləri azaldan, təbii ehtiyatları qoruyan və davamlı inkişafı dəstəkləyən layihələrə investisiya qoymağı hədəfləyir. Davamlı inkişaf, gələcək nəsillərin ehtiyaclarını nəzərə alaraq cari ehtiyacları ödəməklə cəmiyyət, ətraf mühit və iqtisadiyyatı tarazlaşdıran inkişaf modelinə aiddir. Bu konsepsiyalar iqtisadi artım, təbii sərvətlərin qorunması və sosial rifahın yüksəldilməsi arasında balanslaşdırılmış əlaqə yaratmaq məqsədi daşıyır.

Azərbaycanın iqtisadi-maliyyə strukturu enerji resurslarına əsaslanan iqtisadi modelə əsaslanır. Neft və təbii qaz ölkənin əsas gəlir mənbələri arasında olsa da, enerji sektorundan əldə edilən gəlirlər böyük iqtisadi təsir göstərir. Azərbaycan enerji ixracından əldə etdiyi gəlirlərin infrastruktur layihələrinə və iqtisadiyyatın şaxələndirilməsinə yönəldilməsi istiqamətində səylərini davam etdirir və paralel olaraq digər sektorlarda da inkişaflar yaşanır [1].

Yaşıl maliyyə ekoloji davamlılıq prinsipinə uyğun olaraq maliyyə qərarlarının və investisiyaların istiqamətləndirilməsinə aiddir. Bu maliyyə yanaşması ekoloji cəhətdən təmiz layihələri dəstəkləyir, iqlim dəyişikliyi ilə mübarizə aparan, enerji səmərəliliyini artıran, su ehtiyatlarını qoruyan və təbii ekosistemləri dəstəkləyən investisiyaları təşviq edir. Yaşıl maliyyənin elementlərinə yaşıl istiqrazlar, davamlı kreditlər, ekoloji risk qiymətləndirmələrini və davamlılıq meyarlarını özündə birləşdirən maliyyə məhsulları daxildir. Bu elementlər maliyyə sektorunda ətraf mühitə təsiri azaltmaq və davamlı inkişafa töhfə vermək məqsədi daşıyır [2].

Azərbaycanda yaşıl maliyyə ölkənin iqtisadi transformasiya prosesində və davamlı inkişaf məqsədlərinə uyğunlaşma prosesində əhəmiyyətli təkamül keçir. Enerji sektorunda aparıcı rolunu nəzərə alaraq, Azərbaycan ekoloji dayanıqlığa diqqət yetirib və yaşıl maliyyə tətbiqlərini qəbul etməklə yaşıl layihələrə sərmayə qoyub. Ölkədə yaşıl maliyyənin əhəmiyyəti Azərbaycanın inkişaf strategiyalarına inteqrasiya olunub, ətraf mühitə təsirin azaldılması, təbii ehtiyatların qorunması və iqtisadiyyatın dayanıqlı yolda gücləndirilməsi səylərini dəstəkləyib. Yaşıl maliyyənin təkamülü Azərbaycanın iqtisadi modelini şaxələndirmək və ekoloji davamlılığı vurğulamaq səylərinin bir hissəsi kimi qəbul edilə bilər.

Azərbaycan davamlı inkişaf məqsədlərinə uyğun olaraq öhdəliklərini artırmış ölkə kimi seçilir. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərini qəbul edib və bu məqsədlərə nail olmaq əzmini nümayiş etdirib. Xüsusilə enerji sektorunda davamlı təcrübələr, iqtisadiyyatın şaxələndirilməsi səyləri və ekoloji layihələrə investisiyalar Azərbaycanın davamlı inkişaf sahəsində öhdəliklərini əks etdirən mühüm addımlardır. Azərbaycan davamlı inkişaf kontekstində milli strategiyalarını gücləndirir və müxtəlif

sektorlarda davamlı təcrübələri təşviq edir [3].




**Qrafik 1**. Azərbaycanda Yenilənə bilən Enerji İstehsalı və Yaşıl Maliyyələşdirmənin İllik İnkişafı

Azərbaycanda yaşıl maliyyə tətbiqləri ekoloji davamlılıq prinsipinə əsaslanan maliyyə məhsullarıdır. Bu tətbiqlərə yaşıl istiqrazlar, davamlı kreditlər və ekoloji cəhətdən təmiz layihələrin maliyyələşdirilməsinə yönəlmiş digər maliyyə tətbiqləri daxildir. Yaşıl maliyyə tətbiqlərini qəbul etməklə Azərbaycan ekoloji layihələri dəstəkləmək və iqtisadi fəaliyyətlərini ətraf mühitə təsirin azaldılmasına yönəltmək öhdəliyini əks etdirir. Yaşıl maliyyə tətbiqləri ölkənin davamlı inkişaf məqsədlərinə nail olmaq səylərini dəstəkləmək üçün maliyyə sektorunda getdikcə daha çox əhəmiyyət kəsb edir.

***Yaşıl istiqrazlar*** ekoloji cəhətdən təmiz layihələrin maliyyələşdirilməsi üçün buraxılan maliyyə tətbiqləridir. Bu istiqrazlar investorlara ekoloji davamlılıq meyarlarına cavab verən layihələri dəstəkləmək imkanı təklif edir.

***Davamlı kreditlər*** maliyyə institutları tərəfindən ekoloji cəhətdən təmiz və sosial məsuliyyət layihələri üçün xüsusi olaraq ayrılan kredit məhsullarıdır. Bu kreditlər layihələrin ətraf mühitə təsirini azaltmaq və ya sosial inkişafa töhfə vermək məqsədlərini dəstəkləyir.

Digər yaşıl maliyyə tətbiqləri müxtəlif maliyyə tətbiqlərini əhatə edir və ümumiyyətlə ekoloji və sosial davamlılıq prinsiplərinə uyğun olan layihələri maliyyələşdirməyi hədəfləyir. Bu tətbiqlərə yaşıl istiqrazlar, yaşıl fondlar və ekoloji risklərin qiymətləndirilməsi tətbiqləri kimi müxtəlif tətbiqlər daxildir [4]. Yaşıl maliyyə tətbiqləri maliyyə sektorunu ətraf mühit və sosial təsirləri qiymətləndirməyə və davamlılığı dəstəkləməyə istiqamətləndirən mühüm tətbiqlərdir.

Azərbaycan yaşıl maliyyəni təşviq etmək və davamlı layihələrə investisiyaları

dəstəkləmək üçün müxtəlif siyasət və qaydalar işləyib hazırlayıb. Bu siyasət və qaydalardan bəzilərinə aşağıdakılar daxildir:

1. **Yaşıl Maliyyə Strategiyası:** Azərbaycan milli səviyyədə yaşıl maliyyənin inkişafı və qəbulunu dəstəkləmək üçün strategiya yaratmışdır. Bu strategiya ətraf mühitin davamlılığı prinsipini qəbul edərək maliyyə sektorunu davamlı investisiyalara yönəltməyi hədəfləyir.
2. **Yaşıl İstiqraz Emissiyaları:** Azərbaycan yaşıl istiqrazların buraxılması istiqamətində müxtəlif addımlar atıb və bu istiqrazlar vasitəsilə ətraf mühit layihələrinin maliyyələşdirilməsini hədəfləyir. Bu istiqrazlar özəl və dövlət sektoru layihələri üçün ekoloji məqsədlərə uyğun olaraq istifadə olunur.
3. **Davamlı Kredit Proqramları:** Azərbaycanda maliyyə institutları davamlı kredit məhsulları təklif etməklə ətraf mühitə və sosial təsirlərin azaldılmasına yönəlmiş layihələri dəstəkləyir. Bu kredit proqramları müxtəlif sektorlarda davamlılıq meyarlarına cavab verən layihələri maliyyələşdirmək məqsədi daşıyır.
4. **Yaşıl Maliyyənin Təşviqi:** Azərbaycan hökuməti yaşıl maliyyəni təşviq etmək üçün vergi üstünlükləri, təşviqlər və digər iqtisadi dəstək mexanizmlərini özündə əks etdirən siyasətlər işləyib hazırlayıb. Bu təşviqlər yaşıl investisiyaları cəlb etmək və davamlı layihələri təşviq etmək məqsədi daşıyır.
5. **Ekoloji Risklərin Qiymətləndirilməsi:** Azərbaycanın maliyyə sektoru ekoloji risklərin qiymətləndirilməsini həyata keçirməklə ətraf mühitə təsirləri minimuma endirmək və investisiyaları daha davamlı etmək məqsədi daşıyan qaydalar qəbul etmişdir.

Bu siyasət və qaydalar Azərbaycanın yaşıl maliyyəyə sadiqliyini və davamlı inkişaf məqsədlərinə verdiyi töhfəni əks etdirir.

Yaşıl maliyyə təcrübələrinin Azərbaycan iqtisadiyyatına təsiri davamlılıq prinsipi əsasında investisiyaların artırılması və ekoloji layihələrin maliyyələşdirilməsinin gücləndirilməsi kimi qiymətləndirilə bilər. Bu təcrübələr, xüsusilə enerji sektorunda təmiz enerji layihələri və ekoloji cəhətdən təmiz infrastruktur işləri kimi sahələrdə iqtisadi artımı dəstəkləməklə ekoloji davamlılıq və iqtisadi inkişafın balanslaşdırılmış birləşməsinə töhfə verə bilər. Yaşıl maliyyə ekoloji cəhətdən təmiz sektorlarda iş yerləri yaratmaqla Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsini sürətləndirə və məşğulluğu artıra bilər [5].

Davamlı inkişafın monitorinqi üçün müxtəlif göstəricilərdən istifadə olunur. Bu göstəricilər iqtisadi, ekoloji və sosial ölçülərdə inkişafın tərəqqisini qiymətləndirmək üçün nəzərdə tutulub. Hazırlanmış göstəricilərə yoxsulluq dərəcələri, təhsil səviyyəsi, təmiz enerji istifadəsi, ekosistemin qorunması, gender bərabərliyi kimi müxtəlif sahələrdə ölçmələr daxildir. Bu göstəricilər dayanıqlı inkişaf məqsədlərinə nail olunmasının gedişatını izləməklə, eləcə də

inkişaf səylərinin təsirlərini qiymətləndirməyə kömək etməklə siyasətçiləri və cəmiyyəti məlumatla təmin edir [6].

**Nəticə**

Azərbaycanın davamlı inkişaf məqsədlərinə nail olmaq səylərini dəstəkləmək üçün yaşıl maliyyə təcrübələrinin qəbul edilməsi müsbət ekoloji, iqtisadi və sosial təsirlər göstərmişdir. Yaşıl maliyyə layihələri vasitəsilə həyata keçirilən ekoloji sərmayələrə enerji səmərəliliyi, təmiz enerji istehsalı və ekoloji cəhətdən təmiz infrastrukturun inkişafı istiqamətində addımlar daxildir. İqtisadi nöqteyi-nəzərdən yaşıl maliyyənin qəbulu maliyyə sektorunun ekoloji məsuliyyətini artırmış, eyni zamanda yaşıl layihələrin maliyyələşdirilməsinin artımını dəstəkləmişdir. Sosial baxımdan, həyat standartlarını yaxşılaşdırmaq məqsədi daşıyır. Bunun nəticəsidir ki, Azərbaycanda yaşıl maliyyənin qəbulu ekoloji, iqtisadi və sosial davamlılığı gücləndirib, davamlı inkişaf sahəsində konkret addımlar atmağa imkan verib.

**Açar sözlər:** Yaşıl maliyyə, davamlı inkişaf, ətraf mühit siyasəti, iqtisadi inkişaf.

## Ədəbiyyat

1. Nasibov Murad. Energy governance in Azerbaijan. Handbook of energy governance in Europe. Cham: Springer International Publishing, 2022, 483-509.
2. Nuriyev Mahammad, Aziz Nuriyev, Jeyhun Mammadov. Renewable Energy Transition Task Solution for the Oil Countries Using Scenario-Driven Fuzzy Multiple-Criteria Decision-Making Models: The Case of Azerbaijan. Energies 16.24, 2023, 8068.
3. Pashayev Elvin, Umudvar Alıyev. Analysis of State Revenues and Expenditures to Ensure Sustainable Development in Azerbaijan and Directions for their Improvement. Expert Journal of Economics 8.1, 2020.
4. Cholewa Marcin, Farid Mammadov, Agnieszka Nowaczek. The obstacles and challenges of transition towards a renewable and sustainable energy system in Azerbaijan and Poland. Mineral Economics 35.1, 2022, 155-169.
5. Alakbarov Fariz et al. The Assessment Of Sustaınable Development Factors In The Rural Areas-A Case Study From Azerbaıjan. Scientific Papers Series Management, Economic Engineering in Agriculture & Rural Development 23.4, 2023.
6. Huseynli Huseyn. The Main Research Themes In The Case Of Azerbaijan Economy: A Brief Literature Survey. Scientific Collection «InterConf» 107, 2022, 34-43.
7. Cabbarova Sevinc, Azərbaycanda yaşıl təchizat zəncirinin tətbiqi və onun distribütor şirkətlərdə ekoloji və iqtisadi faydalarının qiymətləndirilməsi. Diss. Azərbaycan Texniki Universiteti, 2023.

# TURİST DAVRANIŞLARINDA TƏBİƏTİ QORUMAĞA YÖNƏLMİŞ YENİ ÖLÇÜ MEYARI

**Samir Sahibli**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
samirsahibly@gmail.com

Turizmin müsbət cəhətləri ilə yanaşı mənfi cəhətləri də var. Bunlardan ən başlıcası ekologiyaya, ətraf mühitə vurulan ziyandır. Misal olaraq, ətrafa tullantıların atılması və ya turizmin bəzi növlərində ətraf mühitdən zərərli şəkildə istifadə olunması kimi amilləri göstərmək olar. Qlobal problemlərin fonunda ətraf mühitin qorunması ən vacib amillərdən biridir. Ətraf mühit - insan sağlamlığının "ana vətənidir". Ona görə də, turistik səyahətlərdə ətraf mühitə qayğıkeş münasibət, məshuliyyətli davranış ən vacib məsələlərdən biridir. Yaşıl turizm kimi tanınan bu konsepsiya - "ətraf mühiti qoruyan, yerli əhalinin rifahını təmin edən, özünüifadə və təhsili ehtiva edərək, təbii ərazilərə məsuliyyətli səyahət" kimi müəyyən edilir [2]. Burada bizim məqsədimiz, bu kimi amillərin aradan qaldırılmasına dair yeni bir ölçü, meyar irəli sürməkdir.

Məlumdur ki, qadağalar çox zaman effektiv olmur. Hətta, məsələn, "Bura zibil atmaq qəti qadağandır!" əvəzinə: "Ətrafa zibil atmadığınız üçün sizə minnətdarıq!" – kimi pozitiv qadağalar da effektiv olmur. Ona görə də, biz fikirləşirik ki, ekoloji tərbiyə daha erkən və yeniyetmə yaşlarından başlamalıdır. Bunun üçün isə biz aşağıdakı kimi bir metod irəli sürmək istəyirik.

Biz insanların şüuraltına təsir edərək onların iradələrini nizama sala bilərik. Məlumdur ki, insanın iradəsi əsasən uşaq və yeniyetmə yaşlarında formalaşır. Ancaq bu kiçik şüurlara təsir etmək metodları ötən əsrlərlə müqayisədə indi daha əlçatandır. Belə ki, əgər ötən əsrlərdə insanlara hər hansı davranışı təlqin etmək, aşılamaq üçün uzun vaxt tələb olunurdusa, indiki dövrdə bu vaxtı qısaltmaq mümkündür. Davranışın baş verdiyi situasiyalar adi həyatda gec-gec baş verir. Bunun üçün tərbiyəçilər də məcburən həmin davranışları nəzəri şəkildə təsvir edir və izah etməyə çalışırdılar. Məlumdur ki, bu metod elə də effektiv olmurdu və tərbiyə olunanlar da həvəsli olmurdular. Lakin müasir dövrdə, yəni hər şeyin sürətləndiyi bir dövrdə, bu prosesləri sürətləndirmək mümkündür. Oyunların köməyi ilə situativ davranışları adi həyatdakına nisbətən daha tez-tez törətmək olar. Bununla da davranışın tələb olunduğu situasiyaların sayını artırmaq mümkündür. Başqa sözlə desək, müasir informasiya texnologiyaları müasir dövrdə əvəzedilməz vasitəyə çevriliblər. Xüsusən, smartfon və

kompüter oyunları uşaqların düşüncələrinə təsir edə bilən ən güclü metodlardan biridir. Turistik davranışları bu cür oyunlara inteqrasiya etməklə, tərbiyə olunanların şüuruna bu davranışların həssaslığını, etika və estetikasını alışalamaq mümkündür. Məsələn, böyük oyun şirkətlərdən olan "Rockstar Games"ın [1] hazırladığı "Open World" ("Açıq Dünya") [3] tipli "Grand Theft Auto" seriyası və "Red Dead Redemption" seriyası oyunlarına bənzər bir turistik məzmunlu oyunlar hazırlamaq olar. "Open World" tipli oyunlarda oyunun baş qəhrəmanı olan obraz istədiyi şəkildə, öz iradəsi ilə real həyatdakına bənzər şəkildə hərəkət etmək imkanı var. O, qeyri-legal hərəkətlər edərək istədiyi maşını sürə bilər, istədiyi məkana daxil ola bilər, silah ala bilər, oyunun xəritəsində istədiyi yerə gedə bilər, helikopter, gəmi, motosikleti idarə edə bilər, yaxud da, ətrafı dağıdaraq cinayət törədə bilər. Bu tip oyunların əsas hekayəsi və vəzifəsi (missiyası) olur. Baş qəhrəmanın isə bu missiyanı tamamlaması nəzərdə tutulur. Uşaqlar da, əsasən, oyunu hekayəsinə görə sevir və missiyaları tamamlamağa səy göstərirlər. Bu isə uşaqlara böyük zövq verir. Tədqiqatlara görə, xoşbəxtlik hormonu olan Dopaminin ifrazı komputer oyunlarında da baş verir [4].

Turistik məzmunu bu tipli oyunlarla simulyasiya edərək, dünya ölkələrinə virtual səyahət etmək mümkündür. Məsələn, siz turpaket alaraq təyyarə ilə Romaya gedirsiniz, yerləşsiniz, qidalanırsınız, turistik yerləri gəzirsiniz və s. Bu prosesləri simulyasiya edərək yeni bir oyun yaratmaq olar. Hər şeydən əlavə biz oyunda ekologiya və ətraf mühitə olan həsasslığa və məsuliyyətə fokuslana bilərik. Oyunların professional şəkildə hazırlanması və görüntülərin gerçəyə çox yaxın olması ilə insanlara səyahətin realayaxın həzzini yaşatmaq mümkündür. Ətraf mühitə yönəlmiş bu cür həssaslığı isə müxtəlif oyun mexanizmləri ilə mükafatlandırmaq olar. Bunlar hər hansı bonuslar, pula çevrilə bilən xallar, hədiyyə paketləri və s. ola bilər. Fikrimizcə, bu həssaslığı və məsuliyyəti, məsələn, 0-100 şkalası ilə ölçərək oyunçuya sertifikat şəklində və ya CV-sinə yazılacaq bal şəkildə verilə bilər ki, bu meyar da onun gələcək iş, səyahət və turizm həyatında əhəmiyyətli rol oynaya bilər.

Beləliklə, biz bu tezisimizdə, informasiya əsrinin imkanlarından istifadə edərək, belə bir fikir irəli sürürük ki, insanlar hər hansı ödəniş edib oyunlar oynadığı kimi, bu prosesin əksini də mümkündür. Yəni onların qazandıqları xallar rəsmiləşdirilərək hər hansı məqsədlər üçün, bizim misalda ətraf mühitin qorunması üçün istifadə edilə bilər. Yəni Real-Virtual mexanizminin əksi olan Virtual-Real müxanizmindən də, gerçək dünyamız üçün faydalar transfer etmək olar.

**Açar sözlər:** Şüuraltı, turistik məzmun, Open World, simulyator, həssaslıq, məsuliyyət, meyar.

**Ədəbiyyat**

1. Rockstar Games, I. Retrieved 03.23.2024, from https://www.rockstargames.com/
2. The International Ecotourism Society (TIES). Retrieved 03.23.2024, from https://ecotourism.org/what-is-ecotourism/
3. World, O. Retrieved 03.23.2024, from https://en.wikipedia.org/wiki/Open_world
4. Weinstein, A.M. (2010). Computer and video game addiction-a comparison between game users and non-game users. The American journal of drug and alcohol abuse, 36(5), 268-276.

# TURİZMİN RESURS POTENSİALININ ARTIRILMASI MƏSƏLƏLƏRİ

**İlkin Səlimov**
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

İstirahət obyektlərindən istifadənin səmərəliliyini artırmaq üçün həm ənənəvi, həm də innovativ üsullar mühüm əhəmiyyət kəsb edir. Hal-hazırda obyektin statusu, mülkiyyət forması, onun cəlbediciliyinin gücləndirilməsi çox vacib məsələlərdən biridir.

İstirahət obyektlərinin şəxsi mülkiyyətə və şəxsi rekreasiya istifadəsinə verilməsi, birincisi, onların istifadə dərəcəsini aktivləşdirə bilər, ikincisi, təhlükəsizliyini təmin edə bilər, üçüncüsü, əlavə xidmətlər yarada bilər. Özəl turizm obyektlərinin yaradılması və istismarı üçün əsas məsələ təhlükəsizliyi və gəlirliliyi təmin edən plan, hüquqi və iqtisadi mexanizmlərin hazırlanmasıdır [1].

İrsi obyektlərlə əlaqəli olan mülkiyyət məsələləri torpaq mülkiyyəti problemi ilə bağlıdır, ona görə də irs obyektinin təhvil verilməsi mexanizmi işlənib hazırlanmalıdır, mülkiyyətçi üçün torpaq haqqının məbləği müəyyən edəlməlidir. Regional qanunvericiliyin təhlili göstərdi ki, yalnız mədəniyyət binalarının dini qurumlara verilməsinə; təbiət və tarix-mədəniyyət obyektləri üçün mühafizə zonalarının yaradılmasına; irsi obyektlərin bərpası, onların təmiri, yeni abidələrin yaradılması məsələlərinə xüsusi diqqət verilir, lakin sığorta məsələləri, irs obyektlərinin qiymətləndirilməsi, dəymiş ziyanın ödənilməsi məsələlərinə praktiki olaraq fikir verilmir.

Nadir obyektlərin statusu müəyyən edilməklə dövlətin ixtiyarında saxlanılması mümkündür. Bu cür obyektlər muzey idarələrinin tabeliyində ola bilər, xüsusi statusa malik olmaqla daha böyük müstəqillik və obyektlərdən istifadənin yeni formalarının tətbiqi üzrə fəaliyyətin genişləndirməsi hüququ və birgə maliyyələşdirmə mövcud ola bilər (kiçik tarixi

şəhərlər, xüsusi mühafizə olunan təbiət əraziləri (milli parklar), nadir tarixi ərazilər); onların beynəlxalq əhəmiyyətli obyektlər kimi tanıtması, həm xeyriyyə, həm də kommersiya kapital qoyuluşunu özündə ehtiva edən siyasət əsasında xarici investisiyaların cəlb edilməsi mümkündür.

Tipik, seriyalı obyektlər üçün onların sonrakı istifadəsi perspektivlərini və bununla bağlı onların statusunu və mülkiyyət formasını dəyişmək imkanlarını müəyyən etmək lazımdır. Onların arasında qısamüddətli və uzunmüddətli icarəyə verilən obyektlər, sonrakı istifadə forması müəyyən edilməklə fiziki və hüquqi şəxslərə satış üçün hərraca çıxarılan obyektlər, bəziləri isə müəyyən şərtlərlə bu obyektləri bərpa etmək, yenidən təchiz etmək və qorumaq iqtidarında olan iri təşkilatlara verilir.

Seriallı obyektlər üçün onların istifadəsini təşkil edə bilən səhmdar cəmiyyəti kimi yeni idarəetmə formaları hazırlanır, bu səhmdar cəmiyyətləri həm də onların istifadəsindən kommersiya mənfəətinin qorunmasında və əldə edilməsində maraqlıdırlar. Özgəninkiləşdirilən əmlakın hüquqları təsdiq edildikdən sonra keçmiş mülkiyyətçilərin varislərinə qaytarılması və ya uzunmüddətli icarəyə verilməsi və ya obyektin keçmiş mülkiyyətçilərin varislərinin bilavasitə iştirakı və marağı ilə muzey kimi saxlanılması mümkündür.

Mülkiyyət formasından və statusundan asılı olmayaraq, turizm obyektlərinin cəlbediciliyini artırmaq üçün fəal iş aparılmalıdır və bunun aşağıdakı tədbirlər görülməlidir:

– turizm məhsullarının geniş distribütor şəbəkəsini yaratmaqla (bu sahədə xarici ölkələrin təcrübəsinindən yararlanmaqla turlar, qısamüddətli ekskursiyalar) hər bir müştəri üçün komissiya haqqı almaqla agentləri maraqlandırmaq, firmaların maraqlarını şəhərin müxtəlif yerlərində yığılmış kiçik mobil qruplara yönəltmək və məcburi köçürmə prinsipindən istifadə edərək toplama məntəqəsinə və geriyə köçürmə şəbəkəsi yaratmaq, bunun üçün mikroavtobuslar şəbəkəsi uyğun gəlir.

– məcburi köçürmə (səyyar mikroavtobuslar) əsasında kiçik turist qrupları formalaşdırmaq;

– öz mallarını bazarda satmaq marağıda olan ayrı-ayrı firmaların reklam vasitəsilə ekskursiyaların, turların qiymətlərinin aşağı salınması. Ayrı-ayrı obyektləri və ya marşrutları tanıtmaq üçün digər ölkələrin təcrübəsindən istifadə etmək lazımdır: məsələn, öz məhsullarını potensial istehlakçılara təqdim edən ayrı-ayrı şirkətlərin reklam kampaniyası ilə əlaqədar turistləri təyinat yerinə çatdıran nəqliyyat tariflərinin kəskin aşağı salınması;

– lazımi infrastrukturun tələb olunan xidmət səviyyəsinin yaradılması. Müasir imkanlar baxımından bu öz ilkin kapitalı hesabına və ya onu cəlb etmək üçün hər hansı digər formadan istifadə etməklə əksər istifadəçilər üçün əlçatan olan minimal xərclə edilə bilər. İlkin mərhələdə

minimum avroklas xidmətləri - duşlar, standart tualet və ya quru şkaf, mikrodalğalı soba, kupe tipli yataq otaqları, kimyəvi təmizləmə və avtomatik camaşırxana xidmətləri, ən zəruri malların satışı üçün avtomatlar, şəhərlərarası xidmət, telefon qutusu, aptek, yanacaqdoldurma məntəqəsinin yaxınlığı, parkinq və avtomobil icarəsi yaratmaq lazımdır. Mühüm şərt istirahətin təhlükəsizliyi, o cümlədən ekoloji təhlükəsizlik – sığorta, ümumiyyətlə təhlükəsizlik, tibbi xidmət, evakuasiya və gediş imkanı;

– turistlərin tədris-əyləncə prosesində fəal iştirakının bütün formalarını genişləndirməklə, xarici təcrübədən istifadə etməklə müxtəlif animasiya formalarını, habelə ənənəvi, müasir şəraitə uyğunlaşdırılmış milli formaları tətbiq etmək [2] və s.

**Açar sözlər:** Turizm, mülkiyyət, təhlükəsizlik, sığorta, xidmət.

### Ədəbiyyat

1. Bilalov B.Ə., Gülalıyev Ç.G. Turizmin əsasları. QHT Nəşriyyatı, Bakı, 2015.
2. Soltanova H.B. Azərbaycan Respublikasında turizm və onun inkişafı. AzTU-nun mətbəəsi, Bakı, 2015.

## DEPOZİT SİYASƏTİ VƏ TURİZMDƏ DEPOZİTLƏRİN SIĞORTALANMASININ HÜQUQİ MEXANİZMİ

**Tuqay Şıxıyev**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
tugay.shikhiyev@student.au.edu.az

Azərbaycanda turizm sektorunda depozit siyasəti, turizm müəssisələrinin müştərilərdən tələb etdikləri depozitlərin ölçüsü və şərtləri barədə tənzimləmələri daxil edir. Həmin siyasət, müxtəlif turizm müəssisələri üçün fərqli ola bilər, məsələn, otellər, tur paketləri təqdim edən şirkətlər, tur agentlikləri və s. Bu siyasət, turistlərin öncədən ödədikləri və ya depozit olaraq qoymaları tələb olunan məbləğlərə dair qaydaları, geri qaytarılma şərtlərini və cərimələri təyin edir.

– Özəlliklə, turistlərin rezervasiya etdikləri otellərdə və ya tətil komplekslərində yer ayırtmaq üçün ödədikləri depozitlər üçün qaydalar müəyyənləşdirilir [4]. Ayrıca, bu siyasət turizm müəssisələrinin və dövlət qurumlarının tərəfindən təmin olunan müştərilərin hüquqlarını

qorumaq məqsədilə hazırlanır. Məsələn, turistlərin keyfiyyətli xidmətlər almağını təmin etmək və turizm məkanlarının güvənliyini qorumaq üçün bu siyasətlərə əsasən əməliyyat edilir.

– Azərbaycanda turizm sektorunda depozit siyasəti ilə bağlı konkret məlumatlar və qanunvericilik, Azərbaycan Respublikasının turizm sahəsində fəaliyyət göstərən dövlət təşkilatları və turizm qanunvericiliyi tərəfindən təmin edilir. Depozitlərin siğortalanmasının hüquqi mexanizmi ölkədən ölkəyə dəyişə bilər, ancaq ümumilikdə, bu proses müvafiq hüquqi və maliyyə tədbirləri ilə təmin edilir. İstəyə bağlı siğota şirkətləri və dövlət orqanları tərəfindən icra olunur.

Qanunvericilik: Bir çox ölkədə, turizm və konaklama müəssisələrində depozitlərin siqortalanası barədə məhdudiyyətlər və tələblər qanunvericiliklə təyin olunur. Bu, müştərilərin və müəssisələrin hüquqlarını qoruyan qanunlar təmin edir.

Sığorta şirkətləri: Müştərilər və ya turizm müəssisələri, depozitlərin siğortalanması üçün müvafiq siğorta şirkətlərinə müraciət edə bilərlər. Bu şirkətlər müştərinin ödədiyi depozit məbləğini müxtəlif risklərə qarşı siğortalaya bilər.

– Dövlət təminatı: Bir çox ölkədə, turizm sektorunda depozitlərin siğortalanmasını dövlət təmin edir. Bu, turizm sahəsində keyfiyyətli xidmətlərin təmin edilməsini və müştərilərin hüquqlarının qorunmasını təmin etmək üçün dövlət tərəfindən təmin edilən bir imkan ola bilər. Hüquqi mexanizmlər ölkələr arasında dəyişir və hər bir ölkənin öz siğorta sistemi və qanunvericiliyi mövcuddur. Bu səbəbdən, depozitlərin siğortalanmasının əsas prinsipləri və prosedurları hər bir ölkədə fərqlilik göstərə bilər. Turistlər və turizm agentlikləri arasındakı depozit əlaqəsi, səyahət agentliyinin təmin etdiyi xidmətlərə əlavə ödənişləri təmin etmək və müştri xidmətlərinə dair riskləri əvvəlcədən ödəmək üçün alınır. Turist, səyahət agentliyinə giriş ödənişləri, tur paketlərinin dəyişdirilməsi, götürülən turların və ya digər səyahət xidmətlərinin əlavə xərcləri kimi məqsədlərlə depozit verə bilər. Bu depozit genelliklə müştəri turizm xidmətlərindən faydalanmadan əvvəl ödənilir və turun sona çatmasından sonra geri qaytarılır. Depozit, səyahət agentliyinə dair məsuliyyəti və təşkilatlanmış səfərlərdə yaşanabilecək mövcud maliyyə risklərini əhatə edir.

Turizm agentlikləri və turistlər arasındakı depozit əlaqəsi, yazılı bir müqavilə və ya səyahət paketi tərəfindən təmin edilən sərəncamlar vasitəsilə müəyyənləşdirilir. Bu məsələlər genəliklə hüquqi məsuliyyət, ödəniş şərtləri, geri qaytarılma siyasəti və digər məsələləri əhatə edir. Azərbaycanda otellərin depozit siyasəti müxtəlif olabilir, amma əsasən aşağıdakı əsas məsələlərə əsaslanır.

– Depozit Məbləği: Otellər, qonaqlardan götürüləcək depozit məbləğini müəyyənləşdirir. Bu məbləğ otağın qiymətinə, qonaqların sayına və digər faktorlara bağlı olaraq dəyişə bilər.

– Ödəmə Metodu: Otellər, depozit məbləğini qəbul etmək üçün müxtəlif ödəniş üsullarını qəbul edə bilərlər. Kredit kartı ön icazələnməsi, nağd depozit və ya bank köçürmə kimi seçimlər olabilir.

– Depozitin Geri Qaytarılması: Depozit, qonaqların otağı tərk etdikdən sonra otaq yoxlanıldıqdan və heç bir ziyan və ya eksiklik olmadığına əmin oldugda geri qaytarılır. Qaytarılma prosesi genelliklə otaq tərk edildikdə həyata keçirilir.

– Depozit Məqsədi: Depozit, otelin ziyan görülə biləcəyi, əlavə xidmətlərin istifadə edilə biləcəyi və ya digər maliyyə risklərinin qarşılanması üçün alınır.

- Depozit İadə Şərtləri: Otellər, depozit məbləğinin hansı şərtlərlə və necə geri qaytarılacağını öncədən müəyyənləşdirir. Bu şərtlər genəliklə rezervasyon şərtləri və otelin depozit siyasəti daxilində müəyyənləşdirilir.

Müştəriyə oteldəki depozit siyasəti barədə ətraflı məlumat verilməlidir və bu, müştri ilə otel arasında qarşılıqlı anlayış və etibarın təmin edilməsinə kömək edir.Bu siyasət, müştəri ilə müəssisə arasında ədalətli bir qarşılıqlı qorunma təmin edir və turizm sahəsində güvən və keyfiyyətli xidmətlərin əhatəsini təmin edir [7].

**Açar sözlər:** Sığorta, hotel, turizm, depozit siyasəti, turist.

## Ədəbiyyat

1. Теоретические аспекты управления инвестиционным потенциалом туризма, О.В. Баскакова, О.В. Баскаков.
2. Экономика и управление туристской индустрией, М.Л. Чумаченко, И.Л. Чумаченко.
3. Организация и управление в сфере туризма и гостеприимства, Л.В. Маршалкина, Н.В. Максимова, Н.Г. Ширинская.
4. Туризм и гостеприимство: теория и практика, О.В. Баскакова, А.В. Баскаков, Т.Л. Пискун.
5. Туризм как вид экономической деятельности, Н.П. Абдуллина, М.С. Кобелева, М.Н. Логинова
6. Turizm ve Konaklama İşletmeciliği, Semra Akkuş, Sevinç Gürbüz.
7. Turizm İşletmeciliği, Ahmet Anıl Dindar.
8. Turizm Ekonomisi ve İşletmeciliği, Vildan Serin, Tülay Kök.
9. Turizm İşletmeciliği ve Otel İşletmeciliği, Mithat Zeki Dinçer.

10. Turizm Hukuku, Bahadır İnce.
11. Tourism and Travel Insurance: A Guidebook for Tourism Professionals, Peter Tarlow.
12. Risk Management in Tourism: From Theory to Practice, C. Michael Hall, Dallen J. Timothy.
13. Tourism Security: Strategies for Effectively Managing Travel Risk and Safety, Peter Tarlow.
14. Tourism Economics, Larry Dwyer, Peter Forsyth, Wayne Dwyer.
15. Tourism Management: Managing for Change, Stephen.
16. Tourism Marketing for Cities and Towns: Using Social Media and Branding to Attract Tourists, Bonita Kolb.

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA TURİZMİN FORMALAŞMASI İSTİQAMƏTLƏRİ

**Şahnar Tağıyev**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
Sahsevart@icloud.com

Turizm tarixi və mədəni irsin qorunması və inkişafına müsbət təsir göstərir, müxtəlif ölkələr və xalqlar arasındakı əlaqələrin uyğunlaşmasına gətirib çıxarır, hökumətləri, qeyri-hökumət təşkilatları və kommersiya strukturlarını ətraf mühitin mühafizəsi və təkmilləşdirilməsində aktiv iştirak etməyə cəlb edir. Azərbaycanda müasir turizm sənaye iqtisadiyyatın ən sürətlə irəliləyən sektorlarından biridir və həm müstəqil iqtisadi fəaliyyət növü, həm də sektorlararası bir kompleks kimi qəbul edilə bilər [5].

Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası strategiyasında turizmin inkişafı prioritet istiqamət təşkil edir. Çünki həmin ərazilərdə turizm potensialı olduqca zəngindir, burada mövcud sektorun inkişafı üçün bütün imkanlar var. Başqa sözlə, Azərbaycanın bu qədim tarixə malik bölgəsi özünün flora və faunası, mətbəxi, tarixi mədəni-dini abidələri, qədim qalaları, körpüləri, meşələri, bulaqları və s. Görməli məkanları ilə maraq doğurur. Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilən ərazilərin turizmin inkişaf strategiyası və konsepsiyasının hazırlanması da bunun bariz ifadəsidir.

Ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərini təşkil edir.

"Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaq". Bu fikirləri Prezident İlham Əliyev fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində bildirib. Dövlət başçısı vurğulayıb ki, o bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı və turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcək.

Qarabağ və Şərqi Zəngəzurda sosial infrastruktur yaradılır, xəstəxanalar, məktəblər, idman obyektləri, tikilir, yollar, tunellər, körpülər salınır, dəmir yolları çəkilir. Bütün elektrik təsərrüfatı yenidən qurulub, iki beynəlxalq hava limanı açılıb, üçüncüsü Laçında açılacaq. Məqsəd həyat əlaməti qaytarılacaq əraziləri ölkənin sosial, iqtisadi, mədəni həyatına bağlamaq, burada dövlət-özəl tərəfdaşlığına əsaslanan iqtisadi artımı stimullaşdırmaq və dayanıqlı məskunlaşmanı təmin etmək kimi hədəflərin həyata keçirilməsində institusional baza yaratmaqdan ibarətdir. Zəruri infrastrukturdan danışarkən, yol və sudan başqa, işıq və qaz təminatı da ön planda yer alır. İşğaldan azad olunan ərazilərdə elektrik enerjisinin təminatı ilə əlaqədar görülən işlərin səviyyəsi həqiqətən də heyranedicidir.

Bütövlükdə, azad edilmiş torpaqlarımızın həm istehsal, həm də kənd təsərrüfatı potensialı böyükdür. Bu baxımdan, bərpa işlərindən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanda iqtisadi inkişafa xüsusi töhfə verəcək, inkişafın yeni lokomotivinə çevriləcək. Bərpa prosesindən sonra həmin bölgələrimizdə məhsul istehsalının formalaşması Qarabağ və Şərqi Zəngəzurun Azərbaycan iqtisadiyyatındakı payının 8 faizədək yüksəlməsinə gətirib çıxaracaq.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının münbit torpağı, zəngin təbiəti, o cümlədən su ehtiyatları kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafına imkan yaratmaqla məhsuldarlığı da artıracaq. İşğaldan azad olunmuş ərazilər iqtisadi potensialı ilə yanaşı, eyni zamanda aqrar sektorda, əsasən də buğda və taxıl istehsalında xüsusi paya malikdir. Füzuli, Ağdam və digər rayonlarımızda daha yüksək məhsuldarlıqla taxıl istehsalını təşkil etmək mümkündür. İlkin qiymətləndirmələr göstərir ki, bərpa və yenidənqurma prosesindən sonrakı mərhələdə bütövlükdə bu ərazilərdə 1 milyard manatlıq kənd təsərrüfatı məhsulları yetişdirmək mümkün olacaq ki, bunun da əhəmiyyətli hissəsini buğda və taxıl təşkil edəcək. Artıq bu ərazilərdə ənənəvi sahələr üzrə yeni təsərrüfatların yaradılmasına da start verilib. Bunlardan biri də aqroparkların qurulmasıdır. Bu məqsədlə, bölgəyə xarici şirkətlərin də sərmayə yatırmasına şərait yaradılır. Zəngilan rayonunda Türkiyə və Azərbaycan şirkətlərinin birgə müəssisəsi olan "Dost Aqropark" adlı "ağıllı kənd təsərrüfatı" kompleksinin açılışı da bundan

xəbər verir. Türkiyə və Azərbaycan prezidentlərinin birgə açılışını etdiyi bu aqropark əsasən heyvandarlıq və əkinçiliklə məşğul olacaq.

İşğaldan azad edilmiş ərazilər bərpaolunan enerji mənbələri ilə də olduqca zəngindir və həmin ərazilərin yerləşdiyi əlverişli coğrafi mövqe bu potensialdan kifayət qədər istifadə etməyə imkan verir. İlkin qiymətləndirmələrə əsasən, işğaldan azad edilmiş ərazilərdə 7 200 MVt-dan çox günəş, 2000 MVt-dək külək enerjisi üzrə potensial mövcuddur. Günəş enerjisi potensialı ilə Füzuli, Cəbrayıl, Zəngilan rayonları, külək enerjisi ilə isə əsasən dağlıq rayonlar olan Laçın, Kəlbəcər rayonları zəngindir. Artıq Cəbrayıl rayonu ərazisində 240 MVt gücündə günəş enerjisi layihəsi üzrə müvafiq İcra Müqaviləsi imzalanıb. Laçın və Kəlbəcər rayonları ərazisində isə 400 MVt gücündə külək elektrik stansiyasının tikintisi layihəsinin həyata keçirilməsi nəzərdə tutulur. Bundan əlavə, ölkə Prezidenti tərəfindən işğaldan azad edilmiş ərazilər də "yaşıl enerji" zonası elan olunub. Bununla əlaqədar olaraq, 6 may 2021-ci ildə Energetika Nazirliyi ilə Yaponiyanın TEPSCO şirkəti arasında imzalanmış müqavilənin icrası çərçivəsində "Yaşıl Enerji Zonası" Konsepsiyası hazırlanıb. Zəngəzur dəhlizi digər infrastruktur layihələrilə yanaşı, enerji növlərinin ixrac edilməsi ilə bağlı da mühüm rola sahib olacaq. Yuxarıda qeyd olunanlara əsasən söyləmək olar ki, yaxın gələcəkdə Qarabağ və Şərqi Zəngəzur bölgəsində turizmin inkişafı yenidən vüsət alacaq, bu bölgələr respublikamızın çiçəklənən bir guşəsinə çevrilməklə respublikamızda əsas turizm destinasıyasına çevriləcəkdir.

Qarabağın "yaşıl" turizm potensialı zəngindir, burada ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar vardır. Bu baxımdan, işğaldan azad edilmiş ərazilərdə turizm sahəsinin inkişaf strategiyası və konsepsiyası hazırlanmışdır. Kəlbəcərdə ənənəvi turizmdən əlavə, qış və sağlamlıq turizminin inkişafı mümkündür. Xocavənd rayonu da xüsusi turizm potensialına malikdir. Məşhur Azıx, Tağlar mağaraları da bu ərazidə yerləşir. Suqovuşanla bağlı da müəyyən planlar mövcuddur. Azərbaycanın qədim tarixə malik olan bu bölgəsi özünün flora və faunası, mətbəxi, tarixi mədəni-dini abidələri, qədim qalaları, körpüləri, meşələri, bulaqları və s. İlə turistləri cəlb edəcək. Təbii ehtiyatlarla zəngin olan Qarabağda həm də müxtəlif növ ekstremal turizm, aqroturizm, yaşıl turizm təşkil etmək olar. Bütün bunlar turizmin inkişafı üçün geniş perspektivlər yaradır. "İstisu" kurortuna üz tutan istər yerli, istərsə də xarici turistlər hava limanlarından istifadə etməklə səyahətlərini daha rahat və asan gerçəkləşdirə biləcəklər. Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verəcək.

Azərbaycan xalqı hazırda tarixi ədalətin bərqərar olduğu xalqla iqtidar arasında qırılmaz tellərin bağlandığı, millətin və dövlətin bir yumruq kimi birləşdiyi bir dövrdə yaşayır. Belə bir

dövrdə Azərbaycanımızın qüdrətini və gücünü daha da artırmaq, milli sərvətlərindən səmərəli istifadə etmək, yeni reallıqlar şəraitində iqtisadi inkişaf və tərəqqi modeli formalaşdırmaq vacib şərtlərdəndir. "İqtisadi olaraq müstəqil olmayan dövlət siyasi olaraq müstəqil ola bilməz" prizmasından hərəkət edən dövlət başçısı ötən illərdə xüsusilə enerji layihələrindən əldə olunan gəlirləri hərbi-strateji hədəflərə, əhalinin sosial rifah halının yüksəltməsinə yönəltdi. Bütün bunlar Azərbaycanın müstəqil siyasət həyata keçirməsinə geniş imkanlar yaratdı.

**Açar sözlər:** Turizm, Qarabağda turizm, yaşıl turizm, Şərqi Zəngəzur və Qarabağ turizmi, turizmin inkişafı.

## Ədəbiyyat

1. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 22 Dekabr, 2021.
2. Bağırov E. (2021), İqtisadiyyatda yeni mərhələ: Qarabağ iqtisadiyyatı dövriyyəyə qayıdır, Azərtac.
3. Bağırov O. (2020), Azad edilmiş ərazilərdə bərpa prosesinin əsas İstiqamətləri, Təhlil, Air Center, 9.
4. Turizm yenilikləri, No.2. Bakı, Turan evi, 2005.

# AZƏRBAYCANDA TURİZM FƏALİYYƏTİ

**Rəqsanə Xəlilova**
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

XXI əsrdə turizm mürəkkəb və çoxşaxəli bir hadisədir ki, bu da həmin sahəyə sürətlə artan marağı göstərir. Bu gün turizm bütöv ölkələrin və ayrı-ayrı regionların inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Turizm - ətrafdakı reallığın dərk edilməsi, mədəni inkişafın, insanların sağlamlığının reabilitasiyası və bərpası üsuludur. Turizm sənayesi isə turistlərin ehtiyaclarını ödəmək üçün fəaliyyət göstərən, məhdud ərazidə cəmləşmiş, müəyyən turizm və rekreasiya ehtiyatlarına malik olan, məqsədyönlü şəkildə formalaşmış müəssisələrin məcmusudur. Turizm sənayesi qlobal iqtisadiyyata güclü təsir göstərir [1]. Turizm sektoru yüksək məşğulluqi, sosial rifahı və yüksək həyat səviyyəsini təmin edən mürəkkəb, gəlirli, dünya iqtisadiyyatının ən sürətlə inkişaf edən seqmentlərindən biridir. Ümumdünya Turizm Təşkilatının məlumatına görə, beynəlxalq turizm qlobal iqtisadiyyatın 10%-ni və orta illik artım

tempinin 4-5%-ni təşkil edən dünyanın ikinci ən böyük iqtisadiyyatına çevrilmişdir**.** Bu gün turizm ölkə iqtisadiyyatına birbaşa təsir göstərir. Azərbaycan inkişaf etməkdə olan ölkə kimi beynəlxalq aləmdə xidmət sektoru ilə tanınmaq üçün turizm sahəsini inkişaf etdirməlidir. Turizm ölkə iqtisadiyyatı üçün çox vacibdir. Çünki, bu, əmək yönümlü bir sahədir və regionlarında işsizliyi azalda bilər.

Qeyd edək ki, postpandemiya dövründə turizm məşğulluğun artımını, mal və xidmətlərin istehsalını, inkişaf edən infrastrukturu və bütövlükdə Azərbaycanın regionlarının inkişafını stimullaşdıran mühüm amil kimi çıxış edərək milli iqtisadiyyatın mühüm tərkib hissəsinə çevrilməlidir. Turizm Azərbaycanın təbii, tarixi və mədəni potensialının qorunub saxlanmasına və inkişafına, beynəlxalq və regionlararası əlaqələrin uyğunlaşdırılmasına böyük təsir göstərir. Ona görə də ölkəmizdə turizm müəssisələrinin fəaliyyəti getdikcə populyarlaşdırılmalıdır. Bu məqsədlə həmin müəssisələrin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi postpandemiya dövründə qarşıya qoyulan əsas tələblərdən olmalıdır. Postpandemiya dövründə turizmin müəssisələrinin səmərəli inkişafı məsələlərinin həlli daxili turizmin inkişafına, Azərbaycan Respublikasına xarici turistlərin axınının və iqtisadiyyata valyuta daxilolmalarının əhəmiyyətli dərəcədə artmasına, eləcə də əhəmiyyətli faktorlar nəzərə alınmaqla müxtəlif səviyyələrdə vergi daxilolmalarının artmasına səbəb olacaqdır. İqtisadi inkişafın indiki mərhələsində ölkənin dünya iqtisadi sistemində iştirakı və ixtisaslaşması həm ənənəvi sahələrdə, həm də yüksək texnologiyalar, informasiya və biliklər iqtisadiyyatı sahələrində müqayisəli üstünlüklər yaratmaqla təmin edilməlidir. Ölkəmizdə turizmin inkişafı ilə bağlı reallaşdırılan dövlət proqramlarında turizmin inkişafını təmin edə biləcək maddi-texniki bazanın yaradılmasına və bu sahədə müasir tələblərə cavab verən sistemin formalaşdırılmasına xüsusi diqqət yetirilir. Bütün bunları nəzərə alaraq, turizm sektorunun imkanlarının genişləndirilməsi, turizm obyektlərinin yenidən qurulması və dünya standartlarına uyğunlaşdırılması, bu sahənin milli və beynəlxalq rəqabətqabiliyyətliliyinin artırılmasına gətirib çıxarar. Turizm hadisə və proseslərə daha tez reaksiya verməklə iqtisadiyyatın ən həssas sahəsi kimi xarakterizə olunur. Turizm yarandığı gündən müxtəlif xəstəliklərin, epidemiyaların və digər mənfi hadisələrin ən güclü zərbələrini yaşayıb. 1997 və 2008-ci illərin qlobal maliyyə böhranı, 2003-cü ilin SARS epidemiyası və digərləri bu sektora mənfi təsirlərini göstərmişdir. Lakin bu hadisələrin heç biri 2019-cu ildə Çində yaranan və 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən elan edilən COVID-19 pandemiyası qədər dağıdıcı olmayıb. Dünya görünməmiş dağıdıcı ağır nəticələrə gətirib çıxaran, qlobal turizmin kəskin azalmasına səbəb olan COVID-19 pandemiyası ilə qarşılaşdı. Həmin ildə pandemiya turizmə və ondan asılı olan milyonlarla insana iqtisadi fəlakət gətirdi**.** Bütün dünyada COVİD-19 pandemiyasının ən çox zərər vurduğu

sahələrdən biri məhz turizmdir. 2019-cu ildə turizmin qlobal ÜDM-də həcmi 8,9 trilyon dollar olub. Bu da qlobal ÜDM-in 10,3%-i deməkdir. Həmin ildə qlobal xidmətlər ixracının 29%-i turizm sektorunun payına düşüb. Bundan başqa, 2019-cu ildə dünyada turizmə 948 milyard dollar investisiya qoyulub ki, bu da ümumi investisiyaların 4,3%-ni təşkil edib. Bu sektorda dünyada 330 milyondan çox iş yeri yaradılıb ki, bu da ümumi məşğulluğun 10%-i deməkdir. Lakin COVİD-19 pandemiyası bütün bu göstəricilərə mənfi təsir göstərərək onların kəskin azalmasına gətirib çıxarmışdır. Ümumdünya Turizm Təşkilatının (ÜTT) məlumatına görə, pandemiya başladığı dövrdən etibarən ilk on ay ərzində beynəlxalq turizmin 72% azalıb ki, bu da həmin sektora 935 milyard dollar zərər verib. Postpandemiya dövründə tez bir zaman ərzində turizm müəssisələrinin gəlirliyini və bununla da rəqabətqabiliyyətliliyini bərpa etmək vacibdir. Buna nail olunması məqsədilə turizm xidmətlərinin əlçatanlığı və bu bu xidmətlərin keyfiyyətinin yüksəldilməsinə ciddi fikir verilməlidir. Pandemiyadan sonrakı dövrdə turizm üçün başqa şərtlər də olacaq. İnsanların müxtəlif psixoloji vəziyyətləri olacaq, səyahətə həvəsi azalacaq. Bu amillər nöqteyi-nəzərindən postpandemiya dövründə turizmin inkişaf tendensiyalarını və mexanizmlərini təkmilləşdirmək istiqamətindəki problemlərin daha səmərəli şəkildə həlli yollarının müəyyənləşdirilməsi vacibdir.

Turizm fəaliyyəti bu sektorda çalışan insanların sosial qarşılıqlı əlaqəsi kimi müəyyən edilir. Turizm fəaliyyəti turizm xidmətlərinin istehsalı və təşviqi ilə məşğul olan çoxlu sayda subyektlərlə xarakterizə olunur [2]. Bazar subyektləri (turizm müəssisələri, assosiasiyalar, turagentlər, turoperatorlar və s.) arasında turizm sənayesinin strateji məqsədlərinə nail olmaq üçün məntiqi əlaqələr qurulur ki, bu da bu fəaliyyət növünün idarə edilməsini tələb edir. Turizm fəaliyyətin səmərəli şəkildə idarə edilməsi onun məqsədlərinin, vəzifələrinin və infrastrukturunun nə dərəcədə düzgün formalaşmasından asılıdır.

**Açar sözlər:** Turizm, ümumi daxili məhsul, turizm məhsulu, infrastuktura, xidmət.

## Ədəbiyyat

1. Bilalov B.Ə., Gülalıyev Ç.G. Turizmin əsasları. QHT Nəşriyyatı, Bakı, 2015.
2. Писаревская Е.Л. Основы туризма. Типография Федерального агентства по туризму, Москва, 2014.

# BEYNƏLXAQ TURİZMDƏ REKLAMIN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

**Nigar Yusifova**
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

Turizm fəaliyyətində məqsədli auditoriyanın vəziyyətindən və digər marketinq kommunikasiyalarından asılı olaraq reklamın məqsədləri fərqli ola bilər. Əsas məqsədləri aşağıdakı kimi formalaşdırmaq olar: 1) firmanın özü və onun xidmətləri haqqında məlumatlılığın yaradılması; 2) şirkət və onun xidmətləri haqqında zəruri və ya əlavə məlumatların verilməsi; 3) konkret şirkətə potensial müştərilərin rəğbətinin formalaşması; 4) reklam edilən xidmətlərə oxşar xidmətlərlə müqayisədə üstünlük yaratmaq; 5) potensial müştərilərdə onun bu xüsusi xidmətin əldə edilməsinin məqsədəuyğun və zəruri olduğuna dair inamının formalaşması; 6) reklam edilən xidmətin alınması üçün stimulun yaradılması.

Makro səviyyədə reklamın əsas məqsədləri: 1) turist axınının cəlb edilməsi üçün bütövlükdə ölkənin və ya onun ayrı-ayrı regionunun turizm məkanı kimi əlverişli imicinin yaradılması və 2) potensial istehlakçını bir çox digər turizm istiqamətləri arasında öz səyahəti üçün konkret ölkənin və ya bölgənin seçiminin təbliğ edilməsi. Makro səviyyədə reklam fəaliyyəti əsasən büdcə vəsaitləri hesabına, xarici bazarda isə milli turizm təşkilatları və assosiasiyaları və onların xaricdəki nümayəndəlikləri tərəfindən həyata keçirilir. Bir çox ölkələrdə məşhur dünya üzə tarixi günlər, müxtəlif tarixi, mədəni və siyasi hadisələrlə bağlı reklam kampaniyaları hazırlanır [1].

Mikro səviyyədə reklam turizm şirkətləri, otellər və turizm sənayesinin digər müəssisələri tərəfindən həyata keçirilir. Onun əsas məqsədi konkret turizm məhsul və xidmətlərinin bazarda tanıdılması, eləcə də ayrı-ayrı turizm sənayesi müəssisələrinin imicinin reklamıdır. Turizm biznesi sahəsində reklam-məlumat kampaniyası iki istiqamətdə aparılır: 1) turizm məhsulunun son istehlakçısı əsasında və 2) turizm məhsulunun formalaşmasında iştirak edən turizm sənayesinin peşəkar işçiləri əsasında. Birinci halda hədəf auditoriyası turizm məhsulunun son istifadəçisi olan turistdir, ikinci halda isə turizm məhsulunun formalaşmasında iştirak edən tərəfdaşlar və turizm sənayesinin nümayəndələridir (hava daşıyıcıları, mehmanxanalar və s.). Reklamın forma və məzmunu da hədəf auditoriyanın xüsusiyyətlərindən asılıdır. Eyni bir turizm məhsulu reklamın ünvanından asılı olaraq müxtəlif formalarda təqdim oluna bilər. Bu gün heç bir xidmət müəssisəsi bu və ya digər formada reklamsız öz biznesini uğurla apara

bilməz. Hər hansı bir məhsul və ya xidmətin satılması üçün, ilk növbədə, bu məhsul və ya xidmət alıcıya tanış olmalıdır və o bu məhsulları almağa ehtiyac hiss etməlidir.

Turizm sahəsində marketinq kommunikasiyalarının əsas vasitələrindən biri kimi reklamın fərqləndirici xüsusiyyətləri həm reklamın xüsusiyyətləri, həm də turizm sənayesinin və onun məhsulunun xüsusiyyətləri ilə müəyyən edilir, yəni: 1) Qeyri-şəxsi xarakter. Rabitə siqnalı potensial müştəriyə şirkət işçisindən şəxsən deyil, vasitəçi (kütləvi informasiya vasitələri, broşuralar, kataloqlar, plakatlar və digər reklam vasitələri) hesabına çatır; 2) Birtərəfli istiqamətin olması. Reklam əslində yalnız bir istiqamətə yönəldilmişdir: reklam sahibindən ünvana (təsir obyektinə) doğru. Əlaqə siqnalları yalnız potensial müştərinin son davranışı - turist məhsulunun alınması və ya rədd edilməsi şəklində baş verir; 3) Səmərənin ölçülməsi baxımından qeyri-müəyyənliyin olması. Bu xüsusiyyət əvvəlkinin məntiqi davamıdır. Reklam fəaliyyətlərində əks əlaqə ehtimallıdır. Turist məhsulunun alınması faktı çox vaxt reklamla birbaşa əlaqəli olmayan, subyektiv olan və praktiki olaraq rəsmiləşdirməyə münasib olmayan çoxsaylı amillərdən asılıdır; 4) İctimai xarakter. Turizm reklamı onun vasitəsilə ötürülən məlumatların etibarlılığına, doğruluğuna və düzgünlüyünə görə xüsusi məsuliyyət daşıyır; 5) İnformasiya bolluğu. Turist xidmətləri maddi formaya və daimi keyfiyyətə malik olan ənənəvi əmtəələrdən fərqli olaraq, informasiya məzmununa və təbliğatına görə reklam funksiyalarının prioritet inkişafına ehtiyac duyulur; 6) Parlaqlıq və inandırıcılıq. Turist xidmətlərinin spesifikliyi turistlərin maraq dairəsində olan obyekt haqqında ən dolğun mənzərəni təmin edən əyani vəsaitlərdən istifadəni zəruri edir [2].

Turizm məhsulunun reklamı turizm xidmətlərinin spesifikliyi ilə müəyyən edilən bir sıra xüsusiyyətlərə malikdir:

1. Turizm xidmətləri ənənəvi əmtəələrdən fərqli olaraq keyfiyyət, dad, faydalılıq kimi daimi xüsusiyyətlərə malik deyil, ona görə də informasiya və təbliğat kimi reklam funksiyalarının prioritet inkişafını tələb edir. Turizm reklamında yuyucu tozların, diş pastalarının və digər məhsulların reklamlarında geniş istifadə olunan müqayisənin tətbiq edilməsi demək olar ki, mümkün deyil. Məsələn, yuma keyfiyyətini şirkət tərəfindən verilən tozun "adi toz" ilə müqayisə edilməsi. Turist xidmətləri “adi” deyil və hər bir turizm marşrutu, kompleksi unikaldır.

2. Turizm xidmətlərinin spesifikliyi turistləri maraqlandıran obyekti daha yaxşı işıqlandıran əyani vəsaitlərdən istifadəni zəruri edir. Məhz turizmdə reklam “yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır” prinsipinə uyğun olmalıdır. Məsələn, reklam edilən sanatoriyanın yüksək keyfiyyətli fotoşəkili, eyni sanatoriya haqqındakı ən bəlağətli hekayədən

daha çox tamaşaçıya emosional təsir göstərməyə qadirdir. Buna görə də, foto, video və digər multimedia vasitələrindən istifadə olunmalıdır.

3. Turizmdə istehlakçılara rəqibləri ilə müqayisədə müəyyən fayda və üstünlüklər vəd edən təkliflər, ilk növbədə iqtisadi xarakter daşıyan reklam öz məqsədinə nail olur. Reklam sayəsində potensial istehlakçı məhz bu şirkət onun maliyyə vəsaitlərinə qənaət edəcəyinə və səyahət xidmətlərindən maksimum həzz almasına imkan verəcəyinə inanmalıdır.

**Açar sözlər:** Beynəlxalq turizm, reklam, turizm məhsulu, vasitəcilik, xidmət.

**Ədəbiyyat**

1. Bilalov B.Ə., Gülalıyev Ç.G. Turizmin əsasları. QHT Nəşriyyatı, Bakı, 2015.
2. Писаревская Е.Л. Основы туризма. Типография Федерального агентства по туризму, Москва, 2014.

## AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFININ AKTUAL MƏSƏLƏLƏRİ

**Abduləli Zamanlı**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
abdulelizamanli786@gmail.com

Azərbaycanda turizmin inkişafı ilə bağlı bir çox aktual məsələlər mövcuddur. Bu məsələlər arasında infrastrukturun inkişafı, turizm obyektlərinin təkmilləşdirilməsi, turizm layihələrinin təşviqi, turizm işçilərinin təlimi və s. sayıla bilər. Turizm sektorunun sürətli inkişafı ölkənin beynəlxalq arenada tanıdılmasına və iqtisadiyyatın çeşidlənməsinə böyük töhfə verir. Turizmin inkişafının Azərbaycan üçün əhəmiyyətli bir məsələ olduğu bir dəqiqlikdir. Ölkənin bədii coğrafi mövqeyi, zəngin mədəni irsi və təbii gözəllikləri, turistlərin diqqətini cəlb etmək üçün böyük potensiala malikdir. Turizm sektoru Azərbaycanın beynəlxalq əlaqələrini gücləndirmək, yerli ictimaiyyətin iqtisadiyyatına dəstək vermək və bölgədəki sülh və əməkdaşlığı təşviq etmək üçün də bir imkan təşkil edir. Bu məqamda, turizm sektorunun inkişafında mövcud məsələlər və perspektivlər önəmli rol oynayır.

Bu baxımdan, turizmin inkişafında əsas məqsədlərdən biri turizm infrastrukturunun genişləndirilməsi və yaxşılaşdırılmasıdır. Bununla birlikdə, turizm məkanlarının keyfiyyətinin artırılması, təbii və tarixi gözəlliklərin qorunması, turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi də vacibdir. Bundan əlavə, yerli turizm işçilərinin təlimi və turizm sahəsində

peşəkarlaşma da daimi fokus halında olmalıdır. Bu amillər birgə, Azərbaycanın turizm potensialının tam olaraq icra edilməsinə və ölkənin beynəlxalq arenada konkurentliyinin artırılmasına kömək edir [7].

Azərbaycanda turizm son illərdə sürətlə inkişafı etməkdədir. Turizm potensialı ilə tanınan Azərbaycan, dünya səyahət bazarında daha çox diqqət mərkəzindədir. Özəlliklə, Bakı şəhəri səyahətçilərin diqqət mərkəzindədir və son illərdə bir çox yeni turistik obyektlər və infrastruktur layihələri inkişaf etmişdir. Bununla birlikdə, turizmin inkişafında daha çox investisiya, turizm infrastrukturunun genişləndirilməsi, turizm xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması və turizm mərkəzlərinin çeşidlənməsi ilə bağlı əlavə addımlar atılması önəmli olacaqdır.

Azərbaycan, zəngin təbii və mədəni varlıqları ilə turizm potensialına malikdir. Bu potensialın effektiv şəkildə idarə olunması və təbii mühafizənin təmin edilməsi turizmin inkişafında əsas rol oynayır. Ekoloji müəssisələrin təbii mühafizəsi, bu sahədə əhəmiyyətli bir məsələdir. Azərbaycan, dağlar, göllər, dənizlər və bioloji çeşidlilik kimi təbii gözəlliklərə sahibdir. Bu əlaqədar mühit, turistlərin marağını cəlb etmək üçün böyük potensiala malikdir. Ancaq, bu məkanların qorunması və təbii mühafizəsi, turizm fəaliyyətləri ilə uyğunluqda təmin edilməlidir.

Ekoloji müəssisələrin təbii mühafizəsi, təbii mühitlərin sürətli inkişafına sadiq olmalıdır. Bu, bioloji çeşidliliyin qorunması, mühafizə olunan ərazilərin monitorinqi, təbii sərvətlərin qanuniləşdirilməsi və təhlükəsizliyin təmin edilməsi deməkdir. Turizm sektorunun inkişafı zamanı, ekoloji müəssisələrin təbii mühafizəsi üçün müvafiq qaydaların və nizamların qurulması vacibdir. Bu, turizm fəaliyyətlərinin mühafizə altında olan ərazilərdə düzgün planlaşdırılması və təbii gözəlliklərin qorunmasını təmin edir [3].

Turizmin inkişafında əsas məsələlərdən biri turizm məhsullarının və təkliflərinin çeşidlənməsidir. Azərbaycanın mövcud turistik potensialını daha çox qiymətləndirmək üçün yaşıl turizmi, mədəni turizm, sağlamlıq turizmi və macəra turizmi kimi sahələrə daha çox diqqət ayırmaq lazımdır. Bundan əlavə, turistlər üçün rahat və əlverişli mühit yaratmaq, nəqliyyat infrastrukturunu genişləndirmək, mədəni və təriqqi turizmi üçün daha çox imkan yaratmaq da vacibdir. Turizm sektorunun digər sahələri ilə daha sıx əlaqələndirilməsi və turizm xidmətlərinin standartlaşdırılması da turizmin inkişafında əhəmiyyətli rol oynayır.

Turizmin inkişafında bir digər əsas məsələ, məlumat və tanıtımın effektiv şəkildə aparılmasıdır. Azərbaycanın turizm potensialı dünya səyahət bazarında daha çox tanıdılmalıdır. Bu məqsədlə, turizm tanıtımı və reklam kampaniyalarına daha böyük diqqət ayrılmalıdır. Həm də turizm işçilərinin, otellərin və digər turizm təşkilatlarının beynəlxalq standartlara cavab

verən təlimlər və sertifikat proqramları ilə təmin edilməsi vacibdir. Bütün bu addımlar, Azərbaycanın turizm səktorunun rekord inkişaf etməsində əhəmiyyətli bir rol oynaya bilər.

Turizmin inkişafında Azərbaycanın əsas prioritetlərindən biri, turizm məhsullarının və təkliflərinin çeşidlənməsidir. Bu fikirləri Azərbaycan Turizm Agentliyinin 2021-ci il üçün hazırladığı "Turizm İnkişafı Üzrə Dövlət Proqramı" da dəstəkləyir. Məsələn, yaşıl turizmi üçün Azərbaycanın mənzərəli dağları, gölləri və milli parkları daha çox turistin marağına səbəb ola bilər. Həmçinin, mədəni turizm üçün tarixi abidələr, muzeylər və mədəni məkanlar turistləri cəlb edən potensiala malikdir [5].

Bununla birlikdə, turizm sektorunun inkişafında ən əsas amillərdən biri, turizm təşkilatlarının və səyahət agentliklərinin beynəlxalq standartlara cavab verən təlimlər və sertifikat proqramları ilə təmin edilməsidir. Bu, turizm işçilərinin müştərilərə yüksək səviyyədə xidmət təqdim etmələrinə və turizm sektorunun keyfiyyətli inkişafına kömək edir. Bununla bağlı olaraq, Azərbaycan Turizm Təşkilatı və digər dövlət və özəl sektor təşkilatları tərəfindən təşkil edilən təlim proqramları və sertifikatlar vasitəsilə turizm sektorunda işləyən şəxslərə daha yaxşı vəziyyət təmin edilməlidir.

Turizmin inkişafında mühüm bir məsələ də təhlükəsizlik və sürətli müdafiədir. Bu, turistlərin səyahət etdikləri zaman təhlükəsiz hiss etmələri üçün vacibdir. Bu məsələdə, Azərbaycanın turistik məkanları və şəhərləri üçün təhlükəsizlik tədbirlərinin və turistlərin müdafiəsi üçün tədbirlərin təşkil edilməsi əhəmiyyətli bir rola malikdir. Bütün bu addımların cəmləşdirilməsi, Azərbaycanın turizm sektorunun daha da inkişaf etməsinə və dünya səyahət bazarında daha çox tanınmasına kömək edəcəkdir.

Turizm sektorunun inkişafında mühüm bir məsələ də sürətli internet və kommunikasiya infrastrukturunun təmin edilməsidir. Turistlər artıq səyahət zamanı internetə daha çox ehtiyac duyurlar, buna görə də Wi-Fi xidmətlərinin, əlaqələndirmə və telefon kateqoriyalarının genişləndirilməsi səyahətçilərin rahatlığı üçün önəmlidir. Bu məsələdə dövlət və özəl sektor tərəfindən əməkdaşlığın artırılması və kommunikasiya infrastrukturunun gücləndirilməsi turizmin inkişafını dəstəkləyəcəkdir.

Əlavə olaraq, turizm mərkəzlərinin və turistik obyektlərin sürətli və səmərəli bir şəkildə inkişaf etməsi üçün səyahət təşkilatlarının və dövlət qurumlarının birlikdə çalışması vacibdir. Bu, mədəni və tərəqqi mirasın qorunmasını və işlənilməsini, ətraf mühitə diqqət və turizm mərkəzlərinin nizamlanmasını təmin edəcəkdir. Bütün bu addımların bir araya gəlməsi, Azərbaycanın turizm potensialını tam olaraq işləməsinə və səyahətçilərin genişlənmiş və rahat təcrübə qazanmasına yardım edəcəkdir.

Turizmin inkişafında bir digər mühüm məsələ, sürətli və effektiv viza proseslərinin təşkil edilməsidir. Azərbaycanın viza rejimi genişləndirilərək, daha çox ölkədən turistlərin rahat səyahət etməsi təmin edilə bilər. Əlavə olaraq, səyahət agentliklərinə və turistlərə viza müraciətləri üçün dəstək və məsləhət təqdim edən online platformaların yaradılması və təşviqi də səyahətçilərin viza proseslərinin daha sürətli və əlverişli olmasına kömək edəcəkdir.

Turizm sektorunun inkişafında mühüm bir digər aspekt, sürətli texnoloji inkişaf və innovativ yanaşmadır. Bu, turizm sektorunda səyahət təcrübəsinin təkmilləşdirilməsi və turistlərin daha yaxşı xidmət almasına kömək edir. Məsələn, smart turizm həlləri, mobil tətbiqlər, səyahət agentlikləri və otellər üçün veb saytlar və sürətli rezervasiya sistemləri, turizm sektorunda səyahətçilərin təcrübəsini artırmaq və daha çox səyahətçini çəkmək üçün əhəmiyyətli rol oynayır.

**Açar sözlər:** Turizm potensialı, infrastruktur, tanıtım, ekologiya, təhlükəsizlik, texnoloji inkişaf, sürətli internet.

### Ədəbiyyat

1. Azərbaycan Turizm Strategiyası (2020-2030).
2. Azərbaycan Turizm Agentliyinin Turizm İnkişafı Üzrə Dövlət Proqramı (2021).
3. Guliyev, R. (2019). Azərbaycan Turizminin Gələcəyi: İnfrastrukturun İnkişafı və Tanıtımın Rolu.
4. Azərbaycan Turizm Nazirliyi, www.tourism.gov.az

## TURİZM FƏALİYYƏTİNİN AKTUAL MƏSƏLƏLƏRİ

**Ellada Zərgərova**
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
zrgrovaellada@gmail.com

Turizm sektoru kifayət qədər həssas sahədir, yəni ölkələrarası və daxili proseslər, təbii fəlakətlər, müharibələr, iqtisadi böhranlar və s. turist axınlarının həcminə və istiqamətinə xeyli dərəcədə təsir göstərə bilir. Bununla belə, turizm həm də kifayət qədər cəlbedici sahədir, çünki özünün turizm potensialından düzgün yararlanan və onu beynəlxalq miqyasda təbliğ edən, özünün müsbət imicini formalaşdıra bilən ölkələr qısa müddətdə bu sahədən böyük həcmdə gəlir əldə edir. Xarici turist axını ölkə iqtisadiyyatına külli miqdarda maliyyənin cəlb olunması, daxili turizmin inkişafı isə maliyyə vəsaitlərinin ölkənin müxtəlif regionları arasında daha geniş

paylanması, regionlarda iş yerlərinin artması, iqtisadi münasibətlərin canlanması deməkdir. Azərbaycan geniş turizm imkanlarına malikdir. İqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın azaldılması siyasətinin həyata keçirildiyi Azərbaycanda turizmin inkişafı böyük perspektivlər vəd edir. Ölkəmizdə turizmin bir çox sahələrinin inkişafı üçün geniş resurslar mövcuddur [1].

Qeyd etmək yerinə düşər ki, Azərbaycan çox nadir təbii, mədəni, milli, etnoqrafik obyektlər kompleksinə malikdir. Əlverişli coğrafi mövqeyi, doqquz iqlim qurşağı, flora və faunasının müxtəlifliyi və zənginliyi, dəniz sahilində yerləşməsi, mədəni-tarixi irsi, ləziz mətbəxi, yüksək qonaqpərvərlik ənənələri ölkəmizdə turizmin inkişafı üçün böyük perspektivlər açır. Azərbaycanda turizm sahəsində mövcud olan geniş imkanlar ölkəmizin bir sıra beynəlxalq təşkilatlarla turizmin inkişafı istiqamətində əməkdaşlıq etməsinə şərait yaradır [2].

Turizm bazarının formalaşmasında 4 əsas element - turist tələbi, turizm məhsulunun təklifi, qiymətlər və rəqabət mühüm rol oynayır. Turizm bazarı ölkədə turizmin inkişafını əks etdirən əsas göstərici hesab olunur. Azərbaycanda turizm bazarının müasir durumu onun təşkilati strukturunda, inkişafının istiqamətləndirilməsində, keyfiyyət və kəmiyyətcə səciyyəsində təzadlarla xarakterizə olunur. Azərbaycanda turizm bazarının inkişafı məqsədilə aşağıda göstərilənlərin həyata keçirilməsi mühüm şərtlərdir:

- Turizm bazarını formalaşdıran amillərin qiymətləndirilməsivə bu amillərdən səmərəli istifadə olunması;
- Turizm sektoruna yatırımın qoyulmasında müxtəlif istiqamətlərin seçilməsi;
- Turizm bazarında mühüm obyekt olan məhsulun keyfiyyətinin yüksəldilməsi;
- Turizm bazarında xidmətin səviyyəsinin yüksəldilməsi;
- Turizm bazarının təşkilatçılarının fəaliyyətinin səmərəli təşkili və s. [3].

Turizm və sosial - mədəni servis müəssisələri qarşısında duran əsas vəzifə məhsulun qiymətinin düzgün müəyyən edilməsidir. Qiymətin düzgün müəyyən edilməsi müəssisənin maliyyə nəticələrinin yüksəlməsinə və kütləvi turizmin inkişafına əlverişli şərait yaradır. Qiymətin təyin edilməsində 2 üsuldan istifadə olunur: birincisi, xərclər əsasında qiymətqoyma, ikincisi isə bazar və ya marketinq üsuludur. Xərclər əsasında qiymətqoyma sadə üsuldur və bu zaman məhsulun maya dəyərinin üzərinə nəzərdə tutulmuş mənfəətin qiyməti əlavə olunur. Bazar və ya marketinq üsulunun tətbiqi daha məqsədəuyğundur. Çünki, bu zaman bazar öyrənilir. Belə ki, məhsul istehlakçıları, rəqib təşkilatlar, tələbatın təhlili aparılır.

Hər bir turizm şirkəti fəaliyyətini əvvəlcədən hazırladığı biznes plan əsasında qurur. Biznes plam şirkətin fəaliyyət mexanizmidir. Biznes planm tərkibinə şirkətin bazarda rəqabət mövqeyi, satış kanalları ilə razılaşma sənədi, hüquqi təminatı və maliyyə planı daxildir. Maliyyə planında hər bir turizm müəssisəsinin ödəməli olduğu vergi göstəriciləri öz əksini tapır. Bu göstəricilər aşağıdakı kimidir:

• gəlir vergisi - 22,0 %

• əlavə dəyər vergisi (ƏDV) - 18,0%

• əmlak vergisi - 2,0 %

• nəqliyyat vergisi - 7 -10,0%

• sosial sığorta fonduna verilən vergi - 2,3 % [3].

Turizmi marketinqsiz təsəvvür etmək mümkün deyil. Çünki, turizm bazarı rəqabət mühitində formalaşır və inkişaf edir. Bu bazarda tələbatın müəyyən edilməsi vacib şərtdir. Tələbatın dəyişkənliyi isə marketinq mexanizminin hazırlanmasına istiqamət verən əsas amil hesab olunur. Turizmdə marketinq mexanizminin əsas mahiyyəti turizm müəssisələrinin məhsul və xidmətləri öz imkan və istəklərinə uyğun yox, yalnız alıcının tələbatına uyğun istehsal etməli və bu məhsulu hamıya yox, ancaq ayrı-ayrı turist seqmentinə istiqamətləndirməlidir [3].

Azərbaycanda daxili turizmin inkişafinda ekoloji problemlərin yaranması müasir dövrdə aktual problemlərdən sayıla bilər. Son illərdə bölgələrdə kütləvi turizm hərəkatının genişlənməsi, yeni istirahət mərkəzlərinin tikilməsi, dağlıq və dağətəyi, meşəlik ərazilərdə turizm yükünün artması ətraf mühitin qorunmasını aktuallaşdırır. Ölkədə daxili turizmin son illər sürətli inkişafi ətraf mühitə təsiri artirmişdır.Bu təsir regionlar üzrə müxtəlif olmaqla, əsasən dağlıq və dağətəyi bölgələri daha çox əhatə etmişdir. Tədqiqatlar göstərir ki, ölkənin daxili turizm bazarında Quba-Xaçmaz, Şəki-Zaqatala, Dağlıq Şirvan bölgələri daha intensiv mənimsənilmişdir. Bununla yanaşi Xəzər dənizinin sahilləri yay mövsümü dövründə ölkə vətəndaşlarımın istifadə etdiyi ərazilərdən sayılır.

Azərbaycanda rekreasiya yükü meşə, meşə-çöl, dəniz sahili ərazilər üçün daha çox mənimsənilmişdir. Turizm baxımdan daha çox istifadə olunan bölgələrdə əsasən meşələr, iqlim komfortluğu, dəniz sahili mövqe və digər təbii amillərə daha çox üstünlük verilir. Ölkədə turizm baxımından ən çox yüklənmə Xəzər sahillərində, alçaq dağliq ərazilər və meşə landşaftı üstünlük təşkil edir. Belə ki, Xəzərin Nabran Yalama, Abşeronun şimali ənənəvi turizm-istirahət mərkəzləri olduqlarina görə rekreasiya yükü çoxdur. Aparılmış tədqiqatlara görə mövsüm dövründo Nabran Yalama sahillərində 5-8 kv.m. çimərlik sahəsi, 2-3 kv.m.-ə qədər meşəlik düşür. Əgər Xəzərsahili bölgədə çimərliklərin yüklənmə səviyyəsinin 8-15 kv.m.,

həmçinin hər nəfərə düşən meşəlik sahəsinin 20 kv.m.-dən çox olmasını nəzərə alsaq Nabran Yalama sahillərində turizm yükü normadan yüksəkdir [4].

Abşeronun şimal sahillərində, qismən Lənkəranın Xəzər sahili çimərliklərində və sahildən 5-10 km daxilə doğru olan ərazilər turizm baxımdan daha çox mənimsənilmiş və rekreasiya yüklənməsi çoxdur. Turizm yükü qeyd olunan ərazidə ekoloji tarazlığın pozulmasına, meşə örtüyünün azalmasına səbəb olur. Onu da qeyd edək ki, Nabran-Yalama turizm bölgəsində mərkəzləşdirilmiş kanalizasiya sisteminin olmaması, məişət tullantılarının təkrar emalının aparılmaması ətraf mühitə daha çox ziyan vurur. Buna görə də mövcud istirahət mərkəzlərində xidmətin səviyyəsinin yüksəldilməsi, qiymətlərin tənzimlənməsi, ekoloji şəraitin və rekreasiya yükünün nəzərə alınması vacibdir. Qeyd olunan amillərin nəzərə alınması müvafiq icra hakimiyyəti və yerli bələdiyyə orqanları istirahət mərkəzlərində tikintiyə nəzarət etməli, ətraf mühitə dəyən ziyana görə cərimələrin miqdarı artırılmalı, əhali və turistlər arasında ətraf mühitlə bağlı maarifləmə işi aparılmalıdır. Onu da qeyd edək ki, dünyanın məşhur milli parklarında turistlərin ondan istifadə qaydası, məişət tullantılarının toplandığı qutular, dincəlmək üçün yerlər ayrılır ki, bu da ətraf mühitin qorunmasına şərait yaradır. Bununla yanaşırekreasiya yükünün tədricən az mənimsənilmiş kənd təsərrüfatının istifadəsindən çıxarılmış ərazilərə yönəldilməsi vacibdir. Belə ki, Abşeronun cənub sahilləri, Şabran-Giləzi zonası, Kürdili rayonu, həmçinin dağətəyi bölgələrdə istirahət mərkəzləri yaratmaq mümkündür ki, bu da rekreasiya yükünü azaltmış olar [4].

**Açar sözlər:** Turizm sektoru, turizm perspektivləri, məhsul qiyməti, marketinq, ekoloji problemlər, rekreasiya yükü, maarifləmə.

## Ədəbiyyat

1. Zahid İmanoğlu, Azərbaycan turizmi: Mövcud vəziyyət və perspektiv imkanların dəyərləndirilməsi zərurəti.
2. Səlim Loğmanoğlu, Yeni Azərbaycan, 24.02.2011.
3. Həbibə Soltanova, Azərbaycan Respublikasında Turizm və onun inkişafı.
4. Süleymanov Elvin Natiq oğlu, Azərbaycanda turizmin inkişafının sosial-iqtisadi rolu.